**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Sumqayıt Dövlət Universiteti**

**Rüstəm Əhmədov**

# TÜRK XALQLARININ TARİXİ

## (XIII-XX əsrin əvvəlləri)

**Sumqayıt – 2013**

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Sumqayıt Dövlət Universiteti**

**Əhmədov Rüstəm Vəli oğlu**

# Türk xalqlarının tarixi

## (XIII-XX əsrin əvvəlləri)

**DƏRS VƏSAİTİ**

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 144№-li, 10.02.2014-cü il tarixli əmri əsasında nəşr olunur.**

**Sumqayıt -2013**

## MÜNDƏRICAT

**GIRIŞ** ……………………………………………….……………………7

## I HISSƏ

## MƏRKƏZI ASIYA VƏ QAZAXISTANIN TÜRK XALQLARI

## I FƏSIL

## XIII-XX əsrin əvvəllərində Mərkəzi Asiyanın sosial-iqtisadi və siyasi vəziyyəti

§1 Monqollar və türklər.........................................................................9
§2 Qızıl Orda dövləti ...........................................................................11
§3 Teymurilər dövləti.............................................................................13
§4 Şeybanilər dövləti ............................................................................16
§5 Özbək xanlığı ...................................................................................19
§6 Qaraqalpaqlar ...................................................................................20
§7 Qırğızlar ...........................................................................................22
§8 Mərkəzi Asiya xalqlarının iqtisadiyyatı (XVII-XVIII əsr) ...............23
§9 Türkmənlər .......................................................................................26
§10 Uyğurlar .........................................................................................27
§11 Kokand xanlığı.................................................................................31
§12 Buxara xanlığı ................................................................................36
§13 Buxara kapitalizm dövründə ...........................................................40
§14 Rusiya tərəfindən Xivənin işğalı .....................................................47
§15 Rusiyanın Türkmənistanda yaratdığı inzibati idarə sistemi ...........52

## II FƏSIL

## Qazaxıstan XIII-XX əsrin əvvəllərində


§1 Qazax xanlığı ..........................................................................................56

§2 Rusiya tərəfindən Qazaxıstanın işğalının başlanmasının I mərhələsi ........................................................................................................................59

§3 XIX əsrin I yarısında Qazaxıstanın iqtisadi və siyasi vəziyyəti........65

§4 Qazaxıstan Kokand xanlığının hakimiyyəti altında ..........................70

§5 XIX əsrin II yarısında Rusiya tərəfindən Qazaxıstanın işğalının başa çatması ..........................................................................................................72

§6 Çarizmin Qazaxıstanda inzibati-idarə islahatı ..................................76

§7 Qazaxıstanda çarizmin müstəmləkə rejiminə qarşı üsyanlar ............78


## III FƏSIL

## Mərkəzi Asiya və Qazaxıstan xalqlarının mədəniyyəti

## (XIII-XX əsrin əvvəlləri)


§1 Maarif, elm, incəsənət ......................................................................80

§2 Qırğız mədəniyyəti ...........................................................................86

§3 Özbək mədəniyyəti ...........................................................................88

§4 Qazax mədəniyyəti ...........................................................................93

§5 Türkmən mədəniyyəti ......................................................................115

§6 Qaraqalpaq mədəniyyəti .................................................................120

## II HISSƏ

## Volqaboyu, Krım və Sibirin türk xalqları (XIII-XX əsrin əvvəlləri)

### I FƏSIL

### Volqaboyu türk xalqları (XIII-XX əsrin əvvəlləri)

§1 Bulqarlar ....................................................................................120

§2 Qazan xanlığı ...............................................................................123

§3 Həştərxan xanlığı .........................................................................125

§4 Çuvaşiya ........................................................................................126

§5 Tatarlar ..........................................................................................140

§6 Başqırdlar ......................................................................................151

### II FƏSIL

### Krım XIII-XX əsrin əvvəllərində

§1 Krım xanlığı ..................................................................................165

§2 Krım türkləri XVII-XIX əsrin birinci yarısında ............................167

§3 Krım XIX əsrin II yarısı-XX əsrin əvvəlləri ..................................176

§4 Krım XX əsrin əvvəllərində .........................................................185

§5 1917-ci il Fevral inqilabından əvvəl iqtisadi vəziyyət ...................188

### III FƏSIL

### Sibir XIII-XX əsrin əvvəllərində

§1 Sibir xanlığı ...................................................................................191

§2 Rusiyanın Sibirdə ekspansiyası (XVII-XVIII əsrin) ......................193

§3 Şərqi-Sibir xal204qları (yakutlar, evenklər) ..................................203

§4 Şimal-Şərqi Sibir xalqları (itilmenlər, koryaklar və çukçalar) ......204

§5 Amurətraflı, Saxalin və Kuril adaları xalqları (nivxilər, nanaylar, aynılar) ...........................................................................................205

§6 Rusiyanın Sibirdə işğalçılıq siyasəti (XV-XVII əsrlərdə) ..............206
§7 Sibir XIX-XX əsrin əvvvəllərində .................................................207

## IV FƏSIL

## Volqaboyu, Krım və Sibir xalqlarının mədəniyyəti

§1 Başqırd mədəniyyəti XVII-XVIII əsrlərdə......................................218
§2 XIX əsrin birinci yarısında Başqırdıstanın mədəniyyəti .................223
§3 XIX əsrin ikinci yarısında Başqırdıstanın mədəniyyəti ..................232
§4 Çuvaşiya mədəniyyəti ....................................................................242
§5 Tatarıstan mədəniyyəti ...................................................................249
§6 Krım mədəniyyəti ...........................................................................255
§7 Sibir türklərinin mədəniyyəti .........................................................261

## III HISSƏ

## Kiçik Asiya türkləri XIII-XX əsrin əvvəllərində

## I FƏSIL

## Osmanlı dövlətinin siyasi, ictimai-iqtisadi və mədəni həyatı

§1 Siyasi həyat ...................................................................................264
§2 Ictimai-iqtisadi həyat ....................................................................278
§3 Elmi-mədəni həyat .........................................................................282
Nəticə.................................................................................................284
Ədəbiyyat...........................................................................................286

# GIRIŞ

Qədim zamanlardan müasir dövrümüzə qədər öz varlığını qoruyub saxlayan türk xalqları, tarixin keşməkeşli burulğanlarına baxmayaraq, yenə də öz əvvəlki yurd yerlərində yaşamaqda davam edir. Bu yurd yerləri Uzaq Şərqdən başlayaraq Volqaya qədər uzanan böyük Sibir torpaqlarını, Volqaboyunu, Qara dənizin Şimal sahillərini, Balkanları, Şimali və Cənubi Qafqazı, Ön Asiyanı, Kiçik Asiyanı, Mərkəzi Asiyanı, Qazaxıstan və Altay ərazilərini əhatə etmişdi. Hal-hazırda da Azərbaycan türklərinin, türkmənlərin, qırğızların, özbəklərin, başqrdların, çuvaşların, tatarların, xakasların, tuvalıların, Altay türklərinin, Anadolu və ya Kiçik Asiya türklərinin ictimai-siyasi və mədəni səviyyədə güclü inkişafı, bu xalqların qeyd etdiyimiz ərazilərə qədim dövrdən bağlılığını göstərir. Onlar qədim türk ellərinin qədim sakinləri olmaqlarını təcavüzkar dövlətlərə qarşı apardıqları mübarizələri ilə dəfələrlə sübut etmişlər. Müəyyən zaman kəsiyində onlardan asılı olsalar da, yenə öz yurdlarını tərk etməmiş, öz adət-ənənəsini, maddi və mənəvi mədəniyyətini qoruyub saxlamışlar. Bütün bunların toplanıb dərs vəsaiti şəklində hazırlanması məqsədəuyğundur.

Dərs vəsaiti 3 hissədən ibarətdir. Birinci hissə "Mərkəzi Asiya və Qazaxıstanın türk xalqları" adlanmaqla 3 fəslə, ikinci hissə "Volqaboyu, Krım və Sibirin türk xalqları" adlanmaqla 4 fəslə, üçüncü hissə isə "Kiçik Asiya türkləri XIII-XX əsrin əvvəllərində" adlanmaqla 1 fəslə bölünürlər. Hər fəsil də öz növbəsində paraqraflara ayrılır.

Dərs vəsaitinin işlənməsində bir çox müəlliflərin tədqiqat əsərlərinə, monoqrafiyalarına müraciət olunmuşdur: M.A.Abduraimov «Очерки аграрных отношений в Бухарском ханстве», D.A.Aytmambetov «Культура кыргызского народа во второй половине XIX и начале XX века». M.Q.Apolloba «Присоединение

Казахстана к России в 30-годах XVIII века», «Вопросы истории Казахстана XIX – начала XX в.в.», «Вопросы истории Чувашии XIX-началe XX в.в.», N.S.Mehdiyeva «Türk xalqlarının tarixinə dair materiallar», Ə.Muxtarova «Türk xalqlarının tarixi», N.Devlet «Rusiya türklərinin milli mücadile tarixi 1905-1917».

XIX və XX əsrin əvvəlləri tarixinə həsr olunmuş tədqiqat əsərlərində əsasən Rusiyada kapitalizmin inkişaf tarixi və bu ictimai quruluşda türk xalqlarının sosial-iqtisadi həyatında baş verən böyük dəyişikliklər ön plana çəkilmişdi. Çünki türk xalqları yaşayan ərazilərin Rusiya sənayesi üçün bir xammal mənbəyi olması aydın idi. Azərbaycan həm də ümumi türk xalqlarının mərkəz regionunda yerləşdiyinə görə Rusiya üçün strateji əhəmiyyət daşıyırdı. Rusiya XVIII-XIX əsrlərdə Iran və Türkiyə ilə apardığı müharibələr nəticəsində bütövlükdə Qafqazın türk xalqlarının, eləcə də burada yaşayan digər Qafqaz xalqlarının ərazilərini işğal etmiş və həmin xalqları imperiya qanunları ilə idarə etməyə başlamışdı. Rusiya Volqaboyu, Krım, Sibir, Mərkəzi Asiyanı özünə tabe etmişdi.

Türk xalqlarının yaşadığı bu ərazilər Rusiyanın ağır və yüngül sənaye sahələrini əsaslı şəkildə xammalla təmin edirdi. Təsadüfi deyil ki, Rusiyanın mərkəz rayonlarında feodal-təhkimçilik münasibətləri qaldığı halda Krımda kapitalist təsərrüfat sisteminə keçilmişdi. Muzdlu əməkdən istifadə sənaye sahələri ilə yanaşı kənd təsərrüfatı sahələrində də geniş istifadə olunurdu. Bütün bu faktlar göstərir ki, türk xalqları imperiya əsarətində qalmağına baxmayaraq, kapitalizm mərhələsini əsaslı surətdə keçmişdi və bir millət kimi formalaşmışdı. Türk xalqlarının tarixinin öyrənilməsi müasir dövrün tələblərinə cavab verməklə, böyük aktuallıq kəsb edir.

# I HISSƏ
# MƏRKƏZI ASIYA VƏ QAZAXISTANIN TÜRK XALQLARI
## I FƏSIL
## XIII-XX əsrin əvvəllərində Mərkəzi Asiyanın sosial iqtisadi və siyasi vəziyyəti

### *§1 Monqollar və türklər*

XIII əsrin tarixində ciddi dəyişikliklərin baş verməsi monqolların siyasi səhnəyə çıxması ilə bilavasitə bağlıdır. 1206-cı ildə Onon qurultayında Çingiz bütün monqol tayfalarının xanı seçildikdən sonra monqollar geniş işğallara başladılar. Çin, Mərkəzi Asiya, Iran və Cənubi Qafqaz onların hücumlarına məruz qaldılar. Çingiz xanın böyük oğlu Cuci 1207-1211-ci illərdə Sibir və Şərqi Türküstanda yaşayan qırğızları, merkitləri, bunyakları və uyğurları itaət altına aldılar. 1211-1215-ci illərdə monqollar Pekin şəhərini ələ keçirməklə Şimali Çinə sahib oldular.

1218-ci ildə Xarəzmşahlar dövlətinin idarəçiliyində olan Otrar şəhərində Çingiz xana məxsus ticarət karvanının qarət olunması monqolların xarəzmşahlar dövləti ilə müharibəsinə səbəb oldu. 1219-1221-ci illər ərzində Xarəzmşahların bütün əraziləri zəbt edildi., dövlət özü isə süqut etdi. Işğal edilən ərazilərdə, xüsusilə də türk gəncləri orduya alınır və aparılan bütün döyüşlərdə iştirak edirdilər. Monqollar Orta Asiyanın işğalını başa çatdırdıqdan sonra Iranın Şimal əyalətlərini ələ keçirdilər və 1220-ci ildə Cənubi Qafqaza soxuldular. 1222-ci ildə isə Dərbənd yolu ilə Şimali Qafqaza, Dəşti-Qıpçağa keçdilər. Burada onlar alan-qıpçaq tayfalarını məğlub edib. Volqa çayı boyunda yerləşən Bulqar

türk dövlətinin ərazisinə gəldilər. Lakin bulqarlar tərəfindən məğlub olub Qaraqoruma qayıtdılar. Çingiz xan türk tayfalarının da yaşaydığı və məskun olduğu Şərqi Avropanın işğalını böyük oğlu Cuçiyə tapşırsa da, lakin o atası tərəfindən 1227-ci ildə gizlicə öldürülür. Həmin ildə Çingiz xan da ölür. Imperiyanın böyük xaqanı Çingizin 3-cü oğlu Ugedey (1229-1241) seçilir.

Çingiz xan sağlığında imperiyanın ərazilərini 4 oğlu arasında bölüşdürmüşdü. Bu inzibati ərazilər uluslar adlanırdı. Sonralar bu uluslarda əsasən müstəqil türk dövlətləri yaranacaqdır. Birinci ulusa Ugedey rəhbərlik edirdi və bura Monqolustan və Şimali Çin aid idi. Mavərrənəhr və Yeddisu əyalətləri Çağataya verilmişdi. Irtış çayından başlayaraq Ural dağlarına, buradan Xəzər və Aral dənizinə qədər olan ərazilər Cuçinin idarəsində idi. Tuliyə isə Şərqi Monqolustan ərazisi tapşırılmışdı.

1235-1236-cı illərdə Cuçinin oğlu Batı xan Orta Volqa bulqarlarının ölkəsini, Kama bulqarlarının, qıpçaq, mordvin torpaqlarını, daha sonra isə Xəzər və Azov dənizlərindən başlayaraq cənub-şərqi rus çöllərinə qədər bütün əraziləri işğal etdi. Qıpçaq torpaqları 1239-cu ilə qədər işğal olundu. Qıpçaq xanı Kotyan xan salamat qalan qoşun hissələri ilə Macarıstana qaçdı. Yaddan çıxartmaq lazım deyil ki, IV-X əsrlərdə Macarıstan ərazisində hunlar, avarlar, macarlar və s. türk soylu tayfalar məskunlaşmışdılar. 1241-ci ildə Batı xan Macarıstan ərazisində işğallarla məşğul olduğu vaxt böyük xan Ugedey öldü. Bu hadisədən sonra imperiya daxilində ziddiyyətlər baş verdi. Batı xan XIII əsrin 40-cı illərində Şərqi Avropada yeni bir türk dövlətinin-Qızıl Ordanın əsasını qoydu.

## *§2 Qızıl Orda dövləti*

1243-cü ildə Batu xan Rusiyaya və Şərqi Avropaya yürüşdən qayıtdıqdan sonra artıq müstəqil dövlətə çevrilmiş Cuçi ulusunun başçısı oldu. Cuçi ulusunun özəyini qıpçaqların Dəşti-Qıpçaq adlanan əyaləti və Volqaboyu təşkil edirdi. Ulusun tərkibinə Dnepr çayından tutmuş Qərbi Sibirə qədər olan torpaqlar, Şimali Xarəzm və Ürgənc şəhəri ilə birlikdə Sırdəryanın aşağı axarı, cənubda Krım və Şimali Qafqaz daxil idi. Rus knyazlıqları da bu ulusa tabe idi. Cuçi ulusu həm Kök Orda, həm də Qızıl Orda adlanırdı. Qızıl Orda XIII əsrin 50-ci illərindən müstəqil oldu. Qızıl Orda dövlətinin paytaxtı əvvəllər Saray-Batu şəhəri olmuşdu. Ulus torpaqları yüzbaşı və minbaşılar adlanan köçəri monqol noyonları arasında bölüşdürülmüşdür. Feodal təsərrüfatının əsasını aul adlanan köçəri kəndli ailələrinin təsərrüfatları təşkil edirdi. Batunun dövründə (1236-1256) güclü olan Qızıl Orda onun qardaşı Bərkə xanın (1257-1266) zamanında bir çox ərazilərini, o cümlədən Mavərənnəhri əldən vermişdi. Qızıl Orda Azərbaycan torpaqlarını ələ keçirmək uğrunda Hülakilərlə arasıkəsilməz müharibələr aparmışdı. Qızıl Ordanın xanı Özbəyin dövründə (1312-1342) qonşu ölkələrlə ticarət münasibətləri genişlənmişdi. Özbəyin oğlu Canibəyin (1342-1357) dövründə dövlət hərbi cəhətdən qüvvətli idi. 1356-cı ildə Canibəy Azərbaycana hücum edərək Qarabağın kəndlərini talamışdı. Canibəyin oğlu Berdi bəyin (1357-1361) dövründə Qızıl Ordada saray çəkişmələri gücləndi və 1380-cı ilə qədər davam etdi. 1362-ci ildə Qızıl Orda iki düşmən hissəyə ayrıldı. Onları Volqa çayı ayırırdı. Volqa-Don-Dnepr çaylararası ərazi, Şimali Qafqaz və Krım Mamay xana tabe idi. Volqadan şərqə olan əraziləri isə saray xanları idarə edirdi. 1380-cı il 8 sentyabrda Kulikova

döyüşündə monqolların ruslar tərəfindən məğlubiyyəti Qızıl Ordanı daha da zəiflətdi. 1357-1380-cı illərdə Qızıl Ordada 25-dən çox xan dəyişmişdi.

XIV əsrin 60-cı illərində Xarəzm müstəqilləşdi, Həştərxan ayrıldı. Polşa-Litva Qızıl Ordanın tabeliyində olan Dneprboyu torpaqları işğal etdi. Toxtamışın dövründə Qızıl Orda birləşdirildi və 1382-ci ildə Moskvanı tutub yandırdı. Lakin Teymur 1389—1396-cı illərdə bir neçə vuruşmada Toxtamışın ordusunu məğlub etdi. XV əsrin 20-ci illərindən başlayaraq Qızıl Orda parçalandı. Onun ərazisində müstəqil Sibir, Kazan, Krım, Qazax, Özbək, Həştərxan xanlıqları və Noqay Ordası yarandı. 1480-cı ildə rus knyazlıqları da monqol əsarətindən azad oldular. Qızıl Ordaya daxil olan ölkələrin təsərrüfatı dirçəlməyə başladı. Paytaxt Saray şəhəri Bərkə xan tərəfindən salınmışdı. 1333-cü ildə bu şəhərdə olmuş ərəb səyyahı ibn Bətutə şəhərdə çoxlu sənətkar və bazarın olmasını göstərirdi. XIII əsrin 80-cı illərindən şəhərdə pul kəsildiyi söylənilir. Şəhər 1395-ci ildə Əmir Teymur tərəfindən dağıdılmışdı. Qızıl Ordanın vaxtında dağılmış Ürgənc yenidən dirçəldilmişdi. Ticarət qaydasına düşmüşdü. XIII əsrin ikinci yarısından XIV əsrin ortalarına qədər Çin və Orta Asiya məhsulları Şərqi Avropaya Ürgəncdən keçən ticarət yolu ilə aparılırdı. XIV əsrin 60-cı illərində Xarəzmdə Sufi sülaləsi hakimiyyəti ələ almışdı. O, hətta öz adından 1361-ci ildən qızıl və gümüş pul buraxdırdı. Qızıl Orda xanı dövründə türkmən tayfalarının məskunlaşdığı Qara-Qum və Ust-Yurt əyalətləri Canibəy tərəfindən idarə edilirdi. 1355-1356-cı illərdə Türkmənistana göndərilmiş monqol vergi yığanı Sankli-San yoxsul bir kəndli tərəfindən öldürül-müşdü. XVII əsr tarixçisi Əbülqazi Xivəli türkmənlər haqqında geniş məlumat verir və göstərir ki,

türkmənlər vergini mal-qara ilə verirdilər. Amu-Dərya sahilində Şamaxı (Şamana-Kala), Yengi-şəhər (Ak-Kala), Vəzir və s. şəhərlər var idi.

## *§3 Teymurilər dövləti*

XIV əsrin 50-60-cı illərində Mavərənnəhrdə feodal pərakəndəliyi şəraitində xırda dövlətlər var idi. Bu dövlətlər arasında gedən müharibələrdə Əmir Teymur iştirak edərək Kaşqadərya vadilərində *barlaslar* içərisində məşhurlaşdı.

1360-cı ildə Qazaxıstan ərazisində yaranmış *Moqolistan* adlı dövlətin hakimi Tuqluq-Teymur Kaşqadəya vadisinə hücum etdi. 1361-ci ildə isə bura 11 dəfə hücum edib işğal etmək istədi. Tuqluq-Teymur Teymurdan ehtiyat edərək, onu Kaşqadərya vadisinin hakimi kimi tanıyıb geri qayıtdı. Teymur vaxtdan istifadə edərək Əmir Hüseyn adlı bir başqa hakimlə ittifaqa girdi. 1361-1365-ci illərdə onlar tez-tez qonşu vilyətlərə basqınlar edib, qənimətlə geri qayıdırdılar. 1362-ci ildə Əmir Teymurla Əmir Hüseyn növbəti səfər zamanı türkmən əmiri Əli bəyin əlinə keçdilər. Lakin onlar çoxlu pul verib xilas oldular. 1365-ci ildə Tuqluq Teymurun yerinə keçmiş Ilyas Xocanın qoşunları ilə Cəngi Loy adlı yerdə baş vermiş döyüşdə Əmir Teymurla Əmir Hüseyn məğlub oldular və Bəlx əyalətinə çəkildilər. Ilyas Xoca Səmərqəndi mühasirəyə alsa da, mədrəsə tələbəsi Mövlanzadənin rəhbərlik etdiyi qoşun tərəfindən məğlub edildi. 1366-cı ildə Teymurla Hüseyn Səmərqəndi tutdular və bu andan etibarən onların arası dəydi. 1370-ci ildə Teymur Bəlxi tutub, keçmiş dostu Əmir Hüseyni öldürdü. 1370-ci ildən o özünü bütün Mavərənnəhrin hakimi elan etdi.

1370-ci ildə Xarəzm hakimi Hüseyn Sufini məğlub edib Cənubi

Xarəzm torpaqlarını işğal etdi. Elə bu vaxtlar Ağ Orda xanı Toxtamış Qızıl Orda xanı Mamayı məğlub edib Ağ Orda ilə Qızıl Ordanı birləşdirdi.

1387-1388-ci illərdə Toxtamış Teymurun Irana səfərindən istifadə edib Xarəzmin keçmiş hakimi Süleyman Sufini Teymura qarşı qaldırdı. 1388-ci ildə geri qayıdan Teymur Xarəzmi yenidən ələ keçirdi və bütünlüklə Orta Asiyanın vahid hakiminə çevrildi.

1391-ci il iyulun 18-də Teymur Gündüzcə adlı yerdə Toxtamışın ordusunu ağır məğlubiyyətə uğratdı. 1395-ci ildə Terek çayı sahilində Toxtamış yenidən ağır məğlubiyyətə uğradı. Teymur Saray-Bərkə, Hacı Tərxan və Azak (Azov) şəhərlərini qarət etdi. 1370-1390-cı illərdə Teymur Qazaxıstana qarətçi yürüşlər təşkil etdi.

Teymur dəfələrlə Iran və Cənubi Qafqaza hərbi yürüşlər təşkil etmişdi. 1336-1411-ci illər arasında Azərbaycan torpaqlarını da əhatə edən *Cəlarilər dövləti* Teymura qarşı duracaq vəziyyətdə deyildi. Onun 1386-cı illərdə başladığı üç illik, 1392-ci ildə beş illik, 1399-cu ildə yeddi illik hərbi səfərləri vaxtında bütün Ön Asiya və Cənubi Qafqaz işğal edildi. O, 1387-ci ildə Isfahan şəhərində 70 min adamın başını kəsdirmişdi. 1396-1399-cu illərdə Hindistana yürüş etmişdi. 1402-ci ildə Ankara (Çubuq meşəsi) döyüşündə Ildırım Bəyazidi (Türk sultanı) əsir alıb, qoşunun məhv etmişdi. Teymur bu döyüşdən sonra Misirə yürüş edib Sultan Fərəci öldürdü.

1404-cü ilin sonlarında Çinə hərbi səfərə çıxdı, lakin 1405-ci ilin 18 fevralında 69 yaşında (bəzi mənbələrə görə 72 yaş) soyuqdəymədən öldü. O öləndə öz yerinə nəvəsi Pir Məhəmmədi vəsiyyət etmişdi. Teymuru Səmərqənddə müəllimi Şeyx Bərəkənin ayaqları altında dəfn

etdilər. 1405-ci ildə Teymurun dövləti onun övladları arasında bölüşdürüldü. Teymur hələ sağlığında Hülakilərin ərazisinin oğlu Miranşaha, Fars əyalətini Ömər Şeyxə, Qəznəlilər dövlətinin ərazisini isə nəvəsi Pir Məhəmmədə soyurqal şəklində vermişdi.

Hərbi səfər vaxtı *tanqlay* adlanan avanqard hissə, ondan irəlidə *karaul* dəstəsi, karaul dəstəindən qabaqda isə *kəşfiyyatçılar* gedirdilər. O, döyüş vaxtı ordu-sunu mərkəzə, sağ cinaha (branqar), sol cinaha (cuvanqar) və cinahları qoruyan dəs-tələrə (kanbul) ayırırdı. Beləliklə, ordu 7 korpusa bölünürdü. Teymurdan sonra hakimiyyətə Sultan Xəlil Mirzə, sonra isə nəvəsi Şahrux Mirzə gəldi. Lakin 1409-cu ildə Teymurun oğlu Şahrux hakimiyyəti öz əlində topladı. 1447-ci ildə Şahrux öləndən sonra imperiya daha da parçalandı. Bu zaman Iraqda Qaraqoyunlular yüksəlmişdi. Onan sonra hakimiyyət oğlu Uluqbəyin (Məhəmməd Tarağay) əlinə keçdi. Uluqbəy dövrünün savadlı adamı idi. Səmərqənddə Uluqbəy rəsədxanasını oğlu Əbdül-Lətif (Herat hakimi) tərəfindən öldürüldü. Əbdül-Lətif 1450-ci il mayın 8-də Səmərqənd yaxınlığında Baba Hüseyn Bahadur tərəfindən öldürüldü. 1451-ci ildə Özbək tayfalarının rəhbəri Əbülxeyir Əbdül-Lətifin yerinə keçmiş Abdullanı məğlub etdi. Hakimiyyətə Teymur nəslindən olan Əbu Səid gəlir. Lakin çox keçmədən Şeybani xan (özbək) onun hakimiyyətinə son qoydu. Teymurun dövləti süqut etdi.

### *§4 Şeybanilər dövləti*

Teymurun nəslindən olan hakimlər arasında feodal çəkişmələri dövlətin siyasi qüdrətini sarsıtdı. Belə bir şəraitdə özbək tayfa ittifaqı meydana çıxdı. Köçəri özbəklərin Mavərənnəhrə axışması Əbülxeyrin

nəvəsi Şeybani xanın adı ilə əlaqədardır. Atası Şeyx Heydər üsyançılar tərəfindən öldürülən Şeybani əvvəlcə Həştərxana, sonra isə Dəşti-Qıpçağa qaçmışdı. Şeybani sonralar Səmərqənd hakimi (Teymuri) Əhməd Mirzə ilə yaxınlaşmışdı. Belə bir vaxtda monqollar Səmərqəndə hücum etdilər. Bunu görən Sultan Əhməd dövlətin şimal sərhədlərini Məhəmməd Şeybaniyə tapşırdı. Əhməd Mirzə və Şeybani ordu düzəldib monqollara qarşı hərəkət etdilər. Şeybani xan əsas etibarilə quşçu, nayman, uyğur, kerait, durman və irqu adlı türk-özbək tayfalarına arxalanırdı. Sonralar ona kiyat, kunqrat, tuman, tanqıt, şadbanlı, ucal və şinkarlı tayfaları da qoşulmuşdu. Lakin yolda Şeybani birdən-birə fikrini dəyişdi, Əhməd Mirzədən ayrılıb Daşkəndə getdi və oranın hakimi Mahmud xanın qəbuluna girdi. Şeybani Otrarı ələ keçirdi və orada oturdu. Əhməd Mirzənin ölümündən sonra 0 1500-cü ildə Səmərqəndi ələ keçirdi. 1503-1507-ci illərdə Xorasanda Teymurun nəslindən Hüseyn Baykaranı məğlub edən Şeybani xan Orta Asiya və Xorasanın əyalətlərini ələ keçirdi və Teymur nəslinin hakimiyyətinə son qoydu. Onun dövlətinin hüdudları Xəzər dənizindən Çinə, Sır-Dəryanın sağ sahilindən Mərkəzi Əfqanıstana qədər uzanırdı. Şeybani xan cənub-qərbdə Azərbaycan Səfəvilər dövlətilə həmsərhəd oldu. 1510-cu ildə onlar arasında döyüş oldu və Səfəvilər qələbə çaldılar. Şeybani Mərv döyüşündə öldürüldü. Onun yerinə əvvəlcə dayısı Süyünc-Xoca keçdi, lakin hakimiyyətdən salındı. 1510-cu ildə Şeybani xanın nəslindən Kuçkunçu xan hakimiyyəti ələ keçirdi (1510-1530). 1511-ci ildə Kurkunçu xan I Şah Ismayılla razılığa gəldi və Sülh bağlandı. Sülh müqaviləsinə görə Amudərya çayının sol sahil ərazisi Səfəvilər dövlətinə birləşdirilmişdi. Bundan əlavə Əfqanıstanın şimal əyalətləri və

bütünlüklə Xorasan da ələ keçirilirdi. Lakin bu sülh çox çəkmədi. Əfqanıstanda olan Babur 1512-ci ildə I Şah Ismayılla müqavilə bağlayaraq onun hərbi qüvvələrinin köməyi ilə Şeybanilər dövlətini yıxdı. I Şah Ismayıl bütün Orta Asiyanın ali hakimi oldu. Lakin sünni məzhəbli Orta Asiya əhalisi Şah Ismayıla qarşı çıxaraq Baburun bu siyasətinə etiraz etdilər. Özbək sultanları Ubeydulla Sultan və Məhəmməd Teymur Sultan 1513-cu ildə Mavərənnəhrə girib Baburun 5 minlik qüvvəsini dağıtdılar. Babur qaçdı. Özbəklərin Səmərqənddə həmişəlik hökmranlığı başladı. Şah Ismayıl müttəfiqi Baburu qurtarmaq üçün Əmir Əhmədin başçılığı ilə ordu göndərdi. Lakin Gucdivan adlı yerdə Səfəvi ordusu Məhəmməd Teymur və Ubeydullanın göndərdiyi özbək ordusu (pusqu) tərəfindən məğlub edildi. Sağ qalan Səfəvi ordusunun qalıqları Irana qayıtdı. Beləliklə, Şeybanilər əvvəlki Şeybanilər dövlətinin ərazilərini bərpa etdilər. II Abdulla xanın dövründə Şeybanilər yüksəliş dövrü keçirsə də, sülalə üzvləri arasında gedən müharibələr nəticəsində 1588-ci ildə Şeybani dövləti süqut etdi.

Şeybanilərin hakimiyyəti illərindən əvvəl Orta Asiyanın təsərrüfatının əsas sahəsi əkinçilik və sənətkarlıq idi. Şeybanilərin hakimiyyətə gəlməsi ilə köçəri maldarlıq xeyli genişlənmişdi. Lakin digər mühüm bir proses də gedirdi. Istər yerli oturaq, əkinçi əhali, istərsə də gəlmə köçəri türk tayfaları etnik və dil mənsubiyyətlərinə görə eyni olduqları üçün çox sürətlə qarışırdılar. Ona görə də XVI əsrin əvvəllərindən müasir özbək xalqının formalaşması prosesi gedirdi. Yaranmaqda olan xalq «özbək» adlanırdı.

Kuçkunçu xanın ölümündən sonra oğlu Əbu-Səid (1530-1533), ondan sonra isə Ubeydulla (1533-1539) xan gəldi. Onun ölümündən

sonra isə ölkədə iki hakimiyyətlilik yarandı. Buxarada onun oğlu Əbdüləzizxan (1540-1549), Səmərqənddə Kuçkunçu xanın oğlu Əbdül-Lətif (1540-1551) hakimiyyətə keçdi. Bu iki hakimiyyət arasında çəkişmələr 1583-04-cü ilə qədər davam etdi. II Abdulla xanın dövründə ölkədə nisbi sakitlik yarandı. Lakin bir müddət sonra da öz oğlu Bəlx hakimi Əbdülmömin tərəfindən məğlubiyyətinə dözməyərək özünü öldürdü. Lakin tezliklə Əbdülmömində öldürüldü. (6 aydan sonra). Belə olduqda əmirlər Həştərxan xanlarının nəslindən olan Baki Məhəmmədi hakimiyyətə gətirdilər. 1605-ci ildən Mavərənnəhrdə Həştərxanilər sülaləsi hakimiyyətdə oldular. Baki Məhəmməddən sonra hakimiyyətə Vəli Məhəmməd keçdi. Vəli Məhəmməd 1611-ci ildə yerli əyanların sui-qəsdi nəticəsində öldürüldü. Bundan sonra Orta Asiyada xırda xanlıqlar-Buxara, Xivə, Kokand xanlıqları meydana gəldi.

Bu əsrlərdə Türkmənistanın da tarixi Şeybanilər dövləti ilə bağlı idi. Türkmən torpağı Səfəvilərlə Şeybanilər dövlətləri arasında bölünmüş vəziyyətdə idi. Türkmənlər maldarlıq və əkinçiliklə məşğul olurdular.

Xarəzm türkmənləri özbək sultanlarının hakimiyyəti altında idilər. Şah I Ismayıl 1524-cü ildə öldükdən sonra Xarəzm türkmənlərinin başçısı il Bars Xorasanı zəbt etmək və Səfəvilərdən ayırmaq uğrunda mübarizəyə başlamışdı. Sonra da Xarəzm sultanları Balxaş ətrafı ərazini, Manqışlağı tutdular və beləliklə, bütün Türkmənistan ərazisi Şeybanilər dövlətinə birləşdirildi. Şeybani xanları türkmən tayfalarını amansız istismar edirdilər. Belə ki, türkmənlər ildə 40 min qoyun vergi verirdilər. Türkmənistanın əyalətləri Şeybanilər nəslinə mənsub xanlar arasında bölüşdürülmüşdü.

Cənubi Türkmənistanda isə vəziyyət bir qədər başqa cür idi. XVI

əsrin əvvəllərində Əmir Teymurun nəslindən olan Məhəmməd Zaman adlı bir feodal türkmən tayfalarının köməyilə Astrabad mərkəz olmaqla Cənubi Türkmənistanda kiçik bir xanlıq yaratmışdı. Lakin Şah Ismayıl Xətai 1514-ci ildə hücum edib xanlığa son qoydu. Şah Ismayılın ölümündən sonra Şeybanilərdən, Din Məhəmməd xan 1539-cu ildə Cənubi Türkmənistana hücum edib oranı işğal etdi. Din Məhəmməd və onun varisləri Abul Məhəmməd və Nur Məhəmməd xan dövründə Türkmənistanı yarımvassal hüquqlu yerli hakimlər idarə edirdilər. Lakin belə vəziyyət çox çəkmədi. Iran şahı I Abbas dövründə Cənubi Türkmənistan işğal edildi və 150 il işğal altında qaldı.

### *§5 Özbək xanlığı*

XV əsrin əvvəllərində Ağ Orda bir sıra əyalətlərə parçalandı. Onların ən böyükləri Noqay Ordası və Özbək xanlığı idi. Özbək xanlığı Noqay Ordasından şərqdə yerləşirdi. Onun ərazisi Sırdəryanın aşağı axarlarından və Aral dənizindən şimalda Yaik və Tobol, şimal-şərqdə Irtış çayına qədər uzanırdı. Özbək xanlığının etnik tərkibi yekcins deyildi. Orada kanqlı, kəngərəs, karluk, nayman, manqut, uysun, arqın, qıpçaq və b. tayfalar yaşayırdı. Özbək xanlığının yaranması XV əsrin 20-ci illərinə aiddir. 1428-ci ildən Şeybanilərdən Əbülxeyrin hakimiyyətə gəlməsi ilə Özbək xanlığının formalaşması başlanır. 1381-ci ildə Teymur Cənubi Türkmənistanda Herat qalasını tutdu. 1382-ci ildə Mərv və Nisa əyalətlərinin hakimi Əli bəy ilə Gurgan və Mazandaran əyalətlərinin hakimi Əmir Vəli Teymura tabe oldular.

1391-ci ildə Cənubi Türkmənistanda Bayat tayfalarının üsyanı Miranşah tərəfindən yatırıldı. Bayat tayfalarını üsyana Toxtamış

qaldırmışdı. Toxtamış 1399-1405-ci illər arasında səfil həyat keçiririidi. 1406-cı ildə o, Tümendə öldü. Teymur biləndən sonra qarışıqlıqdan istifadə edərək Qızıl Ordadan Yedigey adlı bir əmir Xarəzmdə hakimiyyəti ələ aldı. Həmin vaxt Xorasan valisi olan Şahrux (Teymurun oğlu) Xarəzmə hərəkət etdi. O, Yedigeyi məğlub edib Xarəzmi ələ keçirdi. Şahrux hərbi köçəri əyanlara arxalansa da, əkinçiliyə, suvarma işlərinə diqqət edirdi. Murqab çayından çoxlu kanallar çəkdirmişdi. XV əsrdə hətta pambıq əkin sahələri genişlənmişdi.

Ara müharibələri nəticəsində Xorasan Teymurilərdən Əbülqasim Babura keçdi və 1457-ci ilə qədər hakimiyyətdə qaldılar. Babur öləndən sonra Xorasan və Türkmənistan Əbu-Səidə keçdi və o, 1468-ci ilə qədər buranın hakimi oldu.

Şimal-qərbi Türkmənistan (Balkaş, Manqışlı, Yeni Yurt və Uzboy) ərazi-sində isə yarımköçəri türkmən tayfaları (ərsari, salor, əlili və s.) yaşayırdılar.

### *§6 Qaraqalpaqlar*

XVII-XVIII əsrlərdə Mərkəzi Asiyanın geniş ərazisində özbək, tacik, türkmən, qaraqalpak, qırğız və qazax xalqları yaşayırdı. Qaraqalpaq xalqının VIII-X əsrlərdə başlayan təşəkkül prosesi XV-XVI əsrlərdə başa çatmışdır. Qaraqalpaqların ən qədim əcdadları isə e.ə. VII-II əsrlərdə Aral dənizinin cənub sahillərində yaşamış sak-massaget tayfaları olmuşdur. II-IV əsrlərdə Şərqdən gələn hunların, VI-VIII əsrlərdə isə türklərin bir qismi yerli tayfalarla qarışmışdır. Qaraqalpaqların formalaşması Aralboyu ərazidə təşəkkül tapmış erkən orta əsr xalqları-peçeneqlərin və oğuzların arasında VIII-X əsrlərdə başlanmışdı. XIV-XV əsrlərdə qaraqalpaqların etnogenezinə noqaylarla

əlaqələri mühüm təsir göstərmişdir. XVI əsrin sonlarında mənbələrdə qaraqalpaq müasir adları ilə tanınırlar. Qaraqalpaq xalqının formalaşdığı əsas ərazi Sırdəryanın aşağı hövzəsidir. Yaik və Emba çaylarının aşağı axarında da yaşayırdılar. Qaraqalpaq XVI-XVII əsrlərdə Buxara xanlarından, XVII əsrin sonu-XVIII əsrin ortalarında isə qazax xanlarından asılı idi. 1811-ci ildə Xivə xanları qaraqalpaqları tabe edib onları Amudəryanın deltasına köçürdülər. Qaraqalpaqlar dəfələrlə Xivə xanlarına qarşı üsyan qaldırmışdılar (1855-1856 və 1858-1859-cu il üsyanları).

Iqtisadiyyatı: Qaraqalpaqlar qızılqum səhrasının şimal-qərb hissəsini, Amu-dəryanın deltasını, Üstyurd yaylasının cənub-hissəsini tutur. Faydalı qazıntılarla –xörək və qlauber duzları, tikinti materialları, əlvan metallar, neft və qazlarla zəngindir.

Əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır. Xüsusilə, qaraqalpalqlar XVIII əsrin əvvəlində Xarəzm ətrafına köçdükdən sonra onlarda da süni suvarmağa əsaslanan əkinçilik mühüm yer tutmağa başladı.

## *§7 Qırğızlar*

1522-ci ildə Məhəmməd Qırğız bütün qırğız tayfalarını öz ətrafında topladı və özünü Qırğız dövlətinin xanı elan etdi. Lakin Qırğız dövləti Şeybanilər tərəfindən daim hücumlara məruz qalırdı.

XVII əsrin ortalarınadək qırğız hakimləri Şeybanilərə qarşı mübarizədə Qazax xanlarına arxalanırdılar. Məhəmməd Qırğız xanın və onun varislərinin vaxtında qazax və qırğız tayfalarının qarşılıqlı əlaqəsi çox güclənmişdi. Lakin qırğız tayfa birləşmələrinin başında duran feodallar arasında gedən mübarizə dövlətin yaranmasına imkan vermirdi.

Qırğız tayfalarının əksəriyyəti köçəri maldarlıqla məşğul olurdu. Qırğızıstan ərazisində ticarət və sənətkarlıq mərkəzləri, şəhərləri yox idi. Belə vəziyyət Qırğızıstanın Rusiya tərəfindən işğalınadək davam etdi.

Qırğızların etnik mərkəzi Tyan-Şan dağları idi. Inqilabdan əvvəl səhv olaraq, qaraqırğızlar və burutlar adı ilə tanınırdılar. Qırğızların erkən etnik tarixi qədim tayfa ittifaqları (hunlar, saklar və s.) ilə əlaqədardır. Sonralar qırğızlaın tərkibinə daxil olmuş tayfalar Türk xaqanlığı və köçərilərin tayfa birləşmələri dövründə (VI-X əsrlər) Sayan Altayın, Irtış ətrafının və Şərqi Tyan-Şanın türkdilli əhalisi arasında formalaşmışlar. Monqolların Qazaxıstana və Orta Asiyaya hücumundan sonra həmin türkdilli tayfaların bir hissəsi Mərkəzi və Qərbi Tyan-Şana, sonralar isə cənuba-Pamirədək hərəkət etdilər. Bunlar Tyan-Şan ətrafında təşəkkül tapmaqda olan qırğız xalqının əsasını (tərkibinə həmçinin yerli türkdili tayfalar, o cümlədən karluklar, uyğurlar, monqol tayfaları, XVI-XVII əsrlərdə qazax-noqay mənşəli tayfaların bir hissəsi daxil oldu) təşkil etdilər. XVI əsrin əvvəllərində qırğızlar mürəkkəb etnik tərkibi olan ayrıca xalq kimi Tyan-Şanda məlum idilər. Qırğızların xalq kimi formalaşması və müasir ərazidə yayılması əsasən XVIII əsrin ikinci yarısında başa çatmışdır. XIX əsrin 60-70-ci illərində qırğızarın yaşadığı ərazi Rusiyanın tərkibinə daxil oldu. XVII əsrdə və XVIII əsrin birinci yarısında qırğızlar istiqlaliyyət uğrunda oyratlara (kalmıklara), XVIII əsrdə və XIX əsrin birinci yarısında Kokand xanlarına qarşı mübarizə aparmışlar. Kokand xanlarının hökmranlığı zamanı dəfələrlə üsyanlar qalxmışdı. Onların ən güclüsü 1873-1876-cı illər üsyanı idi.

Qırğızların əsas məşğuliyyəti maldarlıq və atçılıq idi.

### *§8 Mərkəzi Asiya xalqlarının iqtisadiyyatı (XVII-XVIII əsr)*

Mərkəzi Asiya xalqlarının iqtisadi inkişafı səviyyəsi və həyat tərzi fərqli idi. Özbəklər əsasən oturaq həyat sürürdülər və yüksək əkinçilik mədəniyyəti-nə malik idilər. Onlar buğda, çəltik, darı, pambıq, kətan əkir, bağçılıq, bostançılıq və ipəkçiliklə məşğul olurdular.

Zərəfşan, Amudərya, Sırdərya, Vəxş çayları vadilərində mürəkkəb süni suvarma sistemlərindən istifadə olunurdu. Təkcə XVII əsrin ikinci yarısında 3 yeni kanal, o cümlədən, 143 verst uzunluğu olan Şahabad kanalı çəkilmişdi. Dağlıq ərazidə türklərlə qonşuluqda yaşayan tacikər isə, əsasən, maldarlıqla məşğul idilər.

Mərkəzi Asiya xalqlarının, xüsusən türkmən və qırğızların həyatında maldarlıq əhəmiyyətə malik idi. Amudəryanın yuxarı axarlarında, Fərqanə vilayəti-nin dağətəyi hissəsində, Zərəfşan vadisində və türkmən çöllərində qoyunçuluq əsas yer tuturdu. Xarici bazarlarda Buxara dərisi-qaragül yüksək qiymətləndirilirdi. Əhali atçılıqla, səhralıq bölgələrdə isə həm də dəvəçiliklə məşğul olurdu. Mərkəzi Asiyada Səmərqənd, Buxara, Xivə və Daşkənd kimi qədim şəhərlərlə yanaşı, yeni yaranmış Kokand (qədim Xocənd şəhəri) və Nəmanqan şəhərləri mühüm sənət-karlıq və ticarət mərkəzi idilər. Buxara xanlığının şəhərlərində pambıq və ipək parça toxunması, mis və tuncdan qab-qacaq, soyuq silah hazırlanması, dulusçuluq və zərgərlik məmulatları, yüksək keyfiyyətli Səmərqənd və Buxara kağızı istehsalı inkişaf etmişdi. Xarəzm şəhərlərində daha çox parça, cənubi türkmən şəhərlərində isə xalça, metal və saxsı qablar istehsal olunurdu.

Şəhər sənətkarları istehsal şahələri üzrə sexlərdə birləşmişdilər. Onların hüquq və vəzifələri nizamnamə (risalə) ilə tənzimlənirdi.

Mərkəzi Asiya dövlətləri Hindistan, Iran və Rusiya ilə ticarət əlaqələri saxlayırdılar. Buxara və Xivə tacirləri Rusiya, Hindistan və Çin arasında ticarətdə vasitəçilik edirdilər.

Heyvandarlıqla yanaşı, qazaxlar qismən əkinçiliklə də məşğul olurdular. Əkinçilik Sırdərya boyunda və Yeddisuda (qazaxlar ona Çtisu deyirlər) yayılmışdı. XVII əsrin sonunda bu yerlərdə süni suvarmaya əsaslanan yüksək məhsuldar əkinçilik təsərrüfatları mövcud idi.

Regionun iqtisadi həyatında sənətkarlıq və ticarət də mühüm yer tuturdu. Maldarlıqla bağlı olan dəri məmulatı, keçəçilik və yun emalı kimi sənət sahələri daha çox inkişaf etmişdi. Mübadilə ticarəti, əsasən yay mövsumundə aulların görüşündə həyata keçirilirdi. Alaçığın ağac hissələri, qab-qacaq və s. məişət əşyaları, qoyun və dəvə yununa, keçə və xalıya, dəri və örkənə, ərzaq məhsullarına dəyişdirilirdi. Qazaxıstan Mərkəzi Asiya və Rusiya ilə ticarət əlaqələri saxlayır, maldarlıq məhsulları və diri mal-qara ixrac edir, əkinçilik və sənaye məhsulları alırdı. Lakin ölkə ərazisinin genişliyi və münasib yolların olmaması daxili və xarici ticarətin inkişafını ləngidirdi.

*Torpaq mülkiyyəti formaları. Vergilər və mükəlləfiyyətlər*. Mərkəzi Asiyada əsas istehsal vasitəsi olan torpaq və su, əsasən, dövlətin, qismən də feodalların və ruhanilərin əlində idi. Dövlət başçısı-xan əkinə yararlı torpaq fondunun bir hissəsini xidmət adamlarının istifadəsinə verirdi. Torpaq bağışlanmasının 2 əsas forması var idi: soyurqal və tanxo. Soyurqal getdikcə irsi mülkiyyətə çevrilirdi. XVII-XVIII əsrlərdə tanxo-yalnız xidmət müddətində şərti verilən kiçik torpaq mülkləri daha geniş yayılmışdı. Bu dövrdə dövlət torpağnın özbək əyanlarının əlinə keçməsi prosesi də güclənmişdi. Məsələn, Səmərqənd hakimi XVII əsrin son on

ilində 86 min təngə, oğlu isə sonrakı onilliklərində 92 min tənqə dəyərində torpaq sahəsi almışdı. Xanların ayrı-ayrı şəxslərə torpaq paylaması nəticəsində dövlətin iqtisadi və siyasi həyatında mühüm rol oynayan iri feodallar qrupunun mövqeyi möhkəmlənmişdi. Iri feodalların silahlı dəstələr yaratması və öz tayfalarından toplanan xalq qoşununa başçılıq etməsi isə onların siyasi nüfuzunu artırır, ara müharibələrinə meydan açırdı.

Buxara və Xivə xanlıqlarında əhali müxtəlif vergi və mükəlləfiyyətlər ödəyirdi. Əkinçilərdən alınan əsas vergi xərac idi. Xəracın miqdarı illik məhsulun onda birindən yarısına qədər ola bilərdi. XVIII əsrin sonuna doğru tanxodarlar xəracı daha çox pul ilə tələb etməyə başlamışdılar. Bu da öz növbəsində əmtəə-pul münasibətləri rüşeymlərinin yaranmasına təsir edirdi. Bağ və bostan əkinçilərindən tanaban adlı vergi toplanırdı. Maldar kəndlilər isə hər il zəkat-saxlanılan mal-qaranın 1/40 hissəsini verməli idilər.

## *§9 Türkmənlər*

XVIII əsrin I yarısında türkmən tayfaları indiki Türkmənistan, Üstyurd və Manqışlaq ərazilərində məskunlaşmışdılar. Amudəryanın orta axarı ətrafında, Çorçaudan yuxarılarda ərsəri türkmənləri və eləcə də, kiçik xırda türkmən tayfaları-bayat, skar, slam və başqaları yaşayırdılar. Burada həmçinin xeyli miqdarda oturaq özbək əhalisi də yaşayırdı, xüsusilə də onların toplu halında cəmləşdiyi şəhərlər Çorçau, Kerki, Narazim idi. Bütün bu bölgə Buxara xanlığının tərkibinə daxil idi. Türkmənlər Buxara və Xivə xanlarının hakimiyyəti altında olduqları

üçün həm onlara, həm də yerli feodallara: biy, baxşı, batır və önbəyilərə vergi və mükəlləfiyyətlər ödəyirdilər. Ən ağır mükəlləfiyyətlərdən biri xan qoşunu tərki-bində hərbi yürüşlərdə iştirak etmək idi. Türkmənlərdə bir sıra patriarxal qaydalar, o cümlədən, qədim çöl qanunu: bütün nəsil bir nəfər üçün, bir nəfər bütün nəsil üçün prinsipi qalmaqda idi.

Bu cür patriarxal çöl qanunları XVIII əsr Azərbaycan həyatı içində xarakterik xüsusiyyət idi.

Türkmənlərin bir hissəsi cənubda-Balxanda yerləşdilər. Buradakı tayfalar ərsəri və alili (əli-eli) türkmən tayfaları idilər.

Murqab vadisində və Mərv şəhərində türkmən-*yomutlar* yaşayırdılar. Şimali Irandan qacar türk tayfaları şah tərəfindən bu əraziyə köçürülmüşdü.

Kopetdağ ətrafı zolaqda (Atrek və Axalda) əmrəli, alili, qaradaşlı və başqa türkmən tayfaları və eləcə də kürd və əfşarlar da məskunlaşmışdılar.

Kopetdağın qərb hissəsində, Atrek və Qarqen vadilərində goklen, nohurlu və eymur türkmən tayfaları yaşayırdılar. Bütün bu bölgələr Səfəvi dövlətinin tərkibinə daxil idi. Qeyd etdiyimiz ərazilərdə türkmənlər tərəfindən assimlyasiya olunmuş taciklər də yaşayırdılar.

### *§10 Uyğurlar*

XVI əsrdə uyğurların yaşadıqları Şərqi Türküstan, Kaşğar istisna olmaqla Çinin hakimiyyəti altına düşmüşdü. 1644-1911-ci illərdə Çində hakimiyyətdə olan Mançur sülaləsinin dövründə Kaşğar bölgəsi də Çinə tabe edildi. Ancaq istiqlaliyyət uğrunda üsyanlar davam edirdi.

1866-cı ildə Yaqub bəyin başçılığı ilə etdiyi üsyan Türküstana

müstəqillik qazandırmaq məqsədini güdürdü. Yaqub bəyin «Atalıq Qazi» adı ilə tarixdə adı çəkilir. O, Kaşğarı xanlıq elan edərək özü də bu müstəqil xanlığın xanı oldu. Lakin şərqdən çinlilər, şimaldan ruslar, cənubdan isə ingilislər Şərqi Türküstan torpaqlarını işğal etmək üçün planlar qururdular. Həmin dövlətlər müxtəlif yağlı vədlərlə Yaqub bəyi öz tərəfinə çəkmək və həmin torpaqları işğal etmək istəyirdilər. Lakin Yaqub bəy onların niyyətlərini yaxşı düşdüyünə görə 1870-ci ildə Türkiyədən kömək almaq ümidi ilə elçilərini göndərdi və sultan Əbdüləzizə bağlılığını bildirdi. XIX əsrin 70-80-ci illərində Türkiyənin beynəlxalq vəziyyəti yaxşı olmadığına görə Kaşğar xanlığına əsaslı surətdə yardım göstərə bilmədi. Ancaq hərbi mütəxəssislər və silah göndərməklə kifayətləndilər. 1877-ci ildə Yaqub bəyin ölümündən istifadə edən Çinlilər Kaşğar-Turfan (Cağatay) xanlığını torpaqlarına qatdılar və bu bölgəyə «Yeni fəth edilmiş ölkə» mənasını verən Sinkianq (Sincan, Sintzyan) adını qoydular.

Şərqi Türküstanda baş verən siyasi hadisələrin nəticəsində uyğurlar kütləvi halda Sintzyandan Orta Asiya və Qazaxıstan ərazilərinə köçdülər, XIX əsrdə Kokand xanlığının tərkibinə daxil olan Fərqanə vadisində yerləşdilər.Bu hadisələrdən sonra da əmin-amanlıq dövrlərdə uyğurlar iş axtarmaq məqsədi ilə Fərqanəyə gəlirdilər. Semireçyedə yaşayan uyğurlar da Sintzyanda baş vermiş siyasi hadisələrin nəticəsində gəlmişdilər. 1881-1883-cü illərdə vaxtı ilə Ili əyalətində yaşamış 45 373 nəfər uyğur indi Rusiya ərazisinə daxil olan Semireçye bölgəsində məskunlaşmışdı.

Uyğurlar Rusiya ərazisinə bütöv kəndlərdə gəlirdilər. Köçüb gələn uyğurlar öz həmkəndliləri ilə birlikdə ayrıca qruplar halında yaşayırdılar.

Hətta köçüb gələn uyğur kəndlərinin əhalisi də bir-birinə qarışmışdı. Bu cür yaşamaqla onlar kəndlərinin keçmiş adət-ənənələrini qoruyub saxlayırdılar. Uyğurlar məskunlaşdığı ərazilərdə öz kəndlərinin əvvəlki adlarını saxlayırdılar. Yeni ərazilərdə yerləşən uyğurlara 10 il vaxt verilirdi. Həmin müddət ərzində uyğurlar əgər təsərrüfatı istənilən səviyyədə qura bilməsələr, onda onları bu ərazidən, digər əraziyə köçməyə məcbur edirdilər. Eyni zamanda bu on il müddətində bütün uyğur təsərrüfatları vergi və mükəlləfiyyətlərə cəlb olunurdu. Ağır pul vergilərinin alınması taxıl məhsullarının ucuz satılmasına və onların çıxılmaz vəziyyətdə qalmasına səbəb olurdu.

Rusiya ərazisində məskunlaşan uyğurlar ilkin dövrlərdə özlərinin keçmiş inzibati idarə bölgülərini-minlikləri, yüzlükləri və onluqlarını saxladılar. Lakin təsərrüfatın ölçüsü onların bu bölgülərinə uyğun gəlmirdi. Çünki yeni ərazilərdə torpaqlar uyğurlara yüzlüklər üzrə paylanılır, icmaya (yüzlüyə) verilmiş torpaqlar isə hər bir ailədəki kişilərin sayına görə təsərrüfatlara («dımam») bölünüb verilirdi. Bu cür bölgü sistemi icma daxili vergilərin birlikdə, ümumi halda verilməsini təmin edirdi. Uyğurların sahib olduqları torpaq paylarını özlərinin irsi mülkiyyətinə keçirmələrinə hüquqları olduğu halda ancaq onu atıb gedərkən icma ilə məsləhətləşməli, onun razılığını almalı idi. Çünki icma hər bir təsərrüfatdan gələn vergilərlə maraqlanırdı, ona görə ki, bütün vergilərin ödənilməsinin məsuliyyəti icmanın boynunda idi. Icmanın ixtiyarında isə əsasən köçkün və qaçqın uyğur ailələri var idi.

XIX əsrin 80-ci illərində uyğur təsərrüfatlarında əmtəə-pul münasibətlərinin yaranması, onun icma təsərrüfatının xüsusiyyətlərini pozdu və daxilində təbəqələşməyə gətirib çıxartdı. XIX əsrin 80-ci

illərində hər bir icma təsərrüfatı yarım desyatin torpağa malik idisə, 20 ildən sonra isə torpaqların varlanmış müəyyən kəndlilər tərəfindən ələ keçirilməsi nəticəsində onun ixtiyarında 0,3-dən 3 desyatinə qədər torpan sahəsi qalmışdı.

Kənd təsərrüfatında və sənətkarlıqda yeni kapitalist münasibətlərinin yaranması, uyğur təsərrüfatının natural xarakterin axıra qədər poza bilmədi.

Vergilərin artması nəticəsində batrakların əkilməmiş torpaq sahələri genişlənirdi. Başqa bir qütbdə isə kənddə qolçomaq və bay dairələri genişlənirdi. Qolçomaqlar (kulak) torpaqları satın alır, suvarma sistemini ələ keçirir, kasıbların əməyindən geniş istifadə edirdilər. Carkent bayı və tacir-icarədarı Vəli Axun Yoldaşev bütün kəndin vergisini ödəməyi, su ilə təmin etməyi öhdəsinə götürmüşdü. Kəndlilər isə bunun əvəzində əldə etdikləri taxıl məhsullarının 3/1 hissəsini əgər toxumu bay verirdisə, məhsulun yarısını baya verməli idilər. Öz torpaqlarını əkib-becərə bilməyən kasıbların torpaqları tədricən Vəli Axun Yoldaşevin əlinə keçirdi. Beləliklə Panfilov rayonunun 100-lərlə kəndinin torpaqları onun ixtiyarına keçmişdi.

Vəli Axun Yoldaşev icmanın nizama sala bilmədiyi kanalı öz vəsaiti hesabına düzəldərək faktiki olaraq kanalın sahibinə çevrilir. Nəticədə isə bütün icma və onun ixtiyarında olan torpaq sahələri kanala görə Vəli Axun Yoldaşevdən asılı vəziyyətə düşür. Beləliklə Carkent kəndlilərinin torpaqlarının 5/4 hissəsi V.A.Yoldaşevin əlinə keçmişdi. Uyğurlar üzərində feodal zülmünə dini-(müsəlman-sünni) zülm də əlavə olunmuşdu. Uyğurlar Rusiya ərazisinə köçənə qədər islamın bir çox qanunlarına əməl etmirdilər. Onlar hətta spirtli içki də qəbul edir,

qadınları da çadrasız, üzü açıq gəzirdilər. Lakin Fərqanədə yerləşən uyğurlar tezliklə  özbək din xadimlərinin təzyiqi nəticəsində islamın qanunlarına ciddi riayət etməyə başladılar. Semireçyedə dinin təsiri az idi. Yeni ərazilərdə məskunlaşan uyğur kəndlərində məscidlər tikilirdi. Böyük kəndlərdə hətta bir neçə məscid olurdu. Carkent şəhərində 25 məscid var idi. Gülcü adlı ən böyük məscidi isə Çin-müsəlman stilində tikdirən Vəli Axun Yoldaşev olmuşdu.

Uyğurlarda islama qədərki bayram və mərasimlər saxlanmışdı ki, onlar da müsəlman bayramlarından əsaslı surətdə fərqlənirdi. Məs; Kurban heyti və Roza heyti bayramları. Onlar, xüsusilə, yaz bayramını-Navruzu, xalq gəzintisi-Səyləni və məhsul yığımı bayramlarını təntənə ilə keçirirdilər. Onlar Navruz bayramını Azərbaycan və eləcə də digər türk xalqlarında olduğu kimi mart ayında keçirirlər. Bayram ərəfəsində yeddi növ yemək, qoyun baş-ayağı və şirin çörəklər hazırlanırdı. Bayram ərəfəsində bu yeməklərin hamısı yeyilir, yerdə qalan yeməkləri isə gecə yarısı suyun içərisinə qoyurdular. Səhər tezdən ailənin hər bir üzvü bu sudan içir ki, bütün ili sağlam olsun. Bu mərasim «ailənin suyu qarşılaması» adlanır.

Xəstəliklər şamanların (baxşı, perişan-uyğurca) qəddar ruhları (müxtəlif mərasimlər keçirməklə) qovması ilə sağaldılırdı. Baxşılar insanlara izah edirdilər ki, müxtəlif xəstəlik törədən cinlər və pərilərdir. (jin və yaxud peri).

Xəstəliklərin müalicəsi ilə həm kişi, həm də qadınlar məşğul olurdular. Uyğurlarda müxtəlif inanc vasitələrindən və dualardan (üçkünc) geniş istifadə olunurdu.

1916-cı ildə çarizmin müstəmləkə siyasətinə qarşı qazaxların,

özbəklərin, qırğızların apardığı üsyanda uyğurlar da fəal iştirak edirdilər. Bu üsyana səbəb çarizmin Türküstan əhalisini kütləvi surətdə arxa cəbhəyə aparması olmuşdu. Yüzlərlə uyğur səfərbərbərliyə alınıb Yuzovkaya- müxtəlif dəmiryol işlərinə göndərilmişdi. Yerli bayların köməkliyi nəticəsində uyğur üsyanları yatırıldı. Üsyanlar əsasən vaxtilə sənətkarlıq şəhərləri olan Gülci (Kulci), Kaşqar Carkent, Vernoya (Alma-Ata), Əndican və Oşada baş verirdi.

### *§11 Kokand xanlığı*

XVIII əsrin sonları XIX əsrin əvvəllərində Fərqanədə təsərrüfatın inkişafı, xüsusilə də Rusiya ilə iqtisadi əlaqələrin yüksək zirvəyə çatması siyasi əlaqələrin də formalaşmasına gətirib çıxartdı. Ilk illər Kokand xanlığı («Kala-və Rəhim biy» adını daşıyırdı) Rəhim biy, oğlu Şahrux-biy mingin şərəfinə olaraq, «Kala-və Rəhim biy» adını daşıyırdı. Məlumatlara görə Kokand Rəhim biyin aldığı 4 xutorun ərazisini əhatə edirdi. Buraya Rəhim biy Xocəndin müstəqil hakimi öz qayınatası Akbut-biyin təqibindən qurtarmaq üçün gəlmişdi. Akbutun ölümü və Xocəndin birləşdirilməsindən sonra Rəhim biy Fərqanə vadisini birləşdirməyə başladı. Rəhim biy Margilan və Əndicanda hakimiyyətini möhkəmləndirdi, Səmərqəndə və Katta-kurqana yürüş etdi. Şəhərlərin işğalından sonra o, buraya öz canişinlərini təyin etdi. Rəhim biyin nəvəsi Abdulkərim Kokanda gəldi və onun hakimiyyətini burada yaratdı. Çinlilər tərəfindən Kaşğarın işğalı və kalmık cunqar dövlətinin onlarla münaqişəsi nəticəsində köçəri kalmık tayfalarının bir hissəsi qərbə tərəf irəlilədilər. Abdulkərim kalmıkların sərhəddə qərbə axınının qarşısını aldı. Çinlilərdən qaçmış Kaşğar müsəlmanları Fərqanədə sığınacaq

tapdılar. Kokand xanlığının ərazisi Səmərqənd vilayətinin hesabına genişləndi. Rusiya ilə iqtisadi əlaqələrin inkişafı nəticəsində Kokand, Andican, Namanqan və Margilan böyük ticarət mərkəzlərinə çevrildilər. Yeni su kanallarının çəkilməsi əkinçiliyin, bağçılığın, pambıqçılığın inkişafına təkan verdi. Mərkəzi hakimiyyətin səyi nəticəsində ölkədə həm iqtisadi, həm də siyasi sabitlik yarandı. Lakin tezliklə feodal ara müharibələri buna son qoydu. 70-ci illərin ortalarından XVIII əsrin sonlarına qədər Kokand xanlığını Narbut biy minq, nəvəsi Əbdülkərim biy idarə edirdi. Məlumatlara görə Narbut biy uzun müddət hakimiyyətdən imtina etmişdi. Deyilənlərə görə, onun Fərqanədə hakimiyyəti təhlükəli idi.

Kokandın tanınmış əyanları təntənəli surətdə Narbutun qarşısında sədaqət andı içdilər. Ancaq bundan sonra Narbut Fərqanənin hakimi olmağa razılıq verdi. Narbut biyin çarlığı dövründə Cust və Namanqan separatist hakimlərinin qüvvələri tərəfindən əzildi. Sonra o, üsyançı Xocənd hakimi üzərində qələbə çaldı, eyni zamanda Ura-Ğube formal olaraq Buxaradan asılı qaldı. XVIII əsrdə Daşkənd iri ticarət mərkəzi idi, Qazaxıstan, Rusiya, Orta Asiya xanlıqları ilə karvan ticarəti yüksək səviyyəyə çatmışdı. Cunqar hakimiyyətindən, Buxara asılılığından azad olunduqdan sonra, daşkəndlilər qonşu xanlıqlarda olmayan şəhər idarəetmə formasını yaratdılar. Şəhər 4 hissəyə bölünmüşdü. Hər bir hissəsin müstəqil hakim idarə edirdi. Varlılar və tanınmış əyanlar özləri bu hakimləri seçirdilər və bəzən məsələləri ümumi qurultayda həll edirdilər. Bu inzibati hakimlər növbə ilə xarici düşmənlərə qarşı hərbi qüvvə çıxarır, vacib məsələləri yığıncaqda həll edirdilər. 1874-cü ildə Daşkəndin inzibati hissələri arasında münaqişələr başladı, bu Muxantürk

məhəlləsinin qələbəsi ilə qurtardı. Bundan sonra qurultay həm tacirlər, həm də feodallar arasında böyük nüfuza malik olan Yunis Xocanı ümumi şəhər hakimi kimi təsdiq etdi. 1784-cü ildə Daşkənd hakimi Qazaxıstandakı rus hakimliyinə səfir göndərdi. Onları Qaxazıstanın Rusiyaya birləşdirilməsi məsələsi maraqlandırırdı. 1792-ci ildə Yunis Xoca rus çariçası II Yekatirinaya Daşkənddən Rusiyaya gedən kavran yolunun qarətinin dayandırılması haqqında, Böyük Orda qazaxları ilə ittifaqları barədə məktub göndərdi. O, Daşkəndə rus tacirlərini dəvət etdi və onların təhlükəsizliyi barədə zəmanət verdi. XVIII əsrin sonlarında Daşkəndə Kuramin rayonu, Sayram, Çimkent, Türkestan tabe edildi. Böyük Ordadan gəlmiş bələdçilər Rusiyaya gedən Daşkənd karvanının təhlükəsizliyini qorumağı öhdəsinə götürdülər. 1799-cu ildə Çirçikdə Kokand ordusu Yunis Xoca tərəfindən əzildi. Bundan xəbər tutan baxaralılar Xocəndə yiyələnməyə tələsdilər, ancaq Alim xan Xocənd və Ura-Tubedə buxaralılara qarşı vuruşdu, sonra Yunis-Xocanın qüvvələrini əzdi. Daşkənddə canişin kimi Yunis Xocanın oğlu Həmid-Xoca qaldı.

XIX əsrin əvvəllərində Rusiyaya gedən karvan ticarət yoluna yiyələnmək uğrunda uzun müharibədən sonra daşkəndlilər Kokand xanlığını itirdilər və müstəqillikdən məhrum oldular. 1847-ci ildə yeni vergilərə qarşı kütləvi xalq çıxışları baş verdi. Üsyana ipək parça emalatxanasının sahibi Məhəmməd Yusif bay başçılıq edirdi. Bəzi tarixçilər onu ağsaqqal adlandırırlar. Üsyanın əsas hərəkətverici qüvvəsini şəhər kasıbları təşkil edirdi. Yeni ağır vergilərin artması, xüsusilə də Musulmankulun dövründə bunların güclənməsi üsyanın hər an başlanması üçün şərait yetişdirdi. Şəhərin küçələrində barrikadalar quruldu, bir neçə həftə ərzində üsyançılarla şəhər hakimi Əzizpərvanəçi

arasında qanlı mübarizə baş verdi. Üsyanın birinci etapında daşkəndlilər Kuramin hakimi Nur-Məhəmmədi köməyə çağırdılar və onun ordusu ilə birlikdə əlverişli mövqe əldə etdilər. Əzizpərvanəçi hakimiyyətdən uzaqlaşdırıldı. Nəticədə Kokandın nümayəndəsi edam edildi. Nur Məhəmməd isə Daşkəndin yeni hakimi təyin olundu. Üsyanın gücünün artmasını görən Musulmankul üsyançıların tələbi ilə razılaşmağa məcbur oldu və onların seçdiyi nümayəndəni, 500-lər şurasını və Daşkəndin tanınmış çyanlarını təsdiq elədi. Alim xan (1800-1809) nəinki Fərqanəni öz hakimiyyəti altında birləşdirdi, həmçinin Rusiyaya gedən vacib karvan ticarət punktları olan Daşkənd və Çimkenti də asılı vəziyyətə saldı. Özünün iqtisadi və strateji mövqeyinə görə Daşkənd yüz illər boyu Mavərənnəhr, qazax, kalmık xanları arasında mübarizə meydanına çevrilmişdi. Alim xanın hakimiyyətinin mahiyyəti saray əyanlarının narazılığına səbəb oldu. Sui-qəsd nəticəsində Alim xan öldürüldü. Onun yerinə sui-qəsdin yaxın iştirakçısı olan qardaşı Omar hakimiyyətə keçdi. Omar xanın hakimiyyəti dövründə onun ilk aktı Buxara əmiri Heydər ilə bağladığı ittifaqdır. Tezliklə Rusiyaya gedən ticarət yoluna yiyələnmək üstündə 2 xanlıq arasında nifaq düşdü. 1815-ci ildə Omar xan Buxaraya tabe olan Türküstana hərbi yürüş təşkil etdi və şəhəri qarət etdi. Daşkənddən, Buxaradan, Xivədən Orenburqa gedən karvan yolunun üstündə kokandlılar Ak-meçet müdafiə qurğusu tikdilər. Bu Rusiyaya gedən karvan yollarının müdafiəsi üçün lazım idi.

1812-ci ildə Omar xan Rusiyaya səfirlik göndərdi. 1813-cü ildə Kokanda rus səfiri F.Nazarov gəldi. 1821-ci ildə kokandlılara qarşı qazaxların üsyanı baş verdi. Üçyançılar hətta Çimkent və Sayramı tutmağa müvəffəq oldular. Kokand ordusu çox böyük əziyyətlə bu

hərəkatı yatırda bildi. 1829-cu ildə Kokand xanı Məhəmməd Əli (1822-1842) Kaşğara hərbi yürüş təşkil etdi. Çinlilərin Kaşğara qarşı müdaxiləsi onu geriyə çəkilməyə məcbur etdi. Ancaq oradan Fərqanəyə 70 000 adam apardı, hansı ki, bu adamlar müxtəlif yerlərdə, xüsusilə də, Şəhrixanda yerləşdirildi. Kokandla Kaşğar arasında əlaqələr qaydaya salınandan sonra kaşqarların çoxu vətənlərinə döndülər. Kokandların səyi nəticəsində Altay dağının cənubunda yerləşən taciklər də onlara tabe edildi. Məhəmməd Əlinin xarici siyasəti ölkənin durumunu yüksəltmədi. Xalqın və feodalların narazılığı ruh birliyi yaratdı. Üsyandan çəkinən üsyan başçıları Əmir Nəsrulla ilə ittifaq yaratdılar. Məhəmməd Əli apardığı uğursuz hərbi siyasət nəticəsində, Buxara əmirinin vassalına çevrildi və Xocəndi güzəştə getməli oldu. 1842-ci ildə Əmir Nəsrulla Kokanda qarşı hərbi yürüş təşkil etdi. Məhəmməd Əli və onun yaxınları edam edildi. Tezliklə Daşkənd də tabe edildi. Burada öz canişinini təyin edəndən sonra əmir öz paytaxtına qayıtdı. 1842-ci ildə vergilərin 4 dəfə artması nəticəsində üsyan qalxdı. Üsyan nəticəsində Kokandda Əmir Nəsrullanın hakimiyyəti devrildi.

### *§12 Buxara xanlığı*

Ruslar 1554-cü ildə Həştərxan xanlığını torpaqlarına qatdıqları zaman xanədana mənsub Yar Məhəmməd xan qaçıb Buxaraya gəlmişdi. Yar Məhəmmədin oğlu Can Buxara hakimi Isgəndərin qızı ilə evləndi. Bundan doğulan Baqi Məhəmməd özbək xanlığı Səfəvilərə məğlub olaraq ortadan qalxdıqda, 1599-cu ildə özünü Buxara xanı elan etdi.

XVIII əsrin əvvəllərində Buxara xaqanlığının ərazisi kiçilmişdi.

Səmərqənd başqa şimal rayonları Qazaxıstandan gəlmiş köçərilərin hədə-qorxusu altında olmuşdur. Məhz bu amil tacirlərin Karvan yolu ilə ticarətini pozurdu. Xarici ticarətin zəifləməsi şəhər həyatına, mənfi təsir göstərdi. Sənətkarlar və tacirlər müflisləşdilər. Buxara xanlığının vergiləri o qədər azaldı ki, hökumət məcburiyyət qarşı-sında şəhər varlılarından böyük məbləğdə borc pul götürdü. Bu isə sənətkarlıq və ticarətin süqut etməsinə səbəb oldu. Sənətkarların və kəndlilərin üzərinə əlavə vergilər qoymaq isə mümkün deyildi. Lakin dövlətin başqa əlacı yox itdi. Buna görə də XVII əsrdə kəndli üsyanları geniş vüsət aldı.

Ubeydulla xanın dövründə 1708-ci ildə tərkibində 9%-dən az gümüş olmayan yeni pul vahidləri buraxıldı. Buxara ticarləri bu yeni pul vahidini qəbul etmədilər, dükanlarını bağladılar, mallarını gizlətdilər. Sənətkarlar özlərinin min zəhmətlə istehsal etdiyi mallarını aşağı dəyərdə heç kəsə satmaq istəmirdilər. Emalatxanalarda bütün işlər artıq dayandırılmışdır. Əhali heç bir yerdə ərzaq məhsulları əldə edə bilmirdi. Buxaranın normal iqtisadi şəriati tamamilə dağıldı. xüsusilə kasıb sənətkarlar, muzdlu kəndlilər, böyük şəhərlərdə müxtəlif vəzifələrdə xidmət eləyənlərinin vəziyyəti çox ağır idi. Aclıq nə müharibənin, nə də ərzaq qıt-lığının nəticəsində deyil, sadəcə olaraq xan hakimiyyətinin düşünülməmiş qərarları, fərmanları nəticəsində başlamışdır. Bu, şəhərlərdə çıxışlara, üsyanlara səbəb oldu.

Bu üsyan haqqında məlumat, ancaq «Ubeydullanamə»də verilmişdir. Əvvəlcə sadə, zəhmətkeş xalq xana şikayət eləyir, ancaq onların şikayətləri xana gedib çatmır. Onda onlar xalqın ümumi etibarını qazanmış bir şəxsə öz dərdlərini danışır və bu şəxs sonralar üsyana başçılıq eləyir.

Bu üsyan başçısının adı, həyatı haqqında heç bir mənbədə məlumat yoxdur. Sadəcə olaraq onun ləqəbi «Devanai Pansadmani» olmuşdur. O, xalqın vəziyyəti ilə yaxından tanış olub onlarla birlikdə Masum-atalıkın evinə tərəf gedir. Kasıb, sadə xalqın qəzəbindən qorxan xanın yaxın adamlarından biri olan feodal başçısı-atalık bərk təşvişə düşdü, onların sözünü xana çatdırmağı öhdəsinə götürdü. Ancaq xalq buna inanmadı. Onlar Reqistan meydanına tərəf irəlilədilər və sarayın qapısını daşa basdılar. Təkcə xan öz qüvvələrilə  bu cür əliyalın xalqı qorxuda, üsyana dağıda bilərdi. Ubeydulla xan tacirləri ölüm qorxusu ilə hədələyərək dükanlarını açmağ, yeni pulu qəbul etməyi əmr etdi. Lakin tacirlər xanın əmrini yerinə yetirmədilər. Şəraiti nəzərə alan xan onların təklifi ilə razılaşdı. O, pulun dəyərini 2 dəfə artırdı.

Eyni vaxtda Ubeydulla xan vergiləri də qaldırdı. Sahibkarlar  40 cür vergi ödəməli oldular. Xalqın və tayfa başçılarının birləşməsi nəticəsində 1711-ci ildə Ubeydulla xan öldürüldü.

1722-ci ildə Səmərqənddə hakimiyyətə Rəcəb xan gəldi. O, Buxaraya müharibə elan etdi. Keneqaslar Rəcəb xanı Buxara taxtına gətirmək istəyirdilər. Lakin şəhər əhli buna qarşı ciddi müqavimət göstərdi. Rəcəb xan Buxaranı tuta bil-məyib geri qayıtdı. 1739-1740-cı illərdə Buxara xanlığı Iran işğalçısı Nadirin xərac verən vilayətinə çevrildi. Karşı və Karakule döyüşlərində iranlılar buxaralıları məğlub etdilər. Atalık  Xakım-biy, onun qardaşı Daniyel – biy, Rəhim Nadir şahla sülh müqaviləsi imzaladılar. Bunun əvəzində Nadir şah onlara kəndlilər üzərində hakimiyyət və böyük torpaqlar vəd etmişdi. Xan sarayında əyanlar manqitları xəyanətdə günahlandırır və özlərinin bu sülhə razı olmadıqlarını göstərdilər. Buna görə də Xakim biy bir daha

saraya və Buxaraya qayıtmadı və Mir-Ərəb mədrəsəsində yaşadı. Əvvəl-axır Əbülfəz xan bu müqaviləyə razılaşdı və Buxara Iranın vassallığına çevrildi. Dövləti faktiki olaraq daxili müstəqilliyini saxlamaqla Əbülfəz xan idarə edirdi.

1745-ci ilin aprelində təxminən bahar bayramına təsadüf eləyən bir dövrdə Ibadullanın başçılıq etdiyi Miyankala qıpçaqları bayram əhvali-ruhiyyəli xalqın üzərinə hücum edib, şəhəri talan etdilər. Nadir şahın tapşırığı ilə Buxaraya gələn Rəhim xan buranı qıpçaqlardan təmizləsə də, o burada Əbülfəz xanın hakimiyyətini deyil, özünün hakimiyyətini möhkəmləndirdi. 1747-ci ildə Nadir şah Rəhim xanı Irana çağırdı və Əbülfəz xanı isə devirib, yerinə azyaşlı qardaşı Əbdülmömini taxta çıxartdı, amma bütün dövlət işləri Rəhim xana tapşırılmışdı. Hakimiyyətidən uzaqlaşdırılan Əbülfəz xan uzun müddət Qaziabadda həbsdə qaldı. Sonra isə Rəhim xan tərəfindən ölümünə fərman verildi. Buxaranın faktiki olaraq sultanı olsa da, Rəhim xan burada öz mövqeyini möhkəmləndirdi və 1747-ci ilədək Nadir şahın ölümünə qədər vassal asılılığında qaldı.

1747-ci ilin iyun-iyul aylarında Buxara Irandan gələn qızılbaşların güclü artilleriya atəşinə məruz qaldı. Lakin onların cəhdi baş tutmadı. Sülh müqaviləsi bağlayıb Irana döndülər. 1758-ci il 24 martda Rəhim xan öldü, yerinə dayısı Daniyal bəy keçdi. Daniyal bəy özlərini Çingiz nəslindən hesab edən feodalların-Fazil Tyuryu, Əbülqazi və başqalarının ölümünə qərar çıxartdı. 1781-ci ildə rus hökuməti Buxaraya ticarət müqavilələri bağlamağı təklif etdi. 1784-cü ildə Buxarada nəticədə 1000 nəfər insanın tələfatı ilə nəticələnən üsyan baş verdi. Daniyal bəy öz hakimiyyətini oğlu Şahmurada verməli oldu, ona görə ki, oğlu şəhər

əhalisi arasında yüksək nüfuza malik idi.

Xarici ticarətdə daha çox diqqəti cəlb edən və qazanc gətirən pambıq və başqa kənd təsərrüfatı məmulatları, XVIII əsrin ikinci yarısında sənətkarlığın və kənd təsərrüfatının həyatında əsas canlandırıcı iqtisadi qüvvəyə çevrilmişdir. Manqitlar öz hakimiyyətlərinin güclü dövründə daha çox mərkəzi hakimiyyətin qüvvətlənməsinə böyük fikir verirdi. Manqıt sülaləsinin 3-cü nümayəndəsi Şahmurad Rəhim xan və Daniyal biydən fərqli olaraq, yüksək çinli feodalları, saray əyanlarını vəzifədən uzaqlaşdırır, xüsusilə 2 böyük dövlət məmurunu-Dövlət Quşbeyi və Nizamuddini öldürməklə iri feodalların müqavimətini qırıb hakimiyyətini möhkəmləndirdi.

1785-ci ildə Şah Murad xan yeni pul islahatı qəbul etdi. O vaxta qədər Buxarada 2 pul vahidi, gümüş (tanqa), qızıl (əşrəfi) mövcudl idi. Nəsrulla xanın hakimiyyəti (1826-1860) də iri feodallara qarşı mübarizədə keçmişdir. Ali hakimiyyət əmirə məxsus olsa da, bütün dövlət işləri böyük quşbəyilərin əlində cəmləşmişdi. Adi saray məmurlarından sonra gələn kiçik quşbəyilər yerli vilayətlərdə məhkəmə işlərinə baxan divanbəyilərə rəhbərlik edirlər. Buxaranın siyasi həyatında müsəlman ruhanilri mühüm mövqe tuturdu. Iki kateqoriyaya bölünən bu təbəqəyə-şeyxülislam, qazi, rəis, müfti, müdərris, imam və b. daxildir. Ikinci kateqoriyanı derviş şeyxləri, işanlar təşkil edirdilər. XIX əsrdə Buxaranın qonşu ölkələr ilə – Iranla, Əfqanıstanla, Xivə ilə, Çinlə, Hindlə Daşkənd ilə dəri, ipək, pambıq məhsullarının alış-verişi aparılırdı. Buxarada çoxlu sayda dərzilər zərgərlər, dəmirçirlər, dulusçular, çəkməçilər fəaliyyət göstərirdi. N.Xanıkov 1840-cı ildə Buxaranın çuqun zavodu haqda məlumat verir. 1820-ci ildə Buxarada olmuş E.Meyendorf

Buxara haqqında təsərrüfatlarını söyləyərkən bu şəhərin hətta avropalıları da heyrətə gətirdiyini qeyd eləyir. Bir avropalı olaraq müsəlman şəhərinə valeh olmağına baxmayaraq, kasıb əhalinin vəziyyəti haqda məlumat vermişdir.

1810-cu ildə Buxarada böyük üsyan baş verdi. Bu bir sıra üsyanlara da təkan vermiş oldu. Enyi zamanda 1 apreldən 16 maya qədər xeyli insan tələfatı törədən qasırğa da bu dövrə düşmüşdü. Bu da dəhşətli aclığa gətirib çıxartdı. Xalqın qəzəbindən qorxan əmir Heydər Buxaradan qaçdı.

Buxaranın daxili və xarici vəziyyətindən istifadə edən Myankala qıpçaqları üsyan qaldırdılar. Bütün bunlar əlbəttə ki, Buxaranın siyasi həyatına mənfi təsir göstərirdi.

### *§13 Buxara kapitalizm dövründə*

1868-ci il sülh müqaviləsindən sonra Buxara əmirliyi çarizmin müstəmləkə zülmünün əsarəti altına düşdü. Əmirliyin ali hakim təbəqələri xalq üzərində əvvəlki feodal əsarətini saxlamaq üçün, çarizmi müdafiə etməyə başladılar. Öz növbəsində Buxaranın din xadimləri də çarizmin yerlərdə ictimai dayağının müdafiəçisi kimi çıxış etməyə başladılar. Əvvəlki vaxtlarda olduğu kimi mürtəce dini dairələrin əlində böyük hakimiyyət var idi. Öz tərkibində çoxsaylı dini zümrələri (seyid, dərviş və s.) birləşdirən bu dini hakim dairə çar hakimiyyətinə arxalanan zəhmətkeş xalq üzərində nəzarətsiz hökmranlıq edirdilər. Onlar özlərinin müxtəlif üsul və metodlar vasitəsi ilə xalq çıxışlarını sakitləşdirir, hətta silahlı qüvvə tətbiq etməklə də üsyanları yatırdırdılar.Feodal təsərrüfatının əsas hissəsini süni suvarmaya əsaslanan əkinçilik sahələri

təşkil edir. Süni suvarma əkinçiliyinin tarixi çox qədimlərə gedib çıxır. Məs; 1901-ci ildə italyan Pompellinin arxeoloji ekspedisiyası qədim Anau mədəniyyətinə süni suvarma kanalı aşkara çıxarmışdı.(Aşqabad yaxınlığında). Min ildən çox tarixə malik olan Xivə kanalı haqqında ərəb müəllifi Istəxri, Zərəfşan vadisindəki kanal haqqında isə ərəb yazıçıları Ibn Havqal və Yaqut Həməvi məlumat verir.

Buxaranın əkin sahələri Zərəfşan çayının suyu ilə suvarılırdı. Bu çay yalnız Pəncikənddən Buxara sərhədinə qədər olan ərazidə 83 süni suvarma kanalını su ilə təmin edirdi ki, bunlardan da ən böyüyü Çirçik sisteminə daxil olan kanal idi. Əlbəttə ki, Zərəfşan çayının suyu bol olmadığına görə onun suyunu növbə ilə kanallara buraxırdılar. Zərəfşan çayının suyundan süni suvarmada istifadə etmək üstündə dəfələrlə Buxara hakim dairələri ilə rus hakimiyyət orqanları arasında mübahisələrə səbəb olmuşdu. Nəhayət Buxara tərəfi suyunun 3/1-dən istifadə etməklə razılığına gəldi. Məs; mart ayında Buxara sahəsinə 9,7 mln.kub.saj, rusların sahəsinə isə 14,7 mln.kub.saj, ümumilikdə 24,4 mln.kub. saj səviyyəsində Zərəfşandan su verilirdi. Beləliklə Zərəfşanın suyu hər iki sahə üçün bəs eləmirdi.Zərəfşan çayının yuxarı axarlarında yaşayan əhalinin suvarma imkanları, çayın aşağı axarı boyunda yaşayanlara nisbətən yaxşı vəziyyətdə idi. Çünki yuxarıdakılar suvarmadan istifadə etdikləri müddətdə aşağıda yerləşən əkinlər sussuzluqdan yanıb kül olurdu. Arxiv sənədlərində çayın aşağı hissəsində yerləşən Karakul rayonunun boş qalmış, becərilməmiş əkin sahələrindən danışılır.

XIX əsrin ortalarında Buxarada su çatışmamasına görə əkin sahələri azaldı və onun satış qiyməti qalxdı. Məs; 1840-cı ildə bir «tanab»

torpağın qiyməti 15-30 tillo (1 tillo 14 man.35 qəp.) idi. Buxaranın yararlı əkin sahəsi 500 kv. milə qədər əhalisinin sayı isə 2,5 mln. nəfərə qədər idi. Torpaqdan alınan vergi isə 103 min tillo səviyyəsində müəyyənləşmişdi.

XIX əsrin sonlarına qədər Buxarada kiçik torpaq sahələrinə malik olan müstəqil kəndli (dehqan) təsərrüfatları qalmaqda davam edirdi. Bu cür kiçik təsərrüfatların sahibləri olan kəndlilər müqavilə yolu ilə «əmlakı» torpaqlarını da becərirdilər. Adi bir səhv nəticəsində müqavilə pozulur və torpaq müqavilə ilə başqalarına verilirdi. Müqavilənin müddəti ən çox becərilmənin keyfiyyətindən asılı idi. Bundan əlavə, suvarma üçün suyun olmaması və başqa səbəblərdən torpaq 6-8 il hər iki tərəfin ixtiyarında qalmaqla, vaxt müddəti uzanırdı.

Tamamilə torpaqları əllərindən çıxmış və yalnız günə muzd işin ümidinə qalmış dehqan-batraklara Buxarada «yetim» deyilirdi. Bu cür yetimlərə torpağı əkib becərməyin müqabilində pul və ya natura formasında digər məhsullar verilirdi. Çaruklara və batraklara verilən torpaqlar ancaq onun sahibkarı üçün əlverişli olan şərtlərlə verilirdi. Torpaq sahibləri çox vaxt şəriətin imkanlarından istifadə edərək müqaviləni pozur və yaxud da özü üçün əlverişli olan tələbləri qəbul etdirirdi.

Kiçik dehqan təsərrüfatları «xam-yuq» adlanan yoldaşlıq iş üsullarından istifadə edərək növbə ilə bir-birinin əkin sahələrini becərirdilər. Çox vaxt bay dehqanı əmək alətləri, toxumla təmin edir, əvəzində isə faiz alırdı.

Ən möhkəm və sarsılmaz hesab olunan, dövlət tərəfindən müdafiə olunan «vəqf» (mülkiyyət) torpaq mülkiyyət forması idi. Məs; iri torpaq

sahibkarları əndicanlı Mir-Kamil-bay Muminbayev 2500 tanab torpaq sahəsinə malik olaraq özünü «həqiqi müsəlman» sayırdı. Bundan əlavə Əndicanda Xuday-qul-bəy-baça 800 tanab, Nəmədanda Axun-Canxoca 2500 tanab, Kra- xan-tura isə 900 tanab torpaq sahəsini ələ keçirmişdilər. Bir tanab sahə isə 625 kv.sajenə və yaxud 4/1hr. bərabər idi. Altı-Arıkda Ak-duppi-işan 1000 tanab torpağa, 1 baş suya, 10 taş dəyirmana və bir pambıq zavoduna malik idi. Zərəfşan çayından arıqlara vurulan suların miqdarı «taş» və yaxud «dəyirman» adlanan ölçü vahidindən istifadə edilirdi. Bundan əlavə suların miqdarını ölçmək üçün «madikar», «taka», «daxana», «nimçə», «kuzə» və s. ölçü vahidlərindən istifadə olunurdu. Bir mardikar su ilə 16 tanab yeri suvarmaq olurdu. Mardikarın 16/1-si nimçə adlanırdı. Kanaldan 12 saat müddətində axıdılan suya «taka» deyilirdi. Dörd tanab yeri çuvarmaq üçün axıdılan 4 saatlıq su «taş» adlanırdı. Bu ölçülər sistemi ilə suvarılan əkin sahələri «daxana» adlanırdı. Bulaq (çaşma) suları 10-12 litrlik kuzələrlə ölçülürdü.

Böyük miqdarda əkin sahələrinə və sulara malik olan ali müsəlman dini dairələri özlərini «şərəfli müsəlmanlar», aşağıda kütləni isə «qaralar» adlandırırdılar.

XIX əsrin sonu-XX əsrin əvvəllərində feodal Buxarasında sinfi ziddiyyətlər o dərəcəyə gəlib çatmışdı ki, baş verən antifeodal hərəkatlarının qarşısını yuxarı hakim təbəqələr ala bilməmişdilər.

I Dünya müharibəsi qurtardıqdan sonra ölkədə baş verən aclıq, qıtlıq və dağıntı, xüsusilə, kənd təsərrüfatına ağır zərbə vurdu. Ən gəlirli sahə hesab olunan pambıq sahələri Türküstan, Buxara və Xivədə 1916-cı ildə 530821 desyatin, 1917-ci ildə isə 425849 desyatin olmuşdu. 1918-ci ildə hətta Türküstanda pambıq əkin sahələri 80000 desyatinə qədər, Buxarada

isə 100 mindən 30-35 min desyatinə qədər azalmışdı. Buxaranın yerli sənayesi kiçik kustar sənətkar emalatxanalarından ibarət idi ki, bunlar da yalnız kənd təsərrüfatı mallarının emalı ilə məşğul olurdular.

L.N.Sobolevin məlumatına görə «XIX əsrin 70-ci illərində Buxarada aşağıda adları qeyd olunan bəyliklər üzrə əkilən torpaqların sahəsi 289174,2 desyatin olmuşdu».

Ziyauddin, Xatırçin, Kermenin, Qijduvan, Şafrikan, Pirmast, Vabkent bəyliklərində, Zandanin, Romitana, Jandar, Vaqenzen tumanlarında, Buxara ətrafı ilə birlikdə və Karakul tumanlarında yuxarıda göstərilən miqdarda əkin sahələri var idi.

Əkin torpaqlarının becərilməsi feodal hakimiyyətinin iqtisadi və siyasi əsasını təşkil edirdi. Torpaq və su üzərində böyük sahiblik hüququna malik olan iri feodallar dehqanlar üzərində böyük səlahiyyətə malik idilər. Buxaranın ictimai-iqtisadi həyatının xarakterik xüsusiyyətlərindən biri o idi ki, burada XX əsrin əvvəllərinə qədər feodal-patriarxal münasibətlərinin bütün elementləri qalırdı. 1920-ci ildə Buxarada Sovet inqilabının qələbə çalması ilə feodal ictimaiquruluşu ləğv olunaraq Sovet quruluşu ilə əvəz olundu. Torpaq Sovet dövlətinin torpaq fonduna keçdi, əhali isə həmin torpaqlarda işləyən günəmuzdlulara çevrildilər.

XIX əsrdə Buxara xanlığının iqtisadi tarixi haqqında (məlumat) ilk mənbə hesab olunan və bizim dövrə qədər gəlib çatan «Vakf-namə» adlanan mənbədir. Lakin nə «Vakf-namə»də, nə də digər mənbələrdə xanlıqda feodal torpaq sahibliyinin ümumi sxemini dəqiqləşdirmək mümkün olmamışdı. Məs; tarixçi Z.A.Kutbayev özünün «Xoca Axrar və onun nəsillərinin vəqf sahibliyi tarixi» adlı namizədlik işində Xoca

Axrarın nə qədər torpağa sahib olması məsələsini dəqiqləşdirə bilməmişdi. O, qeyd edirdi ki, Xoca Axrar XIX əsrin sonlarında Daşkənd vilayətinin Bulatov volostunda 9186 və yaxud 55116 tanab torpağa sahib olmuşdu.

Avropada torpaq onun kəndlisi ilə qiymətlənrilirdisə, Orta Asiyada isə torpaq yalnız onun suvarılma imkanı ilə qiymətləndirilirdi. Suvarılmayan torpaqların heç bir qiyməti yox idi.

Ölkənin bütün həyatını tənzimləyən şəriət qayda-qanunları idi. Şəriət bütün yeniliklərin qarşısını alaraq, hər şeyi təsiri altına alır və özünə tabe edirdi. Şəriəti əllərində böyük vasitəyə çevirən dini əyanlar qarşısında Buxara əmirinin özü də gücsüz idi. Məs; Əmir Abduləhəd (1885-1910) «ağ çarı» müdafiə etdiyinə görə dini təbəqələrin ali zümrəsi ilə toqquşdu, məcburiyyət qarşısında qalan əmir 1897-ci ildə Buxara şəhərini tərk edərək öz əyanı ilə Kerminə köçdü.

1910-cu ildə Buxarada sünnilərlə şiələr arasında qanlı toqquşmalar baş verərkən çar öz məlumatını əmirə çatdırmaq üçün Rusiya imperator siyasi agentliyinin I katibini Buxaraya göndərdi. Həmin məlumatda göstərilirdi ki, əmir, hətta onun taxt-tacı üçün təhlükə yaransa belə həmin dini münaqişəyə müdaxilə etməsin. Çarizm əmir hakimiyyətindən dini dairələrin nüfuzunun üstün olduğunu çox yaxşı başa düşürdü. Din çarizmin yerli müstəmləkə rejiminin ən mühüm vasitəçisi idi.

Başqa bir nümunəyə müraciət edək. 1917-ci ilin sentyabrında çarizmin müstəmləkə inzibati-idarəsinin nümayəndəsi Əmir Əlimxandan yeni üsullu məktəbin açılması üçün icazə verməsini xahiş etdi. Əmir dərhal bu işə razılığını bildirdi, lakin kazi-kalan Burhanəddin –sədr bu işin həllinə icazə vermədiyinə görə məktəblər bağlandı. O göstərdi ki,

məktəblərin cədidlərin, yəni islamın düşmənlərinin əlində olması yol verilməz haldır. Bu cür məktəblərin açılmasına icazə vermək olmaz. Buxarada həqiqi hakimiyyət 3 böyük əyanın əlində cəmlənmişdi: kazi-kalan, kuşbəy, topçi-başı (ordu komandanı).

Buxarada 1784-cü ildən hakimiyyətdə Manqitlar sülaləsi hökmranlıq edir. Manqitlar ana tərəfindən Məhəmmədin nəslindən hesab olunurdular.

XIX əsrin sonlarında Buxara şəhərinin ətrafına çiy kərpicdən qala divarları çəkildi. Divarın uzunluğu 11 verst 400 sajen, hündürlüyü 4 sajen, 131 qala qülləsi və 11 darvazası var idi. Şəhərdə 360 ensiz küçə, dalanlar və Reqistan meydanı, 50 bazar (örtülü), 364 məscid, 138 dini məktəb, 200-ə qədər mədrəsə, 13 qəbirstanlıq və 8 sinoqoq (yəhudi) var idi.

XIX əsrin sonlarında Buxara şəhərinin əhalisinin sayı 150 minə qədər idi. Buxara Orta Asiya üçün ən mühüm ticarət mərkəzi hesab olunurdu. Çoxsaylı firmalar burada özlərinin çoxlu idarələrini yaratmışdılar. Onlar pambıq, yun, dəri, karakul, qənd, çay və başqa məhsullar üzrə çoxlu müqavilələr bağlanılırdı. Bütün bu ticarət dövriyyəsi əmirə çoxlu kapital toplamağa imkan verirdi.

### *§14 Rusiya tərəfindən Xivənin işğalı*

Xivə üzərinə yürüş etmək üçün rus hərbi düşərgələrində hazırlıq işləri artıq çoxdan başa çatdırılmışdı. 1873-cü ilin yazında Xivə xanlığının sərhədlərinə böyük miqdarda rus qoşun hissələri toplanmışdı. Yalnız bir bəhanə lazım idi. Bu bəhanə isə o idi ki, Xivə xanının özünün saysız-hesabsız yürüşləri nəticəsində qarətlər, talanlar baş verir,

iqtisadiyyat və ticarət pozulur. Məhz buna görə də Kokand, Buxara xanlığı kimi Xivə xanlığı üzərində də “mədəni” ölkə olan Rusiyanın nəzarətini təmin etmək lazımdır. Türküstan və Orenburq dairələrindən hazırlanmış böyük hərbi dəstələr siqnal gözləyirdilər. Qafqazda təşkil olunmuş Krasnovodski silahlı dəstələri isə birbaşa Xivə üzərinə göndərildi. Birləşmiş çar orduları xanlığın mərkəzi Xivə üzərinə yeridi. Qalada yalandan hay-küy qaldırmaqla, qorxu hissi yaradılaraq ələ keçirildi. Xivə xanı II Seyid Məhəmməd Rəhim xan qala alınmamışdan bir neçə gün əvvəl taxtdan salınmışdı. Yeni xan onun qardaşı Atacan-Tyura idi. “1873-cü ilin may ayının 29-da Xivə şəhəri döyüşsüz ələ keçirildi. Xivə xanlığının işğalı başa çatdırıldı”.

Çar hökuməti özü üçün əlverişli şərtlərlə devrilmiş II Seyid Məhəmməd Rəhim xanı Xivə taxtına çıxartdı. 12 avqust 1873-cü ildə Xivə xanı danışıqsız Rusiyanın şərtlərini qəbul edərək sülh müqaviləsinə imza atdı. Xivə xanı müstəqil xarici siyasət aparmaqdan məhrum olundu. Bundan əlavə Xivə xanı özünü rus çarının həmişəlik xidmətçisi elan edib ondan vassal asılılığını qəbul etdi.

Xivə xanlığı üzərinə 2 200 000 manat təzminat qoyuldu ki, bu da yoxsul türkmən xalqının üzərinə düşdü. Xan öz yanında 7 nəfərdən ibarət Divan yaratmışdı. 1874-cü ildə isə Divan ləğv edildi. Rus hökuməti xanlığın idarə sistemində heç bir dəyişiklik etmədi. Türkmənlər yenə Daşauz, Porsu, İlyalı və Kunya-Ürgənc bölgələrində yaşayırdılar. Türkmən tayfalarına yenə də öz tayfa rəhbərləri başçılıq edirdi.

Rusiyanın Orta Asiyadakı müvəffəqiyyətləri İngiltərəni narahat edir, onlar hər bir vasitədən istifadə edərək buna mane olmağa çalışırdılar. Bu məqsədlə Axal-təkəli türkmənlərindən istifadə edərək

onları rus müstəmləkəçilərinə qarşı qaldırmağa çalışırdılar. 1876-cı ildə rus komandanlığı onlara qarşı sülhpərvər siyasətindən əl çəkib birbaşa hərbi əməliyyatlar keçirmək fikrinə düşdü. Hətta Lomakin özü təcili olaraq təkəlilərə qarşı hərbi əməliyyatlara başlamağı məqsədəuyğun sayırdı. Lomakinin fikrini bəyənən Qafqaz ordu komandanı 20 oktyabr 1876-cı ildə Hərbi nazirə məktub göndərərək hərbi əməliyyatlara başlamaq üçün təlimat göndərilməsini məsləhət bildi. Nəticədə Lomakin 1877-ci ilin yazına qədər hazırlaşmaq üçün göstəriş aldı.

1877-ci ilin aprelində Krasnovodskidən çıxan silahlı dəstələr Molla-Karaya gəlib çatdılar. Buradan isə Aydın, sonra isə Axala hücum planlaşdırıldı. Axal və Qızıl Arvat əhalisi 1872-ci ildə Markozovun qəddarlığını yaddan çıxartmamışdılar, ona görə də rus komandanlığına inanmırdılar.

1877-ci ilin may ayının 12-də Qızıl Arvat və Yalçı-Atada ilk silahlı toqquşmalar baş verdi. Nurverdi xanın təkəli dəstələri polkovnik Navrotskonun qüvvələrini ağır vəziyyətə salsa da, ruslara əlavə qüvvələr gəlməsi ilə onlar geri çəkildilər.

1877-ci ildə Yalçı-Atada baş verən toqquşma ilə Rusiya türkmən tayfalarına qarşı əslində müharibəni başlamışdı. Lakin onun bir qədər sakitləşməsinə 1877-1878-ci illər Türkiyə-Rusiya müharibəsi səbəb olmuşdu. Türkmənlərin öz azadlığı uğrunda mübarizəsi 1879-cu ildən başlanır. 1879-cu ilin avqust ayının ortalarında çar orduları Göy- Təpə ətrafında dayanarkən Axalın təkəli-türkmən əhalisi ümumi tayfa yığıncağına-məsləhətə toplaşaraq ruslara qarşı mübarizə aparmaq məsələsini müzakirə etdilər. Müharibə əleyhinə Qrazməmməd xan və Xanməmməd-Atalıq xanın tərəfdarları olan feodal-əyanlar çıxdılar.

Lakin son anda hamı yekdilliklə çar ordularına qarşı mübarizə aparmaq qərarına gəldilər

21 avqust 1879-cu ildə Lomakin öz dəstələrini türkmənlərin tərk edib getdikləri Bami, Beurme, Arsman, Sunçe, Baxarden, Durun və Yaraçı kəndlərindən keçərək, Göy-Təpəyə yaxınlaşdı. Göy-Təpə ətrafında döyüş 1879-cu ilin avqust ayının 28-də baş verdi və rus orduları ağır məğlubiyyətə uğradı. Göy-Təpədə təkəlilərin qələbəsinin əsas səbəbi onların qəhrəmanlıqla döyüşməsi idi. Öz tərkibinin yarıdan çoxunu itirmiş və ruhdan düşmüş rus ordu hissələrinin qalıqları əvvəlcə Beurmana, sonra isə Tersakana geri çəkildilər. Xəzərarxası hərbi şöbənin generalı yeni komandan Perqukasov Çekişlyarda, Çatedə, Duz-Olumda və Tərsə-xanada yerləşən rus ordularına baxış keçirdikdən sonra yeni hərbi əməliyyatlara başlamağı lüzumsuz saydı.

Göy-Təpə ətrafında rus ordularının məğlubiyyəti çar Rusiyasının hakim dairələri içərisində kəskin narazılığa səbəb oldu. Bu həm də Rusiyanın Orta Asiyada nüfuzunun aşağı düşməsinə gətirib çıxara bilərdi.

Göy-Təpə məğlubiyyətindən dərhal sonra general Terqukasov Axalın işğalı planını ortaya qoydu. Bu plana uyğun bütün hazırlıq işləri hərtərəfli ölçülüb biçilmişdi. Hətta Krasnovodskidən Qızıl-Arvata dəmir yolu çəkilməsi də nəzərdə tutulmuşdu. 1881-ci ilin yazında Beurma ələ keçirildi və bütün ili bura hərbi sursat daşındı. Yalnız 1882-ci ildə Göy-Təpəyə yaxınlaşdılar.

Hələ 1880-cı ilin yanvarında Türkmənistana yeni hərbi yürüş təşkil edilməsinin müzakirəsi zamanı gələcək ekspedisiyanın rəisi olacaq general M.D.Skobelev göstərdi ki, dəmir yolunun çəkilməsi və yaxud

böyük tikinti işlərinin aparılması müvəffəqiyyət üçün əsas ola bilməz. Hərbi sursatı daşımaq üçün dəvələrdən də istifadə etmək olardı. Dəvələri isə türkmənlərdən və qazaxlardan satın almaq olurdu.

1880-cı ilin əvvəllərindən rus ordularının ön hissələri görünən kimi təkəlilər kəndləri boşaldıb, Göy-Təpədə mövqe tutdular. Skobelev Bamidə möhkəmlənib, Axalı nəzarətdə saxlamağa çalışaraq türkmən kəndlilərinə dağıdıcı yürüşlər etməyə başladı. Skobelev Göy-Təpənin ətraf kəndlərlə əlaqəsini kəsməyə çalışırdı. Ətraf kəndlilərin əhalisi rusların hücumlarından ehtiyat edərək heyvanlarını və ailələrini götürüb Göy-Təpəyə çəkildilər. Skobelev ele bunu istəyirdi. O yaxşı bilirdi ki, türkmənlər Göy-Təpə qalasında çox davam gətirə bilməyəcəklər. Çünki ətraf yerlər boşalmışdı, onlar isə öz heyvanlarını məhv edib qida kimi istifadə edə bilməzdilər. Bunu etməklə onlar özlərinin gələcək həyatlarını da təhlükə altına qoyardılar. Həm də onlar geri çəkilərkən əkin sahələrini də yandırmalı idilər. 1880-cı ilin payızına yaxın Göy-Təpə qalasında ərzaq azalmağa başladı. Çar komandanlığı Xorasan hakiminə, Buxara və Xivə rəhbərlərinə Axala taxıl, ərzaq göndərilməsini qadağan etmişdi. Rus komandanlığı İrandakı səfir vasitəsilə Bucnurd və Kuçan hakimlərinin Axala qarətçi yürüşlərini təşkil etdilər. 23 dekabr 1880-cı ildə qala güclü top atəşinə tutuldu. Mühasirədəkilərin vəziyyəti ağırlaşdı. Çar orduları hücuma keçsələr də, ağır məğlubiyyətə uğradılar, hətta general Petruşeviç də həlak oldu. 28 dekabrda təkəlilər qaladan çıxıb qəflətən çar ordularının mövqelərinə güclü hücuma keçdilər. Rus əsgərləri hücuma davam gətirə bilməyib qaçdılar. Təkəlilərin əlinə bir top və rus ordusunun şərəfi sayılan bayrağı keçdi. 30 dekabr 1880-cı il, 4 və 5 yanvar 1881-ci ildə Göy-Təpə müdafiəçiləri çar ordularına ağır

zərbələr vurdular. Lakin qüvvələr nisbəti qeyri-bərabər idi. 1881-ci ilin yanvar ayının 12-də ruslar Göy-Təpə qalasının bir tərəfini partladıb qalaya yol açdılar. Göy-Təpə ələ keçirildi. Qala alındıqdan sonra rus komandanlığı türkmənləri öz kəndlərinə qayıtmağı və sakitləşməyi tapşırdılar.

Göy-Təpə tutulduqdan sonra Bezmeine, Korcou, Aşxabad, Anau və Qyuarse döyüşsüz işğal olundu.

1881-ci il mart ayının 20-də Skabelev Əfqanıstana yürüş etmək fikrinə görə öz vəzifəsindən götürüldü. Onun yerinə general Rerberq təyin edildi. 1881-ci ilin 9 dekabrında Tehranda Rusiya ilə İran arasında konvensiya imzalandı. Konvensiyaya görə Rusiyanın İranla şərq sərhəddi Xəzər dənizindən Zerinkux dağlarına qədər müəyyənləşdi.

1886-1887-ci illərdə Türkmənistan tamamilə Rusiya tərəfindən işğal olunduqdan sonra Rusiyanın İranla və Əfqanıstanla da sərhədləri dəqiqləşdirildi.

1884-cü ilin 1 yanvarında Mərv, aprelində İolatan, sonra Tecen, Murqav əraziləri Rusiyanın himayəsinə keçdilər.

## *§15 Rusiyanin Türkmənistanda yaratdiği inzibati idarə sistemi*

1881-ci ildə Axal vadisinin işğalından sonra Çar hökuməti Xəzərarxası (Zakaspi) hərbi şöbəsinin yerində mərkəzi Aşkabad şəhəri olan Xəzərarxası vilayət yaratdı. Vilayət Manqışlak, Krasnovodski qəzalarından və Axal-Təkə dairəsindən ibarət idi. Qəza rəisi və pristavı yüksək rütbəli rus zabitlərindən təyin olunurdu. Aul starşinaları isə türkmən nəsli-tayfa əyanlarının içərisindən seçilirdi. Krasnovodski

pristavının 2 oktyabr 1881-ci il əmrinə əsasən kənd cəmiyyətlərinə ümumi-intizam qaydalarını qoruyub saxlamaq məqsədi ilə starşinalar təyin olundu. Bunu aşağıdakı siyahıdan da görmək olar:

Krasnovodskdan Qaraboğaza qədər olan ərazidə köçəri halda yaşayan türkmənlərin starşinası Xudanəzər Xudaverdixan oğlu, Çeleken adası, Oqurçen və Darçada yaşayan türkmənlərin starşinası Səlim Məxtimoğlu, Çekişlyar auluna rəhbər milis praporşiki Nefes-Mergen Duşməmməd oğlu, Həsənqulu auluna rəhbər Mirseyid Qulu oğlu, Cəfərbay nəslinə rəhbər Musaxan Nəzərxan oğlu təyin olundular. Çar hökuməti bu cür siyasəti ilə əslində əvvəlki qəbilə-tayfa rəhbərlərinin öz tayfaları üzərindəki idarəçiliyini təsdiq etdi. Bununla da çarizm feodal əyanlarının simasında özünə yerlərdə siyasi dayaq yaratdi.

Krasnovodski qəzasının kəndlilərinin vergiyə cəlb olunması haqqında Qafqaz hərbi dairə rəisinin 1881-ci il qərarı verildi. 1882-ci ildə general Rerburq Nohurlu türkmən kəndlilərinin vergi ödəmələri haqqında sərəncam verdi. Maridən və Təcəndən öz yurdlarına yoxsul və dilənçi halında qayıdan Axal türkmənləri ilə bir neçə illiyə vergilərdən azad olunmuşdular.

1884-cü ilin əvvəllərində Rusiya Tecen və Mari vadilərini ələ keçirdi və bu ərazidə 2 dairə-Tecen və Mərv yaradıldı. Çar hökuməti həmin dairələrdə xanlıq hakimiyyətini qoruyub saxlayırdı. Məsələn, Mərv dairəsi 4 hissəyə bölünmüşdü və hər bir hissəni isə əsas nəsillərdən olan xanlar idarə edirdi. Xanların nüfuzunu qaldırmaq məqsədi ilə ona milis kapitanı rütbəsi verilirdi. Xan dairə rəisinə tabe idi. Dairə rəisi isə yüksək çinli rus zabitlərindən təyin olunurdu.

Yeganə dairə rəisi kimi böyük vəzifə Nurberdixanın oğlu milis

mayoru Məxtimqulu xana etibar edilmişdi. Ona bu vəzifəni Mərvi Rusiyaya sülh yolu ilə birləşdirdiyinə görə vermişdilər.

1884-cü ildə Kappıbənd dəryaçasının bərpa olunması ilə Tecen ətrafında vaxtı ilə istifadəsiz münbit torpaqlar suvarıldı. Tecen ətrafında yeni yaradılmış 7500 təsərrüfat və mari türkmənlərinin 3 minə qədər susuz təsərrüfatı su ilə təmin olundu. Beləliklə, Tecendə iri əkinçilik təsərrüfatı yaradıldı.

1884-cü ildə kiçik rus dəstələri qəflətən köhnə təkəli qalası Koşutxan qalaya yaxınlaşdıqda Səraxs salur türkmənləri kütləvi halda Tecen çayının- rusların ixtiyarında olan sağ sahilinə keçərək, öz əvvəlki yurdlarında məskunlaşdılar. Məsələn, Zurabaddan Peçenin sağ sahilinə keçən 3250 kibitka Səraxsın cənub-şərq hissəsindən Qızıl-qayaya qədər olan ərazilərdə məskunlaşmışdılar. Bura köçüb gələn salırlar həddindən artıq kasıb və yoxsul idilər.

1884-cü ilin aprelində əkinçiliklə məşğul olan və 5400 təsərrüfata malik İolotan vadisi də sülh yolu ilə Rusiyaya birləşdirildi. Səraki və İolotan rayonları Mərv dairəsinə daxil edildi. İlkin dövrlərdə Səraksi salırlarında Təkə xan, İolotan sarıklılarına Sarı xan rəhbər təyin olundu. Lakin çox çəkmədi və tezliklə onlar rus  zabitləri ilə əvəz olundular.

1885-ci ildə 3 min təsərrüfata malik Pendin vadisi də Rusiyaya birləşdirildi. Mərkəzi Taxta Bazar olan Pendin pristavlığı yaradıldı. Vaxti ilə Herat hakimiyyətinə vergi verən Pendin sarıklıları, əsasən, maldarlıq təsərrüfatı ilə məşğul olurdular.

Pendin vadisinin birləşdirilməsindən sonra narazı qalan Əfqanıstan əmiri 1885-ci ilin 18 martında Daşkefrin altında rus qoşunları ilə toqquşdu. Əfqan əmiri məğlub olub Pendin vadisindən əl çəkdi.

1890-cı ildə çarın verdiyi qərara əsasən Xəzərarxası vilayət beş qəzaya- Manqışlak, Krasnovodski, Aşxabad, Tecen və Mərvə bölündü. Yeddi pristavlıq yaradıldı.

Kiçik inzibati idarə rəhbərlərini aul starşinası, mirabı, sudu, əminini aul seçki yığıncağı seçir. Ancaq aul starşinasının vəzifəsini vilayət rəisi, mirab, sud və əmin vəzifələrini isə qəza rəisləri təsdiq edirdilər.

1890-cı ildə yaradılmış vəziyyət idarəsi bütün tədbirlərlə yanaşı, aul starşinası həm də volost idarəçiliyini də yerinə yetirirdi. Volostlara bölünmə isə yalnız Manqışlak yarımadasında mövcud idi. 90-cı illərdə Manqışlakda 8 volost idarəsi və 54 starşinası olan aul qeydə alınmışdı. Bunlardan yalnız 8 aul türkmənlərə məxsus idi. Bundan əlavə Aşqabadda 78, Təcəndə 22, Mərvdə isə 74 starşinası olan aullar var idi. Bütün bu idarə qurumları ölkədə daxili qayda-qanunları bərpa edir, xanların, kəndxudaların özbaşınalığının qarşısını alır, feodallar arasındakı toqquşmalara imkan vermirdilər. Bu isə çarizmin müstəmləkəçilik maraqlarına uyğun gəlirdi.

1897-ci ildə keçirilən siyahıya almada Xəzərarxası türkmənlərin sayı 382 487 nəfərə qədər olmuşdu. Bunlardan 41 837 nəfəri şəhərlərdə yaşayırdı. Türkmənlərin ənənəvi spesifik təsərrüfat xasiyyətlərinə görə Xəzərarxası vilayət 3 əsas müxtəlif təsərrüfat tipinə bölünür:1). Dənizsahili ticarət sahələri və balıqçılıq; 2). Qərbi Türküstanın çöl və yarımsəhra zonalarında köçəri və yarımköçəri maldarlıq təsərrüfatı; 3). Cənubi Türkmənistanın, Təcənin və Mirqab vadisinin, habelə Qaraqumun cənub hissəsinin əkinçi-maldar təsərrüfatı.

Türkmənlər maldarlıq və əkinçilik təsərrüfatından başqa, digər

təsərrüfat sahələrinə də nüfuz etməyə başlamışdılar. Rusiya tərkibinə daxil olduqdan sonra onlar Ümumrusiya bazarına cəlb olundular. Nəticədə balıqçılıq genişlənir, mineral sərvətlər, duz, neft və çoxlu miqdarda istehsal sahələri yaranırdı.

Çeleken və Darça adalarında çoxlu miqdarda neft, duz çıxarılırdı. Balıqçılıq Həsənqulu və Çikişlyarda inkişaf etmişdi.

# II FƏSIL
# QAZAXISTAN XIII-XX ƏSRIN ƏVVƏLLƏRINDƏ

## *§1 Qazax xanlığı*

XVI əsrdə Qazaxıstanda feodal pərakəndəliyi hökm sürürdü. Qazaxıstan təsərrüfat tipinə görə üç regiondan ibarət idi. 1. Yeddiçayarısı. 2. Mərkəzi Qazaxıstan. 3. Qərbi Qazaxıstan. Qazax xalqının etnogeneezində iştirak etmiş əsas etnik ünsürlər məhz Yeddiçayarasında yaşayırdılar.

Qazaxların üç juzu vardı: Böyük juzu, Orta juzu və Kiçik juz. Böyük juza alban, usun, kanqlı suvan, dulat, oşaktı, çatasitı, cəlair və b. idi.

Orta juza uzun qıpçaq, gündələn qıpçaq, qarabalık qıpçak, tarayqır qıpçaq, bultın qıpçak, talabuqa qıpçaq, arqun, ak-nayman, bulatçı-nayman, karakepey nayman, tərs tamqalı nayman, turqoğul nayman, kökqarlı nayman, semiz nayman, baqanalı nayman, sadır nayman, burma nayman, konqrat, kerey və b. tayfalar daxil idi.

Kiçik juz keçmiş Noqay ordasının əsasında yaranmışdı. Kiçik juza appas, çakçar, atçay, kılıs, alçın tabın, şamaki, tana və b. tayfalar

daxil idi.

Qazax xanlığı. XIV-XV əsrlərdə Qazaxıstanın cənub-şərqi və mərkəzi hissəsinin tayfaları «qazax» adını daşıyırdılar. Deməli, indiki Qazaxıstanın bir hissəsi Özbək xanlığına daxil idi. Xanlıqda feodal çəkişmələri nəticəsində 1428-ci ildə hakimiyyət Şeybani nəslindən Sultan Əbülxeyrə keçdi. Onun hakimiyyətinə Qazaxıstanın Sıqnak, Ak-Kurkan, Suzak və başqa Sırdəryakənarı şəhərlər də daxil idi. Əbülxeyrin hakimiyyəti 1468-ci ilə qədər davam etdi. Onun ölümündən sonra hakimiyyətə nəvəsi Məhəmməd Şeybani gəldi (1451-1510). M.Şeybani əvvəlki Özbək sultanı Barak Sultanın oğlanları Canibəy və onun oğlu Girey xan Burkəni məğlub etdikdən sonra hakimiyyətə gəlmişdi.

1480-ci ildə Canibəy öldü, oğlu Gireyin oğlu Burunduk xan Qazaxıstanın şərq rayonlarını ələ keçirərək müstəqil xanlıq yaratdı.

XV əsrin 40-cı illərində Canibəy və Girey Burkə sultanların öz tayfaları ilə Aral sahillərindən Çu çayının sahillərinə köçməsi qazax xalqının tarixində mühüm hadisə oldu. Məhz bu vaxtdan qazax xalqı formalaşmağa başladı. Burunduk xan indiki Qazaxıstanın şərq hissəsini birləşdirdi. Canibəyin digər oğlu Qasım Balxaş gölü rayonunda ayrıca xanlıq yaratmışdı.

XVI əsrin əvvəllərində Canibəyin oğlu Qasım Sultan (1518-1523) bütün Yeddiçayarasını və Dəşti-Qıpçağın xeyli hissəsini ələ keçirdi. Qasımın hakimiyyəti illərində Qazax xanlığı özbək hakimi Şeybanilər arasında mübarizə gedirdi. 1509-cu ildə Qazax sultanları Əhməd və Canış 50 minlik atlı ordu ilə Mavərənnəhrə basqın etdilər. Şeybani xan buna cavab olaraq «qəzavat» elan etdi və Qazaxıstana qalibiyyətli hərbi yürüş etdi. Lakin 1510-cu ildəki axırıncı yürüşündə məğlub olub geri

qayıtdı və I Şah Ismayıl tərəfindən məğlub edilib öldürüldü.

Qasım xan öldükdən sonra (1523) Qazxaxıstan tayfaları arasında çəkişmələr gücləndi. Qasımın oğlu Mamay ara müharibələrinin qurbanı oldu. Ondan sonra hakimiyyətə Qasımın ikinci oğlu Tahir xan gəldi. (1523-1533).

Tahir xan xanlıqda birliyi təmin etmək məqsədi ilə Noqay Ordası və Daşkənd hakimləri ilə müharibələr aparırdı. Lakin maldar tayfalar verginin ağırlığına görə, ona kömək etmədilər. Belə olduqda Tahir Daşkənd hakimi Sultan Məhəmməddən qüvvə alıb yerli hakimlərin müqavimətini qırdı. Lakin sonra Tahir Sultan Məhəmmədə qarşı çıxdı, lakin məğlub olub ərazisinin bir hissəsini itirdi. Tahir xanın oğlu Buydaşın (1533-1534) dövründə qazax tayfalarının otlaqlar üstündə bir-birilə müharibələri başladı. Sırdərya hövzəsini ələ keçirmək istəyirdilər. Qazaxıstanın qərb rayonlarında Əhməd xan, Yeddiçayarası ərazidə Tuqum xan adlı feodallar ağalıq edirdilər. Maldar tayfalar getdikcə yerli oturaq əkinçi əhali ilə qaynayıb qarışırdı. Sırdərya sahillərində Sıqnaq şəhəri iri ticarət mərkəzinə çevrilmişdi. Maldarlıq məhsulları ticarətdə mühüm yer tuturdu.

Qasım xanın oğlu Haqnəzər (1538-1580) Noqay Ordasında hakimiyyət uğrunda gedən mübarizədən istifadə edərək ərazisini genişləndirdi. Noqay Ordasına məxsus torpaqların bir hissəsini zəbt etdi. Haqnəzər xan Buxara xanı II Abdulla xanla ittifaqda Daşkənd hakimi Baba Sultana qarşı hərbi əməliyyatlar da keçirdi. Lakin Baba Sultan Haqnəzəri sui-qəsd təşkil etdirib öldürtdü.

Haqnəzərdən sonra oğlanları Şiqay (1580-1582) və Təvəkkül (1586-1598) dövründə Qazax xanlığı Baba Sultan ilə mübarizəni davam

etdirirdi. Təvəkkül 1582-ci ildə kiçik ordusu ilə qəfildən Baba Sultan otlaq yerində istirahətdə ikən ona hücum etdi, özünü və ailəsini məhv etdi. Onun başını kəsib Buxara xanı Abdullaya göstərdi.

1583-cü ildə Təvəkkül ilə Buxara xanı Abdulla arasında münasibətlər pozuldu. Təvəkkül Sırdərya şəhərlərini ələ keçirməyə çalışırdı. Lakin Qazax xanlığı ilə Buxara xanlığı arasında Sırdərya hövzələri uğrunda mübarizə heç nə vermədi. Sonrakı illərdə yenə də ara müharibələri gücləndi. Bu proses 1731-ci ildə Qazaxıstanın Kiçik Guzunun, sonra da bütün Juzların Rusiya tərəfindən işğalı ilə nəticələndi.

## *§2 Rusiya tərəfindən Qazaxıstanın işğalının başlanmasının I mərhələsi*

XVII əsrdən başlayaraq qazax xanları qonşu Oyrat dövləti ilə aramsız müharibələr aparırdı. Müharibə xanların qələbsi ilə nəticələndi. Lakin Oyrat dövlətinin sol qanadı hesab olunan cunqar tayfaları qəflətən Qazaxıstan çöllərinə və xüsusilə də ölkənin cənubuna soxuldular. Xüsusilə qazaxlara qarşı cunqarların ən böyük hərbi yürüşü 1723-cü ildə baş vermişdi. Həmin ilin yazında onlar Yeddiçayarası (Semireçye) bölgəsinə girdilər. Cunqarların güclü hücumu qarşısında dayana bilməyən qazax tayfaları heyvanlarını və əmlaklarını başlı-başına qoyub başqa əraziyə köç etdilər. Cunqarlar demək olar ki, aulların əhalisini qırdılar, köç edə bilməyən köçəri tayfaları isə əsir alıb bütünlüklə qula çevirdilər. Cunqarların təzyiqi nəticəsində orta və böyük juzların aulları Xocənt bölgəsinə, qaraqalpaqların yanına, xivəyə, şimal və şərq bölgələrinin qazax tayfalarının isə böyük bir hissəsi Rusiya sərhəddinə köç etdilər. Bu köçlər kütləvi xəstəliklərlə üst-üstə düşdüyünə görə aclıq

başlandı, nəticədə isə bütöv aulların əhalisi məhv oldu.

1725-ci ildə cunqarların yenidən böyük hərbi yürüşləri başlandı və onlar Sayrama, Türküstana, Daşkəndə qədər gəldilər. Kiçik jüz üçün işğal olunmaq təhlükəsi yarandı. Bu dövrdə cunqarların ilkin hücumlarından nisbətən özlərinə gəlmiş qazax tayfaları birləşərək düşmənə bir neçə dəfə cavab zərbəsi vurdular. Artıq silahlanmış xalq ordusunun başında Kiçik jüzun xanı sultan Əbülxeyir dayandı Əbülxeyrin rəhbərliyi ilə xalq ordusunun apardığı döyüşlər nəticəsində cunqarların hücumları dayandırıldı.

Cunqarlar qazax təsərrüfatına böyük ziyan vurdular: çoxlu sayda heyvan sürüləri ələ keçirilmiş, Yeddisu vadisinin əkinçilik təsərrüfatlarında işlər dayandırılmışdı. Türküstanın, Daşkəndin və digər şəhərlərin cunqarlar tərəfindən işğal olunması, qazax əhalisinin sənətkarlıq və əkinçilik mərkəzləri hesab olunan Mərkəzi Asiya ilə əlaqələrini kəsmişdi. Iqtisadiyyatın zəifləməsi xanların siyasi hakimiyyətinin də zəifləməsinə gətirib çıxarmışdı. Əbülxeyrin hakimiyyəti yalnız Kiçik juzun ərazisi ilə məhdudlaşırdı. Orta juzda 2 xan hakimiyyəti və bir neçə sultanlıq mövcud idi. Hətta cunqar tayfalarının təhlükəli hücumları da iri feodallar arasında gedən ara müharibələrini kəsmədi. Belə bir vəziyyətdə qazax feodal siyasi dairələrinin yuxarı təbəqələri Əbülxeyir xan başda olmaqla xan hakimiyyətini möhkəmləndirməyə çalışır, cunqar təhlükəsindən xilas olmaq üçün Rusiyaya yaxınlaşmağa cəhd göstərirdilər.

Qazaxların Rusiya ilə iqtisadi əlaqələri XVI əsrdən başlamışdı. Iqtisadi əlaqələrin güclənməsi, onların arasında diplomatik-siyasi münasibətlərin yaranmasına gətirib çıxarmışdı. Qonşu dövlətlərdən

yalnız Rusiya köçəri-maldar əhalinin sənətkarlıq və sənaye məmulatlarına olan tələbatını ödəmək imkanına malik idi. Xan hakimiyyəti əhalinin taxıla olan ehtiyacını da ödəyə bilmirdi. Bu iqtisadi çətinlikdə qazax əhalisini Rusiyaya yaxınlaşdıran səbəblərdən biri idi. Rus tacirlərinin də qazaxlarla taxıl ticarətindən böyük gəlir götürəcəklərinə maraq göstərirdilər. Öz növbəsində Rusiya dövləti də Qazaxıstanın onun ümumrusiya bazarını heyvandarlıq məhsulları ilə təmin edə biləcək baza rolunu oynayacağını görürdü. Cunqar işğalları dövründə isə Qazaxıstan-Rusiya əlaqələri daha da güclənmişdi.

Rus çarı I Pyotr tərəfindən podpolkovnik Ivan Buxqolsanın rəhbərliyi ilə Şərqi Qazaxıstana və Altaya hərbi ekspedisiya göndərilmişdi. 1715-1718-ci illərdə ruslar Yamışev (Yamışev gölü) Omsk, Jelezinski və Semipalatinski qalalarını (müdafiə) qurdular. Beləliklə, qazaxların cunqarlara qarşı mübarizəsində müsbət rol oynayan Irtış hərbi xətti yaradıldı. 1720-ci ildə general-mayor Lixarevin hərbi-ekspedisiyası Ust-Kamenoqorski qalasını qurdular. Sonrakı illərdə qazax əhalisi Irtış hərbi xətti boyu qalalara yaxın ərazilərdə məskunlaşmağa başladılar. Tezliklə həmin ərazilərdə qazax məskənləri və stanitsaları meydana gəldi.

1730-cu ildə Kiçik jüzün biyləri toplantıda Əbülxeyir xana çar hökuməti ilə cunqar təhlükəsindən qorunmaq məqsədi ilə hərbi ittifaq bağlamağı məsləhət bildilər. Lakin Əbülxeyir xan çara göndərdiyi məktubda Kiçik jüzü öz himayəsinə götürməyi xahiş edirdi. Əbülxeyir xanın bu məktubu Rusiyanın şərq siyasəti ilə üst-üstə düşdüyünə görə çox maraqla qarşılandı.

1731-ci ildə Peterburqdan A.I.Tevkelevin rəhbərliyi ilə Əbülxeyir

xanın sarayına səfirlik göndərildi. Əbülxeyir xan Rusiyaya axıra qədər sadiq qalacağı haqqında and içdi. Tevkelev bir qədər sonra bu işdən narazı qalmış biy və batırların da bir hissəsini Rusiyaya sadiqlik andını içirməyə razı sala bildi. Lakin sultan və batırların çox hissəsi Rusiyanın himayəsini qəbul etməyib ona qarşı çıxışlara başladılar. Iri feodal qrupları Əbülxeyir xanın Rusiya himayəsini qəbul etməsini əldə bəhanə tutaraq xalqın müəyyən hissəsini mübarizəyə qaldırmağa cəhd göstərdilər. Lakin onları Rusiya işğalına qarşı mübarizədən daha çox hakimiyyət uğrunda mübarizə maraqlandırırdı.

Hələ də dəhşətli cunqar qaçqınlığını yaddan çıxartmayan xalq Rusiya himayəsini xeyirxahlıq kimi qəbul edirdilər. Xalq aramsız aparılan feodal ara müharibələrindən əziyyət çəkir, hərbi yürüşlər nəticəsində təsərrüfatları dağılır, aclıq və səfalət içərisində boğulurdu. Məhz bütün bunların nəticəsində xalqın böyük əksəriyyəti Rusiya himayəçiliyini hərbi müttəfiqlik kimi qəbul edir, hansı ki, bu güclü müttəfiqinin sayəsində təhlükəsi dəf olunar, ara müharibələrinə son qoyular, xalq qorxusuz və sakit yaşaya bilərdi. Onlar ümid edirdilər ki, qoyub gəldikləri əvvəlki yurd yerlərinə qayıda bilərlər.

Sovet tarixçilərinin fikrinə görə qazaxlar Rusiyanın tərkibinə daxil olmaqla imperiyanın tərkibində özlərinin ərazi bütövlüyünü, sərhədlərini qoruya bildi və bir xalq kimi məhv olmaqdan xilas oldu.

XVIII əsrin 30-cu illərində çar hökuməti danışıqlar sistemindən birbaşa hakimiyyətini Qazaxıstanda bərqərar etmək prinsipinə keçdi. 1734-cü ildə I.K.Kirillovun rəhbərliyi ilə göndərilmiş hərbi ekspedisiya Ori çayı sahilində Orenburq qalasını saldı. Əslində 1740-cı ildə salınmış Orenburq qalası əvvəllər Orsk adlanmışdı.

1738-1740-cı illərdə cunqarlar Qazaxıstana böyük hərbi yürüşə başladılar. Onlar Orta jüzə daxil olub bir çox aylların əhalisini qırıb, çoxlu dağıntılar törətdilər. Belə olan təqdirdə Orta jüzün sultanı Ablay və xanı Abulmambet Rusiya himayəsini (1740) qəbul etdilər. Hücumlarını davam etdirən cunqarlar Orsk qalasında rus qarnizonu ilə qarşılaşdılar və hücumlarını dayandırdılar. Rus hökumətinin işə qarışması nəticəsində cunqarlar məcbur olub geri qayıtdılar.

1741-ci ildə Kiçik və Orta jüz Qazaxıstanın böyük bir hissəsi Rusiyanın himayəsini qəbul etdi. Yalnız Böyük jüz 1758-ci ilə qədər cunqarların hakimiyyəti altında qaldı. 1758-ci ildə cunqarlar darmadağın edildikdən sonra Böyük jüz Daşkənd bəyləri və Kokand xanlığının hakimiyyəti altına keçdi. Bu ərazilərdə ruslar yeni qalalar və şəhərlər tikərək yerlərdə hakimiyyətlərini möhkəmləndirməyə səy göstərirdilər.

Beləliklə, XVIII əsrin ortalarında Verxneyayskidən başlanan Uyski möhkəmləndirilmiş xətti Zverinoqolovski qalasına qədər idi; Irtış xətti-Omskini semipalatinski və Ust-Kamenoqoski ilə birləşdiridi. Yeni Işim xətti Zverinoqolovskini Tobol və Irtışla əlaqələndirirdi və nəticədə isə Uyski xətti Irtışla birləşirdi. Bütün bu tikintilərin hamısı rus dövlətinin müstəmləkə xarakterini ifadə etsə də, sonrakı dövrlərdə rus-qazax xalqlarının iqtisadi və mədəni inkişafında əsas rol oynamışdılar.

XIX əsrin əvvəllərində Kiçik jüzdən çoxlu Qazax əhalisi Ural çayının arxasına köçdü. Köçün əsas səbəbi Kiçik jüzdə feodal və milli zülmün güclənməsi idi. Bu iqtisadi çətinlikdən Sultan Bukey qazaxların içərisində öz hakimiyyətini qurmaq üçün istifadə etməyə cəhd göstərdi. Bu məqsədlə o, 1801-ci ildə rus çarına müraciət edərək qazax əhalisinin bir hissəsinin Volqa çayı ilə Ural çay arasında – Narınqumda

məskunlaşmasını xahiş etdi. Çar hökuməti qazaxların bu ərazidə daimi yaşamasına icazə verməklə Kiçik jüzü siyasi cəhətdən zəiflətmək məqsədi güdürdü. 1801-ci ilin martında rus çarı qazaxların bu ərazidə məskunlaşmasına icazə verdi. Beləliklə, yeni bir Orda-Daxili Orda və yaxud Bükey Ordası yarandı. Bükey Ordasının tərkibinə Kiçik jüzdən ayrılmış üç böyük tayfa-boylu, alimuli və jeti ru daxil oldu.

Beləliklə, tədricən qazaxların rus himayəsinə keçməsi sonrakı dövrlərdə qazax cəmiyyətində dərin siyasi dəyişikliklərə gətirib çıxartdı. Xan hakimiyyəti artıq nominal xarakter daşıyırdı. Çünki çar hökuməti xanlığın daxili işlərinə müdaxilə edir və hətta xanları da dəyişərək, öz məqsədlərinə uyğun şəxsləri hakimiyyətə gətirirdi. Xüsusilə, Əbülxeyir xandan sonra Kiçik jüzün xanı olmuş Nurəli xan tamamilə çarın xidmətində dayanmışdı. 1781-ci ildə Ablay xanın ölümündən sonra Kiçik jüzdə 2 xan – Vəli xan və Bukey xan hakimiyyətə gətirildi ki, onların xanlığını siyasi həyatında heç bir rolu yox idi.

XIX əsrin başlanğıcında çar hökuməti Qazaxıstanda xan hakimiyyətini saxlamaqdan qəti olaraq imtina etdi.1822-ci ildə Orta jüzdə xanlıq quruşu Sibir qırğızları haqqında nizamnaməyə əsasən ləğv edildi. 1824-cü ildə Kiçik jüzün sultanı isə  sadəcə çar məmuruna çevrildi, xanlıq üsul-idarəsi öz qüvvəsini itirdi.

Xanlıq hakimiyyətinin itirilməsi özlərini Çingiz əsilli hesab edən sultanlar tərəfindən narazılıqla qarşılandı və onlar çar rusiyasının müstəmləkə rejiminə qarşı mübarizəyə başladılar. Məqsəd keçmiş xan hakimiyyətini yenidən qurmaq idi. Sultanlardan Karatay Nuraliyev, Qabaydulla Vəlixanov, Sarjana və Geneçap Qavımovların rəhbərliyi ilə hərəkat geniş vüsət almışdı. Lakin bu hərəkat geniş xalq kütlələri

tərəfindən müdaviə olunmadığına görə çarizm tərəfindən amansızlıqla yatırıldı. XIX əsrin I yarısında Kokand xanlığının hakimiyyəti altında olan Böyük jüzün qazaxları rus himaysinə keçmək üçün cəhd göstərsələr də, lakin iri sultan və xanlar rus himayəçiliyinə qarşı çıxırdılar. 1819-cu ildə Rusiya 55462 nəfər usun-qazax nəslini Sultan Syuyuqla birlikdə öz himayəsinə qəbul etdi. Kapala qalası ətrafına köçüb gəlmiş qazaxlar 1845-ci ildə Rus himayəçiliyinə qarşı çıxışlara başladılar. Bu vaxtdan etibarən Böyük jüz Rusiya üçün himayə olunan bir qurum kimi qaldı.

XIX əsrin 40-cı illərindən Rusiya Cənubi Qazaxıstanı birləşdirmək üçün 2 istiqamətdən – qərbdən-Sırdəryadan, Şərqdən-Yeddisudan hücum planları hazırlandı. Bu məqsədlə Sırdərya boyunda bir neçə möhkəmləndirilmiş məntəqə tikildi.

## *§3 XIX əsrin I yarısında Qazaxıstanın iqtisadi və siyasi vəziyyəti*

XIX əsrin əvvəllərində Qazaxıstanın iqtisadiyyatında hələ də feodal-patriarxal münasibətlər güclü idi. Köçəri maldar təsərrüfatı ölkənin iqtisadiyyatında əsas istehsal idi. Əkinçilik isə hər bir ailənin yalnız cüzi iqtisadi tələblərini ödəmək üçün istifadə olunurdu. Ümumiyyətlə, torpaq mülkiyyəti nəsil-tayfa cəmiyyətinin ümumi mülkiyyəti sayılırdı. Lakin bu formal xarakter daşıyırdı. Çünki artıq çoxdan ən yaxşı torpaq sahələri, su mənbələri, əla qışlaq və yaylaq yerləri bayların ixtiyarına keçmişdi. Köçəri qazaxların əsas təşkilat forması (feodalizm şəraitində) aul (cəmiyyətidir) icmasıdır. Aul icmasına müəyyən sərhədləri olan qonşu icmaları daxil idi. Bu cür icmalarda torpaqlar ümumi formada becərilsə də, heyvandarlıq təsərrüfatı xüsusi ailələrə məxsus idi. Aul icmasında patriarxal nəsli adət -ənənələr

qorunub saxlanılsa da, lakin onun daxilində kəskin sinfi ziddiyyətlər özünü göstərirdi, əllərində çoxsaylı heyvan sürüləri toplanmış iri feodal təbəqələri meydana gəlirdi. Icmanın sivari üzvləri «nəsli kömək» adı altında feodala müxtəlif vergilər ödəyirdilər. Oturaq əhali uşir (onda bir), heyvandarlar isə zeket (40-da bir) verigilər ödəyirdilər.

Iqtisadi imkanına görə ən nüfuzlu feodal sultan sayılırdı (kazaxca-törə). Onlar Çingiz xanın nəslindən olmalarını söyləyir və cəmiyyətdə özlərini ali təbəqə hesab edilən «ak suyeklər» (ağ sümüklülər)ö xanlar da sultanlar qədər nüfuza malik idilər. Çingiz nəslindən hesab edilməyən sultan və xandan sonrakı mərhələdə duran feodal əyanlar təbəqəsi-batırlar, biylər və baylar idi. Ən aşağı təbəqə isə sıravi köçəri-maldarlar idi. Onlar (nəsli icmada) biy və baylar tərəfindən idarə olunan nəsli icmalarda birləşirdilər. Sultan və xanlar özlərinə iri silahlı qüvvələr saxlayırdılar. Bu silahlı dəstələr tülengitlər və batırlardan ibarət idi. Sultan bütün işlərə müdaxilə edirdi. Batırlar hərbi əyanlar idilər. Batırların nüfuzunun artması nəsli tayfalar arasında aramsız qanlı vuruşmalara gətirib çıxarırdı.

Nəsilləri idarə etmək üçün bəy (biy)lər əvvəllər seçilirdi, lakin XVIII əsrin sonu-XIX əsrin əvvəllərində bəylər özlərinin məhkəmələri idarəetmə hüququndan istifadə edərək əsas feodal qrupuna daxil oldular. Varlı heyvandarlar olan baylar feodal sinfinin çoxsaylı qruplarından hesab olunur. Heyvanları olmayan bir neçə kəndli ailəsi baydan asılı olur və onun heyvanlarına baxır. Belə kəndlilər konsı adlanır.

Köçəri-kazaxlar öz icmasından çıxa bilməz, baya, biyə və batıra tabe olmalıdır, sərbəst köç edə bilməzdi. Köçəri-kəndlilər öz iqtisadi imkanlarına görə qruplara bölünür: ortabab kəndlilərə (kazaxca-dəületti

şarua) nisbətən orta imkanlı kəndlilərə (künqerişti şarua) və kasıblara (kedey şarua) bölünür. Müstəqil təsərrüfat yaradılması üçün 5 nəfərlik ailə üzvünün 15 atı, 6 iri mal-qarası, 2 dəvəsi və 50 qoyunu olmalıdır. Ara müharibəsi nəticəsində çoxlu kəndlilər sultanlara və xanlara sığınır. Onların heyvanları isə xanın xüsusi damğası ilə damğalanır. Kəndlilər isə öz ailəsi və mülkünü qorumaq məqsədi ilə sultan qoşununda lazımi anda xidmət etməlidirlər. Öz əvvəlki nəslini tamamilə yaddan çıxaran belə kəndlilər tülenqutlar adlanırdı.

XIX əsrin əvvəllərində və yaxud rusların işğalına qədər Qazaxıstanda hələ də keçmiş sosial qrup və təbəqələr qalmaqda idi.

Əvvəllər yalnız ailə və onun yaşaması üçün vasitə rolunu oynayan heyvandarlıq təsərrüfatı, Rusiya ilə əlaqə yarandıqdan sonra ümumrusiya bazarına cəlb olundu, bu isə öz növbəsində həmin təsərrüfat sahəsinin genişlənməsinə gətirib çıxartdı. Kzaxların saxladığı əsas heyvan növləri-qoyun, at, iri mal-qara və dəvə idi. XIX əsrin başlanğıcında kazaxların Rusiya ilə ticarət əlaqələri XVIII əsrə nisbətən daha güclü idi. Ticarət əlaqələri nəinki şəhərlərdə və qalalarda, hətta müvəqqəti məntəqə və kazax stanitsalarında da aparılırdı. Qazaxıstan Rusiyanı heyvandarlıq təsərrüfatı ilə təmin edən istehsalat bazası rolunu oynamağa başlamışdı. XIX əsrin I yarısında hər il Kazaxıstandan 3-3,5 mln. manat məbləğində heyvanlar (qoyun, mal-qara və s.) aparılırdı. Ticarət dövriyyəsində heyvandarlıq məhsulları – (dəri, yun, piy) əsas yer tuturdu. Rusiyadan Kazaxıstana pambıq parçalar, metal və sair xırdavatlar ixrac olunurdu. Taxıl ticarəti geniş miqyas almışdı. Ticarətin sürətli inkişafı nəticəsində Kazaxıstanda yarmarkalar açıldı ki, onun da illik dövriyyəsi getdikcə güclənirdi. Əmtəə istehsalının güclənməsi öz növbəsində pul

dövriyyəsini genişləndirmişdi.

1830-cu illərdən etibarən Kazaxıstanın şimal bölgələrinin əhalisi bazarlarda alıcılıq münasibətlərinin 2/3 hissəsini pul ilə, 1/3 hissəsini isə dəyişmə (natura ilə) yolu ilə aparırdılar. Ticarət əlaqələrinin inkişafı, heyvan və heyvandarlıq məhsullarına bazarın böyük tələbatı, kazax təsərrüfatını və birinci növbədə bay təsərrüfatını əmtəə xüsusiyyətli təsərrüfata çevirmişdi. Kazaxlar, qeyd etdiyimiz kimi, qoyun, at, iri mal-qara, dəvə və bir qədər də keçi saxlayırdılar. Lakin qoyunçuluq əsas aparıcı təsərrüfat sahəsi hesab olunurdu. Hətta keçmiş ticarət münasibətlərində qoyun uzun müddət pul əvəzində işlədilmişdi. Kazax təsərrüfatının əsas sahələrindən biri də atçılıq təsərrüfatıdır. At nəqliyyat növüdür. Bundan əlavə atın südündən (kumış içkisi), ətindən də istifadə edilir. Atın dərisindən, tükündən müxtəlif məişət məmulatlarının hazırlanmasında istifadə olunur.

Dəvəçilik təsərrüfatı əsasən Kazaxıstanın cənub, mərkəz və qərb (səhra və yarımsəhra) bölgələrində ən əsas təsərrüfat sahəsi sayılır. Çünki, köçəri maldarların köç etməsi və yük daşıması üçün (səhra şəraitində) əsas nəqliyyatı dəvələr idi. Kazaxlar bir ürgüclü (nar) və iki üzgüclü dəvələrdən (ayır, örkəs) istifadə edirdilər. Kazaxlar dəvənin yunundan istifadə edirlər, südündən isə sübat adlı içki düzəldirlər. Iri mal-qaranı əsasən köçmək imkanını itirmiş kasıblar saxlayırlar.

Köçəri kazaxlarda təbii şəraitə uyğun olaraq köçmə yerləri 4 hissəyə bölünmüşdü. 1) qışlaq yeri (kistan), 2) yazlıq yer (kökteu), 3) yaylaq yeri (caylyan), 4) payızlıq yer (kuzey).

Bazar münasibətlərinin genişlənməsi nəticəsində heyvandarlıq təsərrüfatının natural xarakteri pozulur və bu təsərrüfat növləri daha çox

əmtəə xüsusiyyətli olurdu. Hətta iri bay təsərrüfatından başqa orta imkanlı heyvandarlıq təsərrüfat sahələri də meydana gəlmişdi. Heyvandarlıq təsərrüfatının istehsalına görə iqtisadi bölgələr (yun, ət, dəri və s.) yaranmağa başlamışdı. Məsələn, Kokçetov və Kystanay vilayətlərində atçılıq, Aktubinskidə mal-qara, Atbasar bölgəsində isə qoyunçuluq təsərrüfatları inkişaf etmişdir.

Əkinçilik kazax təsərrüfatı üçün II dərəcəli əhəmiyyət daşıyırdı. Bu proses XIX əsrə qədər davam etmişdi. Lakin Kazaxıstan Rusiyaya birləşdirildikdən sonra ara müharibələri sakitləşdikdən sonra çoxlu rus və ukrayna kəndlilərinin bu ərazilərə köçürülməsi əkinçiliyin inkişafına səbəb oldu.

XVIII əsrin sonu-XIX əsrin başlağıcında Kiçik və Orta juzların çöllük ərazilərində Emba, Temira, Irqiz, Turqay çayları ətrafında, Nur və Irtış vadilərində, Kurqaçin, Zaysana gölləri ətrafında əkinçilik (sahə) təsərrüfat sahələr meydana gəldi. Əkinçilik məhsullarının bazar münasibətlərinə cəlb olunması yalnız XIX əsrin II yarısında baş verdi.

Kazaxların iqtisadiyyatında II dərəcəli sahələrdən biri də ovçuluq idi. Ovçuluq əvvəllər əsasən qış geyimvasitələrini əldə etmək məqsədi ilə (tülkü, canavar, sincab və s) aparılırdı. Lakin kazax iqtisadiyyatının ümumrusiya bazarına cəlb olunması, xəz məmulatlarına böyük tələbata (hiss) gətirib çıxartdı. XIX əsrin II yarısında bazarlara çoxlu xəz məmulatları çıxarılmışdı. Lakin ovçuluq müstəqil sahəyə çevrilməmişdi.

XIX əsrə qədər balıqçılıq əsas təsərrüfat sahəsi sayılmırdı, XIX əsrdən etibarən isə köçəri təsərrüfatları əllərindən çıxmış kəndlilər çay və göllər sahillərində oturaq həyata keçib balıqçılıq təsərrüfatı ilə məşğul olmağa başladılar. Balıqçılığın inkişafı rus ticarətçilərinin marağına

səbəb oldu. Geniş miqyasda balıq tutub bazarlara çıxartmaq üçün yeni balıq tutma alətləri ilə (dəmir qarmaq, tor və s.) balıqçılar təmin olunurdular. Balıqçılıq müstəqil təsərrüfat sahəsinə yalnız XIX əsrin əvvəllərində baş verdi. Ev təsərrüfatı və sənətkarlığı köçəri kazaxların həyatı üçün xarakterik xüsusiyyətdir.

### *§4 Qazaxıstan Kokand xanlığının hakimiyyəti altında*

Kokand xanlığı məlum olduğu kimi XVIII əsrin əvvəllərində Şahrux-bij tərəfindən Fərqanədə yaradılmışdı. Şahruxun sonrakı xələfləri tərəfindən dövlətin yeni paytaxtı Kokand şəhəri oldu. Həmin dövrdə yaşamış Əhməd Şeyx qeyd edir ki, xanlığın rəhbəri «bəy» adını daşıyırdı. Ilk dövrlərdə Kokand xanlığının ərazisi çox kiçik idi və Fərqanə və Xocəntdən ibarət idi. 1799-1809-cu illərdə Fərqanə bəyi Alim xan titulunu qəbul etdi və Fərqanə Kokand xanlığı adlandı.

Alim xan- tarixçi V.Nalivkinin sözləri ilə desək-cəhd edib yaratdığı dövləti güclü və nəhəng görmək idi.

Alim xan hakimiyyətinin ilkin dövrlərindən başlayaraq qonşu torpaqların işğallarına başladı. O, Böyük jüzün köçəri qazaxları üzərinə hücuma keçib, Cimkent, Sayram və Kurama ərazilərini işğal etdi. Alim xan 20 gün Cimkenti mühasirədə saxladıqdan sonra şəhəri aldı və qarət etdi.

Kokand ordusu Aulie-Ata və Türküstanı da mühasirəyə alıb dağıtdı. Alim xan çoxsaylı ordusu ilə Xocənt ətrafında Yunis Xocanın ordularını tamamilə məhv etdi. Yunis Xoca dəhşətə gəlib bütün əmlakını, ordusunu, xəzinəsini orada qoyub Daşkəndə qaçdı. Eyni qanlı döyüş Daşkənd ətrafında da baş verdi və Daşkənd alındı. Daşkəndin alınması

ilə o, Orta Asiya xanları içərisində birinci oldu. Çünki Daşkənd həmin dövrdə sənətkarlıq və ticarət baxımından ən varlı şəhər idi.

1809-cu ildə Alim xan sui-qəsd nəticəsində öldürüldü. Onun yerinə keçən Omar xanın (1809-1821) dövründə din xadimlərinin rolu artdı. O, sələfinin işini davam etdirərək Türküstan şəhərini və onun ətrafındakı – Cana-Kurqan, Jülek, Ak-Meçet, Kumış-Kurqan, Cim-Kurqan və başqa möhkəmləndirilmiş qala məntəqələri ələ keçirdi. Beləliklə Sır-Dəryanın orta axarı sərhəd kimi qəbul edildi və bu ərazidə yerləşmiş Ak-Meçet qalası Yaqub bəy tərəfindən idarə olunurdu. Qazax nəsillərindən-bestamqalı, seykem, çımır, canıs Kokand xanlığının hakimiyyəti altına düşmüşdü. Bestamqalı isə öz tərkibində isti, oşaktı, çapraştı, jalair və sırqalı nəsillərini birləşdirirdi.

Kokand xanlığının hakimiyyəti altında olan qazaxlar ağır vergilərin yükü altında idilər. Kokand xanı qazaxlardan «zəkat» vergisi yığırdı. Məs; Cimkent vilayətindən xan bir il ərzində zəkat adı ilə 80 min manat gümüş pul toplamışdı.

«Zəkat» və başqa vergilərin yığılması zamanı zorla çoxlu miqdarda heyvanlar və qızlar aparılırdı. Xərac əsasən oturaq-əkinçi əhalidən alınırdı. Xəracın «takip» deyilən növü 12 çirik (78 funt) taxıl demək idi. 15-25 takip-koş yaradırdı. Kokand bəyləri isə hər bir koşdan 40-70 pud taxıl götürürdülər.

Vergiyığanların qəddarlığından cana doymuş Cimkent, Sayram və Aulie-Ata ərazisində yaşayan qazax əhalisi üsyan qaldırdılar. 1821-ci ildə baş vermiş üsyanın başında Tentyak-Tjure durdu. Tezliklə üsyançıların sayı 12 min nəfərə çatdı.

## *§5 XIX əsrin II yarısında Rusiya tərəfindən Qazaxıstanın işğalının başa çatması*

XIX əsrin II yarısında Böyük jüzün cənub rayonları hələ də Kokand bəylərinin ixtiyarında idi. Rus silahlı dəstələrinin Zailiy ərazisinin (içərilərinə) dərinliklərinə girməsi güclü müqavimətlə qarşılandı. Yerli hakimiyyət Böyük jüzün ərazisini və alatau qırğızlarını Kokand əsarətindən qurtarmaq uğrunda gedən mübarizənin başında durmuşdu. 1850-ci ilin yazında Qutkovskinin rəhbərliyi altında olan rus dəstələri Kokand xanlığının möhkəmləndirilmiş məntəqəsi hesab edilən və Semireçyedə (Yeddisuda) yerləşən Tauçubəy qalasına hücuma başladılar. (Tauçubəy qalası İli çayının sol sahilində yerləşirdi). Qutqovskinin dəstələrinin hücumları dəf olundu və rus dəstələri geriyə-Kopala qayıtdılar. 1851-ci ildə podpolkovnik Kapabişevin komandanlığı altında xüsusi silahlanmış dəstələr Kokand qoşunlarını məğlub edib Tauçebəy qalasını aldılar və onu dağıtdılar. Qalanın alınması rusların Yeddisuda müvəffəqiyyətini təmin etdi və Zailiy bölgəsinin içərilərinə girməyi asanlaşdırdı. Çar hökuməti bu ərazidə möhkəmləndirilmiş mərkəz yaratmaqla, nəinki Rusiyanın Kaşqar və Orta Asiya xanlıqları ilə ticarətini nəzarət etməyi tuturdu, həm də çar ordularının Yeddiçay ölkəsinə girməsini planlaşdırmışdı.

1853-cü ildə Kopalda Böyük Ordanın pristavı mayor Peremişlinin rəhbərliyi altında xüsusi dəstə yaradıldı. Hökumətin gizli təlimatına əsasən Peremişl İli və Çu çayları arasında əlverişli mövqe tutmalı idi ki, onlar oradan Çinə, Kaşqara, nəhayət Pişpek qalasını tutmaqla Kokand xanlığına qəti hücumlar edə bilsinlər.

1853-cü ildə Peremişlinin dəstələri 1-ci və 2-ci Alma-Ata

ərazilərinin arasında əlverişli vadi olduğunu aşkara çıxartdılar. Burada ağac tədarükü üçün meşə, əkinə yararlı torpaq və gəmiçilik üçün əlverişli Issık-Talqar çayı yerləşirdi ki, bu da rusların gələcəkdəki irəliləmələri üçün zəmin yaradırdı. 1854-cü ildə Ala-Tau dağının ətəyində əlverişli Alma-Ata vadisində möhkəmləndirilmiş Verno hərbi qalası tikildi.

Zailiy ölkəsi əsrlərlə feodal ara müharibələrinin, Cunqar hücumlarının, Çin feodallarının və Kokand xanlarının hücum hədəfi olmuşdu. Feodallar arasında gedən aramsız müharibələr qazax şaruha (kənd) təsərrüfatına ağır zərbə vurmuşdu. Böyük jüzün Rusiyaya birləşdirilməsindən sonra ara müharibələrinə və xarici hücumlara son qoyuldu. Verno qalasının tikilməsindən sonra Zailiy ərazisinə rus kəndlilərinin yerləşdirilməsi başlanıldı. Burada yerləşdirilən kəndlilər və kazaklar əsasən Tomski və Tobolski quberniyalarından köçürülmüşdülər. Rus kəndlilərinin bu ərazilərdə məskunlaşması ilə qazaxlarda əkinçilik təsərrüfat inkişaf etməyə başladı.

Verno qalası mərkəz olmaqla Yeddiçayarasında 1856-cı ildə Alatav dairəsində pristavlıq yaradıldı. Dairədə yeni inzibati-məhkəmə sistemi quruldu. Bununla da ağır cinayətlər, ölüm hadisələri, quldurluq məsələlərinə baxılması işləri rus məhkəmələrinə həvalə olundu. Məhkəmələr qazaxlar arasında gedən ara müharibələrinin kəsilməsində böyük rol oynadı və təsərrüfatın inkişafına ciddi təsir göstərdi.

Rus hökuməti Zailiy ölkəsinin işğalını başa çatdırmaq üçün xüsusi plan hazırladı. Həmin plana görə Alatau qırğızlarının ərazisi və Çuy vadisi Kokand xanlığının əlindən alınmalı idi. 1860-cı ildə Simmermanın rəhbərliyi altında rus dəstələri Çuy vadisinə hərbi yürüş təşkil etdilər. Uzun-Ağac adlanan yerdə baş verən qanlı döyüşdə Kokand xanlığının

silahlı qüvvələri ağır məğlubiyyətə uğradıldı. Bu qələbə rusların Alatau qırğızlarının ərazilərinə girməsini asanlaşdırdı. 1860-cı ildə ruslar Kokand xanlığının möhkəmləndirilmiş məntəqəsi hesab olunan Pişpeki almaqla Zailiy ölkəsini işğal edib Rusiyaya birləşdirdi.

Rus orduları Böyük jüzün işğalı ilə paralel olaraq Orta Asiya xanlıqları üzərinə də hücuma keçmişdi. Sır-Dərya və Ak-Meçet ətrafında yaşayan və Xivə, Kokand xanlarından asılı olan qazaxlar könüllü olaraq Rusiya himayəsini qəbul etmişdilər.

1853-cü ilin yazında rus ordusu Ak-Meçet ətrafında Kokand xanlığının qoşunlarını məğlub edib qalanı (Ak-Meçeti) ələ keçirdilər.

Eyni zamanda yerli hakimiyyətə tapşırıldı ki, onlar Kazalin məntəqəsini möhkəmləndirsinlər və Sır-Dəryaya tökülən Karauzek çayı sahilində liman qursunlar. Rus qoşunları Kokanda məxsus qalaları-Kumuş-Kurqan, Cim-Kurqan və Culeki dağıtdılar.

Rus işğalına qarşı Can Xoca Nurmuhamedovun rəhbərliyi ilə qalxmış üsyan da yatırıldıqdan sonra Sır-Dərya ətrafı qazaxlar Rusiyaya zorla birləşdirildi və rusların Orta Asiya xanları üzərinə irəliləməsi üçün əlverişli imkan yarandı. Rusların ilkin dövrlərdə yeritdikləri hiyləgər planlar-yerli əhaliyə bəylərə nisbətən yüngül münasibət bəsləmələri, qayda-qanunların gərginliyini bir qədər yumşaltmaları, ara müharibələrinə son qoymaları, ölkədə sabitliyin bərpa edilməsi yerli əhali içərisində onlara qarşı hüsnü-rəğbət yaradırdı. Məhz buna görə, hətta Kokand əhalisi- özbəklər də bəy və xanların zülmündən azad olmağı rusların gəlməsində görürdülər.

Böyük jüzün şərq rayonları hələ XIX əsrin başlanğıcından çin boqdıxanlarının hakimiyyəti altına düşmüşdü. Çin hakim dairələri sərhəd

zonalarında yaşayan qazaxların bütün heyvan növlərindən vergi alırdılar. Vergi yığmaq üçün göndərilən silahlı dəstələrlə tacirlər də gedirdilər. Həmin tacirlər yol boyu ticarətlərini edir və Kulçe, Cuquçake kimi faktoriyalarda açıq ticarətlə məşğul olurdular.

Böyük jüzün Rusiya tərəfindən işğalı Çini narahat etdi və rusların hərəkətinə mane olmaq üçün yerli bij və xanları ələ almağa başladı. Çin tərəfindən vəd olundu ki, Rusiyaya qarşı çıxmış sultan Qabaydulla xana kömək məqsədi ilə Bayan-Aula silahlı qüvvələr göndəriləcək. Lakin Qabaydulla xan rus hakimiyyət orqanları tərəfindən ələ keçirilib Omski şəhərinə göndərildi. Çinin planı baş tutmadı.

1864-cü ilin yazında rus qoşunları Kokand xanının 4 min əsgəri tərəfindən qorunan Auliə-Ata qalasını ələ keçirdi. Auliə-Atanın alınmasında rus qoşunlarının tərkibində qazax süvariləri də iştirak edirdilər. Auliə-Ata alındıqdan sonra polkovnik Çernyayevin komandanlığı altında rus qoşunları 20 minlik əsgəri qüvvəyə malik olan Cimkent üzərinə yeridi. Cimkentin müdafiəsinə Kokand xanı Alimqulu xanın özü gəldi və əsgərlərə müraciət edərək müsəlmanları ümumi düşmənə qarşı birləşməyə çağırdı.

Cimkent ətrafında ağır bir döyüş baş verdi. 1864-cü ilin sentyabrında Cimkent rus qoşunları tərəfindən ələ keçirildi. Rus orduları Orta Asiyanın içərilərinə doğru hərəkət etməyə başladı.

Çar hökuməti Daşkəndə Orta Asiyanın siyasi və iri ticarət mərkəzi kimi böyük əhəmiyyət verirdi. Daşkəndin alınması Rusiya Orta Asiya iqtisadi-siyasi münasibətlərinə geniş meydan verərdi. Daşkənd Kokand xanlığı üçün də böyük strateji əhəmiyyətə malik bir şəhər idi. Məhz buna görə də Kokand xanı Daşkəndin müdafiəsinə çoxlu artilleriyaya malik

böyük bir ordu toplamışdı. 1865-ci ildə baş vermiş qanlı döyüşdə Daşkənd rus qoşunları tərəfindən işğal olundu. Daşkənd Kokanddan asılı olmayan müstəqil şəhərə çevrildi.

1861-ci ildə rus orduları Buxara xanlığının sərhədlərini keçdilər. Ciddi döyüşlərdən sonra Buxara xanlığının böyük ərazisi rus qoşunları tərəfindən işğal olundu.

Bütün bu hadisələr göstərirdi ki, Orta Asiya dövlətləri tezliklə Rus imperiyasının təsiri altına düşəcək. Beləliklə XIX əsrin 60-cı illərində Qazaxıstan Rusiya tərəfindən tam işğal olundu.

### *§6 Çarizmin Qazaxıstanda inzibati-idarə islahatı*

Rusiya Orta və Böyük jüzün torpaqlarını işğal edib öz imperiyası tərkibinə qatdıqdan sonra onun təsərrüfatını öz tələblərinə uyğun qurmaq üçün yeni inzibati-idarə islahatları keçirmək planlaşdırdı. 1867-68-ci illərdə keçirilən inzibati-idarə islahatına görə Qazaxıstan ərazisi altı vilayətə bölündü: Turqay (Kiçik jüzün mərkəz və şərq hissəsi), Ural (Ural qazax döyüşçülərinin torpaqları, Kiçik jüzün orta və qərb rayonları), Akmolınski (Kokçetav, Atbasar, Akmolip dairələri və Sibir kazak döyüşçülərinə məxsus dairənin bir hissəsi), Semipalatinski (Semipalatinski, Bayan-Aul, Karkaralin, Kokpektin dairələri, Sibir kazak döyüşçülərinin yerləşdikləri dairənin bir neçə rayonu, Ayaquz dairəsi və Zaysan ölkəsinin bir hissəsi), Sır-Dərya (rayonlar, Sır-Dərya hərbi yolunun ətraf əraziləri, əvvəllər Kokand xanlığına məxsus olmuş torpaqlar), Semireçye (Semipalatin vilayətinin əraziləri və Parbaqatay dağlarından cənub-şərqə olan ərazilər). Daxili (Bukey) Orda Həştərxan quberniyasına tabe edildi. Manqışlak pristavlığı Qafqaz hərbi dairəsinə

verildi. Sır-Dərya və Yeddiçayarası (Semireçye) əyalətləri mərkəzi Daşkənd şəhəri olan Türküstan general-qubernatorluğuna, Akmolin və Semipalatin əyalətləri isə mərkəzi Omski şəhəri olan Çöl general-qubernatorluğuna verildi.

Əyalətlər qəzalara, qəzalar isə aullara bölündü. Əyalətin başında ixtiyarında mülki və hərbi hakimiyyət olan qubernator dururdu.

Vergi yığılması işlərində dəyişikliklər edildi. Hər bir kibitkaya qoyulan vergilər 1man.50 qəpikdən 3 man. qədər (il ərzində) qaldırıldı. Semireçye və Sır-Dərya əyalətlərinin torpaqları dövlət torpaqları elan olunmuşdu və çar xəzinəsi üçün «xərac» (məhsulun onda biri) toplanılırdı. Vergi yığılması işləri (vergi siyahısı, kibitka vergisi) bütünlüklə volost idarəsinin və aul ştarsinasının ixtiyarında idi. Xalq təhsili (maarifi) və əhaliyə tibbi xidmətlərin göstərilməsi üçün xüsusi tədbirlər planı hazırlandı. Qəza şəhərlərində qazax və rus uşaqlarının bir yerdə təhsil alması üçün məktəblər açılması nəzərdə tutuldu.

1867-1868-ci il islahatı çarizmin hərbi müstəmləkə qaydalarının Qazaxıstanda möhkəmləndirilməsi üçün mühüm amil oldu. Çarizm həmin islahatın davamı olaraq «25 mart 1891-ci ildə «Çöl vilayətlərinin» idarə olunma vəziyyəti haqqında» yeni əsasnamə qəbul etdi. Həmin əsasnaməyə görə Akmolin, Semipalatin, Semireçye, Ural və Turqay vilayətləri Çöl general-qubernatorluğunun tərkibinə daxil edildilər. 1891-ci il «Əsasnamə»si tamamilə yerli xalqın iradəsinə əks və iqtisadi bölgülərinə zidd olan bir əsasnamə idi. «Volost və aul starşinaları (böyükləri) faktiki olaraq qazax çöllərinin tam hakiminə çevrilmişdilər, əhalini demək olar ki, qarət edirdilər». Kibitkalardan alınan vergilər 4 manata qədər qaldırılmışdı.

## *§7 Qazaxıstanda çarizmin müstəmləkə rejiminə qarşı üsyanlar*

Qazaxıstanın Rusiya imperiyasının tərkibinə qatılması qazax kəndliləri üzərindən ağır zülmü götürmədi. Işğaldan sonra Qazaxıstanda rus işğal rejimi yaradıldı. Ağır vergi zülmü gücləndi. Bütün bunlar kəndlilərin çıxışlarına gətirib çıxartdı. Kəndlilər onlardan alınmış torpaqların (onların özlərinə) qaytarılmasını və vergilərin azadılmasını tələb edirdilər. Starşina və bəylərin də bir hissəsi öz tayfaları üzərində hakimiyyətlərinin məhdudlaşdırılmasından narazı qaldıqlarına görə gizli surətdə kəndli üsyanlarına təkan verirdilər.

1869-cu ildə Ural və Turqay vilayətlərində qalxmış qazax əhalisinin üsyanına böyük sultan xaqanlıq Arslanov, iri bij Azberqan Munaytpasov və molla Daut Asauov rəhbərlik edirdilər. Üsyan rəhbərləri Xivə xanlığı ilə əlaqə yaratmağa cəhd göstərdilər. Onlar öz nümayəndələrini Xivə xanının yanına göndərdilər və onların himayəsinə keçmək vədi ilə köməyə qoşun göndərilməsini məsləhət bildilər. 1869-cu ilin mart ayının I yarısında çox saylı Xivə qoşunları Embaya yaxınlaşdılar. Qazax üsyançıları ilkin dövrdə Xivəlilərə yaxınlaşsalar da, son anda üsyan rəhbərlərinin əsil məqsədlərini başa düşüb onlardan ayrıldılar. Beləliklə sultanlar, bəylər və din xadimləri iri xalq kütləsi tərəfindən müdafiə olunmadı. Bundan əlavə üsyan həm də antifeodal xarakteri daşıyırdı. Çünki üsyanın gedişində qazax kəndliləri (şarua) feodalların aullarına hücum edir, onların heyvanlarını və əmlakını qarət edirdilər. Çar komandanlığı çox vaxt aparmadan üsyançılar üzərinə güclü qoşun göndərdi. Məğlubiyyətdən və ələ keçməkdən qorxan üsyan rəhbərləri Xivəyə qaçıb getdilər. 1869-cu ilin ortalarında üsyan tamamilə yatırıldı.

1870-ci ildə Manqışlakda qazax-adayevlərin başlanmış üsyanı daha mütəşəkkil xarakter daşıyırdı. Üsyanın başlanmasına əsas səbəb çar hakimiyyət orqanlarının yerli əhalidən iki illik (1869-1870) verginin bir yerdə verilməsini tələb etməsi idi. Hər bir təsərrüfat (kasıblar) nəzərə alınmadan orta hesabla 8 man. gümüş pul verməli idilər. Vergi yığılması zamanı üsyançılar Isa Tyulentayev və Dosana Tajiyevın rəhbərliyi altında pristav Rukinanın dəstələrini mühasirəyə alıb darmadağın etdilər. Rukin özünü güllələdi. Onu müşayət edən bij Mayayev isə üsyançılar tərəfindən öldürüldü.

Birinci müvəffəqiyyət üsyan rəhbərlərinin şöhrətini hər yerə yaydı. Tezliklə çar hakimiyyət orqanlarından narazı olan əhali-balıq vətəgələrinin işçiləri, ticarət və balıq emalı zavodun fəhlələri, müxtəlif aullardan maldar qazax kəndliləri kütləvi halda üsyançılara qoşulmaq üçün gəldilər. Üsyançıların sayı artıq altı minə gəlib çatmışdı. Nizələrlə, yabalarla silahlanmış üsyançılar tezliklə Aleksandrov limanını ələ kesirdilər. Onlar Nikolayev stanitsasında Volqa qarnizonunun ərzaq və əşya anbarlarını ələ keçirdilər. Yerli qarnizonun ixtiyarında kifayət qədər qoşun və artilleriya olmasına baxmayaraq bir ay üsyançıların mühasirəsində qaldılar. Hətta üsyançılar ən ağır dəqiqələrdə belə Xivə xanından kömək istəmədilər. Çar hökuməti üsyanı yatırtmaq üçün Qafqazdan, Həştərxandan və Uraldan böyük ordu qüvvələri ayırıb göndərdi. Onların içərisində 8 piyada (rotası) bölməsi, 500 süvari və qazax dəstələri təmsil olunmuşdu.

General Melikov qoşuna komandanlıq edirdi. Ordunun gəlməsini görən üsyançılar çölə geri çəkildilər. Vəziyyətin ağırlığını görən bij və starşinalar çar ordularının tərəfinə keçdilər. Çar orduları bütün su

quyularını ələ keçirib Manqışlak yarımadasını hərbi zonalara böldülər. Rus hərbçiləri yerli qazax əhalisi ilə amansız hərəkətlər edirdilər. Məs; həmin hərbi yürüşdə iştirak etmiş nazir öz məlumatında göstərirdi ki, «4 gün ərzində Baykov öz dəstəsi ilə 16 aulu qarət etmiş, 70 kibitkanı məhv etmiş və karvanları dağıtmışdı».

Çar hakimiyyət orqanları üsyançılara qanlı divan tutdular. Üsyan rəhbərləri hər yerdə axtarılırdı. Dosan Tajiyev hələ də mübarizəni davam etdirirdi. 1876-cı ildə üsyan rəhbərləri üzərində məhkəmə prosesi quruldu. Dosan Tajiyev məhkəməyə qədər həbsxanada öldürüldü. Yerdə qalan üsyan rəhbərləri Sibirə ağır katorqa işlərinə sürgün olundular.

Uralda və Turqayda qazax şarualarının üsyanı çarizmin ağır müstəmləkəçilik siyasətinə qarşı qalxmışdı və qazax xalqının azadlıq mübarizəsinin şanlı səhifəsini təşkil edir.

# III FƏSIL
# MƏRKƏZI ASIYA VƏ QAZAXISTAN XALQLARININ MƏDƏNIYYƏTI (XIII-XX ƏSRIN ƏVVƏLLƏRI)

## *§1 Maarif, elm, incəsənət*

Qədim və erkən orta əsrlər dövrünün mədəniyyəti üzərində formalaşmış türk xalqlarının mədəniyyəti öz inkişafını feodalizmin orta və son mərhələlərində də davam etdirərək XX əsrə özünəməxsus bir mədəni irslə gəlib çıxmışdı. Mərkəzi Asiya və Qazaxıstan ərazilərində, XIV-XV əsrlərə qədər ümumi türk xalqlarından qaraqalpaq, türkmən, özbək, qırğız, qazax adlanan tayfalar ayrılmamışdılar. Onlar bu əsrlərdən etibarən özlərini bir xalq kimi tanımağa başlamışdılar və özlərinə məxsus mənəvi və maddi mədəniyyətləri formalaşmışdı. Ona görə də tarixşünaslıqda erkən orta əsrlərdə olduğu kimi, orta əsrlərin əvvəllərində də, Mərkəzi Asiyanın, Qazaxıstanın bölgələrində yaranmış şifahi mədəniyyət abidəsi, indiki bir neçə türk xalqının mirası kimi səciyyələndirilirdi. Demək lazımdır ki, Mərkəzi Asiya və Qazaxıstanda yaşayan indiki türk xalqlarının etnik tarixində bu və ya digər nisbətdə eyni türk tayfaları iştirak etmişdir. Müasir türk xalqlarının yaşadığı ölkələrdə orta əsrlərdə mənəvi və maddi mədəniyyəti bir olan türk tayfaları yaşayırdı. Onların ictimai və təsərrüfat həyatında da eyni bölümlər özünü göstərirdi. Türk tayfalarının ictimai tərkibi belə qurulmuşdu. Oğuz (ailə), urug (soy), xirə (nəsil), bod (boy), qəbilə (tayfa), ok (siyasi quruluşa, dövlət quruluşuna malik tayfa birləşməsi) və el, il (dövlət) və s.

Türk tayfalarının yaşadığı ərazilərdə qan qohumluğuna əsaslanan

oğuz (ailə)-ictimai və sosial vahid mövcud idi. Bəzi hallarda oğuz ata, ana, bacı və qardaşdan, digər hallarda bu cür ailələrə baba, nənə, oğul və nəvələr də əlavə olunurdu. Türk xalqlarında monoqam ailə mövcud idi.

Çoxsaylı türk tayfaları birgə yaşadıqları əraziləri uluslar adlandırır, tayfaların ayrıca yaşadıqları bölgələr isə «yurt» adlandırılırdı.

Orta əsrlərdə Mərkəzi Asiyanın türk xalqlarının floklorunda epos janrı üstünlük təşkil edirdi. Bu eposlar əsassən XVIII-XIX əsrlərdə tədqiq olunaraq yazıya alınmışdı. Eposlarda əsasən erkən orta əsr hadisələri təsvir olunmuşdu.

Qədim türklərin mədəni irsi, folklor nümunələri Orxan-Yenisey, Talas və Ongin abidələrində də izlənilmişdi. Xüsusilə, Kül-Tikin və Bilgə xaqanın şərəfinə qaldırılmış sütunların üzərindəki yazılarda bu özünü daha açıq surətdə göstərmişdi.

XIII əsrin əvvəllərində monqol inğalları Mərkəzi Asiya və Qazaxıstanın mədəniyyətə ağır zərbə vursa da, lakin bu az müddət çəkmiş, tezliklə imperiyanın yerində yaranmış dövlətlər Qızıl Orda, Hülakilər və s. maarifin, elmin inkişafına xüsusi fikir verməyə başlamışdılar. Xüsusilə Teymurilər dövründə elmi biliklərin inkişafına, təhsilə qayğı göstərilir, elm və sənət adamları himayə olunurdular.

Teymurun nəvəsi, böyük hökmdar və alim Uluqbəy Buxara, Səmərqənd, Çiyduvan şəhərlərində o dövrün böyük elm ocaqlarından olan mədrəsələr tikdirmiş, onlara böyük diqqət yetirmişdir. Teymuri hökmdarı Hüseyn Bayqaranın baş vəziri olmuş Əlişir Nəvai də öz hesabına mədrəsələr tikdirmişdir.

Astronomiyanın inkişafında böyük türk alimi, riyaziyyatçısı və astronomu Uluqbəyin xidmətləri daha çox olmuşdur. Uluqbəy

Səmərqənddə hündürlüyü 55 metr olan, dünyanın məşhur rəsədxanasını yaratmış, öz ətrafına Məsud əl Kaşi, Qazizadə Rumi, Əli Quşçu, Qiyasəddin Cəmşid Səlahəddin Mussa Rumi kimi məşhur elm adamlarını toplamış, himayə etmişdir.

Uluqbəy Günəş, Ay və ulduzların hərəkətlərini göstərən cədvəl düzəldərək Ay və Günəşin orbitlərini müəyyənləşdirmişdir. Uluqbəy astronomiya alətlərinin ən böyük təkmilləşdiricilərindəndir. Ay xəritəsinə daxil edilmiş üç böyük türk astronomlarından (Biruni, Nəsrəddin Tusi, Uluqbəy) biridir. Rəsədxanada Uluqbəy böyük kitabxana da düzəltmişdi. Onun rəhbərliyi altında «Dörd ulusun tarixi» adlı tarix kitabı da hazırlanmışdı. Səmərqəddə çoxlu alim, şair, memar, rəsam yaşayır və işləyirdi.

XVII əsrin II yarısı – XVIII əsrdə Mərkəzi Asiyada yaranmış xanlıqlar (Kokand, Xivə, Buxara) arasında gedən müharibələr, xarici basqınlar Mərkəzi Asiya və Qazaxıstan xalqlarının mədəniyyətinə də öz təsirini göstərirdi. Bununla belə şairlər, incəsənt xadimləri çətin şəraitdə olsa belə mədəniyyəti inkişaf etdirir, yeni əsərlər yaradırdılar. Ali dini məktəbləri ilə məşhur olan Bağdad, Şam şəhərləri ilə yanaşı Buxara və Səmərqənd şəhərlərinin də fəaliyyəti müsəlman dünyasında məşhur idi. Məktəblərdə isə şagirdlərə ərəb əlifbasını, Islam dininin əsaslarını, ilk növbədə Quran oxumağı öyrədirdilər.

Qazaxıstanın Rusiya tərəfindən işğalından sonra maarifə və mədəniyyətə rus təsiri güclü təsir etməyə başladı. Rusiya hakim dairələri yerli gəncləri rus təhsilli məktəblərə cəlb etməklə özləri üçün kadrlar hazırlayırdılar. 1789-cu ildə Omskda təşkil edilmiş «Asiya məktəbi»ndə yerli idarəçilik üçün tərcüməçi və dəftərxana işçiləri hazırlanırdı.

Xivə hökmdarı Əbülqazi Bahadırxan elmlə də məşğul olurdu. Onun «Türk və monqolların şəcərəsi» əsəri o dövrə aid qiymətli mənbədir.

Qırğızlar arasında meteroloqlar və vaxtı dəqiq müəyyən edən peşəkar (esepçi) vardı. Onlar il boyu müşahidə aparır, hava haqqında məlumat verirdilər.

Sübhanqulu xan Buxarada şəfa evi açmışdı. Burada xəstələr müalicə olunur və tibb elmi öyrənilirdi. XIX əsrin əvvəllərində Mərkəzi Asiya və Qazaxıstanda maarifin inkişafı uzun illər Islam dini ilə bağlı olmuşdur. Çünki, maarifin əsas yayıcıları din xadimləri idilər. Onlar dini elmlərlə bərabər dünyəvi elmləri də tədris edirdilər. Xanlıqlarda məktəb və mədrəsələr oturaq əhalinin daha çox məskunlaşdığı bölgələrdə yaranır, köçərilər isə övladlarını «yurt»larda təşkil edilmiş «məktəblərdə» oxudurdular.

Məktəblərdə dərslər ərəb əlifbası əsasında keçirilirdi. Ibtidai dini məktəbləri qurtaranların cüzi hissəsi, xüsusilə imkanlı ailələrin uşaqları mədrəsələrə daxil olurdu. Vahid tədris proqramı olmadığına görə mədrəsələrdə bəzi şagirdlər təhsilini 10 ilə, digərləri isə 12-15 ilə başa çatdırırdı. Məzunlara ali dini məktəblərdə o cümlədən, Buxara, Səmərqənd, Kazan, Ufa və Orenburqdakı iri mədrəsələrdə təhsil almış tanınmış din xadimləri dərs deyirdilər. Mədrəsələrdə dəftərxanalar üçün kadr və din xadimləri hazırlanırdı.

XIX əsrin II yarısında Mərkəzi Asiya və Qazaxıstanda maarifin əsasını yenə də məktəb və mədrəsələr təşkil edirdi. 1899-cu il məlumatına əsasən Türküstan diyarının Sırdərya, Səmərqənd və Fərqanə vilayətlərində 44773 şagirdin oxuduğu 4632 məktəb vardı. 1892-ci ildə Qırğızıstanda 7 mədrəsədə dərs keçilirdi. Buradakı rus-qırğız

məktəblərində qazax dilinin tədrisinin qadağan edilməsi qazax əhalisinin böyük narazılığına səbəb olmuşdu.

Rusiya hökuməti maarif sahəsində öz siyasətini həyata keçirmək məqsədilə müsəlman ruhanilərinin Türküstan xalqlarına təsirini zəiflətməyə çalışırdı. Çünki onlar yerli əhali arasında Islamı yaymaqla bərabər, həm də rusların müstəmləkəçilik siyasətini aparmalarına mane olurdular. Bütün bunlara baxmayaraq hökumət təhsilin inkişafına az da olsa diqqət yetirirdi. 1893-cü ildə Səmərqənddə yeni üsullu məktəbin əsası qoyulmuşdu. Rusiya dövləti Mərkəzi Asiya və Qazaxıstanın təbii sərvətlərinin tədqiqi və mənimsənilməsi sahəsində də müəyyən addımlar atırdı. 1897-ci ildə Rus Coğrafiya Cəmiyyətinin Türküstan şöbəsi təsis edilmişdi. Çokan Vəlixanov Rusiyanın Çin dövləti ilə sərhəd bölgələrinə gedən elmi ekspedisiyaların rəhbəri təyin olunmuşdu.

Türküstanda mətbuat sahəsində müəyyən irəliləyişlər nəzərə çarpırdı. «Türküstan xəbərləri» (bu qəzet ərəb əlifbası ilə özbək və qazax dilində əlavə çıxırdı) və 1898-ci ildə Daşkənddə «Rus Türküstanı» adlı qəzetlərin çapına başlanıldı. 1868-ci ildə Daşkənddə mətbəənin və 1883-cü ildə isə burada fəaliyyətə başlayan litoqrafiyanın böyük rolu olmuşdur.

XX əsrin əvvəllərin Türküstanda sosial-iqtisadi və siyasi həyatda baş verən dəyişikliklər mədəniyyət sahəsinə də öz təsiri göstərirdi. Dünyəvi fənlərə maraq artır, maarifin inkişafı xüusi əhəmiyyət kəsb edirdi.

Türküstanın qabaqcıl görüşlü ziyalıları təhsil sahəsində islahatların keçirilməsini zəruri sayırdılar. 1905-1906-cı illərdə keçirilmiş müsəlman qurultaylarında hazırlanmış yeni tədris proqramı əsasında yeni üsullu

(üsuli-cədid) məktəblərin yaradılmasına çalışırdılar. Görkəmli maarifçi, ictimai xadim Ismayıl bəy Qaspiralı türk xalqlarının təhsil və mədəniyyətinin inkişafına kömək edirdi. Üsuli cədid məktəbləri Daşkənd, Buxara və Xivədə təşkil edilmişdi. Mərkəzi Asiya və Qazaxıstanda da yerli məktəb və mədrəsələr də fəaliyyət göstərirdi. Yeni-üsullu məktəblərlə yanaşı rus-yerli, rus, gimnaziyalar, müəllimlər seminariyası və realnı məktəblərin sayı çoxalmaqda idi. Rus-yerli məktəblərində əsasən rus dili öyrədilir və hesab dərsi keçilirdi. Lakin bununla yanaşı Islam dini tədris olunurdu. XX əsrin əvvəlində Daşkənddə Türküstan pedaqoji dərnəyi yaradılmışdı. Bu dərnək 1903-cü ildə ilk qadın rus-yerli məktəbini açmışdı. Yeni məktəblər yerli burjuaziyanın maliyyə dəstəyi ilə açılırdı. Çox vaxt çarizm onların Türkiyə ilə əlaqələrini bəhanə edərək açılan yeni məktəblərin çoxunu bağlatdırırdı. 1911-ci ildə general-qubernator Samsonov rus-yerli məktəblərində rus dilinin məcburi surətdə öyrədilməsi fikrini söyləmişdi. Tokmak şəhərində təşkil edilmiş yeni üsullu ən böyük məktəb «Mütərəqqi» adlanırdı. 1911-ci ildə Qazaxıstanda 2155 məktəbdən 33-nü orta məktəblər təşkil edirdi.

Mərkəzi Asiya və Qazaxıstanda elmin inkişafı sahəsində müəyyən irəliləyişlər olmuşdu. Rus Coğrafiya Cəmiyyətinin Türküstan şöbəsi bölgənin təbiət və tarixinin, bitki, heyvanat aləmi və s. öyrənilməsində xeyli işlər görmüşdür. XX əsrin əvvəllərində Türküstanda müxtəlif mövqeyləri əks etdirən mətbuat orqanları olmuşdu. Daşkənddə «Tərəqqi» (1906), «Asiya» (1908), «Türküstanın səsi» (1914) qəzetləri və «Islahat» (1915) jurnalı, Buxarada «Turan» (1912), Kokanda «Fərqanənin səsi» (1914) qəzetləri nəşr edilirdi.

1911-1915-ci illərdə nəşr olunmuş «Aykap» jurnalı qazax ədəbi dilinə güclü təsir etdi.

### *§2 Qırğız mədəniyyəti*

«Manas» dastanı XIX əsrdə tədqiq olunaraq toplanmışdı. Manas dastanı nəzm şəklində yazılmışdı və 500 min misradan ibarətdir. Dastan VII-IX əsrlərdə yaranmış və şifahi surətdə nəsildən-nəsilə ötürülərək günümüzə qədər gəlib çıxmışdır. Dastanda qırğızların Tyan-Şan torpaqlarını düşmənlərdən geri alınması mübarizəsi təsvir olunur. Dastanın əsas qəhrəmanı Manasdır. Döyüşlərdə onunla birlikdə anası Çıyırdı və arvadı Kənikey də döyüşürdülər. Xalq içərisindən çıxmış Bakay, Saytək, Ayçurek və sair qəhrəmanlarda Manasla birlikdə torpaqlarını düşmənlərdən qorumaq uğrunda mübarizə aparırdılar.

Qırğızların «Ər-Təştük» dastanı da xalq içərisində geniş yayılmış eposlardan biridir. Dastanda təsvir olunan Təştük xalq qəhrəmanıdır, əsasən onun ölümündən sonra yeraltı  dünyada başına gələn hadisələr təsvir olunur. Eposda təsvir olunan qəhrəmanlar ancaq Vətən,, torpaq uğrunda mübarizə aparırlar və bu amal uğrunda canlarından keçirlər.

Qırğız şiyahi xalq ədəbiyyatı forma və janr etibarilə rəngarəngdir (əsatir və əfsanələr, çoban nəğmələri,atalar sözü və məsəllər, lətifələr, nağıllar, dastanlar və s.). monumental qəhrəmanlıq eposu olan «Manas» qırğız xalqının millilik tarixini əks etdirir. Toktogul Satılqanov, Toqoloq Moldo, B.Alıkulov və b. akınların şeirlərində ictimai zülm və bərabərsizlik ifşa olunur. Qırğızıstan ərazisində tapılmış ən qədim incəsənət abidələri Neolit dövrünə aiddir. V-X əsrlərdə feodal qala və qəsrlərin tikilmiş «şəhristan» və içqaladan ibarət şəhərlər salınmışdır

(Üzgen, Oş və s.). köçəri türk tayfalarına mənsub metal toqqalar, həndəsi, yaxud inzibati ornamentli asma medalyonlar dövrümüzədək mühafizə olunmuşdur. Qaraxanilərin hakimiyyəti dövründə qırğızlarda məscid, minarə, məqbərə və s. dini qurğular tikilmişdir.

Monqol-tatar işğalı dövründə (XIII əsrin birinci rübü) qırğızların şəhərləri tənəzzülə uğradı. XIII-XX əsrlərdə əsasən, məqbərələr (Manas məqbərəsi-XIV əsr) və karvansaralar (Taş-Rabat-XV əsr) tikilmişdir. Qırğızların Rusiya tərəfindən işğalından sonra digər xarici hücumlara son qoyuldu.

XVIII-XIX əsrin əvvəllərində qırğız musiqisi yalnız şifahi xalq yaradıcılığında təmsil olunurdu. Xalq mahnıları birsəsli, instrumental havaları isə ikisəsli və üçsəslidir, instrumental musiqi janrlarından küy (iri həcmli proqramlı pyes), musiqi alətləri-qomuz, kiyak, temir, çoor, surnay, kərnay, dool və s. geniş yayılmışdır. T.Satılqanov, K.Orozov, M.Kurenkeyev, A.Oqanbayev xalq musiqi mədəniyyətinin görkəmli nümayəndələrindəndir.

Xalq oyularında, mərasimlərdə, akınların yarışında, manasçıların (dastançı), qomuzçuların (musiqiçi) və qudulların (xalq məzhəkəçiləri) çıxışında teatr sənəti elementləri olmuşdur.

## *§3 Özbək mədəniyyəti*

Böyük özbək şairi, mütəfəkkiri və dövlət xadimi Nizaməddin Mir Əlişir Nəvai (1441-1501) türkdilli bədii ədəbiyyatın inkişafında böyük rol oynamışdır. Ə.Nəvai yaradıcılığının misilsiz tarixi əhəmiyyəti bir də ondadır ki, bu böyük şair özbək ədəbi dilinin əsasını qoymuşdur, 15 yaşında şair kimi şöhrət qazanmış Ə.Nəvai Məşhəd, Səmərqənd, Nəvai

və Herat şəhərlərində təhsil almışdır. O, Teymuri hökmdarı, şair Hüseyn Bayqaranın baş vəziri olmuşdu. Dil uğrunda Nəvainin ardıcıl və gərgin mübarizəsi onun vətənpərvərliyinin ən parlaq təzahirlərindən biri sayılmalıdır. 1499-cu ildə «Mühakimətül-lüğəteyn» (iki dilin mübahisəsi) adlı elmi əsərini yazıb «türki» dilini gözdən salanlara, yalnız fars dilini yüksək dil hesab edənlərə ağır zərbə vurmuşdu. Nəvai yaradıcılığının zirvəsini özbək dilində yaratdığı «Xəmsə» təşkil edir. Əlli min misradan ibarət olan Nəvai «Xəmsə»sinə «Möminlərin heyrəti», «Fərhad və Şirin», «Leyli və Məcnun», «Yeddi səyyarə» və «Səddi-Isgəndər» poemaları daxildir.

Teymurilərlə Şeybanilər arasında gedən müharibələrin tarixi və bədii inikası baxımından iki şairin irsinin mühüm əhəmiyyəti vardır. Bunlardan biri Z.M.Babur, digəri Mühəmməd SAlihdir. Babur Şeybanilərlə vuruşa-vuruşa qürbət elə köçmüş, orada şahidi olduğu hadisələri təsvir edən «Baburnamə» adlı memuar, vətən həsrəti ilə dolu olan şeirlər yazmışdır. M.Salih Teymurilərdən zülm görüb, Şeybani xan sarayına getmiş, onun müzəffər yürüşlərinin şahidi olmuş və «Şeybaninamə» adlı məsnəfi yazmışdır. XVI əsrin görkəmli özbək şairi Zeynəddin Vasifi «Təəccüblü səyahət» adlı kitabında Buxaranın Heratın, Bəlxin ümumi mənzərəsini vermiş, əyanların həyatını təsvir etmişdi.

XVII əsrin mühüm mədəni yadigarlarından Xivə hökmdarı Əbülqazi Bahadır xanın (1603-1664) «Şəcərəyi-tərakimə», «Şəcərəyi-türk» əsərləridir. Əsər türkmən molları, şeyxləri və bəylərinin təklif və xahişi ilə yazılmışdır. Bu əsərlər indii də öz əhəmiyyətini saxlamaqdadır. Türkmən xalqının etnik tarixinin araşdırılması baxımından bu əsərlərin elmi əhəmiyyəti böyükdür.

Turdu Fəraqinin Həştərxanilər sülaləsi zamanında, XVII əsrin ikinci yarısında yaşadığı məlumdur. Şairin cəmi 17 şeirdən ibarət əlyazması gəlib zamanımıza çatmışdır. Turdunun həcvləri feodal özbaşınalığına qarşı yazılmış şeirlərdir, əsasən də həcvləri 1680-1702-ci illərdə hakimiyyətdə olmuş Sübhanqulu xana ünvanlanmışdır.

XIX əsrin əvvəllərində Kokand xanı Ömərin hakimiyyəti dövründə (1811-1821) ədəbi hərəkat canlanmış, Kokand sarayı ədəbi mərkəzə çevrilmişdi. Saray şairi nəmanqanlı Fəzlinin tərtib etdiyi «Məcmuətiüsşşəra»da (1821) yüzdən artıq şairin əsəri toplanmışdır. Saray şairləri xanlara məddah səpgidə şeirlər həsr etsələr də, lakin bu şeirlərdə də dövrün ictimai-siyasi hadisələri təsvir olunurdu. Məxmur və Gülxani kimi şairlər isə xalqın içərisindən çıxdıqları üçün şeirlərində feodal özbaşınalığı, xalqın ağır vəziyyəti tam aydınlıqla verilmişdi.

Özbək ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mühəmməd Əmin Muqimi (1851-1903) yeni mövzuda yazdığı satiralarında özünün orijinal tənqid üsulu ilə seçilirdi. «Tənabçılar» («Yerölçənlər») satirasında məmurların xalqı qorxudaraq rüşvət almalarından danışır. Muqiminin fabrik sahiblərinə, yerli burjuaziyaya həsr etdiyi «Moskvalı bay», «Viktor haqqında həcv», «Toy», «Veksel» satiralarında da tənqidi gülüş özünü göstərir. Müqimi sadə xalqın həyatını «Səyahətnamə» adlandırdığı silsilə şeirlərində təsvir etmişdir.

XVIII əsrdə yaranmış nümunələrdən öz məzmunu və forması ilə seçilən Mir-Məhəmməd Əmir Buxarinin «Ubeydullanaməsi»dir. XVIII əsrin sonlarında Muhammed Şərifin «Tac-ət-Təvarixi» meydana gəldi. XVIII əsrin ikinci yarısında Buxarada yazılmış tarixi əsrlərə Əbdürrəhmanın «Abulfaz xanın tarixi» və Muhammed Kermineqinin

«Tuxtai xani» misal ola bilər. XIX əsrin tarixini özündə əks etdirən Muhammed Mir Alim Buxarinin «Fatx-name-i sultani»dir. Məhşur Buxara şairi Mirzə Sadıq Münşinin yazdığı «Manqıt dövlətinin tarixi» əsəri yüksək ədəbiyyat abidəsi kimi ucalmışdır.

XIX əsrin sonu XX əsrin əvvəllərində özbək ədəbiyyatının məşhur abidələrindən biri də Z.X.Firqəti (1858-1909) idi. O, rus və Avropa klassiklərinin əsərləri ilə tanış idi. Firqəti Zaxarov və Morozov kimi iri fabrik sahiblərinin fəhlələrə qarşı insafsız hərəkətlərini tənqid etdiyinə, haqqı-ədaləti müdafiə etdiyinə görə təqiblərə məruz qalmış və vətənindən didərgin düşərək Bakıya, Istanbula, Qahirəyə, Isgəndəriyəyə, Bolqarıstana, Hindistana və nəhayət Çinin Yarkənd şəhərinə getmişdir. O, özünün həyatını «Insan halımı bilməz» müxəmməsində ətraflı vermişdi.

Ubeydulla Salik oğlu Zövqi (1853-1921) də özbək ədəbiyyatının xalq içərisindən çıxmış nümayəndələrindən idi. Onun şeirləri xalqın ağır istirablarını bütün çalarları ilə vermişdir.

Əvəz Otar oğlu (1884-1919) da özbək ədəbiyyatında xüsusi dəsti xətti ilə seçilən şairlərdən olmuşdur. Əvəz Otar da Zövqi kimi acgöz bəyləri, xanları, məmurlar və «dini quldurluq tüfəngi» edən ruhaniləri tənqid atəşinə tutmuşdu.

Memarlıq. Monqol işğalları Mərkəzi Asiyanın inkişaf etmiş memarlıq sənətinə ağır təsir etsə də, ancaq Əmir Teymurun dövründə memarlıq sahəsində yenidən yüksəliş başlandı. Əmir Teymurun əmri ilə Səmərqənd şəhəri yenidən quruldu. Səmərqənddə Bibixanım məscidi, Şahi Zinda memarlıq kompleksinə daxil Gur Əmir movzeleyi, gözəl memarlıq nümunələridir. Teymur Şəhrisəbzdə Ağ saray adlı Böyük bir

imarət tikdirmişdi. Teymurun nəvəsi Uluq bəy Səmərqənddə dünyanın ən böyük mədrəsəsini və rəsədxanasını qurdurmuşdu.

XVII əsrin ortalarında Buxara monumental memarlığının möhtəşəm nümunəsi kimi Əbüləziz xanın mədrəsə binasını misal göstərmək olar. XVIII əsrin sonunda Namanqanda «Xocamnı Kabri» movzoleyi tikilmişdi.

Incəsənət. Mərkəzi Asiyada peşəkar xalq teatrları hələ qədim zamanlardan mövcud olmuşdur. XIX əsrin 80-ci illərində xivəli musiqiçi P.N.Mirzaboşi Kamil səsyazma sistemi ixtira etmişdi. Öz müsiqi ifaçılığı ilə fərqlənən müğənnillərdən buxaralı Ata Salaliddin Nasirov və Səmərqəndli Xodji Abdulaziz Abdurasulov peşəkar musiqiçilər idilər.

Mərkəzi Asiya və Qazaxıstanda incəsənətin inkişafı öz milli koloritliyi ilə fərqlənirdi. H.Həkimzadə 1915-ci ildə Kokanda həvəskar teatr truppası yaratmışdı. Özbək xalq məzhəkə teatrında Yusipean Şəkərcanov xüsusilə fərqlənirdi. Rafiq Qalibov, İrka Karı Kərimov və b. görkəmli aktyorlar idilər. 1917-ci ilə kimi Türküstanda ayrıca musiqi tədrisi müəssisəsinin olmaması bu sahədə xeyli çətinliklər yaratmışdı. Özbək xalq mahnılarının mahir ifaçısı, güclü səsə malik olan Daşkənd müğənnisi  Mulla-Tyuçu Taşmuhamedov qədim mahnıları yeni üslubda ifa edirdi. Bu dövrdə Özbəkistanda Üzeyir Hacıbəyovun rəhbərliyi ilə göstərilmiş opera tamaşaları özbək musiqisinin inkişafında mühüm rol oynamışdı.

Mərkəzi Asiya memarlığında Xarəzmdən olan xalq ustaları birinci yerdə dururdular. Mühafizə olunmuş abidələrdən ən çox diqqəti cəlb edən Iltuzar xanın və Allakuli xanın tikdirdikləri saraylardır. Buxara və Xivə xanlıqlarında ağac və mis üzərində oyma, gil və saxsı məmulatı,

silah, müxtəlif parçalar üzərində tikmələr geniş yayılmışdı. Parça üzərində naxış, tikmə, xalçaçılıq, zərgərlik, bədii məmulatlar xalq yaradıcılığı nümunəsi kimi qiymətli və dəyərli idi. Sənət əsərləri, o cümlədən Mərkəzi Asiya xalçaları xarici bazarlarda böyük şöhrət qazanmışdı. Memarlıq sahəsində inkişaf gedirdi. 1910-cu ildə Xivədə İslam Xoca mədrəsəsi tikilmişdi. 1917-ci ildə Buxara yaxınlığında inşa olunan Sitoral Moxi-Xossa sarayı ənənəvi üsluba yeni elementlərin əlavə edilməsi ilə səciyyəvidir.

## *§4 Qazax mədəniyyəti*

Orta və son əsrlər dövründə ictimai inkişafın feodal-patriarxal ənənələrinin dərin kök saldığı Orta Asiya və Qazaxıstanda təhsil və məktəb zəif inkişaf etmişdi. Əsasən dini məktəblər olan mollaxanalar mövcud idi. Əhalinin əksəriyyəti savadsız idi. Onlar hər hansı məktubu və «qiymətli kağızı» oxutmaq üçün 10 kilometrlərlə yol qət edərək qonşu aulda yaşayan molla-talmaçların yanına gedirdilər. Müsəlman ruhaniləri məktəblərdə «Quran»ı tədris edirdilər.

Qazax, qırğız, türkmən və özbəklərdə bədii ədəbiyyat əsasən şifahi xalq yaradıcılığında öz əksini tapmışdı. Xalq müğənniləri olan akınlar yalnız mahnı qoşmaq, nağıl düzəltməklə deyil, həm də onların ifaçılığı ilə məşğul idilər. Bu mahnılarda və nağıllarda xalqın həyatı, məişəti, adət-ənənələri, tarixi keçmişi öz əksini tapmışdı. Əjdahaya qalib gələn bahadırlar, xəsis və qorxaq bayları ələ salan, aldadan şən və hazırcavab adamlar böyük məhəbbətlə tərənnüm edilirdilər.

Qədim qazax mahnılarında köçəri-qazaxların əmək yaradıcılığı, ailə həyatı tərənnüm olunur. Çobanlar öz işlərini yüngülləşdirmək məqsədi

ilə (su kəhrizləri qazarkən və s.) mahnı oxuyurdular. Qadınlar gəbə, kilim toxuyarkən, naxışlar salarkən mahnı oxuyurdular və yaxud atlı qazax aula yaxınlaşır, ucadan mahnı oxuyaraq, aul camaatının qonaqpərvərlik baxışları altında uzaqlaşır.

Toyqabağı gəlini öz doğma ailəsindən, aulundan oğlan evinin adamları apararkən kollektiv oxunan mahnılarla müşayət olunurdu.

Yas mahnılarını (joktau, daus) ölən üçün arvadı, anası, böyük qızı və yaxın qohumları bir il ifa edirlər. Əlbəttə bu cür mahnılar çox qəmli olurdu.

Qəhrəman batırlar və müdrik bijlər haqqında oxunan təntənəli mahnılar-maktaular geniş yayılmışdı. Ən mühüm hadisələr mahnılarla müşayət olunurdu. Məs; ağsaqqallar şurasının iclası və ya gəncləri hərbi yürüşə yola salarkən, atlı qazax xoş xəbərləri aullara mahnılarla çatdırarkən, (Estiptu) faciəli xəbərlər (jibatu) də eyni ilə bu cür çatdırılır və təsəlliverici formada olur.

Musiqiçilər öz talant və qabiliyyətlərini göstərmək üçün yarmarkalara gəlib, çalıb oxuyurdular.

Qazaxların ən çox maraq göstərdikləri-küy (pyes) xalq musiqi aləti ilə keçirilən poeziya və musiqi ifaçılığı yarışı idi.

Qazaxlar nəğməyə jır, nəğmə oxuyan peşəkarlara jırau deyirlər. Qazax dilində nəğmə ölen də adlanır. Jır və ölen oxuyanlara həm jırau, həm də ölençi deyirlər. Bunlarla yanaşı qazax dilində akın sözü də vardır. Müğənnilər kimi akınlar da jır və ölen ifa edir, dastan söyləyirlər. Bəzi istedadlı jırau və akınlarda yaradıcılıq qabiliyyəti də olur. Belə yaradıcı akın və nəğməkarların ilk nümayəndəsi Bukar jırau Kalmakan oğludur (1693-1787)

Ümumiyyətlə, qazax melodiyası təkbaşına ifa olunur və xorla oxunma yoxdur. Vokal musiqisi 2 formada sözlər və nəğmələrlə müşayət olunur. Mahnıları akınlar, sözləri isə jırşalar deyir və ifa edirdilər.

Sözlər əsasən 7-8 sətirdən ibarət və bu sözlər çox tez-tez təkrar olunurdu. Qazaxlar jombr və ya kobız (iki simli) çalaraq mahnıları hər kəs özü ifa edirdi. Qazaxlarda xalq çalğı ansamblının (timsalında) müşaiəti ilə kollektiv halda xor mahnıları ifa olunmur. Ancaq toy mərasimlərində gənc oğlan və qızlar mərasim mahnıları ifa edirlər.

Qazaxlarda nisbətən geniş xalq çalğı aləti dombırdır. Üç günlü korpusa malik olan dombır iki simlidir. Simlər əsasən qoyun bağırsaqlarından hazırlanıb düzəldilir.

Geniş yayılmış musiqi alətlərindən biri də kobızdır. Bir növ azərbaycanlıların musiqi aləti olan kamançaya bənzəyir. Korpusu dəvə dərisindən düzəldilir və oval formalı korpusun üstü açıq olur. Simlər əsasən at tükündən hazırlanırdı. Keçmiş dövrlərdə şamanlar müəyyən mərasimləri keçirərkən kobızla qəmli və kədərli səslər ifa edirlər. Dini musiqi aləti sıbızqı hesab olunur. Onu hər hansı yumşaq ağacın ortasını yonub çıxararaq düzəldirdilər. Zərb aləti dayılpaz adlanır və bir növ barabana oxşayır. Zərbə vurulan yuxarı hissəsinə dəri çəkilirdi. Azərbaycanlılarda bu alət növü dəf və yaxud nağaraya oxşardır. Bu alətdən (musiqi) əsasən hərbi yürüşlərdə və ov zamanı istifadə olunur.

XIX əsrin II yarısında qeyd etdiyimiz musiqi alətlərinin sırasına yeni musiqi alətləri olan qarmon (qazaxca sırnay) və skripka da əlavə olundu.

Musiqi sənətinin inkişafı, aulları gəzərək mahnı oxuyan müğənnilərin (ölenşi və ənşi) və musiqiçilərin (kuyşi) artmasına səbəb oldu. Nağılçılar və şairlər iri həcmli tarixi nağılların şerlərini mahnı ilə

ifa edir, məzmununu isə danışırdılar. Nağılı danışan isə öz mimikaları ilə onu daha da maraqlı edirdi.

Mahnılarda çobanların (ağır həyatı) kasıb əkinçi və heyvandarların ağır həyatı tərənnüm olunur. Mahnılarda qazax qadınlarının hüquqsuzluğu və şəxsi azadlıq arzuları da tərənnüm olunurdu. Baylar mahnılarda zülmkar bir təbəqə kimi tənqid olunurdu. Ancaq bayların iradəsini ifadə edən müğənnilər öz mahnılarında Qurandan nümunələr gətirir, şəriət qanunlarından danışır, feodal-bay cəmiyyətini və onların ailə həyatını idealizə edib, təriflәyirdilər.

XIX əsrdə Qazax musiqi mədəniyyətinin görkəmli nümayəndələri yetişmişdi. Bunlardan dombr ustası Kurmanqazı Saqırbayevi (1806-1879), Dauletkerey Şiqayevi (1820-1880), müğənni Birjan Koyaqulovu (1825-1877), Mühit Meraliyevi (1841-1918), Abay Kunanbayevi (1845-1904, Yajau Musa Bayjanovu (1835-1929), Axanserə Koramsini (1843-1916), Estay Berkimbayevi (1868-1946), kobız çalan Ixlas Dukenovu (1843-1916) və başqalarının adlarını çəkmək olar.

Qazaxların «Yelimay» («Vətənim mənim»), «Jayırmabes» («Iyirmibeşlər»), «Kızıl biday» («Qırmızı buğda»), «Ademi kız» («Qəşəng qız») mahnıları bayram səhifələrinin və çoban alaçıqlarının bəzəyi idi.

Qazaxıstanın və Orta Asiya xalqlarının kəskin mənalı və dürüst səs ehtiyatı var idi. Danışıq zamanı aforizmlərdən geniş istifadə edirdilər. Məs; «Cigit cigitin qardaşıdır». «Oğurluğun sonu kasıblıq, əməyin sonu sevincdir» və s. «Ayjan kızı» («Ayjan qız»), «Tatpimbet» («Kişi adı»), «Balborun» («Zəriflik») kimi qazax rəqsləri mahir rəqqaslar tərəfindən ifa edilirdi. Toy və mərasimlərdə, el şənliklərində müxtəlif məzhəkə-

tamaşalar göstərilir, rəqslər ifa edilirdi. Qazaxıstan və Orta Asiya xalqları Azərbaycan xalqında olduğu kimi baharın gəlişini təntənə ilə qeyd edirdilər və onu Novruz bayramı adlandırırdılar.

Bayramlarla əlaqədar oxunan mahnılar üç hissəyə bölünür: toy bastar, jar-jar, bet aşar. Toy bastar-bayrama yığışmış qonaqlar bayramı mahnı ilə başlayırlar.

Jar-jar- toy mahnılarıdır. Bu mahnıları kişi və qadın qrupları ifa edirlər. Burada gəlin doğma aulunu, ata-anasını tərk etdiyinə görə qəmli mahnı oxuyur. Kişi dəstəsi isə gəlinə cavab mahnılarında gəlinin narahat olmamasını tövsiyyə edir, yeni ərin ata-anasının onun üçün də ata-ana olacağını söyləyirlər.

Bet asar-kişinin gənc qohumları və yaxınları bu mahnını ifa edirlər. Mahnılarda gəlinin kişiyə, onun qohumlarına və böyüklərinə danışıqsız itaət etməsi təbliğ olunurdu.

Qazax mahallarında tez-tez belə əfsanəvi surətlər, necə ki, təkgöz nəhəng, yeddibaşlı əjdaha, insanları yeyən qarı, yüz dırnaqlı-öz metal caynaqları ilə insanları öldürən qadın surəti. Onlar pisliyi təmsil edir, insanlara öz məqsədlərinə çatmaq üçün mane olur, bir-birinin dalınca maneələr törədirlər. Ancaq əvvəl-axır insan qalib gəlir, ona görə ki, o, ədalət və həqiqət uğrunda çıxış edir. Insana şər qüvvələrlə mübarizədə əfsanəvi qəhrəmanlar kömək edir; tausoqar-dağları, yerindən oynadan, koljutar-dənizi udmağa belə qabiliyyəti olan, sakkulak-yerin 3 qatından eşidən, jelayak-uzaq, geniş əraziləri qanadları ilə örtün. Insanların dostları və köməkçiləri rolunda ev heyvanları da çıxış edir. Əfsanəvi at Kerkula uzaq məsafələri az vaxt içərisində keçir. Eyni zamanda bu heyvanın həmçinin danışıq qabiliyyəti də vardır. Müsbət surətlərin rolun

həmçinin qoyun, keçi, dəvə, inək ifa edirlər.

Əfsanəvi nağıllar və heyvanlar haqqında nağıllar arasında qəhrəmanlıq nağılları da xüsusi əhəmiyyət kəsb edir, hansı ki, burada sehrli varlıqlardan deyil, real həyatdan götürülmüş surətlərdən bəhs edilir. Necə ki, xalq arasında böyük şöhrət qazanmış «Ayaz-bij» nağılının qəhrəmanı kasıb olduğu halda, öz ağlı, ürəyə yol tapanlığı ilə xanı və onun vəzirlərini valeh edir və öz müsbət keyfiyyətlərinin nəticəsində hökmdar olur.

Xalq arasında geniş yayılmış əfsanələr xüsusi yer tutur. Hansı ki, öz adları ilə məşhur olan, öz düzgün mühakimələri ilə xana qalib gələn Kirenşi və onun ağıllı arvadı Karlıqaş haqqında əfsanə və həmçinin özünün zəngin təsəvvürü, cəldliyi, hiyləgərliyi ilə hətta böyük dövlət sahibləri-mülkədarları da əlində oynadan «Alder-Kosa» haqqında əfsanə şifahi xalq ədəbiyyatının yaradıcılıq süzgəcindən keçmiş bədii nümunələrdir.

«Kambar-batır», «Koblandı», «Yer-Tarqın», «Yer-sain», «Alpamış» məşhur qazax ədəbiyyatının qəhrəmanlıq eposlarıdır. Bu eposlarda varlıların qəhrəmanlığından, qeyri-adi döyüş səhnələrindən və doğma torpağı yadelli işğalçılardan necə qorumaqdan söhbət açılır.

«Kozı Korpeş» və «Bayan-İlu», «Kız-Jibek» ən çox əhəmiyyət kəsb edən sosial-məişət eposlarıdır.

«Kozı Korpeş və Bayan Ilu»- ürəklərini həmişəlik bir-birinə bağlayan 2 cavandan bəhs edən faciəvi məhəbbət poemasıdır. Bu yaradıcılıq nümunələri xeyirxah insan hissiyatını, məhəbbətini özündə əks etdirir. Bir-birini sevən gənclərin faciəsi feodal-patriarxal cəmiyyətinin eybəcərliklərindən və qədim adət-ənənələrindən doğur,

hansı ki, adını çəkdiyimiz dastanda Bayanın taleyini özü deyil, atası həll edir. O, qızını öz marağı üçün Kodara verir. Ancaq poema toyla bağlı olan qədim adət-ənənələrə haqq qazandırır.

«Kız-Jibek» poemasında qadının mənliyi, sevmək hüququ yüksək qiymətləndirilir. Bununla bərabər bu yaradıcılıq nümunəsində qədim adətlər, böyük qardaşın ölümündən sonra arvadının kiçik qardaşa ərə getməyə razılıq vermək kimi qaydalar ideal surətdə göstərilir.

Qazax şifahi xalq ədəbiyyatının ən geniş yayılmış növlərindən biri də poeziya müsabiqəsi hesab olunur. Poeziya müsabiqələri dialoq formasında keçirilir. Həmin yarışlarda akınlarla yanaşı, mahnı sevərlər bu yarışda iştirak edir, öz söz mədəniyyətinin qüdrəti ilə xalq bayramlarını daha da şənləndirirlər. Bu poeziya yarışları məşhur söz ustadlarının, tanınmış şairlərin çıxışları ilə seçilir. Cambulla əlaqədar yarışlar daha da gözə çarpandır. Adi akınlar müsabiqələrdə öz nəsli adından danışır, onun bütün incəliklərini göstərməyə çalışırlar. Bu çox nadir hallarda şairlər əsərlərində xüsusi feodalları və ümumiyyətlə, feodal-patriarxal cəmiyyətini tərənnüm etmişdilər.

Sadə akınlar poeziya yarışlarında öz nəsilləri adından çıxış edir və bütün nəsil həmçinin onun görkəmli nümayəndələri məclisdə iştirak edirdilər. Şairlər ayrı-ayrı feodalları və geridə qalmış feodal-patriarxal cəmiyyəti ideallaşdırıb tərifləyirdilər.

Qabaqcıl ən yaxşı şairlər öz çıxışlarında demokratik ideyalarını təbliğ edir, kasıb, sadə xalqın müdafiəsi üçün səslərini qaldırırdılar. Ən yaxşı poetik müsabiqələrindən biri xalqın öz yaddaşında qoruyub saxladığı ağızdan-ağıza ötürdüyü «Birjana və Sarı» poeziya-mahnı müsabiqəsidir. Qazax şifahi xalq yaradıcılığı tapmacalar, atalar sözləri və

məsəllərlə zəngindir.

Atalar sözlərində feodalların amansızlığı, nəsil arasında ziddiyyətlər, sadə zəhmətkeş adamların zülmə, qəddarlığa, qadın hüquqsuzluğuna qarşı çıxışları təsvir olunmuşdur. Çoxlu atalar sözlərində xanın və onun yaxın adamlarının etdiyi qəddarlıqlar, feodalların despotizmi, vəhşiliyi, yalançı, xalqı soyub-talayan din xadimləri aşkarcasına ifşa olunur. Atalar sözündə düzlüyə, əməksevərliyə, vətənpərvərliyə yüksək qiymət verilirdi. Çoxlu atalar sözləri, məsəllər,tapmacalar xalqın həyatında böyük rol oynayan qazax maldarlıq təsərrüfatı ilə sıx bağlı olurdu. Tapmacaların, atalar sözlərinin xalq arasında bu cür geniş yayılmasının səbəbi onların yüksək obrazlılığa, bədii ritm, informasiya və şer bazasına malik olmasıdır.

Geniş şaxələnmiş xalq poeziyasında xalq akın yaradıcılığı mahnıları sillabik düzülüşdə, 7-8 hecalı (jırlar), 4 misralı 11 hecalı (ölen) şer formaları geniş yayılmışdır. Bundan əlavə şerin daha qədim formaları da qazax poeziyasında üstünlük təşkil edir. Buna 4 hecalı, 6 hecalı, 7 hecalı və s. belə şer formalarını misal göstərmək olar.

Qazaxların xalq yaradıcılığı Orta Asiya və digər qonşu xalqların folkloru ilə əlaqədə inkişaf etmişdir. Qazax xalq poeziyasının qonşu xalqlarla bədii yaradıcılıq yaxınlığı onların eposlarında aydın görünür. «Alpamış» eposunun müstəqil variantı qazax xalqının bədii yaradıcılığında şaxələnmiş şəkildə yayılmasına baxmayaraq, özbəklərin, qaraqalpaqların, o cümlədən başqırd və altayların da ədəbiyyatında öz xüsusiliyilə göstərilir. Qazaxların «Kozı-Korpeş və Bayan-İlu» eposu altayların «Kozın-Erkeş» dastanı ilə uyğurların «Kozı-Korpeş» nağılı və müstəqil variantı baravin tatarlarının «Kozı-Korpek» variantı ilə

paralellik təşkil edir.

Öz bədii yaradıcılıq incilərini yaradan və qoruyan xalq öz sıralarından qiymətli talantlar verir. Xalq poetik ənənələri əsrlərdən bəri müxtəlif şer formalarından istifadə etməklə müxtəlif bədii nümunələr yaratmış qabiliyyətli akınların qoşduğu, öz bədii üslubu ilə seçilən nəğmələr bu gün də qazax ədəbiyyatının gözəl incilərindən hesab edilir. Şifahi dildə işlənən poeziya yaradıcılığı yazılı ədəbiyyata keçdikdə daha da təkmilləşmiş, genişlənmişdi, hansı ki, əvvəlki dövrlərdə o, bu qədər geniş yayılmamışdı. Yazılı ədəbiyyata qədər hətta ən məşhur akınların belə yaratdığı əsərlər adsızlaşır, zaman keçdikcə deformasiyaya uğrayırdı. Bu ədəbiyyat qazax akınlarının arasında ən yüksək zirvəyə XVIII-XIX əsrlərdə çatmışdır. Yazılı ədəbiyyatın ən qədim nümunələrini yaradanlar içərisindən Pavladarda yaşamış Buxarjiray Kalmanov (1693-1787) xüsusilə fərqlənir. Buxar məşhur qazax xanı Abbayın ən yaxın məsləhətçisi olmuşdur.

Buxarın yaratdığı nümunələrdə qazax xalqının cunqar feodallarına qarşı mübarizəsi yüksək bədii ustalıqla göstərilmişdir. Şair bahadırların qəhrəmanlıq və cəsarətini tərifləyir, xalqı birliyə çağırır. Buxar düzgün olaraq qazax xalqının yaşayış tərzinin müxtəlif tərəflərini qeyd etmişdir. O, böyük feodal ideoloqu olmuşdur. Buxarın yaradıcılığı yüksək feodal ideologiyasını tərənnüm etmişdir.

XIX əsrin I yarısının ədəbiyyatının parlaq şəxsiyyətlərindən biri də şair-ideoloq Maxambet Utemisov olmuşdur (1803-1846). O, müasir Qazaxıstanın qərb hissəsində yaşayıb-yaratmışdır (1836-1837). Maxambet Utemisov və onun dostu Isatay Taymanov Bukey ordasında qalxmış kəndli üsyanlarına başçılıq edirdilər. Alovlu şair Maxambet

üsyan və üsyandan sonrakı dövrlərdə öz kəskin dəyərli sözləri ilə Cahangir xana və başqa hakimiyyət başçılarına qarşı mübarizə aparmışdır. Öz əsərlərində Maxambet üsyan başçısı Isatay Taymanovun qəhrəmanlığını, düzgünlüyünü, cəsarətini tərifləyir. Qazax ədəbiyyatı üçün bütün ömrünü bu ədəbiyyata həsr eləyən alim Çokan Vəlixanov böyük işlər görmüşdür. O, çox diqqətlə, böyük səylə qazax poetik ədəbiyyatının nümunələrini toplamış və öyrənməyə cəhd göstərmişdir. Çokan Vəlixanov akınların yaratdığı qiymətli numunələrə böyük qiymət vermiş, xalq poeması, "Kozı-Korkeş" və "Bayan Sulu"-nu yazmış, təzədən işləmiş, qırğızların «Manas» dastanının bir hissəsini yazmış və rus dilinə tərcümə etmişdir.

Qazax yazılı ədəbiyyatı XIX əsrin II yarısında daha da çətinləşdi. Ibray Altnsarının yaradıcılığı qazax yazılı ədəbiyyatının böyük xəzinəsi hesab olunur.

Bukar Jiray ideyalarını sonralar Dövlət Babatay oğlu (1802-1871), Sortanbay Kanay oğlu (1818-1881) davam etdirmiş, Rusiyaya meylin əleyhinə çıxaraq akın poeziyasına din-mistik fikirlər gətirmişlər. Onların dilində ərəb sözləri ilə yanaşı, dini-mövhumi məfhumlar da çoxdur. Itaətkarlığı, nökər-ağa münasibətini, baylara sözsüz tabeçilik və sədaqəti təbliğ edən bu akınlar cəmiyyətin inkişafına bədbin münasibət bəsləmişlər. Onlar bay-feodal zülmünə qarşı azadlıq hərəkatından kədərlənərək «zar-zaman»-əzəmli zamanın yetişdiyini söyləmiş, keçmişi ideallaşdırmışlar.

Xalq akınları isə bay-feodal zülmünə, Qazaxıstanın Rusiya tabeliyinə keçəndən sonra daha da şiddətlənən istismara qarşı çıxıb xalqın etirazını, bəzən də üsyanını qələmə almışlar. Qazax həyatının bir

çox ictimai bəlaları bu akınların yaradıcılığında müəyyən dərəcədə öz əksini tapmışdır. Həmin tendensiyanın görkəmli nümayəndələri Sal Kulekə oğlu (1760-1831) və Məhəmbət Ötemis oğludur (1804-1846). Sonralar Süyümbay Aran oğlu (1827-1896), Birjan Sal Koyağul oğlu (1834-1897), Süyümbayın şagirdi Cambul Cabayev və başqaları yetirmişdir.

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Qazaxıstanda feodal-patriarxal münasibətlərinin güclü qalıqları bay və dini hakimlərin komandanlığı xalqın maariflənməsinə mənfi təsir göstərirdi. Bundan əlavə milli ziyalı kadrlarının da azlığı öz təsirini göstərirdi. Belə ki, Mərkəzi Asiyada hər 100 nəfərdən 24-ü savadlı hesab olunurdusa, Qazaxıstanda isə hər 100 nəfərdən 2-si savadlı hesab olunurdu. Çar hökuməti hər bir qazax uşağının təhsili üçün 13-36 qəpik xərclədiyi halda Rusiyada 56 qəp. xərclənirdi.Rus uşaqlarının 3/1-i qazax uşaqlarının tamamilə az bir hissəsi təhsilə cəlb olunurdu. Beləliklə Turqay və Ural vilayətlərinin 1 milyon əhalisinin 500 nəfər uşağı təhsilə cəlb olunmuşdu. 1913-cü ildə fəaliyyət göstərən 2011 məktəbdə təhsil alan uşaqların 7,5%-i qazax uşaqları idi. Qazax uşaqlarının təhsil aldığı əsas məktəblər-aul məktəbləri idi. Bu cür məktəblər isə qazax köçləri ilə əlaqədar-qışlaq və yaylaq təhsil dövrlərinə bölünürdü. Bu cür təhsil qışlaq dövründən yaylaq dövrünə-köç başlanana qədər davam edirdi. Aul məktəblərində təhsili aparan mollalar idilər və onlar da uşaqlara ərəb əlifbasını öyrədir, Quranın müəyyən ayələrini əzbərlədirdilər.

1905-1907-ci illərdə baş vermiş birinci rus-burjua inqilabından sonra yeni məktəb açılmağa başladı. Hansı ki, belə məktəblərdə dərslər ancaq rus dilində tədris olunurdu. Ancaq buna baxmayaraq islamın tədrisi

saxlanılırdı. Yeni üsullu məktəblərdə milli şüurun oyanması yönümündə cədidlər (yeni üsullu məktəblərin tərəfdarları) xüsusi iş aparır, fəallıq göstərirdilər. Rus tədqiqatçıları bu ideyanın yayılmasını «panislamizm» adlandırırdılar.

Ümumiyyətlə, XX əsrin əvvəllərində bütövlükdə Qazaxıstanda 350 rus-qazax məktəbi fəaliyyət göstərirdi ki, bu da lazım olan səviyyədən olduqca az idi. Qazaxıstanın qabaqcıl qazax ziyalıları xalqın maariflənməsinə çalışır, qabaqcıl mədəniyyəti təbliğ edir və ruslaşdırma siyasətinə qarşı çıxırdılar. Qazax mədəniyyətinin ən qabaqcıl nümayəndələri Cokan Vəlixanov, Ibray Altınsarın, Abay Kunanbayev idilər. Birinci qazax maarifçisi və pedaqoqu Ibray Altınsarın ilk qazax məktəbinin əsasını qurmuşdu və qadınların təhsil almasının qızğın tərəfdarı olmuşdu. O, qazax məktəblərinin şagirdləri üçün ilk dərs vəsaiti hazırlamışdı.

Qazaxıstanda XIX əsrin sonu-XX əsrin əvvəllərinə qədər elmi mərkəzlər, demək olar ki, yox idi. Burada yalnız çox da böyük olmayan 4 kənd təsərrüfatı elmi idarəsi və rus coğrafi cəmiyyətinin Qərbi Sibir şöbəsinin Semipalatin filialı fəaliyyət göstərirdi. Qazaxıstanın öyrənilməsi ilə Rus coğrafiya cəmiyyətinin Orenburq, Omsk və Daşkənd elmi şöbələri də məşğul olurdular. Rusiyanın mərkəzindən Qazaxıstanın tarixini öyrənmək məqsədilə hərdən kiçik elmi ekspedisiyalar təşkil olunurdu. Görkəmli rus elm nümayəndələri P.P.Semyonov-Tyan-Şanski, Q.N.Potanin, V.V.Radlov, N.A.Severtsov, I.V.Muşketov Qazaxıstanın təbii sərvətlərini, coğrafiyasını, tarixini və etnoqrafiyasını tam dolğun səviyyədə öyrənmişdilər. Rus elm xadimləri böyük qazax alimi və maarifçisi Cokan Vəlixanovun görkəmli elm nümayəndəsinə

çevrilməsində təsiredici vasitə olmuşdular. Lakin yerli, milli elmin inkişafı çar hökumətinin müstəmləkə siyasətinə uyğun olmadığına görə onun inkişafına hər vasitə ilə mane olurdu.

Çarizm eyni zamanda mədəni-maarif idarələrinin qurulmasına heç bir vəsait vermirdi. Kitabxanalar və muzeylər isə ictimai cəmiyyətlərin və şəxsi vəsaitlər hesabına yaradılırdı. Kitabxanalar ancaq Ural və Semipalatin şəhərlərində yerləşirdi. 140 kitabxanada 139 min kitab toplanmışdı. XX əsrin əvvəllərində ölkədə yalnız bir klub, iki muzey və 20 kinoqurğusu qeydə alınmışdı.

Mətbuat zəif inkişaf etmişdi və demək olar ki, qəzet və jurnallar aullara gedib çatmırdı. 1913-cü ildə qazax dilində 13 adda 4 min ekzemplyar tirajla kitab və «Qazax» adlı bir qəzet nəşr olunurdu.

Qazaxlar yurdların, geyimlərin və müxtəlif bədii sənət növlərinin bəzədilməsində əl işlərindən geniş istifadə edirdilər. Bu sənət növü özünü xalçaçılıq və keçəçilik sənətində daha qabarıq formada özünü göstərir. Qazax qadınları öz paltarlarının və məişət əşyalarının bəzədilməsi zamanı rəngli saplarla işlənən tikməçilik sənətindən istifadə edirlər. Onlar tikməçilikdə ipək, yun, qızılı və gümüşü saplarla işləyərək gözəl sənət nümunələri yaradırdılar. Qazaxlar məişətdə işlədilən qablara da bəzək vurur, ancaq kumıs içilən qabı isə xüsusilə gözəl naxışlayırdılar. Qızıl və gümüş məmulatlarından müxtəlif bəzək əşyaları hazırlanması ilə xüsusi ustalar (qazaxca-«zerger») məşğul olurlar. Ağac sıxaclar vasitəsilə «dəri» məmulatlarına da diqqəti cəlb edən ornamentlər vurulurdu.

Müxtəlif görünüşlü keçə xalçaçılığında («tekemet») naxışlı ornamentlərdən istifadə olunurdu. Divardan asılan xalçalara («tuskiyiz»),

sandıq («sandıq kap») və «sırmak» adlanan keçə xalçasına da müxtəlif naxışlar vurulurdu. Qazax qadınları bu cür bəzəkli keçələri yurdların döşəməsinə («klem», «alaşa»)salırlar.

Tikmələr vasitəsi ilə təsvirlər («keste») verməyi qadınlar və qızlar gözəl bacarırdılar. Müxtəlif dəsmallar, örtüklər, müxtəlif çantalar, qadın baş geyimi, divar xalçaları və sandıq üzlər təsviri tikmələr vasitəsilə bəzədilirdi. «Şim şiy» adlanan naxışlı parçalar yurdun keçə qapılarının altından asılırdı.

Qazax kişi ustaları yurdların taxta qapıları üzərində «kebeje» adlanan taxta sandıqların bəzədilməsində müxtəlif musiqi alətlərinin, ev əşyalarının bəzədilməsində oyma naxışlardan istifadə edərək relyef səhnələri yaradırdılar.

XIX əsrin 30-40-cı illərində qazax çöllərində daşlar üzərində oyma sənəti geniş yayılmışdı. Xüsusilə bu sənət növündən Mərkəzi Qazaxıstanda və Manqışlakda daha çox istifadə olunurdu. Oyma sənətkarları xüsusilə qəbir daşları üzərində müxtəlif relyef səhnələri qazırdılar. Qəbir daşı («gülpi tas»-qazax) bəzən başdan-başa relyef səhnələri ilə örtülürdü.

Silah ustaları bıçaqlar, qılınclar, silahlar, habelə süvari ləvazimatları hesab olunan yəhər («yer»), yüyən («yüqen»), üzəngi («üzenqi») üzərinə zərgərlik təsvirləri verirdilər. Qazax zərgərləri metal üzərində «soyuq» və «isti» emal üsullarından istifadə edirdilər (izaçma, ştamplama, lehimləmə).

Qazax milli ornametlərində onun keçmiş maldar təsərrüfatı ilə bağlı olan səhnələr daha çox üstünlük təşkil edirdi. Bundan əlavə «tikmələr» üzərində tuye taban (dəvə toplusu), jılan bası (ilan başı), yaprak (yarpaq),

karmak(qarmaq), sınar ökşe (daban), tümarşa (amulet) təsvirləri də verilirdi. Parçalar üzərinə başlıca olaraq romb, kvadrat və qarmaq təsvirlərindən istifadə olunur. Qazax ornamentlərinə özbək, qırğız, qarakalpak, altay və Azərbaycan təsvirlərində də rast gəlinir və bu xalqların ornamentləri ilə müştərəklik təşkil edir. Əvvəllər qazax ornamentlərində qara, ağ və çəhrayı rənglər əsas yer tutduğu halda, indi süni rənglərdən- sarı, narıncı, qırmızı və göy rənglərdən də istifadə edirlər.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Qazaxıstanda xüsusi təsviri incəsənət ustaları-rəssamlar Orenburqda, Semipalatində və Vernoda fərdi üsulda işləyən bir neçə rus rəssamları idi. Bunlardan 1847-1858-ci ildə Qazaxıstanda yaşamış Ukrayna şairi və rəssamı T.Q.Şevçenkonu, rus rəssamı V.V.Vereşagini göstərə bilərik. Məhz onların təsiri ilə XIX əsrin 60-cı illərində qazax maarifçisi və ilk rəssamı Cokan Vəlixanov formalaşdı.

Musiqi sənəti və musiqi alətləri təkmilləşmişdi. Belə ki, XIX əsrin II yarısında musiqi alətlərinin sırasına yeni musiqi alətləri olan qarmon (sırnay) və skripka da daxil edildi.

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində bütöv bir musiqiçilər nəsli yetişmişdi. Mühit Meraliyev (1841-1918), Abay Kunanbayev (1845-1904), Jayay Musa Bayjanov (1835-1929), Axanserə Koramsin (1843-1916), Yestay Berkimbayev (1868-1946), kobız ustası Ixlas Dukenev (1843-1916) və b.

XIX əsrin sonlarında xalq oyunu və tamaşalarından başqa, xüsusi ixtisaslaşmış teatr yox idi. Ancaq XX əsrin əvvəllərində Qazaxıstanda müstəqil formada teatr yaranmağa başladı. Birinci dəfə olaraq

məktəblərin həvəskar şagirdləri (kanikul) tətil vaxtlarında aullarda milli dastan və eposların süjetləri əsasında tamaşalar göstərirdilər. Milli dramaturgiyanın ilk nümayəndəsi Imanqali Mendixanovun «Maldibay» pyesi ilk dəfə olaraq tamaşaya qoyuldu. Pyesdə öz qızını böyük başlıq («kalım») müqabilində sevmədiyi adama verən daş ürəkli, qəddar bir baydan  söhbət gedir. Bay hətta onun qızını sevən kasıb oğlanı öz aulundan didərgin saldırır.

Qazax ədəbiyyatı – XIX əsrin II yarısında Qazax ədəbiyyatı Ibray Altınsarın və Abay Kunanbayevin yaradıcılığında daha yüksək inkişaf nöqtəsinə çatdı.

I.Altınsarının (1841-1889) yaradıcılıq əlaqələri Cokan Vəlixanova nisbətən məhdud olmuşdur. Lakin rus dilində təhsil alan bu maarifpərvər öz şəxsi mütaliəsi sayəsində məktəb rəsmi təlim dairəsindən daha geniş sahəyə çıxmışdır. O, rus inqilabçı-demokratlarından Belinski və Dobrolyubovun, Gertsen və Çernişevskinin yaradıcılığı ilə tanış olmuşdu. I.Altınsarın rus yazıçılarının bəzi əsərlərini qazax dilinə tərcümə etmiş, rus dili vasitəsilə Avropa ədəbiyyatını da oxumuşdur. Məhz bunun nəticəsidir ki, Altınsarın yaradıcılığında rus və Avropa ədiblərindən gələn motivlər vardır.

I.Altınsarın qazaxların ilk pedaqoqu, ilk dərslik müəllifidir. Qazax uşaqları üçün açılmış məktəblərdə dərs deyən Altınsarın 1879-cu ildə «Qırğız müntəxəbatı» əsərini çap etdirmişdir. Burada müəllifin həm ədəbi-pedaqoji  görüşlərini əks etdirən məqalələri, publisistikası, həm də nəsihətamiz şer və hekayələri toplanmışdır. Müntəxabatın əksər hissəsini müəllifin öz əsərləri tutur.

Akın poeziyasında gözəl nümunələr yaradılan «tolğau» janrı

didaktiki görüşləri ifadə etmək üçün Altınsarın yaradıcılığında ən əlverişli janr kimi inkişaf tapmışdır. Məs; «Gəlin, babalar, oxuyun» nəqarətli nəğmədə müəllif bilikli adamın üstünlüyünü, bilik sayəsində əldə edilən nailiyyəti qazax uşaqları üçün sadə, anlaşıqlı müqayisələrlə təbliğ edir. O deyir:

*Dövlətlinin şöhrəti*
*Bir udumda yox olar,*
*Oxumuşun şöhrəti*
*Gündən-günə çox olar.*

Yaxud: «Elm-bilik sahibi daşdan saray tikdirdi, gözünü açıb-yumunca bir ilin xəbərini bir ayda öyrəndi, atsız kor arabanı min verstlik yerlərə gün yarımda apardı».

Köçəri həyat keçirən qazaxlar yurddan-yurda köçdüklərindən alaçıqlar qururdular. Onlar oturaq həyat sürən adamlar daş ev tikmirdilər. «Bilikli adam daşdan saray tikdi»-deyərkən Altınsarın qazax uşağı üçün əfsanə kimi görünən bir işdən söhbət açmışdır.

Qazax uşağı gözünü açıb at və dəvə, yaxud at qoşulan araba görmüşdü. Saatda neçə kilometr yol gedən maşın onun nəzərində əfsanə idi. O, heç avtomaşın sözünü konkret şəkildə təsəvvürünə gətirə bilməzdi. Ona görə də Altınsarın maşını «atsız arabaya» bənzədir. Bütün bu misallardan sonra müəllif: «Gəlin,balalar, oxuyun!» nəqarətini təkrar edir və oxumağın faydasından danışır.

Altınsarın cəhalət və nadanlığı tənqid edib, maarif sayəsində «şamdan çıraq düzəltməyin» mümkün olduğunu, maarif nurunun əhəmiyyətini söyləməklə yanaşı dini görüşləri olan etiqadlı adam kimi də tanınmışdır. O, gəncləri elm, bilik əldə etməklə tayfaya, qocalmış ata-

anaya fayda verməyə çağırmaqla yanaşı, tanrını da dərk etməyə çağırırdı. Onun fikrincə «oxu-yazı bilənlər yaradan xudanın birliyini tanıyan, xudanı tanımayan isə cahildir».

Zəhmətkeş balalarının-nəinki oğlanların, qızların da savadlanmasını, biliklə bərabər sənət öyrənməsini istəyən Altınsarın əməyə böyük qiymət vermiş, zəhmətsevən, öz zəhmətinin bəhrəsi ilə dolanan nəcib adamların nümunəvi surətini yaratmışdır. «Qıpçaq Seytqul» adlı kiçicik hekayəsində yazıçı, müxtəlif ölkələr gəzib əkinçiliyi öyrənən, öz vətəninə döndükdə əkinçiliklə məşğul olan bir yoxsulun hünərini alqışlamışdır. Bu müəllif təxəyyülünün məhsulu deyildir. Ədib köçərilikdən əkinçiliyə keçən, öz qohumlarını da bu peşəyə cəlb edə bilən Seytqulun surətini yaratmışdır.

Tüfeyliliyi hakim təbəqələrə xas olan xasiyyət kimi qamçılayan Altınsarın ərköyün varlı uşaqlarının acizliyinə, nadanlığına gülmüş, hər cür həyat çətinliyinə dözən, sınaqlardan çıxan yoxsul uşaqlarını isə nümunə kimi sevdirmişdir. «Bay babası ilə kasıb oğlu» hekayəsində müəllif köçdən ayrı düşən Həsən və Hüseyn adlı iki uşağı təsvir edir. Həsən naz-nemət içərisində böyüyən uşaq kimi çətin vəziyyətdən çıxmaq üçün heç bir çarə düşünə bilmir. Hüseyn isə həyat çətinliyinə alışan fərasətli uşaq kimi həm özünə, həm də yoldaşına çarə tapır.

Abay Kunanbayev-(1845-1904) XIX-XX əsr qazax realist ədəbiyyatının ən böyük nailiyyəti onun banisi A.Kunanbayevin adı ilə bağlıdır. Anası onu Abay deyə çağırmışdır. Əsil adı Ibrahim, təxəllüsü Abaydır.

Abay özündən əvvəl yaşayan bir çıra akının yaradıcılığındakı məhdud cəhətləri, dini-mistik xüsusiyyətləri tənqid edərək ədəbiyyatın

tərbiyəvi-ictimai əhəmiyyətinə böyük qiymət vermişdir.

Abay, Bukar Iirau, Dövlət, Sortanbay və başqa akınların yaradıcılığındakı dini-mistik mövzudan danışaraq deyir ki, mən onlar kimi «Həzrət Əlinin şərəfinə» şer yazmıram. Abaya görə, şair xalqın həyat və məişətini əks etdirməli, varlılara, çinovniklərə, baylara yaltaqlanmamalı, gənc nəsli sağlam ruhda tərbiyə etməyə çalışmalıdır. Şairin hər sözü xalqın gözünü açmalı, həqiqəti ona başa salmalıdır.

Şair əsl maarifçi kimi xalqı, gəncliyi ayılmağa, elm-maarifə çağırmış, xalqın iqtisadi və mədəni geriliyini göstərmişdir. Bununla yanaşı, o, xalqı soyub talayanları, rüşvətxorları, zalım bayları, ədalətsiz bijləri də rüsvay etmişdir. Xalqı oyatmağa çalışan Abay xalqın düşmənlərini də ona tanıtmışdır.

Abay lirikasında qazax həyatının müəyyən bir sahəsi, bir neçə qəbilə başçısı və ya çinovnikin surəti deyil, cəmiyyətin həyatının geniş sahələri, ölkədəki ictimai münasibətlər, müxtəlif təbəqə və siniflərin tipik surəti öz bədii əksini tapmışdır. Şair feodal-çinovnik üsul-idarəsinin hərc-mərcliyini şerlərində belə ifşa etmişdir. «Varlılar öz heyvanlarının və mal-dövlətinin üstündə tük kimi əsirlər. Axı hər yerdə talançılıq, gecələr oğurluq edirlər. Görürsən gah orada bir sürünü apardılar, gah burada qarət etdilər… Hakim isə öz rütbəsinə və qanuna nifrət edir. O, zalıma və oğruya mərhəmət göstərir. Zülm də ki, getdikcə artır, cinayətlərin hədd-hüdudu yoxdur».

Abay ictimai həyata dərindən nüfuz etdikcə mühitin eybəcərliyi ona daha aşkar olurdu. Şair zülm əhlinə etirazını bildirdikcə hakim təbəqələrlə onun arasındakı konflikt də gərginləşirdi. Abayın hətta atası və qardaşı ona düşmən kimi baxırdılar. Bu münasibətlər Abay lirikasına

tünd satirik boyalar gətirir, şairdə vətəndaşlıq qəzəbi oyadırdı. Belə qəzəbli hücumu şairin 1890-cı ildə yazdığı bir şerində aydın görürük: «Səmimi qəlbli insanların məskəni olan bir ölkədə bay vəhşiləşir, ölkə yoxsullaşır. Buranın hakimi nifrətamiz bir yalançıdır ki, doğma xalq onun əli ilə soyulur. Bilmək olmur ki, həqiqət haradadır, yalan hansıdır. Hər şey baş-ayaqdır. Hakim özümüzünkü olsa da, nəfəs çəkməyə imkan vermir. Rəisdən mükafat almaq üçün o, qudurmuş it kimi özümüzünkülərin boğazından yapışmağa hazırdır».

Abayın ictimai ədalətsizliyi tənqid edən şerləri ildən-ilə dərinləşmişdir. Şair külli-ixtiyar olan qəlbi ilə ağsaqqallarından, rəsmi hökumət adamlarına qədər bütün tüfeyliləri qamçılamışdır.

1894-cü ildə yazdığı bir şerində Abay qəbilə ağsaqqalı məclislərini tənqid edərək göstərir ki, məclisə yığılanda səmimiyyətdən danışırlar, ayrılan kimi qonşu qonşunu satır. Xalqın aldadıldığı hamıya bəllidir. Bay aldığını geri qaytarmaz, qaytarsa da qoyun əvəzinə çəpiş verər… Hakim varlı ilə çəkişməz, çünki hakimə ədalət, haqq deyil, dolanmaq lazımdır. Xalqımızı soymuşlar, onun əl-qolunu elə bağlamışlar ki, yazıq öz ayağı altında torpağı hiss etmir.

1896-cı ildə yazdığı başqa bir şerində isə bu tüfeyliləri «çirkaba batmış donuz» adlandırır. Yerli bayların çinovnikləri qarşısında yaltaqlığına işarə edib deyir: «sümük üçün əclaflara sülənirlər». «Çirkaba batmış donuz»ların surətini yaradarkən Abay satirasının boyaları xeyli tündləşir. O sözü «donuzun» bzünə verir. «Donuzun» daxili çirkabı onun etirafı, öz-özünə danışığı zamanı açılır. Məs; nahiyə hakimi öz-özünə deyir: «Dəvələrimin belində» hörgüc, atlarımda yalman da qalmadı. Bütün sərvətimi rüşvətə verib, nəhayət nahiyə hakimi oldum. Amma

deyilənə görə nahiyəni idarə edə bilmirəm. «Qurultay yaxınlaşır» deyəndə elə bil ürəyim üzülüb düşür. Lakin üzə vurmuram. Özüm yarımcan olsam da gülümsəyirəm. Günlərin birində «naçalniki gəlir, ona çoxlu araba hazırlayın»-deyən carçının səsini eşitdikdə ürəyim sıxılır. Bütün ştarşinaları və hakimləri toplayıb hazırlıq görməyi tapşırıram, allah qoysa, sizin etimadınızı doğruldacağam». Abay hakim təbəqələrin daxili çəkişməsini, bu çəkişmədən çar məmurlarının necə istifadə etdiyini də göstərmişdir. Abay çarizmin ucqarlarda öz hökmranlığını saxlamaq üçün istifadə etdiyi bu siyasətin mahiyyətini dərindən başa düşmüşdür. Azərbaycan yazıçılarından M.S.Ordubadinin («Gizli Bakı»), C.Cabbarlının əsərlərində də («1905-ci il») çarizmin milli qırğın siyasəti qabarıq şəkildə özünü göstərir.

Abay maarifə təkcə mədəni cəhətdən yenidən qurulma vasitəsi kimi deyil, eyni zamanda siyasi məsələ kimi baxırdı. Onun fikrincə xurafata inanmaq hər şeyi qəza-qədərə bağlayıb passivləşməkdə, əsarətdə yaşayıb zülmə və haqsızlığa dözmək də cahillikdir. Abay deyirdi: «Hiylə ilə yaşamaq, yaxud ağlayıb yalvarmaq-yaşamaq deyil, gün keçirməkdir.Əgər ləyaqətli yaşamaq istəyirsənsə, ovaxt həyatda gözüaçıq ol, öz qüvvənə arxalan, zəhməti sev».

Abay dünya mədəniyyətinə bələd olan şair idi. XIX əsrdə Qazaxıstanın mədəni mərkəzi hesab olunan Semipalatində təhsil alanda o, rus dilini öyrənməyə başlamış, sonralar isə buraya sürgün edilən bəzi rus inqilabçı-demokratları ilə dostlaşmışdı. Abayın dünyagörüşünün formalaşmasına rus inqilabçı-demokratların və eləcə də rus yazıçılarından Puşkinin, Lermontovun, Saltıkov-Şedrinin, Çernişevskinin, L.Tolstoyun ədəbi irsi böyük təsir göstərmişdir.

Abay rus, Avropa və Şərq klassiklərinin əsərlərinin məzmununu ətrafına toplaşan ziyalılara, mütərəqqi fikirli adamlarına danışır, həmin əsərləri şifahi şəkildə xalq arasında yayırdı. «Leyli və Məcnun», «Koroğlu», «Şahnamə» və s. əsərlər məhz bu yolla qazaxlar arasında yayılmışdır.

Abayın əsərləri göstərir ki, o, Şərq klassiklərinin və tarixçilərinin rus dili vasitəsilə bir sıra Avropa yazıçılarının əsərlərini mütaliə etmiş, qədim yunan ədəbiyyatını və tarixini mükəmməl öyrənmişdir. Abay Şərq mədəniyyətinə, Şərq tarixinə dərindən bələd idi. O, Firdovsi, Nizami, Sədi, Hafiz, Nəvai və Füzuli kimi ölməz sənətkarların əsərlərini mütaliə etmişdi.

XIX əsrin II yarısında qazaxlarda nəsli-qəbilə quruluşu və köçəri təsərrüfatı hələ öz simasını saxlayırdı. Kapitalist münasibətlərinin inkişaf etməsinə baxmayaraq qazax nəsilləri öz keçmiş və adət etdikləri köçəri həyatlarından əl çəkmək istəmirdilər. Abay oturaq həyata keçməyi, daş binalar tikməyi, əkinçiliklə geniş məşğul olmağı, ticarəti inkişaf etdirməyi təbliğ edirdi. Tobıktı qəbiləsində oturaq həyata keçib bir yerdə daimi yurd salan, daş evlər tikdirən də Abay özü olmuşdur ki, bu köçəriliyə adət etmiş adamlara əvvəllər çox qəribə görünürdü.

Abay köçəriliklə bağlı olan ictimai bəlaları nəzərə alaraq yazırdı: «Bizdə əkinçilik, ticarət və elm yoxdur. Adamlar yalnız mal-qaranı artırmaq haqqında düşünürlər. Sürünü artırdıqdan sonra onu çobana verib özləri eşq macəralarından və cıdıra çıxmaqdan həzz alırlar.Sonra da onlara elə gəlir ki, əllərində olan torpaq azdır. Onda onlar ya zorla, ya da hakimlərə rüşvət verməklə öz qonşusunun yerini ələ keçirirlər... Səhra genişdirsə, o bizə çox dar görünür. Camaat əkin əkib ticarətlə məşğul

olmur. Biz əkin yox, düşmənçilik toxumu əkirik».

Ç.Vəlixanov, I.Altınsarin və A.Kunanbayevin ənənələrəi XIX əsrin sonu və XX əsrin ilk illərində Akan Səre Koramsa oğlu (1843-1913) və Abayın övladları Akılbay (1863-1904) və Mağaviya (1870-1904) tərəfindən davam etdirilmişdir.

### *§5 Türkmən mədəniyyəti*

Türkmənistanın EA-nın Məxtimqulu adına Dil və Ədəbiyyat Institutunun yaratdığı «Türkmən ədəbiyyatı tarixi»nin altı cildliyinin üç cildi qədim dövrdən müasir dövrə qədər ədəbiyyatının inkişaf mərhələlərini əks etdirir.

Türkmən ədəbiyyatı tarixinin birinci cildi «Orta əsrlər dövrünün ədəbi irsi» adlanır ki, buradakı material təkcə türkmən xalqına deyil, Orta və Kiçik Asiyada, Azərbaycanda, Iranda, Hindistanda yaşamış türk və fars xalqlarına məxsus olan ədəbiyyatdır. Burada M.Kaşğarinin lüğətindən, Y.Balasaqunlunun «Qutadqu-bilik» əsərindən bəhs olunur. Ö.Xəyyamın, Sədi, Hafiz və Ə.Caminin, I.Nəsimi, Ə.Nəvai, M.Füzuli kimi türk şairlərinin türkmən ədəbiyyatına təsirindən, qarşılıqlı əlaqələrdən danışılır. Amma o yerlərdəki ədəbi prosesin, ədəbiyyatların arasında dil, bədii sənətkarlıq, ədəbi ənənə və s. məsələlər üzrə eynilik, əlaməti qoymaq doğru olmaz. Hər ərazidə yaranan ədəbiyyatın öz xüsusiyyətləri, özünəməxsus ənənələri və mövqeyi vardır.

Şeybanilərlə vuruşmada məğlub olaraq xüsusi ölkələrə mühacirət etməyə məcbur olan Babur Əfqanıstan və Hindistanda Moqol sülaləsinin əsasını qoymuşdur. Onun sarayında Babura və onun varisi Humayuna çox yaxın olan adamlardan biri də türkmən şairi Bayram xan idi. Belə

təxmin edirlər ki, Bayram xan 1500-1505-ci illərdə anadan olmuş, 1561-ci ildə öldürülmüşdür. Humayunun haki-miyyəti illərində Bayram xan Bədəxşanda Baharlı türkmənlərindən olduğu uçün, baharlılara başçılıq etmiş və hökmdarın ən yaxın adamı olmuşdur. Sonra vəliəhd Əkbərin tərbiyəsi Bayram xana tapşırılmış və ona atalıq rütbəsi verilmişdir. Lakin saray nücabaları Bayram xanı gözdən salıb onu hakimiyyətdən uzaqlaşdırmışlar.

Bayram xan zəmanəsinin istedadlı şairi olmuşdur. Onun fars və türk dillə-rində divanları olduğunu söyləyirlər. Azərbaycanlı müəllif Qəzənfər Əliyevin 1969-cu ildə «Türkmənistan» nəşriyyatında rus dilində çap etdirdiyi «Türkmən şairi Bayram xan» əsəri ilk monoqrafiyadır. O, şairin həm fars-tacik, həm də türk klassiklərindən qidalandığını göstərmişdir. Nəsimi və Nəvai onun yaradıcılığında özünü göstərirdi. Türkmən klassik ədəbiyyatının coşqun inkişaf dövrü XVIII əsrə təsadüf edir. Bu əsrin ilk görkəmli şairi Dövlətməmməd Azadidir (1700-1760). Onun «Behiştnamə» və «Vəzi Azadi» adlı iki poeması məlumdur. «Behiştnamə» dini məzmun daşıyır. O, ərəb-fars dilində yox, türk dilində yazmağın əhəmiyyətini göstərmişdir. «Vəzi-Azadi» poeması «Qutadqu-bilik» nəsihətamiz əsəri səpkisində yazılmışdır.

Azadinin müasiri Nurmühəmməd-Qərib Əndəlibin (1711-1770) əsərləri dili qəliz, üslubu ağır olan Azadinin əsərlərinə nisbətən geniş yayılmışdır.

Bütün «Leyli və Məcnun»lar, «Yusif və Züleyxa»lar məsnəvi formasında yazılmış poemalardır. Həmin mövzunu işləyən Əndəlib isə sələflərindən fərqli olaraq dastan yaratmışdır. Onun əsərləri nəsrlə məzmun növbələşdiyi səpkisindədir. Məxtimqulu Fəraqi (1730-1780)

atasından dərs almış, sonra mədrəsə təhsili görmüşdür. O, bəzi sufi görüşlərini təbliğ edirdi. Məxtimqulu xalq şeiri səpkisində acdığı yeniliyə görə Azərbaycan şairi M.P.Vaqifə yaxınlaşır.

Məxtimqulu doğulduğu yeri, mənsub olduğu tayfanı nişan verərək yazır ki:

*Bilməyib soranlara aydın, bu qərib adımız,*
*Əsli gərkəz, yurdu ətrək, adı Məxtimquludur.*

Gərkəz köklən tayfasının bir qolu məxtimlular olmuşdur.

B.Qarrıyevin gətirdiyi bir sıra dəlillər inandırır ki, Məxtimqulu türkmən qəbilələrini birləşdirmək məqsədilə ayrı-ayrı tayfalarla görüşmüş, müxtəlif yerlərə səyahət etmişdir. B.Qarrıyev Hindistana səyahət üçün atasından icazə istəyən əfqan şahı ilə Azadi arasında mənzum mükaliməni, şairin əfqan şahı Əhmədə və türkmənlərin görkəmli şəxsiyyətlərindən Çovdurxana həsr etdiyi şeirlərini misal gətirərək göstərir ki, həmin əsərlərdə vətənpərvərlik mövzusunda yazdığı müxtəlif qoşma-larda türkmən qəbilələrini xarici istila və pərakəndəlikdən qurtarmağa çalışan Məxtimqulunun siyasi görüşləri əks olunmuşdur.

B.Qarrıyev iki tarixi hadisəni türkmənlərin 1746-cı ildə Ətrək və Qurgen ətrafında Nadir şaha qarşı üsyanını, 1767-ci ildə Xarəzmdə baş vermiş hərəkatı xatırladır. 30 mindən artıq türkmən iştirak edən birinci üsyanın rəhbəri Fətəli xanın oğlu Məhəmmədhəsən idi. O zaman Məxtimqulunun 12-13 yaşı var idi, buna görə onun siyasi hadisələrə «Sizindir» qoşmasındakı kimi açıq-aşkar münasibət bəsləməsi qeyri-mümkün idi. Görünür, şair «Sizindir» şeirini həmin tarixi hadisədən bir qədər sonra yazmışdır. 1767-ci ildə türkimənlərin Xivədə Nurəli xana

qarşı çıxışında Məxtimqulu bilavasitə iştirak etmişdir. Həmin üsyandan ruhlanan şair Irandan ayrılıb müstəqil dövlət kimi yaşayan Əfqanıstanla danışıq aparmağı, ondan kömək almağı təbliğ etmişdir. Şeirlərinin birində

*Rəvac Verin yomut, göklən birliyinə,*

*Ol Kamal xan Əfqan olsun başçımız-*

deyə əfqan şahı Əhmədə mədhnamə həsr etmişdir. Mədhiyyənin 1753-1754-cü illərdə Əhməd şahın Xorasanı tutması münasibətilə yazıldığını təxmin edirlər.

XIX yüzilliiyn əvvəlindən türkmən poeziyası öz inkişafının yeni mərhələsinə ayaq basmışdır. Bu mərhələnin binasını qoyan Məhəmmədvəli Kəminənin, Xoca Seyidinin, Sayadnazar Seydinin, Qubandurdu Zəlilinin, Molla Nəpəsin ədəbi irsinə 3 möhür basılmışdı: Şərq klassikləri möhrü, baxşılar və ya dastanlar möhrü, mühit möhrü.

Klassik türkmən şairlərindən Qurbandurdu Zəlili (1794-1852) Göklən qəbiləsinin vətənpərvər oğlu kimi hərbi basqınlara qarşı döyüş meydanına çıxmışdı. O, 1816-1817-ci illərdə Xivə xanının qoşunları ilə vuruşub əsir düşmüş, Urgenç və Xarəzm tərəflərdə göz dustağı olmuşdur. Ərsəri tayfasının igid sərkərdəsi olmuş Sayadnazar Seydi və Buxara əmirinin zorakılığına məruz qalan xalqın Ləbab sahillərindən başqa torpaqlara köçməsini, orada məskənləşməsini əks etdirən məşhur şeirlərini yazmışdır. Seydi 1775-ci ildə Cərco vilayətinin Qarabəkaul rayonunda anadan olmuş və 1836-cı ildə vəfat etmişdir. O, Buxara əmirini pisləyərək Soltan Niyazın bəyliyi altında birləşməyi təbliğ edib Ləbab boylarından özgə yerə köçməyi göstərmişdir (1823-1824). Seydi lirikası Ş.I.Xətayini xatırladır. XIX əsrin türkmən ədəbiyyatında Xoca

Seydinin hörmətli yeri vardır. Bəzi türkmən ədəbiyyatşünaslarına görə Seydinin 4 oğlu olmuşdur. Əsrari Seydisi isə hər oğluna bircə mərsiyə yazmaqla kifayətlənmişdir. Onun oğlunun birinin adı Bəynazar, ikincisinin adı Pəhləvan olmuşdur.

XIX əsr türkmən poeziyasında satiranın əsasını qoyan sənətkar kimi Məhəmmədvəli Kəminə (1770-1840) məşhurdur. M.P.Vaqifin poeziyasını xatırladan Kəminənin satiraları Q.Zakirin satirasına uyğun gəlir. Bəzi ədəbiyyatşünaslar Kəminəni Molla Nəsrəddinlə eyniləşdirirlər.

XVIII əsr klassik türkmən ədəbiyyatı türkmən xalqının ictimai siyasi tarixinin öyrənilməsi baxımından əvəzsiz mənbə rolu oynayır. Klassiklərin əsərləri bu və ya digər dərəcədə ictimai-siyasi məzmun daşıyır. Bütün yaradıcılıqlarında azadlıq arzuları açıq şəkildə qoyulur.

Türkmən klassik ədəbiyyatının banisi Məxtimqulu ənənəsini XX əsrdə davam etdirənlər Kormolla, Durdı Klıç və s. idilər. D.Klıç «Çığır», «Çatma», «Sataş», «Varlılar», «Kasıblar» adlı şeirlərində kəndlilərin ağır zəhmətindən və qadın hüquqsuzluğundan danışmışdı.

Türkmən müğənnisi və musiqiçiləri Sarı Baxşı, Durdı Baxşı, Ağacan Baxşı, Tacməmməd Baxşı və b. xalq arasında böyük hörmətə malik idi.

XVI-XVII əsrlərdə «Koroğlu» (Guroğlu) azərbaycanlılarda, türkmənlərdə, özbəklərdə, qaraqalpaqlarda, qazaxlarda və eləcə də türk olmayan taciklərdə və digər xalqlarda da müəyyən versiyalarla formalaşmış dastan janrı idi. Türkmənlərdə bu eposun 40-a qədər boyu məlumdur. Türkmənlər hətta «Guroğlu»nun yomud tayfasından çıxdığını da söyləyirlər. Türkmənlərdə «Şahsənəm və Qərib», azərbaycanlılarda

«Aşıq Qərib» dastanları ortaq dastanlardır.

### *§6 Qaraqalpaq mədəniyyət*

Şifahi xalq ədəbiyyatı janr etibarilə zəngindir. Qaraqalpaqlarda 50-dək dastan toplanmışdır. «Qırx qız», «Alpamış» və s. dastanlar xüsusilə məşhurdur. Dastanların bir çoxu başqa türkdilli xalqların mənəvi mədəniyyəti ilə müştərəkdir. Ictimai zülm və bərabərsizlik, qadın hüquqsuzluğu əleyhinə etiraz, din xadimlərinin ifşası inqilabdan əvvəlki qaraqalpaq yazılı ədəbiyyatının əsas mövzularıdır (Iijyen Irau XVIII əsr; Ajiniyaz – 1824-1878; Kunxosa-1799-1880). Qaraqalpaqların ən qədim incəsənət abidələri e.ə. IV əsrə aiddir (kiçik heykəllər və keramika). XVIII əsrdən çoxlu suvarma qurğuları (bənd, su anbarı və s.), ev və malikanə qalıqları hifz olunmuş, həmçinin qədim və orta əsr Xarəzm incəsənət nümunələri qalmışdır.

# II HISSƏ
# VOLQABOYU, KRIM VƏ SIBIRIN TÜRK XALQLARI (XIII-XX ƏSRIN ƏVVƏLLƏRI)
## I FƏSIL
## VOLQABOYU TÜRK XALQLARI (XIII-XX ƏSRIN ƏVVƏLLƏRI)

### *§1 Bulqarlar*

Volqanın Orta axarı boyu ərazidə və Aşağı Kama çayı sahillərində məskun olan türk tayfaları IX əsrdə Volqa Bulqar dövlətini yaratmışdılar. Bu ərazidə bulqarların suvar, eseqel, bersula, təmtuz və b. tayfaları yaşayırdılar. Onlar oturaq həyata keçmiş, əsasən əkinçiliklə məşğul olmağa başlamışdılar. Volqa bulqar tayfaları siyasi hadisələrin gedişində-Xəzər xaqanlığının tabeliyində olmuş, lakin 935-ci ildə bu xaqanlığın tabeliyindən çıxaraq, müstəqil olmuşlar. Volqa Bulqar xaqanı Almas haqqında məlumatlar qalmışdı. Almas xaqanın 921-ci ildə ərəb xəlifəsi Müqtədirə müraciət edərək, onun ölkəsində Islamı yaymaq üçün xüsusi nümayəndə göndərməsini xahiş etmişdi. Bu andan etibarən bulqarların islam dininə keçməsi barədə Ibn Fədlanın qeydləri qalmışdı. Ibn Fədlan isə xilafətdən gələn nümayəndə heyətinə rəhbərlik etmişdi. Dövlətin paytaxtı Bilyar şəhəri idi. IX-X əsrlərdə Volqa Bulqar dövləti Samanilər dövləti ilə qarşılıqlı iqtisadi və mədəni əlaqələrdə olmuşdu.

1236-cı ildə monqol sərkərdəsi Batının orduları bu dövlətin varlığına son qoydu. Bu torpaqlar Cuci ulusuna qatıldı. XIV əsrin II yarısında bulqarlar monqol əsarətinə qarşı üsyan qaldırdılar. Qızıl Orda xanı Bulat-Teymur 1361-ci ildə Bulqar ölkəsinə yürüş edərək, burada

baş verən üsyanları yatırtdı. Sonra bu ərazi Toxtamışla Əmir Teymurun ordularının toqquşma meydanına çevrildi. Əhalinin bir hissəsi Volqanın sağ sahilinə keçərək Kazan (Qazan ) şəhərini saldılar. Deməк, monqol yürüşlərinə qədər bu ərazidə türk tayfaları-bulqarlar yaşamışdılar ki, bu da sonra yaranan Qazan, Həştərxan xanlığının əhalisinin kökündə duran tayfalardır.

1705-1706-cı illərdə Həştərxan əhalisinin və streleslərin ağır vergilərə və hakimiyyət orqanlarının özbaşınalığına qarşı üsyanı baş verdi. Şəhər voyevodusu Timofey Rjevski qazanc əldə etmək üçün taxıl ticarətini icarəyə verdi. Beləliklə, taxılın və digər ərzaq növlərinin qiyməti bir neçə dəfə artırıldı. Xüsusilə türk xalqlarının saqqallarının zorla qırxılması, onların uzunətəkli paltarlarının qısaldılması böyük partlayışa səbəb oldu.

Üsyan 1705-ci il iyulun 30-da baş qaldırdı. Həştərxan Kremli tutuldu. Voye-voda və 300 nəfər məmur və dvoryan edam olundu. Şəhər adamlarının yığıncağında Yaroslavl taciri *Yakov Nosov* başda olmaqla şəhər adamlarının hökuməti seçildi. Bu hökumətin ilk tədbiri Voyevod Rjovskinin öldürülməsi oldu. Vergilərin ləğv edilməsi, müsadirə olunan malların hesabına streslərin əmək haqlarının verilməsi barədə tədbirlər gördü. Eyni zamanda üsyana qoşulmaq üçün Krasnı Yara, Quriyeva adamlar göndərilirdi, mübarizəyə cəlb etmək üçün tədbirlər gördülər. Lakin bütün bu tədbirlər yerli əhalini üsyana cəlb edə bilmədi.

Həştərxanlıların min nəfərlik dəstəsi Tsaritsini və Volqaboyundakı şəhərləri tutmaq və yerli əhalini üsyana cəlb etmək üçün yürüşə başladılar. Lakin varlı kazaklardan ibarət olan mühafizəçi dəstələr üsyançıların qarşısını kəsə bildilər. Çar hökuməti kalmıkların xanı

Ayukanın yanına elçilər göndərdi. Ayuka həştərxanlıları hədələyərək bildirdi ki, üsyançılar Volqa sahili və Şimala doğru irəliləsələr kalmıkları mühasirəyə alacaqlar. Beləliklə, üsyançılar Tsaritsinə doğru çəkildilər və Çorni Yarda yerləşdilər.

Üsyan tacirlərin, bayır şəhərinin varlı adamlarının, ruhanilərin böyük narahatlığına səbəb oldu. Onlar böyük təhlükə hesab etdikləri üsyançılara qarşı çıxdılar. Yerli məmurlar gizli şəkildə hərbi qərargahla əlaqəyə girərək silahlı qüvvə göndərilməsini tələb etdilər. Beləliklə, üsyançılar arasında parçalanma yarandı. Belə bir vəziyyətdən istifadə edən çar generalı B.P.Şeremetevin başçılığı altında qoşun hissələri göndərildi. Çar qoşunları 1706-cı il martın 13-də Tsaritsın üzərinə yeridi. Bir qədər sonra Çornı Yar rus qoşunlarının əlinə keçdi. Həştərxan tacirləri, ruhanilər Şeremetevin yanına nümayəndə göndərərək dərhal Həştərxana gəlməsini xahiş etdilər. Martın 10-da üsyançıların Həştərxanda keçirdikləri yığıncaqda şəhərin müdafiəsinin daha da möhkəmləndirilməsi barədə qərar qəbul etdilər. Belə bir dövrdə Şeremetevin silahlı qüvvələri Həştərxana yaxınlaşdı. Şəhər güclü top atəşinə tutuldu. Üsyançılar Ağ səhəri keçərək Kremlə daxil oldular. Kreml güclü top atəşinə tutuldu. Üsyançılar çar qoşunlarının qarşısını ala bilmədilər. Üsyan yatırıldı.

## *§2 Qazan xanlığı*

XV əsrin birinci yarısında Orta Volqaboyu bölgələri Qızıl Ordanın təsir dairəsindən çıxdı və Kama çayının Volqa çayına töküldüyü yerin ətrafında Qazan xanlığı yaradıldı. Bu xanlığın əsasını Qızıl Orda xanı Ulu Məhəmməd qoymuşdu. O, Qızıl Ordada baş verən

çəkişmələrdən uzaqlaşaraq Qazan şəhərinə gəlmiş və 1437-ci ildə öz dövlətini yaratmışdı. Yeni yaranmış Qazan xanlığının paytaxtı Qazan şəhəri idi. Ulu Məhəmmədin hakimiyyəti türk bəyləri tərəfindən qorunurdu. Volqanın sahillərində yaşayan çeremislər, udmurtlar, çuvaşlar da Ulu Məhəmmədin hakimiyyətini qəbul etdilər. Ulu Məhəmmədin hakimiyyətinin getdikcə güclənməsi Moskva knyazlığını çox narahat edirdi. Çünki, buranın münbit qara torpaqlarını və ticarət yollarını tutmaq istəyirdi. Ulu Məhəmmədin hərbi qüvvələri 1439-cu ildə Moskva yaxınlığında rus qoşunlarını məğlub etmişdi. 1444-cü ildə Ulu Məhəmməd oğlanları Mahmudək və Yaqubla birlikdə Suzdal yaxınlığında ruslar üzərində bir daha qələbə çalmışdı.

1445-1466-cı illərdə Qazan xanlığı Ulu Məhəmmədin oğlu Mahmudək tərəfindən idarə olundu. Mahmudək hakimiyyətə gəldikdən sonra da Moskvanın işğalçılıq siyasətinə qarşı çıxdı. O, 1446-cı ildə Rusiyanın Murom, Vladimr, Ustyuq əyalətlərinə hərbi yürüşlər təşkil etmiş və böyük qənimətlə geri qayıtmışdı. Moskva knyazlığı ilə döyüşlər 1467-ci ilə qədər fasiləsiz davam etsə də, sonradan xanlığın daxilində baş verən çəkişmələr xanlığı Moskva ilə sülh danışıqları bağlamağa vadar etmişdi. Xanlığın daxilində Abdul Mömin qruplaşması, Mahmudəkin oğlu Ibrahim hakimiyyətə gəlmək üçün ruslara meyl edirdilər. Qazan xanı Əli (1479-1487) onlarla mübarizə apardığı bir zamanda rus orduları hücuma keçdi. 1487-ci ildə ruslar Qazan şəhərini ələ keçirib, Əli xanı əsir aldılar. Əli xan Belorusiyaya sürgün olundu və orada öldürüldü. III Ivan xanın qardaşları Məhəmməd Əlini və Əbdüllətifi növbə ilə taxta əyləşdirdi. Onlar xanın Moskva knayzlığından vassal asılılığı sifəti ilə idarə edirdilər.

Qazan xanı Məhəmməd Əmin 1518-ci ildə öldü. Moskva onun yerinə Şah Əlini gətirmək istəsə də bu baş tutmadı. Yerli feodalların və din xadimlərinin köməyi ilə hakimiyyətə Sahib Gəray gətirildi. Lakin rusların təzyiqi ilə hakimiyyətdən getdi və yerinə qardaşı oğlu Səfa Gəray (1524-1549) gəldi. Krım xanlığından gəlmiş Kuçak ordunun köməyi ilə Səfa Gərayı hakimiyyətdən uzaqlaşdırıb yerinə oğlu Uyatmışı təyin etdi. 1548-1550-ci illərdə IV Ivan 2 dəfə Qazan xanlığına hərbi səfər etsə də, lakin onun bu səfərləri uğursuz nəticələndi. Kuçak onları məğlub edib xanlığın ərazisindən çıxartdı. Ruslar ancaq 1552-ci ilin oktaybrın 2-də Qazan xanlığını işğal edib Rusiyaya birləşdirdilər.

### *§3 Həştərxan xanlığı*

Həştərxan (Hacı Tarxan) xanlığının əsası Qızıl Orda xanlarından biri olan Kiçik Məhəmmədin nəvəsi Qasım xan tərəfindən qoyulmuşdu. Volqa və Xəzər su ticarət yollarının üstündə yerləşən Həştərxan şəhəri böyük ticarət mərkəzi hesab olunurdu.həştərxan xanlığında Xəzər, bolqar, peçeneq və kuman türk tayfaları yaşayırdılar, xanlığın mərkəzi hesab olunan Həştərxan şəhəri 1558-ci ildə möhkəm qala divarları ilə əhatə olunmuşdu. Həştərxan xanlığı bir müddət Qızıl Ordadan, Krım xanlığından və Naqay Ordasından asılı vəziyyətdə olmuşdu. Həştərxan xanlığı Rusiyaya yaxınlaşmaqla bu asılılıqdan qurtarmağı fikirləşirdi. Hətta Rusiya ilə 1533-cü ildə ittifaqa girmişdi. Lakin Rusiya bu ittifaqa xəyanət edərək xanlığın ərazisini işğal etmək siyasətinə keçdi. IV Ivanın qoşunları 1554-cü ildə xanlığın ərazisinə hücum edib Dərviş Əli xanı özündən asılı vəziyyətə saldı. 1556-cı ildə Dərviş Əli xan rus çarı IV Ivan tərəfindən hakimiyyətdən uzaqlaşdırıldı və xanlığın müstəqilliyinə

son qoyuldu. Həştərxan xanlığının son xanlarından olan Yamqurçu ruslarla etdiyi mübarizədə məğlub olmuş və Azaka gələrək Osmanlılara sığınmışdı.

Xanlığın təsərrüfat həyatında əsas yeri maldarlıq tuturdu. Çünki, Həştərxan xanlığının ərazisində geniş otlaq sahələri çox idi. Yardımçı məşğuliyyət sahələri ovçuluq, balıqçılıq da inkişaf etmişdi. Çoxlu duz gölləri var idi ki, orada emal olunan duz bazarı çıxarılırdı. Əkinçilik az da olsa inkişaf etmişdi. Iri dünyəvi və dini feodallar hakimiyyətin idarə olunmasında iştirak edirdilər. Dövlətin başında xan durudu, sonra isə vəzifələr bəylərin, murzaların və ruhanilərin arasında bölüşdürülürdü. «Qara camaat» vergi ödəyirdilər, feodallar isə vergilərdən azad idilər, xandan sonra ən səlahiyyətli şəxs, ordu komandanı Kalqa hesab olunurdu. O, xanın oğlu, həm də varisi hesab olunurdu. Həştərxan xanlığında ticarət münasibətləri çox inkişaf etmişdi. Mərkəzi Asiya, Sibir və Qazaxıstandan buraya çoxlu şərq parçaları, ipək,, müxtəlif ədviyyat malları, dulusçuluq məmulatları gətirirdilər. Həştərxandan isə xarici tacirlər xəz dəri, gön, balıq, duz və s. mallar alıb aparırdılar. Ticarət əlaqələrinin genişlənməsi ilə əlaqədar olaraq rus, erməni, yəhudi əsilli əhali qrupları xanlığın ərazisində məskunlaşırdılar. Italiya şəhərlərindən, xüsusilə də Venetsiyadan bura çoxlu tacirlər gəlirdi. Iqtisadi cəhətdən əlverişli yerdə yerləşməsinə baxmayaraq, güclü qonşuları xanlığın ərazisinə hücumlar edirdilər. Getdikcə güclənən rus dövləti XVI əsrin 50-ci illərində xanlığın ərazisini işğal etdi.

## *§4 Çuvaşiya*

Orta Volqaboyu ərazisində yaşayan xalqlardan biri də çuvaşlardır. Çuvaşiyada son Paleolit, Mezolit, Neolit və Tunc dövrlərinə aid abidələr qalmışdır. Çuvaşiya ərazisindən Paleolit dövrünə aid məskən qalıqları, Abaşevo mədəniyyəti nümunələri, Volqaboyunda yaşayan bulqarların abidələri aşkar edilmişdir. Neolitin sonundan burada finn-uqar dilli tayfalar yaşayırdılar. Eramızın VII-VIII əsrlərində Orta Volqaboyunda bulqarlar və suvarlar (suvazlar) məskən saldılar. X əsrdə Volqa-Kama Bulqarıstanı yarandı. Bu dövlət XIII əsrin 30-cu illərində monqol-tatarlar tərəfindən işğal olundu və 1241-ci ildə Qızıl Ordaya qatıldı. Bulqarların finn-uqor dilli tayfalarla qarışması nəticəsində XV əsrdə Çuvaş xalqı formalaşdı. Bu xalq özü-özünə «çavaş» deyir. Məlumdur ki, türk dillərində «r» səsi, «z» səsinə, «s» və «z» səsləri isə «ş»və «ç» səslərinə keçir. Ona görə «savar» etnomininində sonrakı «r» səsinin əvvəlcə «s», sonra da «ş» səsinə keçdiyi ehtimal edilsə, onda guman var ki, «çavaş» etnonimindən törənmişdir. 1437-45-ci illərdə çuvaşlar Kazan xanlığına tabe idilər. 1552-ci ildə isə məcburi surətdə Rus dövlətinə daxil edildilər. XVIII əsrin ortalarında çuvaşlar zorla xristianlaşdırılmaya məruz qaldı.

Tədqiqatçılara görə çuvaşlar mənşəcə qədim bulqarlarla əlaqədardır və türkoloji ədəbiyyatda çuvaş dili türk dillərinin bulqar qrupuna daxil edilir-çuvaşların miqdarı hazırda 1,4 milyon nəfərdir. Lakin onların etnogenezində Finn-Uqor tayfaları (xüsusilə Sibirdə yaşayan marilər) mühüm rol oynamışdır. Bunun nəticəsində çuvaşların dilində türk dilləri üçün xarakterik olmayan fonetik fərqlər meydana gəlmişdi.

Tədqiqatçılara görə çuvaşların qədim tarixi haqqında heç bir yazılı

mənbə yoxdur. Çuvaşlar haqqında ilk məlumatlar Rusiyanın Volqaboyunu və Sibiri işğal etdikdən sonraya-XVII-XVIII əsrlərə aiddir. Ehtimal olunur ki, çuvaşlar eranın ilk illərindən hun tayfa ittifaqına daxil olan türk tayfaları əsasında formalaşmışdır. Lakin çuvaş dili erkən orta əsrlərdə Finn-Uqor dillərinin, eləcə də bulqar, tatar və başqırd dillərinin təsiri nəticəsində başqa türk dillərindən fərqli əlamətlər kəsb etmişdir. Bu əlamətlər özünü çuvaş dilinin müxtəlif təbəqələrində əks etdirir. Belə ki, çuvaş dilində ərəb və slavyan dilləri ilə yanaşı, Uqzo-Fin dillər ailəsinə mənsub mari, komi, udmurt və mordov dillərindən də külli miqdarda söz daxil olmuşdur.hazırda Çuvaş Muxtar Respublikasında və Rusiyanın Kuybışev və Ulyanovsk vilayətlərində yaşayan çuvaşların erkən orta əsrlərdə dövlət qurumları haqqında məlumat yoxdur. Lakin bir sıra tədqiqatçılar çuvaşların VII-X əsrlərdə Böyük Bulqar dövlətinin tərkibində olduqlarını yazırlar. Çuvaşlar Çar Rusiyasına qarşı dəfələrlə üsyan qaldırmışlar. 1571-1573, 1606-1610-cu illərdə Volqaboyunda baş vermiş üsyanlarda, S.Razinin (1670-71) və Y.Puqaçovun (1773-1775) üsyanlarında çuvaşlar fəal iştirak etmişlər. O vaxt çuvaşların dini şamanizm idi. Volqaboyu və Qərbi Sibir Rusiya tərəfindən işğal edildikdən sonra XVIII əsrin əvvəllərindən başlayaraq çuvaşların zorla xristianlaşdırılması prosesi getmişdir.

XIX əsrin ortalarına qədər Çuvaşiyada hələ də feodal-təhkimçilik münasibətləri qalırdı. Təhkimçiliyin qalması ölkədə kapitalist münasibətlərinin ilkin əlaməti olan əmtəə-pul münasibətlərinin inkişafını dayandırırdı. Təhkimli təsərrüfatının böhranı nəinki mülkədar torpaqlarını, həm də ideal və dövlət kəndlilərinin mülklərini də əhatə etmişdi. Çarizm Rusiya imperiyasında və onun ucqarlarında

təhkimçiliyin onun hakimiyyəti üçün təhlükəli vəziyyət aldığını nəzərə alaraq 1861-ci ilin 19 fevralında təhkimçiliyin ləğv olunması haqqında fərman verdi. Çuvaşiyada hər bir mülkədar kəndlisinə 6,1 desyatin torpaq verilirdi. Artıq torpaq sahəsi ilə mülkədarların xeyrinə kəsilib götürülürdü. Bu cür «kəsik torpaqlar» Çuvaşiyada 39% təşkil edirdi. Kəsikləri isə kəndlilər məcbur olub müəyyən şərtlər əsasında mülkədarın xeyrinə becərirdilər.

Mülkədar kəndliləri haqqında 1861-ci il 19 fevralında verilən əsasnamədən bir qədər sonra- 26 iyun 1863-cü ildə udel kəndliləri haqqında da fərman verildi. Bu andan etibarən onlar şəxsi mülkü olan kəndlilər cərgəsinə daxil edildi və 49 il müddətində xəzinə pulunu ödəməklə ona verilən torpağa sahib olmalı idi. Çar hökuməti udel kəndlilərindən gələn gəlirin hər il 3 milyon manat ödəmək şərtilə 1914-cü ilə qədər 100 milyon manat olacağını müəyyənləşdirmişdi. Çarın gözlədiyi bu gəlir isə xeyli əvvəl- 1898-ci ildə yerinə yetirildi.

Çar hökuməti udel kəndlilərindən gələn gəlirin vaxtından əvvəl ödənilməsindən istifadə edərək torpağın satış qiymətini 25 dəfə qaldırdı və 25 iyun 1865-ci ildə verilmiş çar qanunu ilə udel kəndlilərini özünün «xüsusi əmlakı» elan etdi.

24 noyabr 1866-cı ildə dövlət kəndliləri haqqında verilən qanuna görə isə kəndlilərə əvvəllər (icma formasında) istifadə etdikləri icma torpaqlarını satın almaq hüququ verildi. Dövlət kəndliləri aldıqları torpaqların pulunu 44 il müddətində- (1887-ci ildən başlayaraq 1930-cu ilə qədər) ödəməli idilər. Çuvaşiyada kəndlilər yalnız əvvəllər icmada becərdikləri torpaqlara sahib ola bilərdilər, onların meşədən istifadə etmə hüquqları nəzərə alınmamışdı. Belə ki, XIX əsrin 90-cı illərində

Simbirski quberniyasının kəndlilərinin ixtiyarında 1,1%, udel və xəzinənin ixtiyarında 61,4% mülkədarların ixtiyarında isə 37,5% meşə sahələri var idi. Beləliklə meşələr tamamilə təhkimçi sahibkarların ixtiyarına keçmişdi. Xəzinə və udellər meşələri yalnız qırılıb satılmaq üçün verirdilər. Meşə qırılmasından böyük gəlir gözləyən sənaye-ticarət burjuaziyası bu sahələri ələ keçirdilər.

Islahat kəndliləri şəxsən azad etdi. Indi kəndlilər xüsusi mülkiyyətə malik ola bilər, ticarət işləri ilə məşğul ola bilərdi. Şəxsi azadlıq əldə etmiş kəndlilər inkişaf etməkdə olan kapitalist sənayesi üçün ucuz işçi qüvvəsinə çevrildilər. Təhkimçilik hüququnun ləğv olunmasının ardınca çar höhuməti 1864-cü ilin 1 yanvarında «Zemstvo haqqında əsasnaməni» təsdiq etdi. Qəzalarda və quberniyalarda seçki yolu ilə qəza və quberniya zemstvo idarələri yaradıldı. Zemstvo idarəsinə nümayəndələr zadəganlar, tacirlər və varlı kəndlilər içərisində seçilirdi. 1870-ci ildə şəhər dumalarına da seçkilər bütün təbəqələr içərisindən aparılırdı.

XIX əsrin 70-ci illərinin əvvəllərində Çuvaşiyada Rusiyada 1864-cü ildə qəbul olunmuş məhkəmə qanunları işləməyə başladı. Çuvaşiyada, imperiyanın mərkəzində olduğu kimi bütün təbəqələrin iştirak etdiyi volost barışıq məhkəməsi, qəza barışıq məhkəməsinin qurultayı və quberniya şəhərlərində dairə məhkəmələri fəaliyyət göstərirdi. 1864-cü ildə «Ibtidai xalq məktəblərinin vəziyyəti haqqında» əsasnamə təsdiq olundu. Məktəblərdə dərslər (1870-ci ilə qədər) ancaq rus dilində tədris olunmalı idi. Kəndlərdə ilkin olaraq yaradılmış zemstvo məktəblərində müəllimlər çatışmır və əyani vəsaitlər isə yox dərəcəsində idi. 1874-cü ildə qəbul edilən yeni hərbi əsasnaməyə görə əsgəri xidmətə 20 yaşından çağırılmağa başlanıldı. Xidmət quru qoşunlarında 6, donanmada isə 7 il

müəyyənləşdirildi.

Islahat nəticəsində Çuvaşiyada kapitalist münasibətləri güclənir, torpaq isə getdikcə daha çox əmtəə xarakteri danışmağa başlayırdı. Xəzinə, udel, mülkədar, din xadimləri və tacirlər tərəfindən torpaqlar kəndlilərə icarəyə verilirdilər. Icarəçi kəndlilər içərisində kiçik torpaq sahələri olan kəndlilər də var idi, hansı ki, onlar bazara daha çox məhsul çıxartmaq üçün əlavə torpaq sahələri götürürdülər. Belə ki, 1877-ci ildə Çuvaşiyada 8 qəzanın kəndliləri «kəsik torpaqlardan» başqa 21 min desyatin, 1905-ci ildə isə 80 min desyatin əlavə torpaq sahələri götürmüşdülər. 1892-ci il məlumatına görə yenə həmin 8 qəzanın (Alatır, Buin, Kurmış, Kozmedemyan, Tetyuş, Sivil, Çeboksar və Yadrin qəzaları) kəndlilərində «kəsik» və alınmış torpaqlardan başqa 93 min desyatin əlavə torpaq sahəsi icarəyə götürmüşdülər. Kəsik (nadel) torpaqlarından 112 min desyatini də, hətta icarəyə verilmişdi. Buna səbəb kəndlilərin əksəriyyətinin qoşqu atlarının olmaması idi, belə ki, torpaq boş qalmasın, deyə icarəyə verilirdi.

Çuvaş kəndlilərinin kənd təsərrüfatında işlətdikləri əmək alətləri sadə idi, amma əldə etmək kəndlilərə baha qiymətə başa gəlirdi. Belə ki, əsasən varlıların əkin torpaqlarında 2 tiyəli kotanlardan istifadə olunur, ancaq lazım gəldikdə varlılar onu böyük ehtiyacları olan kəndlilərə 100 pud və daha çox taxıla satırdılar. Düzdür, orta kəndlilər çox vaxt əmək alətlərini zemstvo idarəsinin anbarlarından alırdılar, lakin onlar alətlərin pulunu vaxtında vermədiklərinə görə onların ev əmlakları bazarda satışa qoyulurdu. 1905-ci ildə Kazan quberniyasının 5 çuvaş qəzasında bir kotan 28 kəndli təsərrüfatında növləşdirici maşın-180, əl ilə və atla hərəkətə gətirilən otbiçən maşın-500, təsərrüfatda işlədilmişdi.

Kozmodemyan, Çeboksar və Yadrin qəzalarının 12 volostunda bir dənə də olsun kotan yox idi. Məhsulun becərilməsi ən çox qoşqu heyvanlarından asılı idi. 1898-ci ildə Çuvaş-Sorminin və Böyük Şatmin volostlarının 23 kəndində- atsız kəndlilər bir «kəsik» torpaqdan 16 pud, bir atlı kəndli-24, ikiatlı-44, 3atlı-58, 4 atlı-65, 5 atlı isə 120 pud taxıl məhsulu götürmüşdülər.

Kəndlilərin alıcılıq qabiliyyəti mövsümi xarakter daşıyırdı. Tədqiqatçıların məlumatına görə Tetyuş qəzasının Alkeev volostunun 11 çuvaş kəndində kəndlilərin 10%-i taxıl alış və satışında iştirak etməmişdilər: yalnız 30% taxıl satmış, 27% isə almışdı. Ümumilikdə isə 33% kəndli alqı və satqıda iştirak etmişdi. Həmçinin kəndlilər payız vaxtlarında taxılı ucuz satır, qolçomaqlar isə alırdılar. Yaz fəslində isə qolçomaqlar  taxılı baha satır, məcburiyyət qarşısında qalan kəndlilər isə baha qiymətə onu alırdılar. Aclıq və qıtlıq illərində kəndlilər böyük taxıl ehtiyatına sahib olan «şrme-puyan»lardan ağır şərtlərlə taxıl alırdılar. Belə aclıq illəri («mayan çulyo») 1867, 1877, 1880, 1883, 1891-1892, 1897-1898-ci illərdə baş vermişdi. Xüsusilə ən dəhşətli aclıq 1891-1892-ci ildə olmuşdu. Dövlət aclıq çəkənlərə heç bir real köməklik göstərmədi. Nəticədə çoxlu sayda kəndli ailələri və heyvanlar məhv oldu, minlərlə kasıb və ortabab kəndli təsərrüfatları dağıldı. Kəndlilərin aclıq illərində gündəlik yeməkləri durna, qarğa, əti çətin yeyilən digər quşlar, heyvanlar və meşə otları idi. Aclıq illərində kəndlilərin torpaqlarını qolçomaqlar və digər hakim təbəqələr çox ucuz qiymətə əllərindən alırdılar. Belə ki, 1887-ci ilin axırlarında Yanqildin volostunun 17 kəndində 324 kəndli təsərrüfatı satılmışdı ki, hansı ki, həmin kəndlilərin boynunda 7 min manat dövlət borcu qalmışdı. Beləliklə, kəndlilərin torpaqsızlaşması

prosesi nəticəsində qolçomaqlar kapitalist istehsal üsuluna keçərək təsərrüfatlarında muzdlu işçilərdən istifadə etməyə başladılar. Tezliklə, bazarlarda heyvandarlıq və quşçuluq məhsulları görünməyə başladı. Yadrin, Çeboksar və Sivil qəzalarında quşçuluq təsərrüfatının yaradılması nəticəsində yumurta istehsalı çoxaldı və hətta xarici bazarlara da göndərilirdi. Məs; Furensin firması Ingiltərəyə qiyməti 2-3 manat olan qazlar və ev quşu göndərirdi. Kazanda 14 yumurta firması fəaliyyət göstərirdi ki, onlardan da 3-ü Çuvaş tacirləri Selivanov qardaşlarına məxsus idi. 1868-ci ildə Kazan quberniyasının 5 qəzasının çuvaş volostlarında 1614 arı ailəsi saxlanılırdı ki, onun da gəliri 42 min manat olmuşdu. XIX əsrin axırlarında 400 iri və 100 kiçik arıçılıq istehsal təsərrüfatları qeydə alınmışdı. Ölkədə 700 bağ var idi ki, onlardan 200-ü iri idi. 1970-ci ildə Simbirski quberniyasının 560 kəndlisi tütün yetişdirirdi. Bu kəndlilərin də əksəriyyəti Alatır qəzasının Stemas kəndinin sakinləri idilər. Maya göbələyi (maxorkanın bir növü) yetişdirməklə minlərlə kəndli təsərrüfatlarında məşğul olurdular. Tezliklə maya göbələyinin bavariya, boqem, isveç növləri geniş yayıldı. XIX əsrin sonlarında qiymətlərin aşağı düşməsilə əlaqədar maya göbələyinin istehsalı azaldı, ancaq bu çox çəkmədi. XIX əsrin əvvəllərində yenidən onun istehsalı çoxaldı və Çuvaşiyada maya göbələyi (xmel) əkilməsi 800 desyatinə çatmışdı. XIX əsrin 70-80-ci illərində kustar istehsal sahələri kapitalizmin inkişafı nəticəsində iflasa uğramışdılar. Yalnız fərdi üsulla işləyən çəkməçilər, dəmirçilər və dərzilər qalmışdı. Belə ki, 1879-cu ildə isə onların sayı 10047 olmuşdu. (Kazan quberniyasının 5 qəzasına aid idi)

Istehsalatdan sonra Çuvaşiyada meşə təsərrüaftının sənaye üsulu

genişləndi. Kozmodemyan və Çeboksar qəzalarının minlərlə kəndlisi meşə istehsal təsərrüfatında işləyirdi. Çeboksarda meşə işçilərinin sayı 1875-ci ildə 1552 nəfər, 1879-cu ildə isə 277 olmuşdu.

Istehsalata qədər çuvaşiyada bir neçə fabrik və zavod var idi ki, hansı ki, bu müəssisələrdə təhkimli kəndlilər işləyirdilər. 1860-cı ildən 1905-ci ilə qədər olan 45 il müddətində kiçik müəssisələr birləşmiş və onlarda olan fəhlələrin də sayı artmışdı. Belə ki, bunu aşağıdakı cədvəldən görə bilərik:

| Illər | müəssisələr | fəhlələr |
|---|---|---|
| 1860 | 10 | 565 |
| 1880 | 22 | 1018 |
| 1902 | 30 | 1291 |
| 1905 | 30 | 2278 |

| 1905-ci ildə isə belə idi: | müəssisələr | fəhlələr |
|---|---|---|
| çaxır hazırlanan müəsssisə | 5 | 435 |
| yeyinti-ərzaq məhsulları | 2 | 157 |
| ağac emalı | 17 | 697 |
| mexaniki müəssisələr | 4 | 903 |
| digər sahələr | 2 | 86 |

Sənaye müəssisələrinin inkişafı öz növbəsində kənd təsərrüfatı və meşə istehsalına güclü təsir göstərirdi. 1881-ci ildə Çuvaşiyanın 8 qəzasında 2471 nəfər fəhləsi olan 672 ağac emalı müəssisələri işləyirdi ki, bu müəssisələrin də əksəriyyəti kənd yerlərində yerləşirdi. Çuvaşiyada əsil fabrik və zavodlar XIX əsrin sonlarında yaranmışdı. Onların sayı 25-ə qədər olmuşdu. Bundan əlavə 14 parket və ağac doğrama, 4 çaxırçəkmə, 3 mexaniki emalatxana və s. müəssisələr

fəaliyyət göstərmişdir.

Şəhərlər və onların əhalisi: Çuvaşiyanın ərazisində Alatır, Çeboksar, Sivil, Yadrin və Mariin-Posad şəhərləri var idi. Bundan başqa Çuvaşiya əhalisinin idarəçilik baxımından tabe olduğu Kozmedemyan, Petyuşam, Buin və Kurmış qəza şəhərləri Çuvaşiya ilə iqtisadi cəhətdən əlaqəli idi.

Çuvaşiyada kapitalizm şəhərlərdən kənar təsərrüfatlarda inkişaf etdiyinə görə köhnə şəhərlər genişlənmədi və iqtisadi cəhətdən geridə qaldılar. Belə ki, 1859-cu ildə Çeboksarda 4696 nəfər sakin olduğu halda, bu rəqəm 1897-ci ildə 4738 nəfərə enmişdi. Ancaq Kazan dəmiryol xəttinin çəkilməsi Alatır şəhərinin yüksəlməsinə səbəb oldu və onun əhalisi 7573 nəfərdən 12209 nəfərə qədər artdı. XIX əsrin sonlarında isə Mariin-Posad şəhərinin əhalisi 2400 nəfər olmuşdu. Çuvaşiyanın əhalisi XIX əsrin sonlarında 16512 nəfər olmuş, 40 il ərzində isə 24137 nəfərə qədər qalxmışdı. Şəhərlərin sosial təbəqəsi müxtəlif idi. Belə ki, 1897-ci ildə Alatırda, Çeboksarda, Sivildə və Yadrində zadəganların sayı-1089, din xadimləri-750, tacirlər-170, meşşanlar-10903, kəndlilər-8365 və digər təbəqələr isə 460 nəfər olmuşdu. Şəhərlərdə əhalinin 3261 nəfəri ticarətlə, 5014 nəfəri əkinçilik və kənd təsərrüfatının digər sahələri ilə, 2598 nəfəri nökər və xidmətçilklə, 3569 nəfəri metal emalı, ağac doğrama, dəmiryolu, su və digər nəqliyyat sahələrində muzdlu əməklə məşğul olurdular. Müxtəlif sənətkarlıq sahələrində isə 2529 nəfər adam çalışırdı. Inzibati idarələrdə, polis orqanlarında, kilsə-monastr və müxtəlif məmur xidmətlərində 2495 nəfər qeydə alınmışdı. Dövlət hesabına 703 nəfər yaşayırdı. Xalq təhsili və tibbi idarələrdə 586 nəfər adam var idi. 1897-ci il siyahıya alınmasında müıəyyən olunmuşdu ki, 4 şəhərdə yerləşən 581 sahibkar

daimi olaraq mindən çox muzdlu işçi qüvvəsindən istifadə edirdi. Əhali içərisində təbəqələşmənin nəticəsi olaraq meşşan və kəndli təbəqələri içərisindən burjuaziya və proletariat, inzibati idarələrə rəhbərlik edən zadəganlar içərisindən tacirlər və meşşan ailələri çıxırdı.

Tədqiqatçı I.N.Sırnev «Rusiya» kitabının 6-cı cildində Orta Volqaboyu haqqında yazdığı qeydində Çeboksar, Mariin-Posad, Alatır, Yadrin və Sivil şəhərləri haqqında geniş məlumat vermişdi.

1897-ci il siyahıya alınmasında kənd əhalisi içərisində konkret olaraq sinfi təbəqələşmənin faizi göstərilmişdi. Maldar kəndlilər içərisindən çıxan varlılar kənd əhalisinin 10%-ni, ortabablar 35%, kasıblar isə 55%-ni təşkil edirdilər. Varlanmış kəndlilərin bir hissəsinin böyük taxıl sahələri var idi və 67% təşkil edirdilər. Bundan əlavə tacirlər 14% emal sənayeçiləri 19% səviyyəsində idi. Onların iqtisadi əlaqələrinin 79%-i kənd təsərrüfatı işləri ilə bağlı idi.

Kənd əhalisinin 36%-ni «pauperlər» təşkil edir. Pauperlər kəndlilərin torpaqsız hissəsinin ən kasıb qrupu idi. Onlar borclu oluğu sahibkarlara te-tez haqsız-muzdsuz işləyirdi. Onlar zavod sahibkarlarının, mülkədarların və qolçomaqların ehtiyat əmək qüvvələri hesab olunurdu. Əkinçilik təsərrüfatında məşğul olan kəndlilərin 30%-i dövlətə vergi verirdilər. Yerdə qalan kəndlilər isə yerli sənaye sahələrində işləyirdilər.

A.P.Enqelqard «Kazan və Orta Volqaboyunun digər quberniyalarında kəndli təsərrüaftı haqqında oçerkləri»ndə 1892-ci ildə yazırdı ki, əhali iş axtarır, o isə yoxdur. Məcburiyyət qarşısında qalan kəndli istənilən şərtlərlə mülkədar üçün işləyirdi. Yarımtəhkimli vəziyyətində qalan kəndlilər kəndi tərk edə bilmirdilər. Bu isə kapitalist sənayesinin inkişafına mane olurdu. Kəndlilər ağır vəziyyətə dözə

bilməyərək öz sahiblərinə qarşı çıxışlar edirdilər. Belə çıxışlar(1861, 1863, 1865, 1866, 1867, 1868, 1869, 1879) 1863-cü ildə Myatlevdə (Alatır qəzasında), 1865-ci ildə Kurmış qəzasının 12 kəndində, 1866-ci ildə Yanqildin, Böyük Satmin və Ubeev ərazilərində (dini vergi-«ruqudan» imtina edilməsi), 1888-ci ildə Köhnə Urmarıda (silahlı çıxışlar), 1898-ci ildə Yadrin qəzasının Asakasin volostunda (37 kəndlinin mühakiməsinə görə) baş vermişdi.

Iqtisadi vəziyyətin canlanması 1894-cü ildə Kazan dəmiryolunun çəkilməsinə gətirib çıxartdı və bununla da Çuvaşiyanın mərkəzini onu əyalətləri və qonşuları ilə əlaqələndirdi. (Alatır-Ibresi-Şixranı-Urmarı-Tyurlema-Sviyajski-Kazan dəmiryol xətti). Indi Çuvaş əhalisi nəinki çay nəqliyyatı ilə (Volqa-Sura-Sivil-Sviyaqa-Kubiya-Bula su yolu) eyni zamanda dəmiryolu ilə də işləməyə başladılar. Nəticədə iri bazarları olan şəhərlər-Kozlovka, Poretskoy, Ibresi, Şixazanı, Şıxranı, Urmarı və s. yüksəlməyə başladı. Çuvaş ərazisində iqtisadi rayonların və onlar arasında iqtisadi əlaqələrin qurulması öz nəticəsində ümumi mədəni-məişət və dil birliyinin yaranmasına səbəb oldu. Əgər əvvəllər Çuvaşiyada aşağılar – «anatrilərin» öz dili, yuxarı hakim təbəqələrin – «viryal» adlanan öz dili var idi və onlar məişətdə, ictimai yerlərdə hər bir təbəqə öz danışıq tərzinə görə bir-birindən seçilirdilər. Lakin XIX əsrin II yarısında kapitalist münasibətlərinin inkişafı, qeyd etdiyimiz bu dil fərqlərini aradan götürdü və ümumi çuvaş dili yarandı. XIX əsrin II yarısında görkəmli maarifçi, Simbirski mərkəzi məktəbinin rəhbəri Ivan Yakovleviç Yakovlev Çuvaşiyada maarifin inkişafında, çuvaş müəllim kadrlarının və dərsliklərin hazırlanmasında böyük xidməti olmuşdu. Yakovlev özünün ictimai hərəkətlərində, 3 əsas prnsipi götürmüşdü:

1) Çuvaş əhalisi ilə Rus əhalisinin bir-birinə dini yaxınlığı və birləşməsi surətdə olmalıdır və bu sahədə heç bir zorakılığa yol verilməməlidir;
2) Məktəblərdə dərslər doğma dildə aparılmalıdır;
3) Kəndlilərə mədəni və iqtisadi həyatlarında kömək etmək lazımdır

1905-ci ilin 9 yanvarında Rusiyada baş vermiş qanlı hadisə Çeboksar fəhlələri içərisində həyəcana səbəb oldu. Yefremovun meşə doğrama zavodunun fəhlələri Peterburqda həlak olan fəhlələrin ailələrinə maddi kömək məqsədilə pul yığıb göndərdilər. Kəndlilər də çıxışlara başladılar. Alatır, Sivil, Çeboksar və digər qəzaların kəndliləri özbaşına mülkədarların, xəzinənin, udellərin meşələrini doğrayaraq, icarə haqlarının aşağı salınmasını tələb etdilər.

1905-ci ilin payızında Çuvaşiyada «Kəndlilərin və Müəllimlərin Ittifaqı demokratik təşkilatı» yaradıldı. Ittifaqın 113 kənddə şöbələri yaradıldı. Ittifaqın əsas məqsədi torpaq və demokratik azadlıq əldə etmək idi. 27 noyabr 1905-ci ildə Çeboksar qəzasının Biçurino kəndində toplanmış yığıncaqda tələblər qoyuldu: 1) torpaqlar ödənşsiz kəndlilərə verilməli; 2)vergilərin bütün növləri ləğv edilməli; 3) Müəssislər Məclisi çağırmaq; 4) Dövlət hesabına məktəblər açılmalı; 5) bütün vətəndaşların bərabər hüquqlu dili olmalı; 6) azad mətbuat olmalı və vəzifələr seçkili olmalı; 7) Uzaq Şərqdən əsgərlər təcili geri qaytarılmalı, daimi ordu, polis və jandarm ləğv olunmalı. Bu cür tələblər ölkənin gələcəkdə demokratik quruluşlu bir dövlətə çevirmək məqsədi güdürdü.

1905-ci ilin dekabrında Çuvaş ziyalılarının tələbkarlığı nəticəsində həftəlik «Xıpar» (Xəbər) qəzetinin (Çuvaş dilində) çıxarılmasına icazə alındı. Qəzetin ilk nömrəsi isə 1906-cı ilin 8 yanvarında çıxdı. 1906-cı

ilin iyun ayına qədər qəzetin redaktoru müəllim N.V.Nikolski olmuşdu. Qəzetin əməkdaşları isə Simbirski çuvaş məktəbinin müəllimləri-Timotey Semyenov (Taup Timski), Yefim Profimov və Vasili Volkov idilər. Ilkin vaxtlarda liberal mövqe tutuan qəzet, tezliklə inqilabi-demokratik mövqeyə keçdi. Çuvaş yazıçı və şairləri-T.S.Semyenovo-Taypanın, M.F.Akimovun, N.I.Polorussova-Selebinin, D.A. Demidova - Yoldaşının və başqalarının hekayələri, felyetonları, şerləri çıxmağa başladı. 1906-cı ili avqustunda «Çuvaş milli müəllim və maarif işçiləri ittifaqı» təşkilatı qəzetə rəhbərlik etməyə başladı. «Xıpar» milli mövqedən çıxıh edərək 1906-cı ildə 7 min nüsxədən ibarət 1907-ci il üçün çuvaş dilində «Kalendar» buraxdı.1907-ci ilin 27 mayında qəzet çar hökuməti tərəfindən bağlandı.

1906-1910-cu illərdə tətbiq olunan Stolıpının aqrar islahatları Çuvaşiyada da kəskin çıxışlarla qarşılandı. 1913-cü ildə Stolıpın islahatına qarşı qalxmış üsyanlar «Atmenev müharibəsi» adı altında çuvaş tarixinə daxil olmuşdu. Bu üsyan haqqında «Pravda» bolşevik qəzeti 1913-cü ilin 26 mayında yazırdı: «mayın 10-da Böyük Atmen kəndində, Sumatov volostunda, Yadrin qəzasında qanlı hadisə baş vermişdi: 5 kişi, bir qadın öldürülmüş və 5-i odlu, 5-i isə soyuq silahla ağır yaralanmışdı».Böyük Atmen kəndlilərinin çıxışları icma torpaqlarının xutorlara və kəsilib ayrılmasına qarşı qalxmışdı. Şumatov icmasının 14 kəndi (Yadrin qəzasının) icmadan çıxmağa, 23 kənd isə onlara səs vermədi və icma torpaqlarının bölünməsinin əleyhinə çıxdılar. Hökumət isə icmaların dağıdılmasında və torpaqların bölüşdürülməsində maraqlı olduğu üçün bu işə mane olmaq istəyən Böyük Atmen kəndinin sakinlərinin çıxışlarını polisin qüvvəsi hesabına yatırtdı.

Bütün bu narazılıqlara baxmayaraq Çuvaşiyada kapitalizm sürətlə inkişaf edirdi. 1909-cu ildə başlanan iqtisadi canlanma 1910-cu ildə yeni yüksəlişlə əvəz olundu. Sənayeçilər və tacirlər Selivanov, Ozerov, Yefremov, Talantsov, Popov və başqaları daxili bazarın tələbatını ödədikdən sonra öz mallarını xarici bazarlara çıxarırdılar. 1913-cü ildə 700 vaqon yumurta və ev quşlarının ətini eksporta göndərilmişdi ki, onun da yarıdan çoxu Ingiltərəyə, Almaniyaya və başqa ölkələrə göndərilmişdi. Çuvaşiyaya xarici kapital axını güclənmişdi. Belə ki, alman firması «I.Bekker və K$^{o}$», Avstriya firması «Ferdinand Nebenual», «Frans Miklis», fransız «Pati Ferdinand», «Şevale», «Buve» yerli istehsal sahələrini ələ keçirmişdilər.

I Dünya müharibəsi (1914-1918) Çuvaşiyanın iqtisadiyyatına ağır zərbə vurdu. Demək olar ki, bütün kişiləri müharibəyə aparmışdılar. Hər 100 ailədən 58 nəfəri silah altına alınmışdı. Yerdə qalan əhali qrupu isə hərbi sifarişləri yerinə yetirmək üçün səfərbər olunmuşdu. Müharibə kənd təsərrüfatına ağır zərbə vurmuşdu. Böyük sayda atlar və kənd təsərrüfatı məhsulları cəbhə üçün götürülürdü. Vergilərin sayı çoxalmışdı. Müharibə illərində əkin sahələri 21% azalmışdı. 1917-ci ildə atsız və inəksiz kənd təsərrüfatları 30% təşkil edirdi. Məhsulların qiymətləri qalxmış, alverçilik baş alıb gedirdi. 1916-cı ildə ərzaq böhranı yaranmışdı. 1916-1917-ci illərdə Çuvaşiyada müharibə əleyhinə çıxışlar başlanmışdı. 1917-ci ilin 27 fevralında Rusiyada qalxmış inqilab çarizmi devirdi.

### *§5 Tatarlar*

XVIII əsrin başlanğıcında Orta Volqaboyu xalqları – mordvalar, tatarlar, çuvaşlar, marilər özlərinin qədim adət-ənənələri ilə Volqanın

cənub sağətraflı ərazilərdə, Volqaarxası və Kama arxası torpaqlarda məskun idilər. Orta Volqaboyu xalqlarından ən çox saylı hesab edilənlər mordva və tatarlar idi.  Mordvalıların əsas etnik hissəsini (qruplarını) erzyalar və mokşalar təşkil edir. Mordva-mokşalar ən qədim dövrlərdən indiki Mordva ərazisində sonralar isə müasir Ulyanov, Penza və Ryazan əyalətlərinə yayılmışdılar. Mordva-erzyalar isə Qorki və Tatarıstan ərazilərində, Samara və Başqırdıstan torpaqlarında məskunlaşmışdılar.

Tatarlar Kazan mərkəz olmaqla bütün Volqaboyu ərazilərində səpələnmiş halında yaşayırdılar.

Marilərin yaşadıqları ərazilər isə Vyatka və Vetluqa çayları arası torpaqlar (müasir Mari) və Volqanın sağ sahilində nazik bir ərazi (Çuvaşiyanın bir hissəsində) hesab olunur.

Çuvaşlar əsasən indiki Çuvaş torpaqlarında, habelə Volqanın sol sahilindəki Tatar, Başqırdıstan və Uralətrafı ərazilərdə yayılmışdılar. Müasir Saratov və Kuybışev ərazilərində də qeydə alınmışlar.

XVIII əsrdə feodal təhkimçilik zülmünün güclənməsi nəticəsində Volqaboyu xalqlarının şərq və cənub-şərq istiqamətlərdə köçmələri baş verdi. Nəticədə Volqaətrafının cənub torpaqlarında, Başqırdıstanda, Ural ətrafında marilərin, mordvaların və çuvaşların yeni qəsəbələri meydana gəldi. Köçmələr özbaşına davam etdiyinə görə, çar hökuməti (öz yerlərinə) onları öz əvvəlki yerlərinə qayıtmağa məcbur edirdi. Məsələn, Başqırdıstandan 525 nəfər öz əvvəlki yerlərinə qaytarılmışdı. Bütün bunlarla paralel Volqaboyu ərazilərinə rus kəndliləri də yerləşdirilirdi. Nəticədə Volqaboyu əyalətlərdə yaradılmış yeni şəhər və qəsəbələrdə əhapli qarışıq halında yaşamağa başladılar. Hətta qədim kəndlərdə belə əhalinin tərkibi yekcins deyildi. XVIII əsrin 60-cı illərində artıq yerli

nəsli torpaq mülkləri tənəzzül edərək 30% qalmışdı. XVIII əsrin başlanğıcında Volqaboyu əraziləri rus mülkədarları və monastırlar tərəfindən zəbt olunmuşdu (əsasən şimal-qərb rayonlar). Cənub-şərq bölgələrində qalmış azad torpaqlar da tezliklə Mərkəzi Rusiyadan və Orta Volqaboyundan köçürülən kəndlilər tərəfindən məskunlaşdı. Köçəri tatarların Rus çöllərinə sonuncu basqını 1717-ci ilə təsadüf edilir. Tatarların çoxusu oturaq həyata keçib meşədən təmizlənmiş ərazilərdə öz əvvəlki peşələri olan ovçuluq və balıqçılığı buraxaraq, əkinçiliklə məşğul olmağa başlamışdılar. Üç tarlalı növbəli əkin sistemindən geniş istifadə olunmağa başladı.

Yerli əhali əkinçilikdənyalnız öz ailəsinin tələbatını ödəmək üçün məşğul olurdular. Belə ki, XVIII əsrdə hələ də Volqaboyu xalqlarında heyvandarlıq təsərrüfatı əsas təsərrüfat sahəsi sayılırdı. Məsələn, varlı Narinin 30 atı və bir o qədər də iri mal-qarası və qoyunu olurdu. Kazak, Çevacsar və sair bölgələrdə əsasən qoyunçuluq inkişaf etmişdi.

Xüsusilə inkişaf edən təsərrüfat sahilindən biri də arıçılıq idi. Hətta bal bazarda xəzlə bərabər tutulurdu. XVIII əsrdə meşələrin qırılması arıçılıq təsərrüfatına böyük ziyan vurmuşdu. Meşələrin qırılması eyni zamanda XVIII əsrdə əsas təsərrüfat sahələrindən biri hesab olunan balıq təsərrüfatına da böyük ziyan vurdu. Sənətkarlıq (mari və mordva) Volqaboyu xalqlarında ruslara nisbətən zəif inkişaf etmişdi. Bu barədə I.Q.Qeorgi qeyd edirdi ki, sənətkarlıq işlərində rus kəndliləri ilə müqayisədə böyük fərq var idi.

XVII-XVIII əsrlərdə Volqaboyu xalqları tədricən Ümumrusiya bazarına cəlb olunurdu. Ticarət Kazan, Nijni-Novqorod, Cviyajski, Çeboksarı və s. şəhərlərdə geniş miqyas almışdı. Xüsusilə Makarev

yarmarkası Volqaboyu ticarətini Rusiya ilə əlaqələndirirdi. Tatarlar və eləcə də digər Volqaboyu xalqları ticarətdə qədim üsuldan, yəni dəyişmə üsuluna üstünlük verirdilər I.Q.Qeorgi qeyd edirdi ki, «Rus olmayan xalqlar ticarətdə ən çox şərq üsuluna üstünlük verirlər-birbaşa nəqd pula, çox nadir hallarda mal satırlar».

XVIII əsrdən etibarən bu ərazidə iri sənaye sahələri yaradılmağa başladı. Xüsusilə, metallurgiya və potaş istehsal edən 2 növ zavod tikilmişdi. Satış əyalətinin Krasnoslobodski uyezdində Milyakovlara məxsus metallurgiya zavodu qurulmuşdu.

Volqaboyu xalqlarının, xüsusilə də mordvaların həyatında əhəmiyyətli rol oynayan dövlət potaş zavodları idi. Həmin zavodlar Arzamasda, Vadskidə, Saranskidə və Sviyajskidə və s. əyalətlərdə tikilmişdi. Meşələr bir ərazidə qırılıb qurtardıqdan sonra həmin ərazidəki zavod başqa əraziyə köçürülürdü. Iş çox, lakin işin müqabilində verilən əmək haqqı cüzi idi.

Dövlət toxuculuq fabriki ilk dəfə Kazanda 1717-ci ildə təsis olundu. Sonralar, 1724-cü ildə Kazan taciri Miklyayev yeni şəxsi toxuculuq manifakturası açdı. Sonralar həmin manifaktura Diyablovanın əlinə keçdi. Ikinci böyük istehsal sahəsi yenə Miklyayevin dəri emalı manifakturası idi. Dəri emalı manifakturaları Kazanda və Çeboksarda, Simonovların zavodu isə Alatırda açıldı.

XVIII əsrin birinci yarısında Volqaboyy xalqlarının yaşadığı və istifadə etdikləri öz nəsli torpaqları, həm də Rus dövlətinin xəzinə torpaqlar sayılırdı. Həmin torpaqlardan istifadə olunduğuna görə hər bir torpaq sahibi dövlət nəfinə yasaq verirdi. Həmin torpaqlar bağışlana, satıla, dəyişdirilə bilməzdi. Dövlət xəzinəsinə verilən yasaq 1718-ci ilə

qədər davam etmişdir. Yasaklar müxtəlif ərazilərdə şəraitdən asılı olaraq dəyişirdi. 1718-ci ildə yasak can vergisi ilə əvəz olundu və ilk vaxtlar 1 manat 10 qəpik səviyyəsində müəyyənləşdirildi. (70 qəpik can, 40 qəpik isə məhsul, məşğuliyyət). 1746-cı ildə isə 40 qəpik məhsul vergisi 1 manata qaldırıldı, nəticədə verginin ümumi cəmi 1 manat 70 qəpik oldu. Bundan əlavə natural vergilər rekrat, yol üçün (səfər) gözətçilik üçün-adı altında vergilər alınırdı. Müsəlmanlar xristianlığı qəbul etmədiklərinə görə əlavə «Kərəməti» adlı vergi verirdilər. Volqaboyu xalqlarının vəziyyəti ruslara nisbətən çox ağır idi. Yerli tatar murzaları (feodallar) çardan aldığı torpaqların müqabilində xidməti vəzifələrini yerinə yetirirdilər. Murzalar torpaqlarını yalnız tatar murzalarına sata bilərdilər. Ruslara onlardan torpaq almaq qadağan edilmişdi. Çarizm hələlik yerli hakim dairələrin (onlardan yerli dayaq kimi) imkanlı olmasında maraqlı idi. Lakin rus əyanları bu qanunlardan yan keçərək, müxtəlif vasitələrlə, orduda ancaq suvari hissələrdə iştirak edən murzaların əlindən torpaqları alırdılar.

XVIII əsrin başlanğıcında rus hökuməti murzaların qüvvələrindən geniş istifadə olunurdu. 1703-cü ildə başqırd üsyanını onların qüvvələri ilə yatırtdı. 1709-cu ildə Poltava və 1710-cu ildə Riqa döyüşlərində murza-tatar suvarilərindən geniş istifadə olunmuşdu. XVIII əsrin I yarısından etibarən Rusiyada requlyarnı (daimi) ordunun yaradılması ilə murzaların nüfuzu aşağı düşdü və onların xeyli miqdarda torpaqları əllərindən çıxdı. I Pyotrun 1713-cü il fərmanına əsasən müsəlman-mülkədarlar xristianlar və xristian dininə inananlar üzərində hakimiyyətə malik ola bilməzdilər. Onlara 6 ay müddətində xristianlıq dininin qəbul etmələri təklif olunurdu. Əks halda onlar bütün mülklərindən məhrum

olurdular. Müəyyən sayda yerli əyanların xristianlığı qəbul etməsi onları vergi verməkdən azad etdilər və rus zadəganları ilə hüquqları bərabərləşdirildi. XVIII əsrin ortalarında az miqdarda tatar feodal əyanları-knyaz Kuquşevlər, Akçarinlər, Şahməmmədovlar, Yeniseyevlər, Uteşevlər, Dövlət Kildiyevlər öz torpaq və kəndlərini qoruyub saxladılar. Bununla yanaşı rus mülkədarlarından-Qolovin, Nareşkin, Qobitsen, Buturlen, Romodanov və Apraksinin Volqaboyunda geniş mülkləri var idi. Volqaboy torpaqlarının böyük hissəsi xristian obyekti olan monastırların ixtiyarına keçmişdi. Məsələn, Sarovski monastrının ixtiyarında 1705-1730-cu illər ərzində 10 min desyatin torpaq və meşə sahələri keçmişdi.

1740-cı ildə xristianlaşdırma geniş miqyas almışdı. Yeni dini qəbul edənlərə pul, paltar verir və 3 il vergilərdən azad olunurdular. 1740-cı ildə yaradılmış xüsusi idarə (yeni dini qəbul idarəsi) 1756-cı ilə qədər güclü təzyiqlər nəticəsində 400000 çox mordva udmurtların, tacirlərin, çuvaşların əksər hissəsini xristianlaşdırdılar. Tatarlar isə xristianlığı demək olar ki, qəbul etmədilər. Xristianlaşdırma Volqaboyu xalqları içərisində güclü çıxışlara səbəb oldu. 1707-1708-ci illərdə Donda başlanan üsyan Orta və Aşağı Volqaboyu ətrafını bürüdü. Mordvalar Maskinoy Temnikovkski uyezdində yerləşən Milyakov qardaşlarının dəmir emalı zavodunun işçiləri olan ruslarla birgə üsyana qalxdılar. Rus kəndlisi Dmitrii Rodionova «mordva xalqının adam » adlandırırdılar. Çünki bilavasitə onun 1726-cı ildəki məhkəmə çıxışından sonra fəhlələr Miyakovun zavodunda işləməkdən imtina etmişdilər. Kəndlilər əllərində silah 3 il vergilərin qaydaya salınması uğrunda mübarizə apardılar. Xəbər senata çatmış, kəndli üsyanını yatırmaq üçün ordu göndərilsə də,

kəndlilər rus kəndliləri ilə birldikdə ciddi müqavimət göstərmədilər.

Dini zəmində XVIII əsrin 40-cı illərində Nijeqorod qəzasının Teryuşev Volostunun mordva kəndliləri üsyan qaldırdılar və 2 il davam etdi. Üsyan mordva qəbirstanlığının dağıdılması və «müqəddəs bergaza» ağacların kəsilməsi barədə əmr verən yepiskop Dimitri Seçenova qarşı qalxmışdı. Üsyanın inadlı xarakter daşımasını görən Senat «mordvaların» məcburi xristianlığı qəbul etməsini qadağan edən fərman verdi. Lakin, elə ki, kəndlilər Yeni xristianların əvəzinə vergi verməkdən imtina etdilər, həmin an çar orduları heç bir güzəştə getmədən amansız surətdə üsyanları yatırdıb, xristianlaşdırmanı gücləndirdilər.

1897-ci ildə Kazan quberniyasında 105 fabrik və zavod işləyirdi. Bu istehsal müəssisələrində çalışan 8003 fəhlə 11200 manat məbləğində məhsul istehsal edirdilər. Quberniyada ən iri zavod 2281 fəhləsi və 6,5 milyon manat məhsul istehsalı olan sabun-bişirmə müəssisəsi idi. Bu da quberniyada istehsalın 67%-ni təşkil edirdi. Zavod-sənətkarlıq tipində olan 122 xırda istehsal müəssisələrində 694 fəhlə işləyirdi. Bu müəssisələrin məhsul istehsalı 105626 manata qədər idi.

Kazan quberniyasının istehsal müəssisələri yarımkustar formada idilər və əsasən kənd təsərrüfatı malları istehsal olunurdu. Həmin zavodlarda işləyən fəhlələr əməklərinin müqabilində ən aşağı əmək haqqı alırdılar. Iş yerlərində, yaşadığı evlərdə şərait aşağı səviyyədə idi. Əlbəttə ki, kapitalist Avropasından geridə qalan Rusiyada kapitalizmin inkişafı çoxlu feodal qalıqları ilə üzləşdiyinə görə o xalqın ağır istismarı hesabına irəli gedirdi.

1913-cü ildə emal-sənaye sahələrinin istehsalı 117813 min manat təşkil etmişdir.

Kustar istehsalı: 1884-cü ildə Kazan quberniyasında 122 kustar istehsalat müəssisəsi var idi. Bu müəssisələrdə 194 nəfər işçi çalışırdı. Istehsal etdikləri məhsul 105626 manat təşkil edirdi. Lakin kapitalizmin inkişafı nəticəsində kustar istehsal sahələri dağılır, iri istehsal sahələri tərəfindən udulurdu. Ancaq kustar istehsal hələ uzun müddət qalmaqda davam edirdi.

XIX əsrin II yarısı-XX əsrin əvvəllərində Tatarıstan güclənirdi. Torpaqların çox hissəsini, meşələri, suları ələ keçirən mülkədarlar, qolçomaqlar, din xadimləri quberniyanı idarə edən çar satrapları ilə birləşərək yerli xalqa ağır zülm edirdilər. Ümumrusiya bazarının genişlənməsi ilə əlaqədar kənd təsərrüfatı məhsullarına tələbat çoxalmışdı. Çoxlu kəndlilər torpaqsız qalmışdılar. Laişev qəzasında 8,8%, Kazan qəzasında 9,1%, Mamadışda 7,7%, Spasskidə 6,1%, Çistopolada 5,7% kəndli torpaqsız qalmışdı. Az miqdarda torpağa malik olan kəndlilərin bir hissəsi də, torpaq sahələri münbitsiz olduğuna görə heç nə becərə bilmirdilər. Məcburiyyət qarşısında qalan kasıb və ortabab kəndlilər qoçomaqlardan, mülkədarlardan və monastırlardan ən ağır şərtlərlə icarəyə torpaq sahələri götürüb becərirdilər. Bəzən də mülkədar və qolçomaqlardan böyük həcmdə torpaq sahələrini kənd cəmiyyətləri bütövlükdə icarəyə götürürdülər. Bunun müqabilində onlar sahibkar-mülkədarın torpağında haqqı ödənilmədən işləyir və becərdikləri məhsulun müəyyən hissəsini ona verirdilər. Bu cür iş formasına «işləyib ödəmə» deyirdilər.

Taxıl məhsulları kəndli ailəsinin illik azuqə tələbatını ödəmirdi və əksər vaxtlarda isə qış fəslinin ortasında ehtiyac taxıl da qurtarırdı. Ac qalan tatar kəndliləri qu quşları və eləcə də digər çöl quşları ilə

qidalanırdılar. Kəndlilər mülkədarlardan götürdükləri borc müqabilində onlardan tam asılı qalırdılar.

Kəndlilərin mal-qaralarının sayı ildən-ilə azalırdı. 1851-ci ildən 1871-ci ilə qədər keçən 20 illik bir müddətdə iri buynuzlu mal-qaranın sayı 97 min baş azalmışdı. Atsız kəndlilərin sayı ildən-ilə çoxalırdı. Kəndlilərin sahibkarlara borcları o qədər çoxalmışdı ki, onu heç vəchlə ödəmək mümkün deyidi. Məs; Kazan quberniyasının Zemstvo idarəsinin 1908-ci ildə tərtib olunmuş sənədində qeyd olunurdu: «Kəndlilərin borcları o dərəcədə idi ki, hətta onlar evlərini, bütün heyvanlarını belə satsalar da borclarını ödəyə bilməzdilər».

Torpaqları əllərindən çıxmış, borca düşmüş kəndlilər və yaxud orduya xidmətə gedirdilər. Şəhərlərdə onlar ən aşağı haqla zavod və fabriklərdə işləyirdilər. Araşdırmalara görə yalnız 1910-cu ildə Kazan quberniyasının kəndlilərindən 23 min kəndli qaçaraq şəhərlərə getmişdir.

Çarizm tatar kəndlilərinin qarşısını almaq üçün aşağıdakı üsullardan istifadə edir: kəndlinin oğlunu orduya aparmaq, üsyan qaldırdıqda isə onu qayda-qanuna tabe etmək, onların birgə mübarizəsinin qarşısını almaq üçün «milli ədavət» toxumundan istifadə etmək.

Çar hakimiyyəti Kazan quberniyasına özünün müstəmləkə koloniyası kimi baxırdı. Ona görə də burada yerli çar idarə orqanlarının özbaşınalığı baş alıb gedirdi.

Kənd təsərrüfatı üçün lazım olan əmək alətləri çox primitiv idi. 1910-cu ildə Kazan quberniyasında 235,7 min xış, 46 otbiçən maşın qeydə alınmışdı ki, onlar da yalnız mülkədar təsərrüfatlarında idi. Kombayn, traktor, avtomobil isə yox idi.

Mal-qara üçün baytarlıq xidməti aşağı səviyyədə idi. 1913-cü ildə

Kazan quberniyası üzrə 22 baytarlıq məntəqəsi, 35 feldşer sahəsi var idi.

XX əsrin əvvəllərində Tatarıstanda kapitalist sənayesi intensiv inkişaf edir, milli burjuaziya formalaşırdı. 1900-cu ildə 166 sənaye müəssisəsində 14 min nəfər fəhlə çalışırdı. Hər birində min nəfərdən çox fəhlənin çalışdığı 8 iri sənaye müəssisəsi var idi. «Alafuzovun fabrik-zavodlarının ticarət-sənaye cəmiyyəti»ndə 4 min fəhlə işləyirdi. Tatar milli burjuaziyası formalaşdıqca ictimai-siyasi proseslərə daha çox müdaxilə etməyə başlayırdı. Fəhlə hərəkatı güclənirdi. 1900-1904-cü illərdə Kazan quberniyasında 2 tətil baş vermişdi.

I Rus inqilabı öz təsirini Volqaboyu və Sibir xalqlarına da göstərmiş oldu. Çarizmin yeritdiyi milli müstəmləkə siyasətindən narazı qüvvələr: tatar burjuaziyası, fəhlələr, tələbələr, ziyalılar inqilabın fəal iştirakçılarına çevrildilər. Xüsusilə, 1905-ci il oktyabrın 19-21-də baş vermiş çıxışlar daha geniş xarakterli olub güclü sosial bazaya malik idi. Kəndli hərəkatı da yüksəlirdi. 1905-ci ilin dekabrında Tatarıstanda 30-dan çox kəndli çıxışı baş vermişdi.

1904-1905-ci illər Rus-Yapon müharibəsində Rusiyanın məğlubiyyəti imperiyanın Şərq siyasətinə də öz təsirini göstərdi. Təbii ki, ilk növbədə imperiya hüdudlarında yaşayan türk-müsəlman əhalisinə qarşı çevrilmiş bu siyasət həmin xalqların ziyalıları və siyasi qüvvələri arasında güclü əks-təsir doğurmaya bilməzdi. Artıq 1904-cü ilin sonlarından başlayaraq türk xalqlarının nümayəndələri özlərinin siyasi və mədəni hüquqlarının qəti şəkildə təsbit edilməsi ilə bağlı hökumətə daha təkidlə müraciət edirdilər. Lakin bu haqların əlavə olunması və qorunması, ilk növbədə siyasi bir partiyanın yaradılması ilə bağlı idi.

1905-ci il aprelin 8-də Peterburqda məşhur islam alimi qazi

Əbdürrəşid Ibrahimovun evinə toplanan qabaqcıl türk ziyalılarından Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əlibəy Hüseynzadə, Alim maqsud, Bünyamin Əhməd və başqaları müsəlmanların siyasi partiyasını yaratmaq qərarına gəldilər. Bir neçə gün sonra Peterburqa gələn «Tərcüman» qəzetinin redaktoru Ismayıl bəy Qaspirinski də həmin fikrə qoşuldu. Partiyanı şərti olaraq hələlik «Müsəlman Ittifaqı» adlandırmaq və onun ilk yığıncağını Nijni-Novqorod yarmarkası günlərində həmin şəhərdə keçirmək qərara alındı.

Təşəbbüs tezliklə Volqaboyundan tutmuş qazax çöllərinə qədər türklərin yaşadığı ərazilərdə böyük əks-səda verdi. 1905-ci ilin avqustunda Nijni-Novqorod yarmarkasının açıldığı günlərdə hər yerdən nümayəndələr gəldi. Onların arasında Ə.Ibrahimov, I.Qaspirinski, Yusif Akçara, Fatih Kərim, Seyid Girey Algin, din xadimlərindən Ə.Ibrahimov, Musa Cərullah Bikiyev, Abdulla Ananay, tatar milyonçularından Vəli Yunusov, Zakir Rəmiyev, Əhməd və Qəni Hüseynov qardaşları, mülkədarlardan Mirzə Tevkilov, Şah Heydar Sırtlanov və başqaları var idi.

Rusiya müsəlmanlarının I qurultayı avqustun 15-də «Qustav Struve» gəmisində gizli şəraitdə keçirildi. Qurultayda Rusiya müsəlmanlarının bir ittifaq yaratmaq ideyası qəbul edildi, lakin həmin «Ittifaq»ın siyasi partiyaya çevrilməsi prosesi başa çatdırılmadı.

Bu ideyanı 1906-cı ilin yanvarında keçirilmiş Rusiya müsəlmanlarının II qurultayı həyata keçirdi. Qurultay Peterburqda keçirildi və «Müsəlman Ittifaqı»nın nizamnaməsi və proqramı qəbul edilidi. Rusiya müsəlmanlarının III qurultayı 1906-cı il avqustun 16-23-də Nijni-Novqorodda keçirildi. Qurultay siyasi məsələlərdən çox,

mədəniyyət problemlərinə daha çox yer ayırdı.

Rusiya imperiyasında Stolıpin irticasının ardınca isə I Dünya müharibəsinin başlanması müsəlman qurultaylarının qərarlarının həyata keçirməyə imkan vermədi. Lakin əvvəlki dövrlərdə ölkənin siyasi həyatında müsəlmanların rolu nisbətən artmağa başladı. Fevral inqilabı Volqaboyu xalqlarının həyatında da böyük rol oynadı. Tatarlar, çuvaşlar, marilər və s. xalqlar istiqlal uğrunda mübarizəyə başladılar. Kazanda Vahidovun başçılıq etdiyi «Müsəlman sosialist komitəsi» adlı qurum yaradıldı.

Martın ortalarında II Dövlət Dumasının müsəlman fraksiyası Duma vəkili Əhməd Salihovun başçılığı altında «Rusiya müsəlmanlarının mərkəzi bürosu» yaradıldı. Həmin büroya bütün müsəlman cəmiyyətlərinin fəaliyyətini əlaqələndirmək, habelə Ümumrusiya müsəlmanlarının qurultayını hazırlamaq tapşırılmışdı. Büronun rəsmi orqanı kimi fəaliyyətə başlayan Rusiya müsəlmanlarının mərkəzi bürosunun «xəbərləri» türk siyasi qüvvələrini birləşdirmək sahəsində mühüm addım oldu. Büro qısa müddətdə 27 məhəlli milli təşkilatla əlaqə yaratmış, qurultayın 109 maddədən ibarət təklif və tədbirlər paketini hazırlamışdı.

### *§6 Başqırdlar*

Başqırdlar haqqında ilk tarixi məlumatlar IX-X əsrlərə aid ərəb mənbələrində verilir. Mənbələrdə onlar «başkorf» və ya «başqırd» kimi qeyd olunmuşdular. Başqırdlar Volqa Bulqar dövləti yaranandan sonra onlara tabe oldular. XIII əsrdən Başqırdlarda feodal münasibətləri yarandı. 1236-cı ildə Batu xanın monqol qoşunları Volqa-Bulqar

dövlətini süquta uğratdı, həmçinin Başqırdıstan torpaqları da onların işğalı altına düşdü. Başqırdlar Qızıl Ordaya xəz ilə yasaq (vergi) ödəyirdilər. Bundan başqa mal-qaranın sayının onda bir hissəsi də onlara verilirdi. XIV əsrdə Başqırdıstan ərazisi Qızıl Orda xanı Toxtamışla Əmir Teymur arasında döyüş (1391-ci ilə Gündüzcə döyüşü) meydanına çevrilmişdi. XI əsrdə Başqırdıstanın xeyli hissəsi Noqay Ordasının tərkibinə qatılmışdı. Uraldan şərqdə yaşayan başqırdlar isə əvvəlcə Sibir, sonra Qazan xanlığına tabe edilmişdi. Bununla da, Başqırd torpaqları dövlətlər arasında parçalanmışdı.

Əvvəllər başqırdların ictimai həyatında mühüm rol oynamış «yıyın» adlanan xalq yığıncağı daha çağrılmırdı. Indi Başqırd tayfalarını Noqay və Sibir (tatar) dövlətlərinin murzaları və tarxanları idarə edirdilər. XIV-XV əsrlərdə sinfi təbəqələşmə nəticəsində başqırdlarda iri «biy»lər (bəylər) meydana çıxmışdı ki, onlar da Sibir və Noqay xanlarının hakimlərinə qarşı mübarizəyə başlamışdı. 1552-ci ildə Qazan xanlığını ruslar işğal etdilər və başqırd tayfaları da onların təcavüzünə məruz qaldılar. Əvvəlcə başqırdların minq tayfası, 1556-cı ildə isə userqan, qıpçaq, burzan və başqaları da Rusiyanın tabeliyini qəbul etdilər. 1598-ci ildə ruslar Sibir xanlığının işğalını başa çatdırdılar və bununla da başqırd torpaqları da tamamilə rus dövlətinin tərkibinə qatıldı. Başqırdlar Rusiyaya yasaq formasında xəz və bal verirdilər. Rusiya Başqırd torpaqlarında daha da möhkəmlənmək üçün başqırd hakimlərini, tarxanlarını öz tərəfinə çəkir, eyni zamanda mərkəzdən bura rus ailələri köçürür və hərbi-strateji əhəmiyyətli şəhərlər salırdı. 1574-cü ildə Ufa şəhəri salındı və 1586-cı ildə isə inzibati mərkəzə çevrildi. Bundan sonra Başqırd torpağında Biysk, Çelyabinsk, Tabınsk və Orenburq şəhər-

qalaları tikildi. Bu şəhrlərdə Rusiyanın müxtəlif yerlərindən köçürülmüş əhalidən başqa rus əsgər və zabitləri də yerləşdirilirdi. Ufa şəhərində oturan rus voyevodası başqırdların hakimi sayılırdı. Ağır müstəmləkə rejimi ilə razılaşmayan başqırdlar üsyana qalxdılar. 1662-1664-cü illəri əhatə edən bu üsyanda çoxlu rus ailələri Başqırdıstandan qovulmuş, bir çox qəddar rus hakimləri öldürülmüşdü. Rusiya hökuməti böyük bir ordu yeritməklə bu üsyanı qəddarcasına yatırtmışdı. Başqırd üsyanları demək olar bütün XVIII əsr boyu müəyyən fasilələrlə davam etmişdir.

Başqırdıstanın Rusiyaya birləşdirilməsindən sonra Ufa şəhəri quruldu. Ufa şəhəri ətraf əraziləri ilə birlikdə Ufa uyezdində, XVIII əsrin başlanğıcından isə Ufa əyalətində birləşdirildi. Ufa əyalətinin tərkibinə Kazan qubeyrniyası, 1744-cü ildən isə Orenburq daxil edildi.

Başqırdların əraziləri XVIII əsrlərdən etibarən Uralın orta və cənub hissəsini, Bela və Kama çayları arasında yerləşən meşə-çöl və çöl zonalarını, Yaik çayının orta axarına qədər olan cənub hissəsini, habelə Yaikin orta axarının çöl zonarını əhatə edir. XVIII əsrin birinci yarısında Başqırdıstan 4 «yola» (inzibati dairə) bölünmüşdü. Mərkəz və cənub hissə (Başqırdıstanın)-Noqay yolu, qərb hissə-Kazan yolu, (Uralarxası şərq və) Cənubi Uralarxası torpaqların şərq hissəsi-Sibir yolu, Ufadan şimala uzanan nazik zolaq *Osin yolu* adlanırdı. Yollar isə öz növbəsində volostlara bölünmüşdü. XVIII əsrin ortalarında 42 volost qeydə alınmışdı. Volostlarda inzibati və polis hakimiyyəti başqırd starşinası və yüzbaşının ixtiyarında idi. Hər bir volostda əhalinin sayından asılı olaraq bir neçə starşina fəaliyyət göstərirdi. Başqırdıstan Rusiyanın milli tərkibinə görə ən çoxsaylı əyalətlərindən biri hesab olunur. Burada başqırdlardan savayı yüz minlərlə rus, tatar, çuvaş, mari, udmurt və s.

xalqlar yaşayırlar. Ufa voyevodası polkovnik Lyutkinanın 1744-cü ildə verdiyi məlumata görə «Başqırdıstanda həmin dövrdə 75 185 rus yaşayırdı.» Sonrakı illərdə bu ərazilərdə rus əhalisinin artması bura Mərkəzi Rusiyadan köçürülən rus kəndlilərinin və yeni yaradılmış dağ-mədən sənaye sahələrində işləyən işçilərin hesabına oldu. Başqırdıstanda şəhər əhalisi əsasən Ufada, Birskdə, Menzelində, Osda və s. yerlərdə yaşayırdılar. Bu şəhərlər sənətkarlıq-ticarət mərkəzi olmaqdan başqa, həm də rus hərbi xidmətçilərinin yerləşdiyi qəsəbələr hesab olunurdu. Birski şəhərində 700 mülkdən yarısı hərbi xidmətçilərin əlində idi. Menzelin şəhərində əhalinin əsas hissəsini *dvoryanlar* (zadəgan) və *kazaklar* təşkil edirdi. Ufada 160 mülkdən onlarla mülk Polşa şlyaxtaçılarına, yerdə qalan hissələr isə rus dvoryanlarına və yeni xristianlığı qəbul etmişlərə verilmişdi.

XVIII əsrin birinci yarısından başqırdlar köçəri-maldar təsərrüfatından əkinçiliyə və oturaq həyata keçməyə başladılar. Başqırdıstanın şimal və qərbində, belə ki, Osin və Kazan yolları əhatəsində olan torpaqlarda əhali tamamilə oturaq əkinçi-maldar təsərrüfatına keçmişdi. Başqırdıstanın cənub və şərqində-Noqay və Sibir yollarına aid olan ərazilərdə əhali 2 hissəyə ayrılmışdır. Həm maldarlıqla, həm də əkinçi-maldarlıqla məşğul olurdular.

Başqırdıstanın Sibir və Noqay «yollarında» çoxlu heyvanlar dəvə, at, inək və qoyun saxlayırdılar. Qış heyvanlar üçün çox ağır keçirdi. Çünki qış üçün quru ot tədarükü az görülürdü. Başqırdlar kəndlərində ancaq qışda yaşayırdılar, yayda onlar öz volostlarının ərazisi dairəsində köç edirdilər.

Əhali arasında arıçılıq və ovçuluq məşğuliyyəti geniş yayılmışdı.

Başqırdlar köçəri-maldarlıqla məşğul olmalarına baxmayaraq onların 10-15 həyətdən ibarət olan daimi kəndləri var idi. Çox nadir hallarda 50-100 həyətdən ibarət kəndlərə rast gəlmək olardı. Hər bir kənd yay vaxtı kiçik qruplara bölünərək öz volostları daxilində özləri üçün əvvəlcədən müəyyən olunmuş yerlərə köç edirdilər.

Azərbaycan kəndlərində də bu cür köçmə üsulları 70-ci illərin əvvəlinə qədər qalmışdı. Yaylaq yerlərinin əsas hissəsinin Ermənistan ərazisində yerləşməsi və sonrakı dövrlərdə Ermənistan rəhbərliyinin antitürk siyasəti nəticəsində yaylaq yerləri əldən çıxmış və köçmələr dayanmışdı.

XVIII əsrin birinci yarısında Kazan və Osin yollarında əkinçilik böyük sürətlə inkişaf etməyə başlamışdı. Bu faktı kunqur ərazilərinin burqomistiri Yuxnev də təsdiq edərək qeyd edir: «Onlar çoxlu taxıl biçir və Kazan yoluna aid olan Ufa əhalisini ərzaqla təmin edirlər. Onların yaxşı evləri və həyətləri var. Yay vaxtı əhalinin yarısı çölə köç edirlər. Onların istənilən qədər taxılı, at əti və başqa ərzaq məhsulları var.»

XVII əsrin 80-cı illərində Kazan və Osin yollarına aid olan Solikam bazarına satlıq taxıl çıxarılmasına başlanmışdı.

Ufa, Kama və Bela çayları ətrafında yaşayan başqırd kəndliləri əkinçilikdə böyük müvəffəqiyyət qazanmış, əldə etdikləri taxılı yaxınlıqdakı şəhərlərə, zavodlara və qalalara satmağa aparırdılar. Başqırdlarda sənaye istehsalı kənd təsərrüfatı ilə, xüsusilə də maldarlıq təsərrüfatı ilə bağlı idi. Dəri emalı və məmulatı hazırlanması evdarlıq xarakteri daşıyırdı. Ev şəraitində dəridən ayaqqabı, vedrə və müxtəlif qablar hazırlanırdı.

Başqırdlar arasında filiz işini bilən dəmiçilər çox idi. Silah və

dəmir emalı işləri ilə başqırdların məşğul olması qadağan olunsa da, ancaq onlar bu qanundan yan keçib, bu işlərini davam etdirirdilər. Lakin bütün bunlara baxmayaraq metallurgiya zəif inkişaf etmişdi. Ticarətdə dəyişmə üsuluna üstünlük verirdilər.

Başqırd bayları öz ölkəsindən kənara dəri, xəz, yun və heyvandarlıq məhsulları göndərirdi. Onların ticarəti Qərbi Sibirdəki Sibir yarmarkası vasitəsilə Orta Asiya və Kazan tacirləri ilə aparılırdı.

Başqırd əhalisi yaşamayan ərazilərdə əsas təsərrüfat sahəsi əkinçilik təsərrüfatı idi. Lakin udmurtlar, tatarlar, marilər, çuvaşlar hələ də yüngül xışdan istifadə edirdilər. Belə xışla işə torpağa üzdən, dayaz şumlanırdı. Bu isə məhsuldarlığa mənfi təsir göstərirdi.

XVIII əsrin 30-cu illərində Uraldan cənubda Başqırdıstanın mərkəzində I.K.Kirilovun Voskresenski mis emalı zavodu, 40-cı illərdə isə Simbirski taciri I.B.Tverdışın zavodları tikildi. XVIII əsrin 50-ci illərində Başqırdıstanda 28 zavod fəaliyyət göstərirdi. Ufadan cənub və cənub-qərbdə mis emalı zavodları, şərqdə isə dəmir filizi emalı zavodları yerləşmişdi. Zavodlara kəndlilər təhkim olunmuşdular və onlar ağır şəraitdə işləyirdilər.

Başqırd cəmiyyəti əsasən iki sinfə bölünmüşdü-feodal patriarxal əyanlar və sıravi icma üzvləri. Rus mənbələrində həmin feodal əyanlar-knyazlar, murzalar, tarxanlar, biylər və inzibati-idarə vəziyyətlərinə görə adlanan starşinalar və yüzbaşılar hesab olunurdu. Bu feodallar içərisində ən nüfuzlusu tarxanlar idi. Tarxanlar yasaq vermirdilər və oturaq-əkinçi və köçəri kəndlilər üzərində müstəsna hakimiyyətə malik idi. Tarxanlar öz hakimiyyətlərinin nüfuzundan istifadə edərək icma ərazisindən ən yaxşı münbit torpaqları və köç yerlərini ələ keçirib xüsusiləşdirirdilər.

Tarxanlar əsasən irsi və fərdi hissələrə bölünürdülər. Irsi tarxanlar əsas qruplar idi. «Fərdi tarxanlıq isə Başqırdıstan Rusiya tərəfindən işğal olunduqdan sonra Rusiya dövlətinə, qulluğa görə verilmişdi. Hər ikisi eyni hüquqa malik idilər.» Tarxanlar rus hökumətinə tabe olan hərbi və mülki-inzibati idarələrdə qulluq edirdilər. Inzibati idarə sistemində çalışan başqırd feodalları *starşina* adlanırdı. Starşina-tarxanlar yasaqdan azad idilər. Tarxan olmayan starşina-feodallar isə yasaq verirdilər. Starşinaların ağır zülmü xalqın narazılığına gətirib çıxarırdı və dövlət idarələrinə onlardan şikayət ərizələri verilirdi. 1756-cı ildə Katya-Tersat Volostunun kəndliləri starşina Dauta Enalinadan Orenburq quberniya dəftərxanasına şikayət etmişdilər. Elə həmin ildə onlar onun evini yandırmış və starşina vəzifəsindən getməsini tələb etmişdilər. Başqırdıstanda ən nüfuzlu qrupu rus xidmət adamları idi. 1736-cı ilin 11 fevralında verilmiş fərmana görə başqırd icma torpaqları satıla bilərdi. Bu fərmandan istifadə edən rus hərbi qulluqçuları çoxlu torpaqları ələ keçirdilər. Feodalın torpağında kəndli haqsız və muzdsuz səpin və yığım işləri ilə – «ome» feodala kömək adı altında işləyirdilər. Feodallar *saun* adlı mükəlləfiyyətdən geniş istifadə edirdilər. Sauna görə feodalın heyvanları kəndlilər arasında bölüşdürülüb saxlanılırdı. Heyvanlar ölər və itərdisə onun əvəzini kəndli verməli idi. Kəndli heyvanları saxlamağın əvəzi olaraq onların südündən və yunundan sərbəst istifadə edə bilərdi.

Icma torpaqlarının faktiki rəhbəri olan feodal icmadan buraxılmış kəndlilərdən icma torpaqlarından istifadə etməklə öz xeyri üçün istifadə edirdilər. Sərgərdan kəndlilər içərisində çoxlu başqırdlar var idi. Feodallar onları yığır, torpaqlarında işləməyə məcbur edir, sonra nəyisə bəhanə edib torpaqdan qovurdular. Kazan yollarının Kurşun volostunun

başqırdları 1741-ci ildə həmin volostun starşinası Şərif Mryakovdan şikayət ərizəsi yazmışdılar.

Mülkədarlar *«ispolu»* adlanan mükəlləfiyyətdən istifadə edirdilər. Belə ki, feodallar heyvanları olmayan kəndlilərə heyvan (at, qoyun, dəvə və s.) alıb verirdilər. Həmin kəndli feodala bunun müqabilində heyvanların balalarının yarısını verirdilər.

*«Yardarlıq»* deyilən mükəlləfiyyətə görə isə kəndli feodalın həyətində və təsərrüfatında 3 il ərzində bütün işlərini görməli, əvəzində isə məhsulun yarısını almalı idi. Lakin elə hesablanırdı ki, kəndli faktiki heç nəyin sahibi olmurdu.

Başqırd feodalları hərbi əsirləri də qul kimi öz təsərrüfatında işlədirdilər. Ancaq hərbi əsirləri onlar ən çox Orta Asiya tacirlərinə satmaqla daha çox qazanc götürürdülər.

Borclu başqırdların çoxusu borcunu verə bilmədiyinə görə feodalın təhkimlisinə çevrilirdi. Məsələn, 1737-ci ildə başqırd oğlanı Kibinyaş Imyasov və Mamblet Askarov, tatar gənci Arsbay Beskıbayev və çuvaş qızı Kulçuma Yanbeteva feodal Baryambika, Kusyumbetovdan 25 manat alıb borclarını qaytara bilmədik-lərinə görə həmin feodalın xolopuna çevrilmişdilər.

Ağır, kasıbçılıq şəraitində yaşayan başqırdlarda uşaq alıb-satılması geniş yayılmışdı. Yalnız 1737-ci ildə Ufa əyalətinin dəftərxanasında 36 belə hadisə qeydə alınmışdı.

Başqırd kəndliləri əsasən torpaqlarında qeydiyyatsız və şəraitsiz məskunlaşmışdılar. *Teptyarlar* isə əsasən buraxılmış boş torpaqlarda müəyyən şərtlər əsasında məskunlaşırdılar. Bu cür müqavilələr teptyarları torpağa bağlayırdı və oradan çıxıb gedə bilmirdilər. Çoxlu

teptyarlar icmaya daxil olub icma üzvləri ilə bərabərhüquqlu səviyyəsinə gəlib çatdı və çox vaxt onları «yeni başqırdlar» adlandırırdılar.

Başqırdıstanda rus zadəganları özlərinin mülk torpaqlarında əsasən təhkimli rus kəndlilərinin qüvvəsindən istifadə edirdilər. XVIII əsrin 30-cu illərindən etibarən isə Başqırdıstanda feodal təhkimçilik zülmü, müstəmləkə zülmü ilə birləşib xalqın vəziyyətii daha da dözülməz hala saldı.

XVIII əsrin birinci yarısında çar hökuməti müəyyən tədbirlər görürdü ki, başqırdlardan yasaq alsın. Bundan əlavə onlar sərhəd zonalarına xidmətə göndərilir, hərbi yürüşlərdə iştirak edir, icma torpaqlarını şəhər ətrafında məskunlaşmış rus xidmət adamları arasında bölüşdürülürdü. 1734-cü ildə başqırdlar üçün 2054 manat 78 qəpik səviyyəsində yasak müəyyənləşdirildi ki, bu da hər bir başqırd üçün 30 qəpik dəyərində vergi demək idi. Hər bir adamın yasak verdiyini göstərmək üçün qeydiyyat kitabı tərtib olunmuşdu. Yasaq əsasən xəz və bal məhsulları şəklində, sonralar isə pul formasında alınırdı. Pul əsasən xəzin qiymətilə ölçülüb götürülürdü. Məsələn, bir sincab dərisi 40 qəpik, tülkü dərisi 75 qəpik, bəbir dərisi-1,5 manat, 1 batman bal isə-1 manat səviyyəsində idi və bu dərəcədə də pul vergisi tələb olunurdu.

Başqırdlar da ruslar kimi ağır hərbi xidmət həyatı sürürdülər. Onlar Şimal müharibəsində isveçlilərə qarşı demək olar ki, bütün hərbi əməliyyatlarda iştirak etmişdilər. 1734-cü ildə Orenburq hərbi xəttinin yaradılmasından sonra başqırdların hərbi xidmətə cəlb olunması daha da gücləndi. Belə ki, hər il həmin qalanın gözətçiliyinə 1500 nəfər adam cəlb olunurdu. Ora gedən adamlar öz vəsaitləri hesabına at, silah, geyim və s. almalı idi. Bu xüsusilə sıravi icma üzvləri üçün çox ağır idi.

1734-cü ildəki məlumata görə teptyarlar və bobıllar 8506 manat 80 qəpik yasaq vermişdilər. Onlar bundan başqa 4 qəpik tüstü, 5 qəpik isə yam vergisi verirdilər. Bobıllardan alınan illik vergilər artaraq 20, 30, 50 və 60 qəpiyə çatmışdı. 1747-ci ildə teptyar və bobıllardan alınan vergi 33 765 manata çatdı. 1747-ci ildə başqırdlar üçün can vergisi 80 qəpiyə qaldırıldı ki, bu da illik can vergisini 14 403 manata gətirib çıxartdı.

Rus kəndlilərinin isə xəzinəyə verdikləri can vergisi 70 qəpik səviyyəsində idi. 40 qəpik isə məşğuliyyət sahəsindən verilirdi. Rus kəndliləri də başqırdlar kimi ağır mükəlləfiyyətlər yerinə yetirirdi - əsgər verir, dövlət və şəxsi zavodlarda işləyirdilər, müdafiə qalalarının qurulmasına cəlb olunurdular. Müdafiə qalaları və hərbi yolların çəkilməsi ağır bir yük kimi başqırd əhalisinin üzərinə düşürdü. Bu tikintilərin xüsusilə genişlənməsi 1730-cu illərə düşür. 1731-ci ildə Yeni Zakam hərbi yolunun çəkilməsi haqqında qərar verildi. 1732-ci ildə isə bu yolun inşasına başlanıldı. 1734-1744-cü illərdə isə Orenburq ekspedisiyasının fəaliyyəti genişləndi, onun qarşısında duran vəzifə qazax çöllərini iqtisadi və siyasi cəhətdən ələ keçirmək, Orta Asiya xanları ilə ticarət əlaqəsi yaradaraq Hindistana çıxmaq cəhdi idi. Orenburq ekspedisiyasının rəhbərliyi bu layihənin müəllifi və senatın ober-sekretarı I.K.Kirilova tapşırıldı. Onun köməkçisi isə gizli işlər üzrə xarici işlər Kollegiyasının tərcüməçisi A.I.Tevkelev oldu.

1734-cü ilin noyabr ayında Orenburq ekspedisiyası Ufaya gəldi. I.K.Kirillovun sərəncamı ilə ekspedisiya Penza, Voloyod və Ufa piyada batalyonlarına bölündü. Ekspedisiyada Ufa zadəgan və kazaklarının yarısı, habelə yaşı çatmamış Ufa, Menzelin və Bişski bölgələrinin gəncləri cəlb olunmuşdular. Bundan əlavə ekspedisiyasının tərkibində

başqırd tarxanları və mişarlar da var idi.

Orenburq hərbi xəttinin çəkilməsi, çar hakimiyyətinin getdikcə bu ərazilərdə möhkəmlənməsi, çoxlu torpaqların rus zadəganlarının əlinə keçməsi başqırd feodallarını narahat edirdi. Onlar kəndlilər üzərində hakimiyyətini və gəlirlərini heç kəslə bölüşdürmək istəmirdilər. Başqırd feodallarının böyük bir hissəsi isə Rus himayəsini qəbul etmək istəmirdilər. Ilk çıxışlar 1705-1711-ci illərdə baş vermişdi. 1704-cü ildə Mərkəzdən Başqırdıstana, əhali üzrinə yeni vergilər qoymaq məqsədilə I.Jixarev və M.Doxov adlı 2 nümayəndə göndərildi. Nümayəndələrin yeni qaydalarına qarşı kor-təbii hərəkat başlandı. Üsyana başqırd feodalları rəhbərlik edərək, ona mütəşəkkil xarakter verdilər. Başqırd feodalları Rus hakimiyyətini buradan birdəfəlik yox etmək məqsədilə Türkiyə sultanı və Krım xanlğı ilə əlaqə yaratdılar. Başqırdıstanın şimal-qərb torpaqlarının başqırd feodalları artıq çoxdan oturaq həyata keçərək, özlərinin iri malikanələrini yaratmışdılar. Onlar böyük rus imperiyasının tərkibində sakit yaşayırdılar və onlar bu hakimiyyəti hər hansı xan və sultan hakimiyyətinə dəyişmək istəmirdilər. Onlar çoxdan köçəri maldar təsərrüfatından uzaqlaşmışdılar. Məhz bu səbəblərə görə onların üsyanda iştirak etmək maraqları az idi və üsyana da qoşulmadılar. Üsyan Başqırdıstanın cənub və cənub-qərb ərazilərini bürüdü. Başqırd tatar feodalları, murzaları, din xadimləri üsyançılara qoşuldular. Lakin üsyanın geniş vüsət alması iri feodalları, din xadimlərinin ciddi narahatlığına səbəb oldu. Voyevod Xovinski iri feodalların və din xadimlərinin vasitəsilə üsaynın başçıları ilə əlaqəyə girdi. Bu zaman üsyançılar Kazanın yaxınlığına gəlib çıxmışdılar. Yaranmış təhlükədən qorxan iri feodallar və xüsusilə böyük nüfuz sahibi olan ruhanilər

üsyançılara xəyanət edərək rus qoşunlarının tərəfinə keçdilər. Üsyan çar qoşunları tərəfindən amansızcasına yatırıldı. Beləliklə, 1711-ci ildə silah gücünə ölkədə sakitlik yaradıldı.

1735-ci ildə yenidən başqırd feodalları üsyan qaldırdılar. Üsyana səbəb isə Başqırdıstan torpaqlarında Orenburq ekspedisiyasının fəaliyyətinin genişlənməsi idi. Belə ki, Orenburq və eləcə də digər qalaların salınması başqırd əhalisinin əkin torpaqlarının əllərindən alınması hesabına baş verirdi. Başqırdıstanın cənub-şərq çöllərinin feodalları öz köçəri təsərrüfatlarının – qalaların qurulması nəticəsində oturaq-əkinçi təsərrüfatı ilə əlaqəsinin kəsilməsindən narahat olurdular. 1735-1736-cı ildə, yəni üsyanın birinci mərhələsində məqsəd Başqırd torpağında hər hansı qalanın tikilməsinin qarşısını almaq idi. 1737-1740-cı illərdə üsyanın ikinci mərhələsində isə yenidən keçmiş proqramı həyata keçirmək məqsədi irəli sürüldü. Üsyana Sibir yolunun feodalları rəhbərlik edərək, Rus himayəsindən çıxmaq, köçəri-maldar xanlarından birini hakimiyyətə gətirmək istəyirdilər. 1740-cı ildə Sibir yolunun feodalları Qara Saqqalı (Karasakal) xan seçdilər. Hərəkat çar qoşunları tərəfindən amansızlıqla yatırıldı. Çar hökuməti 1735-ci il üsyanında iştirak etmiş şəxslər haqqında 1736-cı il 11 fevral qərarını verdi. Həmin qərara görə üsyan iştirakçılarına ən amansız cəzalar verildi. Üsyana kömək etmiş mişarlara və s. feodal təbəqələrinə ömürlük vergi ödəməmək şərti ilə torpaqlar verildi. Məsələn, starşina-200 çetvert, onun köməkçiləri olan yasaul və yüzbaşılar-100, sıravilər isə 50 çetvert torpaq sahəsi aldılar. Çar hökuməti yerlərdə hakimiyyətini möhkəmləndirmək məqsədi ilə yenidən qala və hərbi yolların tikintisini genişləndirdi. Sonralar isə rus xidmət adamlarına başqırd torpaqlarını almaq imkanı

verildi. Başqırdlara silah almaq, saxlamaq və dəmirçiliklə məşğul olmaq qadağan edilmişdi.

Çar hökuməti yerlərdə başqırd starşinalarının səlahiyyətlərini genişləndirdi. Yüzbaşılar starşinaların tabeliyinə verildi. Starşinalar ən mühüm məsələlər üçün ümumi volost əhalisinin yığıncağını çağırırdılar. 11 fevral 1736-cı il qanununa görə starşina vəzifəsində irsilik ləğv olundu, indi o seçilirdi. Starşina günahkara bədən cəzası verdirir, onu həbs və cərimə etdirə bilərdi. Qərara görə, hər bir yola bir nəfər axund təyin edilmişdi. Axund qərarsız yeni məscid və məktəb tikdirə bilməzdi. Yerli məhkəmələrin səlahiyyətləri tam məhdudlaşdırıldı. Torpaq mübahisələrinə, ağır cinayətlərə yalnız əyalət məhkəmələrində və dəftərxanalarında baxılırdı. Çar hökumətinin qanunları iri köçəri feodalların nüfuzuna böyük zərbə vurdu, ancaq taleyini çarizmlə bağlayan yerli idarəetmə orqanlarında işləyən oturaq feodalların nüfuzu və səlahiyyətləri genişləndirildi. Başqırd əhalisi yerli feodalların və çar zülmündən baş götürüb hələ də Başqırdıstanda əkilməmiş, istifadəsiz qalmış torpaqlara qaçırdılar.

1747-ci ildə teptyar-bobilların yerli feodalların və rus inzibati-idarələrinin zülmünə qarşı üsyan baş verdi. Belə kican vergisinin miqdarı 80 qəpiyə qalxmışdı.

14-15 iyul 1747-ci ildə Vaxmıstr Ivan Moiseyev Sibir yolunun Meleqes kəndində yeni can vergisinin qoyulması haqqında qərarı oxuyarkən teptyar və babillar bərk əsəbiləşərək onu və onunla gələn mirzə və yüzbaşıları döyüb kənddən qovmuşdular. Bu hadisədən sonra teptyar və babillar Ufa dəftərxanasına məktub göndərərək yeni vergiləri ödəməyəcəklərini bildirdilər. Hətta onlar çariçaya şikayət məktubu

hazırlıyaraq voyevododan onlara pasport verilməsini xahiş etdilər ki, bütün 4 yolun əhalisi «mərhəmətli» çarın yanına gedə bilsin. Osin yolunda hətta imperatriçanın yanına göndərilmək üçün mari sakini Nurki Borisovanı hazırladılar. Nurki Borisovna həmin ərazidə hərəkata rəhbərlik edirdi. Həyəcanlar haqqında məlumat alan Orenburq qubernatoru I.I.Neplyuev «hərbi şura» çağırıb həmin ərazilərə ordu göndərilməsini məsləhət bildi.

1747-ci ilin avqustunda Kazan yolunun mişarları da çıxışlara başlamışdılar. Birski rayonunda 400 silahlı mari toplaşmışdı. Mayor Kublitskinin rəhbərliyi ilə bura gələn hərbi qüvvələr üsaynı yatırtdı. Üsyançılardan çoxu öldürüldü, 70 nəfəri isə Tanıp çayında boğuldu. Çar orduları sürətlə hərəkət edərək üsaynçılara bilrəşməyi imkan verməyib ayrı-ayrı ərazilərdə üsyanları yatırtdılar.

1755-ci ildə başqırdlar yenidən Rusiyaya qarşı üsyan qaldırdılar. Bu üsyanın əsas səbəbi isə feodal zülmünün güclənməsi, rus hökumətinin əhalini zorla xristianlaşdırması və torpaqları müsadirə etmək siyasəti idi. Molla Batırma (Batır şah) Aleyev xalqı Rusiya hökumətinə tabe olmamağa, dinsiz rusların əmlakını məhv etməyə, məscid və məktəblər tikməyə çağırdı. O, bütün müsəlmanları: tatarları, qazaxları və özbəkləri Rusiyaya qarşı «müqəddəs müharibə»yə qoşulmağa dəvət edirdi. B.Aleyev Türkiyənin də yardımına böyük ümid bəsləyirdi.

Başqırd feodallarının da bir qismi üsyana qoşulmuşdu. Rusiya hökuməti Başqırdıstana 50 minlik ordu yeritdi. Üsyan yatırıldı. Üsyançıların çoxu Yaik çayından şərqə çəkildilər və Y.Puqaçovun başçılığı ilə kəndli üsyanı zamanı yenidən mübarizəyə başladılar.

1773-1775-ci illərdə Rusiya imperiyasının şərqində Y.Puqaçovun başçılığı ilə kəndli müharibəsi baş verdi. Feodal zülmünə qarşı təhkimli kəndlilərin, zavod fəhlələrinin, kazakların başladığı bu qüdrətli xalq hərəkatında Ural və Volqa-boyunun yerli xalqları da fəal iştirak edirdilər. Başqırdların üsyanına 20 yaşlı şair Salavat Yulayev və istedadlı sərkərdə Kinza Arslanoğlu başçılıq edirdi. Üsyançılar feodal malikanələrini və zavodlarını dağıdır, çar məmurlarını və pravoslav ruhanilərini məhv edirdilər.

1774-cü ilin yayında kəndli müharibəsi alovları Volqaboyuna yayıldı. Rus kəndliləri ilə yanaşı, tatar, çuvaş, udmurt, mani və kalmıklar da ayağa qalxdı. Kazanın tutulmasında Y.Puqaçovun üsyançı ordusuna Sadik Seyidovun və Idergey Baymekovun başçılıq etdiyi tatar dəstələri yaxından kömək etmişdilər. Üsyançılar hökumət qoşunları ilə döyüşdə ciddi itki verib Aşağı Volqaboyuna çəkildilər. Başqırdların çoxu öz vətənlərinə dönərək mübarizələrini davam etdirdilər. Yalnız 1775-ci ildə başqırd xalqının milli qəhrəmanı S.Yulayev ələ keçirildikdən sonra Rusiya Uralda üsyanları yatıra bildi. Üsyanın nəticələri aşağıdakı şərtlərlə qurtardı:

Kəndli müharibəsi iştirakçılarına amansız divan tutuldu. Üsyanda iştirak etmiş on minlərlə tatar, çuvaş, başqırd doğma torpaqlarından sürgün edildi. Hökumət tatarları və başqırdları xristianlaşdırmaq üçün tətbiq etdiyi qəddar metodlardan qismən imtina etməyə məcbur oldu. Tatarıstana və Başqırdıstana məscid tikilməsinə icazə verildi. 1785-ci ildə Ufada müsəlmanların dini idarəsi-miftilik yaradıldı. Quberniya və qəza idarələri ilə rus dilini bilməyən yerli əhali arasında vasitəçi-kaştan vəzifəsi təsis edildi. Kaştanlılar hökumət nümayəndəliyinə xalq

kütlələrinin şikayətlərini çatdırır, vergi və mükəlləfiyyətlərinin paylaşdırılması və s. işlərdə iştirak edirdilər.

## II FƏSIL
## KRIM XIII-XX ƏSRIN ƏVVƏLLƏRINDƏ

### *§1 Krım xanlığı*

Krım xanlığı Qara dənizin şimalında yerləşən Krım yarımadasında, Qızıl Orda dövlətinin parçalanmasından sonra yaranmış bir türk dövləti idi. Krım yarımadasında qədim zamanlardan da türk tayfaları yaşamışdı. Xüsusilə, türklərin bu əraziyə axınları XII əsrin birinci yarısındı daha da güclənmişdi. Krım xanlığının əhalisi xəzər, kuman, qıpçaq və oğuz türklərindən ibarət idi. Zaman keçdikcə bu tayfalar Krım türkləri adı altında birləşdilər.

Krımda iri feodallar yerli xanlara kömək etməklə Qızıl Ordanın itaətindən çıxmaq, müstəqilləşmək istəyirdilər. Krımda müstəqil dövlətin yaradılması Böyük Litva və Moskva knyazlarının da mənafeyinə uyğun idi. Onlar gələcəkdə Krım xanlığının qüvvələrindən Qızıl Ordaya qarşı istifadə etmək niyyətində idilər. XIV əsrin 80-90-cı illərində Krımın mərkəz və sahilboyu ərazilərində noqaylar, osmanlı türkləri köçüb məskunlaşdılar. 1427-ci ildə yerli bəylərdən olan Teymurtaş Böyük Litva knyazı Vitovtun köməyi ilə özünü xan elan etdi. Lakin Qiyasəddin adlı güclü bir bəy onu hakimiyyətdən saldı. Bu qarışıqlıqdan istifadə edən Qızıl Orda xanı Pulat yarımadaya hücum edib Qiyasəddini hakimiyyətdən kənarlaşdırdı və onun yerinə oğlu Hacı Gəray xanı qoydu. 1438-ci ildə Krım xanlığında Gəraylılar sülaləsinin əsası

qoyuldu. Xanlığın paytaxtı Baxçasaray şəhəri oldu. Hacı Gəray xan noqay və osmanlı türklərinin köməkliyi ilə bütün Krım yarımadasında yaşayan tayfa və xalqları öz hakimiyyəti altında birləşdirdi. Hacı Gəray xan Çölxat adlı yerdə baş vermiş döyüşdə Genuyalıları məğlub edib, onların əlində olan Kəfə ticarət faktoriyasını xərac verməyə məcbur etdi. Hacı Gəray xanın güclənməsini görən Qızıl Ordalılar xanlığın ərazisinə yürüş etdilər. Hacı Gəray xan məğlub olub hakimiyyətdən uzaqlaşdırıldı. Lakin Təxnə Nurzə adlı sərkərdə mübarizəni dayandırmadı və Qızıl Ordalıları xanlığın ərazisindən qovub çıxartdı. 1443-cü ildə Hacı Gəray xan yenidən hakimiyyətə gətirildi. 1466-cı ildə Hacı Gəray xan öldükdən sonra hakimiyyət uğrunda oğlanları Nurdövlət xanla Məngli Gəray arasında mübarizə başlandı. Geniyalıların köməyi ilə Nurdövlət xan hakimiyyətə gəlsə də, lakin əhali və yerli bəylər bu vəziyyətlə razılaşmadılar. Onlar Osmanlı dövlətindən kömək istədilər. 1475-ci ildə Osmanlı donanması Genuyalıların ixtiyarında olan Kəfə, Anapa, Sudak və digər qalaları ələ keçirdilər.1478-ci ildə Osmanlı sultanının fərmanı ilə Məngli Gəray (1478-1515) Krım xanı elan olundu. Krım xanlığı Osmanlı dövlətinin vassallığını qəbul etdikdən sonra Qara dəniz hövzəsi, o cümlədən Polşa və Macarıstanın bir çox vilayətləri osmanlıların nəzarəti altına düşdü.

1479-cu ildən başlayaraq Böyük Moskva knyazlığı Krım xanlığı ilə ittifaqa girdi. Moskva knyazı III Ivan bununla Litva knyazlığından, eləcə də Krım xanlığından gələn təhlükələrin qarşısını alırdı. Bundan əlavə Moskva tacirləri sərbəst surətdə Krımda öz ticarətlərini aparırdılar. Lakin vaxt keçdikcə Krım xanlığı güclənərək Moskva knyazlığı üçün də qorxu yaradırdı. Digər tərəfdən də Qızıl Orda süqut etdikdən sonra

Volqaboyunda yeni türk dövlətləri Kazan, Həştərxan xanlıqları yaranmışdı. Moskva knyazlığı isə Volqaboyu torpaqları işğal etmək istəyirdi. Bu əlbəttə ki, Krım xanlığının mənafeyinə uyğun deyildi. Məhz bu səbəblərə görə Rusiya dövləti ilə Krım xanlığı arasında 1783-cü ilə qədər davam edən mübarizə dövrü başlandı.

### *§2 Krım türkləri XVII-XIX əsrin birinci yarısında*

Krım yarımadası Qara dənizin şimalında yerləşir. Yarımada Qara Dəniz və Azov dənizi ilə əhatə olunur. Perekop bərzəxi vasitəsilə materikə birləşir. Krım coğrafi və strateji vəziyyətinə görə əlverişli bölgə olduğundan dünyanın bir çox ölkələri ilə iqtisadi-siyasi və mədəni əlaqələrin yaranmasında mühüm rol oynamışdı. Həm də burada bir çox ölkələrin mənafeyi toqquşurdu.

Məlum olduğu kimi, Krım xanlığı XVIII əsrin ikinci yarısında Türkiyədən asılı vəziyyətdə olmuşdu. Türklərin Krımda sahib olduğu, qoşunu idarə edən mərkəz və əsas qala «Kiçik Istanbul» adlandırdıqları Kafa idi. Osmanlı dövləti Krım xanlığının bütün iqtisadi və strateji əhəmiyyət kəsb edən məntəqələrində qalalar tikdirir və orada öz qoşun hissələrini saxlayırdı. Xanlığın ərazisi Krım yarımadası, Kuban diyarı, Azov və Qara dənizin Şimal ətrafı çölləri və Dunaya qədər olan yerləri əhatə edirdi. Krım xanlığı Türkiyənin köməyinə arxalanaraq ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək üçün bir sıra tədbirlər görmüşdü. Dnepr çayının aşağı axarında müdafiə cinahları, gözətçi məntəqələri təşkil edilmişdi. Türkiyədə olduğu kimi, Krım xanlığında da köçəri təsərrüfatların oturaq həyata köçmələri üçün torpaq sahələri ayrılırdı. Vergi sistemində edilən dəyişikliyə əsasən müəyyən güzəştlərə

gedilirdi. Yeni qəsəbələr və kəndlər salınır, məscidlər tikilirdi. Krımın ali müsəlman ruhaniləri Istanbulda təyin edilir və ya başqası ilə əvəz olunurdu. Bu sahədə əlaqələr daha geniş idi.

XVII əsr Krım xanlığının tarixində feodal dağınıqlığının artması ilə səciyyələnir. Krımın cənub hissəsində oturaq əkinçilik, yarımköçəri maldarlıq və ticarət, şimalında isə maldarlıq təsərrüfatı əsas yer tuturdu. 1657-ci ildə Krımda baş vermiş quraqlıq və qıtlıq onsuz da ağır vəziyyətdə yaşayan xalqın həyatını daha da pisləşdirdi. Aralıq dənizi vasitəsilə həyata keçirilən ticarət əlaqələri zəiflədiyinə görə Osmanlı xəzinəsinə axıb gedən gəlir də azalmışdı. Osmanlı imperiyasında başlanan tənəzzül prosesləri Krım xanlığı ilə əlaqələrə mənfi təsir göstərirdi. Krımın müstəqillik əldə etmək cəhdləri uğursuzluqla nəticələnirdi.

Krım xanlığının xarici siyasət xəttinə güclü təsir edən amillərdən biri də 1654-cü illərdə Ukrayna xalqının azadlıq mübarizəsi və mübarizənin nəticəsi olaraq 1654-cü ildə Pereyaslavl radasının Ukraynanın Rusiyaya qatılması haqqındakı qərarı idi. Krım xanlığı Rusiya və Ukraynaya qarşı Reç Pospolita ilə müqavilə bağladı.

XVII əsrin 60-70-ci illərində Osmanlı dövləti Rusiya və Polşa arasında münasibətlər kəskinləşmişdi. Ruslar 1677-1678-ci illərdə Çiqirin altında türk-tatar qoşunların hücumunun qarşısını ala bilmədi. 1681-ci ildə Türkiyə ilə Rusiya arasında Baxçasarayda bağlanmış sülh müqaviləsinə görə, Türkiyə solsahil Ukraynasının Rusiyaya keçdiyini qəbul etməli oldu. Lakin Rusiya 1686-cı ildə Avstriya, Reç Pospolita və Venesiyanın daxil olduğu «Müqəddəs birliyə» qoşuldu. Rusiya müttəfiqləri qarşısında vəzifəsini yerinə yetirərək 1687-ci ilin yayında

Krım xanlığına qarşı müharibəyə başladı. 1689-cu ilin hərbi əməliyyatlarında rus qoşunları məğlubiyyətə uğradıldı.

XVII əsrin sonunda Rusiyanın xarici siyasətində əsas vəzifə Krım yarımadasına sahib olmaq və Qara dənizə çıxış əldə etməkdən ibarət idi. Bu məqsədlə 1695-ci ilin yayında Qolovinin, Hefortun və Qordonun başçılığı ilə rus qoşunları Azov qalası üzərinə hücum etdilər. Hücum iki istiqamətdə, Volqa və Don çayları ilə Krıma doğru irəliləyərək Qazıkerman qalasını tuta bildilər. Lakin tatar qoşunları rus qoşunlarının arxa hissəsinə keçərək onların təchiz olunmasına imkan vermədi. Sentyabrın sonunda rus qoşunları böyük tələfat verərək geri çəkilməli oldular. I Pyotr yenidən hücuma keçmək üçün ciddi hazırlıqlar görməyə başladı. 25 min nəfərdən çox kəndli Voronejdə, Kozlovda, Dobruda, Sokolskda yeni donanmanın inşaatı üçün səfərbərliyə alındı.

1696-cı ilin yazında rus qoşunları yenidən hərbi əməliyyata başladı. Iyulun 18-də Azov qalası rusların əlinə keçdi. Qara dənizə çıxmaq üçün ciddi cəhdlər edildi. Lakin I Pyotrun bu cəhdləri də nəticəsiz oldu. Rus qoşunları türk-tatar qoşun-larının ciddi müqaviməti nəticəsində geri çəkilməyə məcbur oldular.

I Pyotr Türkiyəyə qarşı müharibənin ciddiliyini başa düşərək, ona qarşı Avropa dövlətlərinin koalisiyasını yaratmaq məqsədilə, «250 nəfərlik» elçilik heyətini Avropaya göndərdi. Elçilər heyəti Brandenburqa, Vyanaya, Ingiltərəyə, Danimarkaya, Niderlanda getməli, Venetsiyada olmalı, Qara dənizə çıxmaq üçün Türkiyə ilə müharibə məsələləri müzakirə olunmalı idi. Lakin Avropa dövlətləri Türkiyəyə qarşı mübarizədə Rusiya ilə müttəfiqliyə razılıq vermədilər. Lakin I Pyotr Vyanada olarkən Serbiyada türklərin əleyhinə olan qüvvələrlə

əlaqəyə girə bildilər.

Qara dənizə çıxmaq planını həyata keçirməyin mümkün olmadığını yəqin edən I Pyotr Baltik dənizinə çıxmağı ön plana çəkdi. Bu məqsədlə müharibə edəcək təqdirdə arxadan öz təhlükəsizliyini təmin etmək məqsədilə Türkiyə ilə danışıqlara başladı.

1700-cü il iyunun 13-də 30 illik müddətinə barışıq imzalandı.

Həmin barışığın şərtlərinə görə Azov qalası, onun ətraf əraziləri Rusiyaya verildi. Dneprətrafı müdafiə qala və istehkamları məhv edildi. Sülhün şərtləri Krım xanlığının siyasi mövqeyini xeyli zəiflətdi.

1704-cü ildə Səlim Gəray öldü. Sultanın razılığı və Krım xanlığının nüfuzlu bəylərinin köməyilə III Qazı Gəray hakimiyyət başına (1704-1707) gətirildi. Onun hökmranlığı dövründə Krım tatarları ilə noqaylar arasında siyasi ixtilaflar gücləndi. Noqay murzası Kutluq Teymur və Tart Mirzə Qazı Gərayın əleyhinə qiyam qaldırdılar. Türkiyənin köməyi ilə qiyam yatırıldı. Sultanın fərmanı ilə Dunay ətrafındakı torpaqlar Krım xanlığına qatıldı. 1706-cı ildə Məhəmməd paşa hakimiyyətdən uzaqlaşdırıldı. Onun yerinə Əli paşa keçdi. O, dostu Dövlət Gərayı hakimiyyət başına gətirmək üçün Qazı Gərayı Krım xanın taxtından uzaqlaşdırıldı. Lakin ölkədə olan vəziyyət Dövlət Gərayın hakimiyyət başına gətirilməsinə imkan vermədi. Hakimiyyət başına Qaplan Gəray (1707-1709) keçdi. O, ölkənin daxili vəziyyəti ilə bağlı bir sıra tədbirlər həyata keçirdi. Ağır vergilərdən təngə gəlib Beştaua qaçan kabardinlərə qarşı amansız tədbirlər görüldü. Bu tədbirlərin həyata keçirilməsində sultanın razılığı ilə Kafanın bəylərbəyi Murtuz paşa da iştirak edirdi. Kabardin dəstəsinin başçısı Kürçük bəy xanın yanına nümayəndə göndərərək vergiləri ödəməyə razı olduqlarını bildirdi. Belə

bir dövrdə çərkəzlərin silahlı qüvvələri hücuma keçərək tatarların silahlı dəstələrinə ağır zərbə vurdu. Qaplan bəy noqayların yanına qaçaraq xilas ola bildi. Beləliklə, Dövlət Gəray yenidən hakimiy-yət başına (1709-1713) gəldi. Belə bir şəraitdə Isveç kralı XII Karlın qoşunları Ukraynaya doğru hərəkət etdi. Dövlət Gəray Isveç kralına kömək etmək üçün cəhdlər göstərdi. Lakin sultanın tələbi ilə o, bu fikirdən daşındı.

1709-cu il iyunun sonunda Poltava şəhəri ətrafında isveç orduları I Pyotrun rəhbərlik etdiyi rus qoşunları tərəfindən ağır məğlubiyyətə uğradıldı. XII Karl Ukrayna getmanı Mozepa ilə birlikdə salamat qalmış qoşun hissələri ilə Türkiyə ərazisində gizləndi, I Pyotrun XII Karlın ölkədən çıxarılması tələbi Türkiyə sultanı tərəfindən rədd edildi. 1710-cu ildə I Pyotr Türkiyədən Azov qalasının yenidən geri qaytarılmasını tələb etdi. Serblərin, qaradağlıların, moldavların və valaxiyalıların Türkiyə əleyhinə üsyan qaldıracağına ümid edən I Pyotr 40 min nəfərlik ordu ilə Dunay sahilinə hücum etdi.

Lakin Balkan xalqlarını Türkiyə əleyhinə üsyana qaldırmaq mümkün olmadı. Türklərin 200 min nəfərlik silahlı qüvvələri rus qoşunlarını mühasirəyə ala bildi. 1711-ci ildə Krım tatarlarının süvari hissələri Ukrayna üzərinə hücum etdi. Prut çayı sahilində baş verən ağır döyüşlərdə rus qoşunları ağır vəziyyətə düşdü. Belə bir şəraitdə Vitse-kansler P.Şafirov Türkiyə vəziri ilə danışığa girərək iyulun 12-də sülh bağladı. Sülh aşağıdakı şərtləri nəzərə almaqla bağlandı.

1) Çar həzrətləri Azovu türklərə qaytaracaq, onun sahilində tikdirdiyi yeni istehkamları və qalaları uçurub dağıdacaqdır.

2) Öz donanmasını və dəniz qoşununu Voronejə çəkib aparacaq və Qara dənizə Voronejdən savayı, yaxın başqa bir limana malik

olmayacaqdır.

3) Kazaklara onların qədim istiqlaliyyətini, Polşaya isə işğal etdiyi Elbinq və başqa şəhərlərlə bərabər polyak Ukraynasını da qaytaracaqdır.

4) Polşanın müxtəlif  yerlərində olan polklarının hamısını çıxarıb aparacaq və gələcəkdə bunları heç bir bəhanə ilə və heç bir vəchlə nə özü, nə də öz generalları vasitəsilə yenidən Polşa torpaqlarına yeritməyəcəkdir.

5) Nəhayət, çar həzrətləri, Sultanın verdiyi keşikçilərin müşayiəti ilə Isveç kralına, öz ölkəsinə qayıtmasına və lazım gələn hallarda rus torpaqlarından, onun keçməsinə sərbəst imkan verəcəkdir. Həmçinin kralı Polşa torpaqlarından keçirərkən heç bir vəchlə narahat etməyəcək və eyni zamanda öhdəsinə götürür ki, həm kralın özünə,həm də onu müşayiət edən keşikçilərə qraşı Saksoniya kürfürstü Frederek-Avqustun hər cür düşmənçilik qəsdinə də mane olacaqdır.

Çar həzrətlərinin (I Pyotrun) şöhrəti üçün xeyli faydalı və lazımlı olan sülhün şərtləri belə idi. Sədri-əzəmə (vəzirə) bağlanmış 200 min çervonu da buna əlavə edək. (Sülhün şərtlərinin imzalanmasında və pulun vəzirə verilməsində iştirak etmiş fransız zabiti Moro-de-Brazenin xatirələrindən).

Belə bir siyasi şəraitdə Qaplan Gəray (1713-1716) yenidən hakimiyyət başına gəldi. Onun hakimiyyəti dövründə Krımda daxili çəkişmələr yenidən baş qaldırdı. Dövlət Gərayın oğlu Batu Gəray hakimiyyəti ələ almaq üçün çərkəzlərin köməyi ilə qiyam təşkil etdi. Qiyamda Nurəddin Bahadır və Noqay əmirləri də iştirak edirdilər. Qaplan Gəray  Menqilı Gərayın başçılığı ilə silahlı dəstə göndərdi və qiyam yatırıldı.

1716-cı ildə Türkiyə ilə Avstriya arasında baş verən döyüşlərdə Krım xanı Qaplan Gəray öz qoşunlarını vaxtında döyüşə yeridə bilmədiyinə görə türk qoşunları məğlub olub geri çəkildi. Döyüşdə osmanlı qoşunlarının başçısı vəzir Damad Əli paşa öldürüldü. Məhz buna görə Türkiyə sultanı Qaplan Gərayı hakimiyyətdən uzaqlaşdıraraq yerinə Səadət Gərayı (1724) gətirdi. Səadət Gəray türk qoşunlarının köməyi ilə vergi verməkdən imtina edən Çərkəzləri sakitləşdirdi. Lakin tezliklə 1724-cü ildə Menqili Gəray hakimiyyət (1724-1730) başına gəldi. O, ölkədən narazı qüvvələrin bir hissəsini Səadət Gərayın başçılığı ilə Türkiyə-Iran müharibəsinə göndərdi. Narazı qüvvələrin digər bir hissəsini isə çərkəzlərin üzərinə yeritdi. Menqli Gəray vergiləri qismən azaltmaqla, xalq içərisində nüfuzunu qaldırdı. Din xadimlərinə əmək haqqı verilməsi barədə də tədbirlər gördü. Lakin bütün bu tədbirlərə baxmayaraq 1730-cu ildə Qaplan Gəray onu hakimiyyətdən salıb, yerinə keçdi.

XVIII əsrin ikinci rübündə Rusiyanın xarici siyasətində I Pyotrun ənənələri davam etdirildi. Rusiya Qara dənizə çıxmaq uğrunda Türkiyə və Krım xanlığı ilə mübarizə aparırdı. Eyni zamandaXəzər dənizinə çıxmağa, onun ətraf torpaqlarını da ələ keçirməyə cəhd edilirdi. 1722-1735-ci illərdə Xəzər ətrafı ərazilər Rusiyanın işğalı altında idi.

1733-1735-ci illərdə Polşa varisliyi uğrunda mübarizə zamanı Fransa Qərbdə Rusiyanın mövqeyini zəiflətmək məqsədilə cənub sərhədlərinə də onun üçün rus-Türkiyə münasibətini qızışdırmaq cəhdləri istənilən nəticəni vermədi, çünki bu vaxt Türkiyə Iranla uğursuz müharibə aparırdı. Eyni zamanda Osmanlı imperiyasının daxilində də ciddi çəkişmələr gedirdi. 1735-ci ildə rus-türk müharibəsi başlandı. Krım

tatarlarının Azərbaycana göndərilən 20 minlik silahlı dəstəsinin Rusiyanın sərhədlərini pozması müharibə üçün bəhanə oldu. Lakin Krım xanının yürüşü Şirvan bəylərbəyi Əmir xanın qoşunları tərəfindən dəf edilmişdi. Rusiya ilə Türkiyə arasında hərbi əməliyyatlar 1735-ci ilin payızında başladı. General Leontyev başda olmaqla 40 minlik rus qoşunu Perekopa doğru hərəkət etdi. Dunay hövzəsi uğrunda Türkiyə ilə toqquşan Avstriya Rusiyanın müttəfiqi idi. Krım tatarları da vassal kimi Türkiyə tərəfindən müharibədə iştirak edirdi.

Baş komandan Minixinin başçılığı altında aparılan bu müharibə iki istiqamətdə genişləndirildi. Bir tərəfdən Podoliya və Bessarabiya sərhədlərini keçərək Türkiyənin Xotın qalasını ələ keçirə bildilər, digər tərəfdən isə rus qoşunları Perekopa keçərək Krım yarımadasına daxil oldular. 1736-cı ildə rus qoşunları Baxça-sarayı tuta bildilər. Vəziyyətin ağırlığını görən sultan cəbhəyə yeni qüvvə göndərdi. Minix Iran əyalətlərindən qayıdan tatar silahlı dəstələri tərfindən darmadağın ediləcəyini hiss edərək dərhal Krımdan geri çəkilməyə başladı. Rus ordusu geri çəkilərkən böyük itki verdi. Lakin onlar Azov ətrafındakı döyüşlərdə təşəbbüsü ələ ala bildilər. 1736-cı ilin yayında qala rus qoşunlarının əlinə keçdi.

Rusiya 1737-ci ilin döyüş kompaniyasını Avstriya ilə birlikdə keçirdi. Sayca çox olan rus qoşunları on beş min nəfərlik tatar qoşununu məğlub edərək Oçaqov qalasını tuta bildilər. Lakin rus qoşunları həlledici döyüşə girməyə cəsarət etmədilər. 1737-ci ilin yayında Nemirov konqresində sülh danışıqları başlandı. Lakin aparılan danışıqlar baş tutmadı. Hərbi əməliyyatlar yenidən başlandı. Türk-tatar qoşunları məğlub olub geri çəkilməyə başladı. Avstriya qoşunları dalbadal bir neçə

dəfə məğlub oldular. 1739-cu ildə avqust ayında Avstriya Türkiyə ilə separat sülh bağladı. Həmin ilin sentyabr ayında Belqradda Türkiyə ilə Rusiya arasında sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə qalanın hərbi istehkamları sökülməli idi. Bundan əlavə, Dneprin orta axarı boyunca sağ-sahil Ukraynasının kiçik bir ərazisi də Rusiyaya verildi. Şimali Qafqazda Böyük və Kiçik Kabarda habelə Azovdan cənuba doğru olan ərazi iki dövlət arasında sədd hesab olundu. Dörd illik ağır müharibəyə baxmayaraq, Rusiya Qara dənizə çıxa bilmədi.

XVIII əsrin 60-cı illərinin sonundan Rusiya ilə Polşa ilə uzun sürən müharibəyə başladı. Bundan istifadə edən Türkiyə 1768-cı ildə Rusiyaya müharibə elan etdi. Döyüş cəbhəsi Qafqazdan Dunaya qədər geniş bir ərazini əhatə edirdi. Türkiyənin tərəfindən çıxış edən tatar qoşunları Girey xanın başçılığı ilə cənubi rus torpaqlarına aramsız basqınları daavm etdirirdilər. Krım xanlığının taleyi 1770-ci ilin iyulunda Zarqa və Kaqul çayları yaxınlığında baş vermiş döyüşlərdə həll olundu. Qara dənizdə, Dunay çayında təşəbbüs rus donanmasının əlinə keçmişdi. Rus donanması 1770-c ilin iyulunda Çeşmə buxtasındakı döyüşdə təşəbbüsü ələ alaraq qalib gəldi. 1771-ci ildə əsas hərbi əməliyyatlar Krım istiqamətinə yönəldildi. V.M.Dolqorukovun başçılıq etdiyi ordu Krımı ələ keçirdi. 1774-cü il iyulun 10-da Kiçik Qaynarca kəndində sülh müqaviləsi imzalandı. Krım xanlığı müstəqil elan olundu. Lakin 1782-ci ilin mayında baş vermiş üsyan zamanı Şahin Gireyin hakimiyyətdən getməsi və Türkiyənin tərəfdarı olan şəxsin hakimiyyətə gəlməsi tələbi irəli sürüldü. Xanlıqda «qayda» yaratmaq üçün qoşun hissələri işə qarışdı. Faktiki olaraq, Krım Rusiyanın protektoratlığı altına keçdi. Krım xanı hakimiyyətdən əl çəkdi. 1783-cü il aprelin 8-də Krım xanlığının

Rusiyanın tərkibinə qatılması haqqında manifest elan olundu.

1787-ci ildə Türkiyə iri Avropa dövlətlərinin təhriki ilə Rusiyaya qarşı müharibəyə başladı. Fokşan, Rımnik və Ismayıl qalası döyüşlərində ruslar qələbə çaldılar. Qara dənizdə böyük itkiyə məruz qalan Türkiyə 1791-ci ildə Yassıda sülh müqaviləsi imzalamağa məcbur oldu. cənubi Ukrayna və Krım torpaqları qəti olaraq Rusiyanın tərkibinə qatıldı. XIX əsrin birinci yarısına qədər Rusiya ilə aparılan müharibələr də (1806-1812), (1828-1829), (1853-1856) bir nəticə vermədi. Türkiyə bir daha Krımı Rusiyanın əlindən geri ala bilmədi.

### *§3 Krım XIX əsrin II yarısı-XX əsrin əvvəlləri*

XIX əsrin II yarısında Rusiyada kapitalist ukladı qələbə çaldı və kapitalist əsasları üzərində ölkədə iqtisadi inkişaf başlandı. Xüsusilə ölkədə kapitalizmin sürətli inkişafına təhkimçilik hüququnun ləğv olunması güclü təsir göstərmişdi. 1861-ci ildən sonra Rusiya Avropanın əsrlərlə keçdiyi kapitalizmə o sürətlə daxil oldu. Belə ki, ölkədə kapitalizmin inkişaf mərhələsini göstərən bir neçə faktlar bunu sübut edə bilər: dəmiryol xətlərinin çəkilişi 1861-ci ildən 1895-ci ilə qədər 23 dəfə genişlənmişdi. Əgər dəmiryollarının uzunluğu 1861-ci ildə 1500 verst olduğu halda, 1895-ci ildə isə 3400 verst olmuşdu. Çay gəmiçiliyi 6, dəniz gəmiçiliyi isə 7 dəfə artmışdı. Daxili və xarici ticarət nisbətən genişlənmişdi. Xarici bazarlara taxıl ixracatı 5,5 dəfəyə qədər qalxmışdı. 1860-1890-cı illər ərzində kömür çıxarılması 20 dəfə yüksəlmişdi. Yeni sənaye sahələri olan neft və maşınqayırma sahələri inkişaf edirdi. Krım yarımadası kapitalizmin inkişaf tempinə görə ölkənin digər ərazi və əyalətləri içərisində birinci yerdə gedirdi. Bunun birinci səbəbi Krım

kəndlərində təhkimçilik qanunlarının işləməməsi, ikinci, Krım kəndlərində hələ çox-çox əvvəllər islahata qədər geniş surətdə əmtəə-pul münasibətlərinin inkişaf etməsi. Hansı ki, kənd təsərrüfatı sahələri məs; üzümçülük, bağçılıq, qoyunçuluq özündə kapitalist xarakterini əks etdirən sənaye üsuluna keçmişdilər. Üçüncüsü, Krıma mərkəzi quberniyalardan çoxlu miqdarda əhali və xüsusilə də kənd təsərrüfatı fəhlələri axışıb gəlirdi. Dördüncüsü, Krımın iqtisadi iqtisadi inkişafında böyük rol oynamış, hansı ki, 1875-ci ildə tikintisi başa çatdırılan Lozova-Sevastopol dəmir yolu idi. Bu dəmiryolu yarımadanın ölkənin sənaye mərkəzləri ilə əlaqəsini yaratmış, kənd təsərrüfatı məhsullarını daxili bazara daşınmasını asanlaşdırmışdı.

Krımın əhalisi. XIX əsrin I yarısında, xüsusilə də Krım müharibəsindən sonra yarımadada fəhlə qüvvəsi azlıq təşkil edirdi. Yarımadanın çöllük rayonlarında əhali az məskunlaşmışdı. Belə ki, Perekop qəzasında 40 desyatin (torpaqda-bir ailə), Yevpatoriya qəzasında 30 desyatin, Feodosiya qəzasında 18 desyatin, Simferopolda 11 desyatin, Yaltada 6 desyatin torpaq ərazilərinin hər birində bir ailə yaşayırdı.

Krım yarımadasının şəhər və kəndlərində yaşayan əhalinin ümumi sayı1865-ci il məlumatına görə 194000 təşkil edirdi. Bunlardan 5/2 hissəsi şəhərlərdə, 5/3 hissəsi isə kəndlərdə yaşayırdı. Ancaq XIX əsrin 60-cı illərinin sonlarından etibarən isə Krımın əhalisi sürətlə artmağa başladı. Belə ki, 1865-ci ildən 1897-ci ilə qədər əhalinin sayı 3 dəfə artdı. 194000 mindən 547000-ə çatdı. 1897-ci ildə şəhər əhalisinin ümumi sayı yarımadanın bütöv əhalisinin 41,9%-ni təşkil edirdi. Krım yarımadasının şəhərlərində əhalinin artım tempi Rusiyanın digər şəhərlərinə nisbətən

çoz yüksək idi. Belə ki, 1863-1897-ci illərdə Rusiyanın 34 şəhərində əhalinin artımı 97% təşkil etdiyi halda, Krım yarımdasının 32 şəhərində bu artım 190% olmuşdu.

Ümumiyyətlə Krımın şəhərlərindəki əhalinin artımı hətta artımından da yüksək idi. Məs; Rusiyanın mərkəz ərazilərindəki şəhər əhalisinin artımı 1851-ci ildə 7,8%, 1897-ci ildə 13% təşkil etdiyi halda, Krımda 1850-ci ildə şəhər əhalisi 27%, 1897-ci ildə iəs 41,9% olmuşdur. Krımda əhalinin yüksək templə artmasının ən başlıca səbəbi bu ərazidə kapitalizmin sürətlə inkişafı idi. Krımın münbit, əhalisi az olan torpaqlarına Rusiyanın Kursk, Orlovsk, Poltava və digər mərkəz rayonlarından çoxlu miqdarda əhali kütləsi axışıb gəlməyə başladı. Krıma ruslardan əlavə almanlar, yunanlar, ermənilər, bolqarlar, polyaklar, çexlər və s. xalqlar da köçüb gəldilər. Beləliklə Krımın əhalisi öz milli tərkibinə görə rəngarəng oldu. Çar hökuməti köçüb gələnlərə bərabər münasibət bəsləmirdi. Hökumət alman kolonistlərinə xüsusi diqqət yetirirdi. Belə ki, hər bir alman ailəsi 65 desyatin torpaq aldı və hökumətin bütün güzəştlərindən (vergilərdən və hərbi xidmətdən azad olmaq, əlverişli şərtlərlə kredit almaq) istifadə etdilər. Yerdə qalan gəlmə qeyri-rus əhali kütlələrinə də az-çox yardım göstərildi. Bu gəlmə əhali kütləsi Rusiyanın Krımda mürtəce dayağına çevrildi. Onsuz da az olan yerli əhali tamamilə sıxışdırıldı.

Sənaye sahələri-XIX əsrin II yarısında Krımın inkişaf etmiş sənayesi böyük müvəffəqiyyətlər əldə etdi. Kapitalizmin inkişafı nəticəsində yeni fabriklər, zavodlar yarandı, köhnə istehsal sahələri genişləndi, fəhlələrin sayı artdı. Krım sənayesi yerli məhsulların hesabına fəaliyyət göstərirdi. Öndə gedən sənaye sahələri isə konserv zavodları, tütün fabriki və un-

çörək kombinatları idi. XX əsrin başlanğıcında Krımda ən böyük zavod Kerç metallurgiya zavodu idi. 1900-cu ildə Simferopolda 40-dan çox sənaye müəssisəsi var idi. Az-çox iri müəssisələr 4 iri konserv zavodu və tütün fabriki hesab olunurdu. Yerdə qalan müəssisələr isə kustar tipli və hərəsində 5-10 muzdlu fəhlə çalışan kiçik istehsal sahələri idi: dəyirmanlar, 2 pivə zavodu, dəri emalı zavodu, çuqun-yayma zavodu, sabunbişirmə zavodu və s. Sevastopolda nisbətən iri müəssisə gəmi təmiri emalatxanası hesab olunurdu. Bu emalatxana isə fərdi auksioner cəmiyyəti olan «Rusiya gəmiçiliyi və ticarəti cəmiyyəti»nin idi. Bu auksioner cəmiyyəti hansı ki, 1859-cu ildə yaradılmışdı ki, artıq XIX əsrin sonlarında Qara dənizdə, bütünlüklə, rus ticarətini öz əlində cəmləmişdi. Hətta liman şəhərlərinin hər birində bu cəmiyyətin ticarət idarələri, gəmi təmiri və gəmi quraşdırma müəssisələri var idi ki, hansı ki, burada paraxodlar, hətta iri hərbi gəmilər düzəldilirdi. Şəhərlərdə və müəssisələrdən əlavə nisbətən iri dəyirmanlar da işləyirdi, hansı ki, onların məhsulları eksporta göndərilirdi. Kerçdə 1901-ci ildə əsas sənaye sahələrindən biri dəmir filizi çıxarma müəssisəsi idi. 1899-cu ildə Kerç dəmir filizinin sürətli inkişafının bir neçə səbəbləri var idi. Birinci- 1899-cu ildə Kerçdə yeni metallurgiya zavodu tikildi, hansı ki, 1901-ci il böhranı nəticəsində bağlandı. İkincisi, Kerç filizini 1900-cu ildən başlayaraq, dəmiryolu vasitəsilə daşımağa başladılar ki, Kerç Lozova-Sevastopol baş dəmiryol xəttinə birləşdirilmişdi. Bundan başqa həmin dövrdə lazımi qədər böyük müəssisə Mesarsudinin tütün fabriki var idi. O həm də balıq istehsalı ilə də məşğul olurdu. Feodosiyada iri müəssisə Stambolinin tütün fabriki və Eynemin konserv kombinatı hesab olunurdu. Yevpatoriyada, Baxçasarayda və Krımın digər sahələrində iri

sənaye müəssisələri yox idi. Ancaq çox da böyük olmayan kustar tipli emalatxana və fabrikciklər var idi. Məs; 1900-cu ildə Yaltada 40-a qədər cırtdan (xırda) müəssisələr qeydə alınmışdı.

XIX əsrin 70-ci illərinə qədər Krımda ən iri yerli duz sənayesi tuturdu. Lakin Ukraynada daş duzun çıxarılması ilə Krımda duz sənayesi bağlandı. Sənaye üsulu ilə çıxarılan duz XIX əsrin 90-cı illərində 19 milyon puddan 26 milyon puda qalxmışdı. Krımın iqtisadi inkişafına güclü təsir göstərən amillərdən biri də dəmiryolunun çəkilişi olmuşdu. 1874-cü ildə Lozova-Simferopol dəmir yolunun çəkilişi başa çatdırıldı və 1874-cü il iyun ayının 2-də ilk qatar Simferopol stansiyasına daxil oldu. 1875-ci ildə isə dəmiryol xətti Sevastopola qədər uzadıldı. 1892-ci ildə Çanqayadan Feodosiyaya, 1900-cu ildə isə Vladislav-Kerç dəmiryol xətlərinin çəkilişi başa çatdırıldı. Dəmiryol xətlərinin çəkilməsi Krımın sənayesinə, xüsusilə də kənd təsərrüfatının kapitalist yönümündə inkişafına güclü təsir göstərdi, baxmayaraq ki, Krımda sənaye sahələri inkişaf edirdi, ancaq hələlik kənd təsərrüfatı əsas iqtisadi tərəf olaraq qalırdı.

Kənd təsərrüfatı-Krımda əkinçiliyin inkişafı təhkimçilik hüququnun ləğvinə qədər işçi qüvvəsinin çatışmamasına gbrə dayanmışdı və bazarlarda çoxlu miqdarda kənd təsərrüfatı məhsulları görünmürdü. Təhkimçiliyin ləğvindən və dəmiryol xəttinin çəkilməsindən sonra bu maneə aradan götürüldü. Hər il  Rusiyanın mərkəzi rayonlarından minlərlə mövsümi işçilər gəlirdilər. Beləliklə kənd təsərrüfatı çoxlu miqdarda ucuz işçi qüvvəsilə təmin olundu. Ümumiyyətlə Krımda kapitalizm böyük sürətlə getməyə başladı.

XX əsrin əvvəlindən Krımda əkinçilik təsərrüfatı tamamilə kapitalist

relsi üzərinə keçirildi. Xüsusilə Krımın çöllük ərazilərində ciddi dəyişikliklər baş verdi. Buradakı torpaq sahibkarları bazar üçün münasib olan tarla işləri ilə məşğul olmağa başladılar və çox vaxt torpağa onlar üçün daha əlverişli olan taxıl əkirdilər, qoyunçuluq təsərrüfatı ilə isə az məşğul olurdular. Taxılçılıq təsərrüfatı Krım çöllərindən qoyunçuluğu sıxışdırıb çıxarırdı. XIX əsrin 60-cı illərindən başlayaraq qoyunların sayı kəskin surətdə aşağı düşməyə başladı. 1866-1880-ci illər ərzində qoyunların sayı 2 360 mindən 138 minə qədər azalmışdı. Qoyunçuluq təsərrüfatının azalması taxılçılıq üçün yeni sahələrin çoxalmasına gətirib çıxartdı. XIX əsrin 80-ci illərindən etibarən əkin sahələri xüsusilə genişlənməyə başlamışdı. Belə ki, 35 il müddətində Krımda əkin sahələri 20 400-dən 84 900 desyatinə qədər artmışdı. Taxıl məhsulları əmtəə xarakterli idi və yalnız bazar üçün istehsal olunurdu. Belə ki, satış üçün nəzərdə tutulmuş taxılın daşınmasına görə Tavritski quberniyası Samara quberniyasından sonra ikinci yeri tuturdu. Məs; Samara quberniyasında hər bir adama düşən taxılın miqdarı 15,94 pud olduğu halda, Tavritski quberniyasında 15,31 pud, Avropa Rusiyasında isə 2,33 pud olmuşdu. Çox saylı mülkədar-zadəgan və varlı qolçomaq təsərrüfatları yarımadanın düzən torpaqlarında yerləşmişdi və muzdlu əməkdən geniş surətdə istifadə olunurdu. Bir-biri ilə rəqabət aparan mülkədar və qolçomaqlar öz təsərüffatlarında əmək məhsuldarlığını artırmaq üçün yeni kənd təsərüffatı maşınlarından istifadə edirdilər.

XIX əsrin sonlarına yaxın satış üçün əsas rol oynayan taxıl məhsulları qoyunçuluğu sıxışdıraraq daha çox əmtəə xarakterli olan üzümçülük, bağçılıq və s. kənd təsərrüfatı sahələrinə güclü təsir göstərdi. Krım müharibəsinin gedişində Sevastopolda, Belbeydə, Qaçində və

Almin vadisindəki üzüm bağları məhv edilmişdi. Bununla da üzümçülüyə ağır zərbə vurulmuşdu. Bundan əlavə üzüm bağları 70-ci illərə qədər pis becərildiyinə görə boş sahələrə çevrilmişdi. 70-ci illərdən sonra üzümçülüyə diqqət verildi. Belə ki, 80-ci illərin ortalarında üzüm sahələri 5 482 desyatin, 1892-ci ildə isə 6 662 desyatinə çatmışdı. Üzümçülüyün inkişafına dəmir yolu güclü təsir göstərirdi. Məs; üzümü Mərkəzi Rusiyanın bazarlarıa təzə halda çatdırmaq üçün ancaq dəmiryolları əlverişli idi. 80-ci illərdə 24 min pud üzüm Rusiyanın mərkəzi şəhərlərinə daşınmışdı. Üzümçülük öz növbəsində çaxırçəkmə sənayesinin yaranmasına gətirib çıxartdı. Bu sahə ilə məşğul olan sənaye və ticarət firmaları: Qurzufedə Qubonin, Aluştavada Tokmakova, Molotkova, Kasteldə Tayurilərin, Ayı-davda Xristoforanın iri çaxır zavodları fəaliyyəti göstərirdi. XIX əsrin 90-cı illərində ümumi üzüm çaxırının emalı dəyəri 3000000 manat olan 2000000 vedrə olmuşdu. Böyük üzüm sahələri sənaye Ticarət- Sənayenin inkişafı və xüsusilə də ticarət-sənaye əkinçiliyinin inkişafı öz növbəsində ticarətin inkişafına əsaslı təsir göstərirdi. Simferopol, Kerç, Yevpotoriya və başqa şəhərlər Krımın iri ticarət mərkəzlərinə çevrildilər. 1900-cu ildə Simferopolda 650 ticarət müəssisəsi (mağaza, lavka və s.). Bu müəssisələrin ticarət gövriyyəsi 10 milyon manat təşkil edirdi. Burada ən çox satılan məhsullar-çaxır və təzə meyvələr idi. Ən iri ticarət mərkəzi Yevpatoriyada yerləşirdi. XIX əsrin sonunda burada illik dövriyyəsi 8 milyon manat təşkil edən 350 ticarət müəssisəsi işləyirdi. Baxçasarayda, Qarasubazarda və eləcə də digər məntəqələrdəki bazarlar öz həcminə görə balaca idi.

XIX əsrin axırıncı onilliklərində Krımdan mərkəzi quberniyalara

meyvələr, çaxır, tütün, konserv məhsulları və balıq daşınırdı. Kerç yarımadasından su və dəmir yolu vasitəsilə Ukraynaya böyük miqdarda duz və dəmir filizi göndərilirdi. Daxili bazarın genişlənməsi öz növbəsində xarici ticarətin artmasına gətirib çıxartdı, belə ki, xarici ticarət əlaqələri Krımın 2 başlıca dəniz limanları olan –Sevastopol və Feodosiya vasitəsilə həyata keçirilirdi. 1886-cı ildə xarici ticarət dövriyyəsi bu iki liman vasitəsilə 2 799 940 manat təşkil etmişdi.

XIX əsrin 80-ci illərində orta illik ticarət dövriyyəsi 18 milyon 700 min olmuşdu. XIX əsrin sonlarında isə orta illik ticarət dövriyyəsi 24 milyona çatdı. Həmi limanlar vasitəsilə yalnız Krımın malları deyil, eyni zamanda Rusiyanın digər rayonlarından gətirilən mallar da, xüsusilə də Ukraynanın Tavritski quberniyasından gətirilən taxıl məhsulları da ixrac olunurdu. Beləliklə Krımın bu iki şəhəri beynəlxalq dəniz limanı rolunu oynamağa başlayırdı. 1886-cı ildə sərhəddən kənara bu iki liman vasitəsilə 2 200 000 pud taxıl, 80-ci illərdə 17 milyon pud, XIX əsrin sonlarında isə 25 milyon taxıl ixrac olunmuşdu. Sevastopol, Feodosiya limanlarından başqa, Yevpotoriya və Kerç limanları vasitəsilə də az miqdarda mallar ixrac olunurdu. Beləliklə, Krım limanları vasitəsilə ticarətin genişlənməsi nəticəsində 1875-1887-ci illərdə gömrükdən gələn gəlir 6 dəfə artmışdı.

Əhalinin vəziyyəti-kapitalizmin inkişafı nəticəsində Krımın şəhərlərində və kəndlərində muzdlu işçilərin-fəhlələrin sayı sürətlə artırdı. Krımda proletariatın sayı ancaq gəlmə fəhlələrin və kəndlilərin hesabına çoxalırdı. Belə ki, hər il on minlərlə ac, yoxsul kəndlilər, piyada iş axtarmaq üçün Krıma gəlirdilər. Həmin kəndlilər burada yeni yaradılmış fabrik və zavodlarda, mülkədar və qolçomaq təsərrüfatlarında

muzdla işləyirdilər. Lakin onların çoxusu geri qayıtmır, burada daimi yaşayışçıya çevrilirdilər.

Həmin sənaye müəssisələrində geniş miqyasda qadın və uşaq əməyindən istifadə olunurdu, xüsusilə də tütün fabriklərində və konserv zavodlarında. 1900-cu ildə konserv zavodunda 51% qadın, tütün fabrikində isə 43% qadın fəhlələr işləyirdilər. Uşaq əməyi ən çox tütün fabriklərində tətbiq olunurdu. Belə ki, siqaret doldurmaq müəssisəsində fəhlələrin 78%-ni uşaqlar təşkil edirdi. Istehsal müəssisələrində fəhlələr üçün heç bir şərait yaradılmamışdı.

Kəndlərdə batrakların işi çox ağır idi. Mövsümi üsulla işləyən batrakların əməyindən ən çox alman kolonistləri və xutor qolçomaqları istifadə edirdilər. Mövsümi batrakların işi tütün plantasiyalarında xüsusilə ağır idi. Hətta həmin dövrün mətbuatı da tütün plantasiyalarında işləyən fəhlələrin ağır vəziyyətindən yazırdı. Batraklar əsasən kartof və buğdadan hazırlanmış kaşa şorbasına («sahibkar xarçası») işləyirdilər.

Ukraynanın mərkəzi quberniyalarından on minlərlə kəndli hər il Krımın kənd təsərrüfatı işlərində işləmək ümidi ilə gəlirdilər. Xüsusi «muzdur» bazarları meydana gəlmişdi. Tavritski quberniyasının Kaxovka qəsəbəsinə 40 min batrak iş almaq ümidi ilə toplaşmışdılar. Kaxovkadan başqa, Canka, Taqanaş kimi iri-iri muzdur bazarları da yaranmışdı. Batraklarla bağlanan müqavilələr yalnız şifahi olurdu və əksər hallarda onların muzdu ancaq «sahibkar xarçası» olurdu. Mövsümi fəhlələr bir neçə dərəcəyə bölünürdü: 1) Kənd təsərrüfatı işlərinin bütün növlərində işləməyi bacaran tam fəhlələr; 2) 3-4 nəfərdən ibarət və bütün işləri bacaran 20 yaşına qədər gənclər; 3) qadınlar və zəif yarım fəhlə işçilər; 4) 8 yaşıdan 14-16 yaşına qədər olan və yarım fəhlə sayılan

uşaqlar. Uşaqlar yalnız «xarçi»yə görə işləyirdilər və heç bir muzd almırdılar. Fəhlələrin əmək haqları məhsulun bol və az olmasından da çox asılı idi. Çünki sahibkar ona uyğun işçilərin əmək haqlarını qaldırır və azaldırdı.

XIX əsrin sonlarında Krımın çoxlu sayda kəndliləri torpaqsız qalmışdı. Torpaqsız qalan kəndlilər ya iş dalınca şəhərlərə gedir, ya da şərtlərlə mülkədar və qolçomaqlardan torpaq icarəyə götürürdülər. Icarə sistemi Krımda çox inkişaf etmişdi. Belə ki, 1887-ci ildə burada 300 000 desyatin torpaq icarəyə verilmişdi. Icarə müqavilələri şifahi bağlandığına görə sahibkar onu istədiyi vaxt qova bilərdi. Icarədarların vəziyyəti muzdla işləyən batrakların vəziyyətindən pis idi. Beləliklə Rusiyada kapitalizm əhalinin ən ağır formada istismarı hesabına inkişaf edirdi.

## *§4 Krım XX əsrin əvvəllərində*

XX əsrin əvvəllərində baş verən inqilabi hərəkatın təsiri Krımda özünü göstərirdi. 1900-cu ildə Simferopolda ilk sosial-demokrat təşkilatı yarandı. 1901-1902-ci illərdə isə Sevastopolda, Kerçdə, Yaltada sosial-demokrat təşkilatları yaradıldı. 1903-cü ildə isə RSDFP-nin Krım Ittifaqı yaradıldı. Bütün Krım təşkilatlarını birləşdirən bu ittifaqın mərkəzi Simferopol idi. Bu dövrdə həmçinin Qara dəniz hərbi donanma matrosları içərisində də sosial-demokrat təşkilatları yaranırdı.

1901-ci ildə Krımda ilk dəfə olaraq sosial-demokratlar tərəfindən 1 may nümayişi keçirildi. 1903-1904-cü illərdə Krımda inqilabi hərəkat sürətlə inkişaf edirdi. 1903-cü ilin yayında Feodosiyada, 1903-cü ilin 11 avqustunda Buxstava və Zolotarevin çuqunəritmə zavodlarında tətillər baş vermişdi.

1904-cü ildə ilk dəfə olaraq Qara dəniz donanmasının matrosları üsyan etdilər. Üsyana səbəb isə matrosların şəhərə gəzintiyə buraxılmaması idi. Lakin komandanlıq üsyanı yatırda bildi (3 noyabr 1904-cü il).

1905-ci ilin 9 yanvarında Peterburqda baş verən qanlı hadisə Krımda güclü əks-sədaya səbəb oldu. 1905-ci ilin 17 yanvarında Malaxov Kurqanı (Sevastopol) yanında 300 nəfərin iştirakı ilə 9 yanvar hadisəsinə etiraz əlaməti olaraq yığıncaq keçirildi. Həmin yığıncaqda ümumi siyasi tətilə başlamaq və 3 noyabr 1904-cü il hadisəsində həbs olunmuş matrosların azad olunması məsələsi qoyuldu.

1905-ci ildə Sevastopolda Inkerman dağı ətrafında keçirilən 1 may nümayişi çox saylı idi və polislərlə toqquşma nəticəsində 400 nəfər həbs olunmuşdu.

1905-ci ildə Krımda inqilabi hərəkatın mərkəzi Sevastopola keçmişdi və bu hərəkatın əsas hərəkətverici qüvvələri isə Qara dəniz hərbi donanmasının matrosları idi. Hərbi gəmilərdə və sahil ekipajlarında inqilabi hərəkata «Matros mərkəzi» adlı təşkilat rəhbərlik edirdi.

7 iyunda Sevastopolda qala əsgərləri üsyan qaldırdılar. Komandanlıq «II Yekaterina» gəmisinin matroslarına üsyançılara atəş açmaq əmri versə də, ancaq onlar bundan boyun qaçırtdılar. Lakin tezliklə 1905-ci il iyunun 14-də «Patyomkin» hərbi gəmisində (Odessada) baş verən silahlı üsyan Rus inqilabi hərəkatında böyük bir hadisə oldu. Üsyana səbəb iylənmiş və qurdlamış ətdən bişirilmiş yeməkdən matrosların imtina etməsi oldu. Gəmi üsyançı matrosların ixtiyarına keçdi. Üsyana rəhbərlik etmək üçün Matyuşenkonun rəhbərliyi ilə «Gəmi komissiyası» yaradıldı. Çar komandanlığı üsyançı gəmiyə qarşı bütün Qara dəniz hərbi

donanmasını səfərbər etdi. Lakin «Potyomkin» gəmisinə yaxınlaşan hərbi gəmilərdən heç biri atəş açmadı. Məcbur olan komandanlıq hərbi gəmiləri geri qaytardı. Beləliklə, iyunun 14-dən 25-nə qədər «Potyomkin» hərbi gəmisi qırmızı bayraq altında Qara dənizdə üzərək çar hakim dairələrini qorxuya saldı. Lakin digər Qara dəniz hərbi gəmilərinin onlara qoşulmadığını görən, kömürsüz və ərzaqsız qalan gəmi Rumıniya hökumətinə tabe oldu.

1905-ci il noyabrın 8-də Sevastopolda «Oçaqov» kreyserində üsyan qalxdı. Matroslar Sergey Çaştnikin rəhbərliyi ilə deputatlar komitəsi seçdilər. Üsyançıların tərəfinə 5 min matrosu birləşdirən 12 hərbi gəmi keçmişdi. 1905-ci il noyabrın 13-də deputatlar soveti bütün inqilabi gəmilərin komandanı kimi leytenant Q.Q.Şmidti təsdiq etdi. Lakin bütün Qara dəniz hərbi donanmasının gəmiləri onlara qoşulmamışdı lar. Bundan istifadə edən çar generalı Meller-Zakomelski üsyanı yatırtdı (15 noyabrda). Üsyanın rəhbərləri leytenant Şmidt, Antonenko, Çastnik, Qladkov və başqaları güllələndilər.

1905-ci il inqilabı Krımın kəndlərinə də güclü təsir göstərmişdi. 1905-ci ilin aprelində Yevpatoriya qəzasının Kunan kəndində qraf Vorontsovun və mülkədar Popovun torpaqları kəndlilər tərəfindən özbaşına tutulmuşdu. Feodosiya qəzasının Kaperlik kəndli üsyanı xüsusilə güclü idi. Burada kəndlilər tərəfindən mülkədar Marzaka Çelebiyevin ələ keçirilmiş torpaqları 1905-1908-ci ilin qışına qədər onların əlində qaldı. Kəndli həyəcanları, demək olar ki, bütün Krım ərazisini bürümüşdü.

## *§5 1917-ci il Fevral inqilabından əvvəl iqtisadi vəziyyət*

XX əsrin əvvəlində baş vermiş dünya iqtisadi böhranı Krımın yerli sənayesinə az toxundu. Yarımadanın sənayesi XX əsrin birinci on beş ili müddətində xeyli inkişaf etmişdi. Artıq bir neçə sənaye müəssisələri yaradılmışdı. Sənaye müəssisələri (irili və xırdalı) yarımadanın hər yerinə səpələnmişdi. Belə ki, 1914-cü ildə Simferopolda 1317 fəhləsi olan 34 müəssisə, Feodosiyada 1569 fəhləni birləşdirən 22 müəssisə, Yevpatoriyada 196 fəhləsi işləyən 25 müəssisə, Baxçasarayda 32 fəhləsi olan 17 müəssisə və s. qeydə alınmışdı. Ümumilikdə isə 8 şəhərdə 3 249 fəhləsi olan 148 sənaye müəssisəsi işləyirdi. Sevastopol və Kerç şəhərləri Krımın başqa şəhərlərindən müəyyən əlamətlərə görə seçilirdilər. Belə ki, Kerçin metallurgiya zavodlarında işləyən fəhlələrin sayı (4 250) digər 8 şəhərin zavodların fəhlələrinin sayından çox idi. Sevastopolda da həmçinin tərkibində mindən çox fəhləsi olan iri müəssisələr fəaliyyət göstərirdi. Burada ən iri müəssisə hərbi liman emalatxanası idi. 1913-cü ildə 3000-dən çox fəhlə duz istehsalı, yüzlərlə fəhlə isə daş karxanalarında məşğul idilər. 1913-1914-cü illərdə Krımda fəhlələrin ümumi sayı 16-18 min nəfər idi. Bu saya həmçinin mövsümi fəhlələri də aid etmək olar. Çünki Krımın sənayesi onun kənd təsərrüfatı ilə qarşılıqlı əlaqədə idi. Hətta çoxlu miqdarda müəssisələr (konserv, unüyütmə, duz istehsalı) kənd yerlərində fəaliyyət göstərirdilər. Belə ki, 1914-cü ildə Krımın kənd ərazlərində 452 müəssisə (1915 fəhləsi olan) qeydə alınmışdır. Məs; Simferopol qəzasında 1914-cü ildə 597 fəhləsi olan 109 müəssisə olmuşdu.

Müəssisələrin şəhərlərdə çoxluq təşkil etdiyini nəzərə alsaq, onda şəhərlərdə hər bir müəssisəyə 22 nəfər fəhlə, kənd müəssisələrinə isə 4

fəhlə düşürdü. Sənaye şəhəri olan Simferopolda 1914-cü ildə 34 müəssisəsində 1 317 fəhlə işləyirdi. Bütün bu faktlar göstərir ki, istər sahələrdə, istərsə də kəndlərdə çox da böyük olmayan xırda müəssisələr işləyirdi. I Dünya müharibəsi (1914-1918) dövründə müharibə tələbatına uyğun yeni müəssisələr yaradılırdı. Məs; Simferopolda və Qarasubazarda 1 500 nəfərdən çox işçisi olan aeroplan (təyyarə) zavodları qurulmuşdu. Bununla əlaqədar, bəzi müəssisələr bağlanmış və yaxud (həcmini kiçiltmişdi) fəhlələrinin sayını azaltmışdı. Belə ki, duz sənayesi öz fəhlələrinin 3/1-ni azaltmışdı. Ən çox kərpic istehsal edən müəssisələr ixtisara düşmüşdü. Krımda sənaye müəssisələrinin inkişafına baxmayaraq, kənd təsərrüfatı sahəsi ondan irəlidə gedirdi. Kənd təsərrüfatında isə birinci yeri əkinçilik sahəsi tutur. Krımda sahələri 1913-cü ildə 664 074 desyatin olduğu halda, 1917-ci ildə 696 636 desyatin olmuşdu. Bu əkin sahələrinin yarısından çoxunda buğda, 3/1 hissəsində arpa, 14%-ə qədərində darı və digər dənli bitkilər əkilirdi. Məhsul bol olduğu illərdə Krımdan 8 milyon puddan çox buğda məhsulu daşınmışdı. Maldarlıq təsərrüfatı, qoyunçuluq sahəsini çıxmaqla, yalnız müəyyən tələbat xarakteri daşıyırdı.

Bundan əlavə 1914-cü ilə qədər Krımdan hər il 2 500 at və digər qoşqu heyvanları aparılırdı. Krımdan eyni zamanda ət məhsulları məqsədilə də heyvanlar daşınırdı. Məs; 1913-cü ildə Krımdan bu məqsəd üçün 20 000 baş heyvan aparılmışdı. Əvvəllər Krımın iqtisadiyyatında başlıca yer tutan qoyunçuluq öz əhəmiyyətini itirmişdi. 1917-ci ilin məlumatına görə Krımda 52 6000 baş qoyun olmuşdu.

Krımın xarakterik xüsusiyyətlərindən biri onun çox millətli olması idi. Yarımadanın əhalisi bir-birindən sayına, dilinə, mədəniyyətinə görə

fərqlənirdi və müxtəlif mədəni inkişaf səviyyələrində dururdular. Məs; qarağayımlar adlanan milli qrup, özünün keçmiş adət-ənənəsinə, dini-patriarxal münasibətlərinə bağlanaraq, qapalı halda yaşayırdılar. Əhalinin 4/1 hissəsini təşkil edən Krım tatarları da özlərinin milli və dini adət-ənənələrini saxlayaraq, əsasən kəndlərdə yaşayırdılar. Şəhərlərdə yaşayan tatarlar isə əsasən ticarətlə məşğuldur, prikaz xidmətlərində işləyirdilər.

Milli qruplar içərisində erməni və yunanlar özlərinin xarici vətəndaşlıqlarını saxlayaraq, sərhəddən kənar əlaqələrini qoruyub gücləndirirdilər. Alman-kolonistləri formal olaraq Rusiyanın vətəndaşı sayılmalarına baxmayaraq, özlərini hələ də Almaniyanın buradakı nümayəndələri hesab edirdilər. Belə ki, onlar uşaqlarını təhsil almaq üçün Almaniyaya göndərir, kənd təsərrüfatı məhsullarını Almaniyaya göndərir, oradan isə kənd təsərrüfatı maşınları gətirirdilər. II Dünya müharibəsi dövründə bu alman koloniyaları 5-ci koloniya adlanırdı və onların tərkibindən çoxlu alman kəşfiyyatçıları hazırlanırdı. Milli qruplar və xalqlar arasında ziddiyyət var idi. Xüsusilə də müxtəlif millətlərə məxsus burjuaziya arasında rəqabətdən doğan ziddiyyətlər kəskinləşirdi. Krımda bütün gildiyalardan olan tacirlərin sayı 4 936-a qədər idi. Milliyyətinə görə onlar belə bölünürdülər: rus və ukrayna tacirləri-32,8%, yəhudilər-26,2%, tatarlar-19,7%, ermənilər-10,6%, yunanlar-4,6%, almanlar-2,6% və digərləri-3,5% səviyyəsində idi. Yəhudilər, ermənilər və yunanlar ticarətdə böyük faiz təşkil edirdilər. Əhalinin yarıdan çoxunu təşkil edən ruslar, ukraynalılar arasında isə bu faiz 32,,8% idi. Tatarlar arasında isə bu faiz olduqca aşağı idi.

# III FƏSIL
# SIBIR XIII-XX ƏSRIN ƏVVƏLLƏRINDƏ

## *§1 Sibir xanlığı*

Qızıl Orda dövlətinin dağılması ərəfəsində Ural dağlarından şərqdə, Irtış çayına qədər olan geniş bir ərazidə Sibir türk dövləti formalaşmışdı. Şərq mənbələrində də ərazi Sibir, yaxıd Ibir adlanmaqla XIII-XIV əsrlərdə Qızıl Ordanın, sonrakı tarixlərdə isə Şeybanilər dövlətinin və Tümen xanlığının idarəçiliyində olmuşdu. Bu ərazidə toplaşmış çoxlu sayda türk tayfaları-özbəklər, qarluqlar, xantilər, mansilər, noqaylar, qıpçaqlar, arqinlər, başqırdlar, qazaxlar və s. tayfalar əsasən Tobol, Tura, Irtış və Ob çaylarının hövzələrində yaşayırdılar. Bu tayfaların qaynayıb-qarışması nəticəsində vahid Sibir xalqı formalaşırdı.

Sibir xanlığının mərkəzi Tümen şəhəri idi. XV əsrin II yarısında Sibir xanlığında hakimiyyət uğrunda gedən mübarizə XV əsrin sonlarında noqayların köməyi ilə Ibak xanın (Ibrahim) hakimiyyətə gəlməsi ilə nəticələndi. Ibak xan Sibir xanlığının əsasını qoyan şəxs hesab olunur. Qabiliyyətli bir şəxs hesab olan Ibak xanlığı siyasi cəhətdən çox gücləndirdi. Ibak xan xarici siyasətində – Krım, Kazan xanlıqları Moskva knyazlığı ilə münasibətlərində qarşılıqlı iqtisadi əlaqələrə xüsusi əhəmiyyət verirdi. 1495-ci ildə Ibak xan yerli feodalların hakimiyyət uğrunda mübarizəsinin qurbanı oldu. Feodal ara müharibələrindən qalibiyyətlə çıxan (Taybuğa nəslindən) Məhəmməd xan türk uluslarını siyasi cəhətdən birləşdirərək hakimiyyətə gəldi. O, paytaxtı Sibir (Kaşlık) şəhərinə köçürdüyünə görə bu vaxtdan etibarən xanlıq Sibir xanlığı adlandırıldı. Lakin tezliklə Sibir xanlığında feodal

ara müharibələri başlandı. Rusların isə Volqaboyu ərazisinə işğalçı yürüşləri baş verdi. Nəticədə Kazan, Həştərxan xanlıqları, Noqay Ordusu süqut etdi. Rus drujinaları Şərqə (Sibirə) istiqamət götürdülər. 1555-ci ildə Taybuğa nəslindən olan Sibir xanı Yadigar Moskvadan vassal asılılığını qəbul edərək, bac alaraq hər il min ədəd Samur dərisi verməyi öhdəsinə götürdü. 1563-cü ildə iri feodal əyanlarından olan Kuçum Naqay Ordasının hakimlərinə arxalanaraq Sibir xanlığına hücum etdi. O, Yadigar və Bəypuladı öldürərək hakimiyyətə gəldi. Kuçum özbək və noqaylardan təşkil olunmuş qüvvəlri ilə tatar, xanti, mansi hakimlərinin çıxışlarını yatırtdı. Lakin xanlıqda feodal ara müharibələri sakitləşmədi. Ruslar bundan istifadə edərək öz işğalçı qüvvələrini Qərbi Sibir ərazisinə göndərirdilər. Sibirdə ticarətlə məşğul olan Straqanovlar qardaşları da rusların Sibir işğalına maliyyə cəhətdən köməklik göstərirdilər. 1581-1584-cü ildə rus kazak quldurbaşçısı Yermakın Sibir xanlığı ərazisinə yürüşü başlansa da, lakin 1584-cü ildə Kuçum xan tərəfindən məğlub edildi, özü isə öldürüldü.

1598-ci ildə rus orduları Sibir xanlığının ərazilərini işğal etdilər. 1600-cü ildə Sibir xanlığına son qoyuldu. Lakin Kuçumun oğlanları 1665-ci ilə qədər partizan müharibəsi aparsalar da, rus işğallarının qarşısını ala  bilmədilər. Sibir xanlığının iqtisadiyyatında xəz dəri, balıqçılıq, arıçılıq təsərrüfatları əsas yer tuturdu. Mərkəzi Asiyadan Şərqi Avropaya gedən ticarət yolları Sibirdən keçirdi. Tümen, Sibir (Kaşlek), Qızıl Tura, Qasım Tura, Yavlu Tura kimi şəhərləri var idi. XVI əsrdən etibarən feodal münasibətləri yaranmağa başladı. Sibirin əhalisi xana yasaq verən «qara camaata» və yasaqdan azad olan bəylərə və murzalara bölünürdü. Sibir əhalisində şamançılıq mövcud olsa da, ancaq XVI əsrdə

onlarda Islam dini qəbul edildi.

### *§2 Rusiyanın Sibirdə ekspansiyası (XVII-XVIII əsrdə)*

XVII əsr ərzində Rusiya dövləti Uraldan Sakit okeana qədər olan geniş Sibir torpaqlarını işğal etdi.

1696-cı ildə Anadırdan Kamçatka istiqamətində ekspedisiya təşkil olunması haqqında layihə hazırlandı. 1697-1699-cu illərdə Vladimir Atlasovun ekspedisiyası Kamçatkanı ələ keçirdi. Atlasov Kamçatkada əsasən üç xalqın yaşadığını aydınlaşdırdı – Şimalda *kornyakovlar*, cənubda kamçatkalı və yaxud *itelmenlər*, yarımadanın cənub qurtaracağında və qonşu adalarda-*kurililər*. Bütün bu xalqlar rus orduları tərəfindən tabe edildilər.

1729-cu ildə Afanasi Şestanov və kapitan Pavlutskinin dəstələri Tauyski adasını ələ keçirdilər. Lakin A.Şeştanov və ekspedisiyanın bir hissəsi Çukçalarla döyüşdə məhv oldular. lakin D.Pavlutskinin dəstəsi Çukot yarımadasının qurtara-cağına gəlib çatdılar. Ekspedisiyanın starşmanı Fyodorov və geoloq M.Qvozdyov dənizi keçərək Amerika torpaqlarına qədəm qoydular.

1711-ci ildə Kamçatkadakı ekspedisiyanın üzvləri Kuril arxipelağına ekspedisiya təşkil etdilər.

1728-1729-cu illərdə Asiya ilə Amerika arasında birləşdirici zolağın olmasını aydınlaşdırmaq məqsədilə Vitusa Berinqin rəhbərliyi ilə ekspedisiya təşkil olundu. Yeni ekspedisiya V.Berinqin və A.I.Çirikovun rəhbərliyi altında 1741-ci ildə (Berinq boğazını) Alyaska sahillərinə gəldilər, sonra isə Aleut arxipelağına daxil olan Kayak, Samaqin, Komandar adalarını ələ keçirdilər və Amerika ilə Asiya arasında boğaz

olduğunu kəşf etdilər.

Tezliklə, 1740-cı ildə bu ərazilərdə rus tacirləri görünməyə başladılar. 1743-cü ildə Moskva taciri Andrey Serebrennikov serjant Yemelyanov Başov da yanında olmaqla, çox da böyük olmayan gəmidə Komandor adaları ətrafında göründü. 1745-ci ildə tacir kompaniyasının rəhbərləri olan Yakov Çuprov, Afanasi Çebayev və Mikotora Trapeznikov Tobol kəndlisi Mixail Nevodçikovun rəhbərliyi altında gəmi göndərdilər. Bu ekspedisiya Attu adasını kəşf etdi və onu ələ keçirdi. XVIII əsrdə bu ekspedisiyalarla yanaşı, Oxot dənizi və Amerika sahilləri də tədqiq olunaraq Şimal Buzlu Okeana çıxıldı. Rusiya imperiyasının sərhədləri Sibirin cənub hissələrini də əhatə etməyə başladı. hansı ki, bu ərazilər xeyli əvvəllər I.D.Buxqoltsanın rəhbərliyi ilə təşkil olunmuş ekspedisiyalar vaxtı-Irtışın yuxarılarında Yamışev (1715), Omski (1716), Jelezinski (1717), Semipalatinski (1718), Ust-Kamenoqorski (1720) kimi qalalar quruldu.

XVIII əsrin 30-cu illərində Kurqandan Omski qalasına Işım hərbi xətti çəkildi. Bu hərbi xətt Barabin çölünün böyük bir hissəsini əhatə etdi. Lakin Besnoqorkov və yaxud Qorka hərbi xəttinin çəkilməsi ilə Işim yoluna maraq azaldı. Belə ki, bu yol Obun yuxarı axarlarında 1709-cu ildə qurulmuş Biyski şəhəri ilə əlaqə yaradırdı ki, bu da Altayın işğalında ən vacib şərt oldu.

Cunqarlar XVIII əsrin başlanğıcında Yeniseyin yuxarılarından çoxlu miqdarda qırğızları Cunqariyanın içərilərinə köçürdülər. Rus hərbi xidmət adamları bu əraziləri Rusiyanın tərkibinə qatmağa hazırlaşırdılar. Minusun və Abakan əraziləri ruslar tərəfindən ələ keçirilib möhkəmləndirildi. Minusun vadisi əkinçiliyin mərkəzinə çevrildi. Bura

çoxlu rus kəndliləri, xüsusilə də Krasnoyarski və başqa qəzalardan çoxlü əhali köçürüldü. Rus dövlətini eyni zamanda Sibirin dağlıq sərvətləri – (filiz) daha çox maraqlandırırdı. Dağlıq ərazinin müdafiəsini gücləndirmək məqsədilə bütünlüklə Irtış ərazisini əhatə edən Kolevan-Kuznetski hərbi xətti çəkildi. Bu ərazilərdə dağ-mədən sənayesini inkişaf etdirmək üçün çoxlu filiz çıxaranlar və ümumilikdə, çoxlu işçi qüvvəsi lazım idi. Bu məqsədlə bura çoxlu Mərkəzdən və sair əyalətlərdən çoxlu, sürgün olunmuşları göndərirdilər. Eyni zamanda hökumət 1737-ci il fərmanı ilə burada xidmət edən kiçik zadəgan və məmurlara (zadəgana 10 həyət, məmura 6 həyət) kəndlər verirdi ki, onlar burada dağ-mədən işləri ilə məşğul olsunlar. Çoxlu «qaçqın kəndlilər» bura işləmək həvəsi ilə gəlirdilər. Onlara nəinki mane olurdular, hətta həvəsləndirmək məqsədilə pul hədiyyəsi verirdiliər. Rus dövlətinin sərhədlərinin cənuba tərəf güclənməsi və yeni hərbi xəttlərin çəkilməsi böyük sayda hərbçi tələb edirdi. Ümumilikdə, hərbi xəttlər-də 20 min, ondan 16 mini Sibir ərazisində idi. Buna görə də dövlət bu ərazilərdə-məskunlaşmış əhali üzərinə dövlətin xeyrinə natural vergilər ödənilməsini qərarlaşdırdı. XVIII əsrin birinci yarısında Sibirdə məskunlaşan rus əhalisi əkinçiliyi güclü surətdə inkişaf etdirirdi. Bundan əlavə Sibirin şərqində-Zabaykalyedə, Yakutiyada və hətta Kamçatkanın müəyyən ərazilərində əkinçilik sürətlə inkişaf edirdi. Sənətkarlığın və ticarətin inkişafı Sibirdə yeni şəhərlərin yaranmasına gətirib çıxartdı. Tobolski, Tomski, Yenisey, Irkutski kimi köhnə şəhərlərlə yanaşı, Kurqana, Omski kimi yeni şəhərlər də yaradılmışdı. Sibirin əsas ticarəti 1727-ci ildə əsası qoyulmuş Kyaxte şəhəri vasitəsilə Çinlə aparılırdı. Belə ki, 1746-cı ilin 8 ayı ərzində rus tacirləri çin tacirlərindən 177 106 manat məbləğində mal almışdılar.

XVII əsrdən mövcud olan Irbit yarmarkası Avropa Rusiyasını Sibirlə və Orta Asiya ilə ticarət əlaqəsini yaradırdı. XVIII əsrin I yarısında «Kunqur-Yekaterinburq-Tyumen» yolu əsas ticarət yoluna çevrildi. Ticarət yolu öz növbəsində yam (poçt) işini gücləndirdi. Yalnız Qərbi Sibirdə XVIII əsrin ortalarında 9 min yam işçisi çalışırdı.

Sibirin iqtisadi yüksəlişi əhalinin mədəni səviyyəsinə müsbət təsir göstərirdi. XVIII əsrin əvvəllərində Tobolskidə, Yeniseydə ilk məktəblər açıldı. 1723-cü ildə Tobolskidə 100 nəfər qeyri-rus uşaqlarının oxuduğu 2 məktəb fəaliyyət göstərirdi.

A.I.Çirikov və V.Berinqin 2-ci Kamçatka ekspedisiyası zamanında Kamçatkada ilk məktəblər açdırmışdılar. Sibirdə məşhur rus mexaniki I.I.Polzunov fəaliyyətə başlamışdı. O, ilk dəfə olaraq buxar maşınını burada kəşf etmişdi. Sibirin mədəni həyatının canlanmasında burada sürgündə olan siyasi məhbusların böyük rolu olmuşdu. Belə ki, burada sürgündə olan monax Qriqori Nobitski 1716-cı ildə «Ostyak xalqı» adlı etnoqrafik əsər yazmışdı ki, tezliklə bu əsər alman dilinə də tərcümə olunmuşdu.

Rus hökuməti Sibir xalqlarını ruslaşdırmaq üçün kütləvi surətdə onları xristianlaşdırırdı. 1712-1714-cü illərdə itelmenlər, yakutlar və başqa tayfalar da zorla xristianlaşdırılmaya məruz qaldı.

*Itelmenlər və koryakovlar* 1710-cu ildə və XVIII əsrin 30-40-cı illərində çar rejiminə qarşı güclü çıxışlar etsələr də, nəticədə bu üsyanlar qəddarlıqla yatırılmışdı.

«1710-1712-ci ildə Kamçatkanın yerli əhalisinin üsyanı kiçik xidmət adamlarının çıxışları ilə üst-üstə düşmüşdü.»

Sibirin müəyyən ərazilərində məskunlaşan xalqlar müxtəlif

coğrafi bölgələr-də yerləşməsilə bir-birindən ayrılır. Şimali Sibir xalqları-xantıları, mansiləri, nenləri, enləri, nqanasanları, selkupları, ketləri, Cənubi Sibir xalqları-itelmenləri, koryakları, çukçaları, Amurətrafı, Saxalin və Kuril adaları xalqları-nivxiləri, nanayları, Aynıları özündə birləşdirir.

Xantı və manisilər yerli Sibir xalqlarının ən mühüm qruplarından biridir. Onlar Ob çayının aşağı və orta hövzəsində məskunlaşmışdılar. Xantilər Obun yuxarı boyu və Payduqin və Parabel çaylarının qarışdığı yerdə həmçinin Irtış boyu zolaqda yaşayırdılar. Mansilər isə Ob və Irtış çaylarının sol tərəfindəki ərazilərdə məskun-laşmışdılar. Belə ki, onlar Lozvo və Pelim arasındakı Tavd, Sosva və Liyapin çayları arasındakı Konda ərazilərində yerləşmişdilər.

Bu xalqların təsərrüfatında əsas yeri balıqçılıq və ovçuluq tutur. Onlar it qoşulmuş xizəklərdən nəqliyyat vasitəsi, kimi yerqazma damlardan yaşayış yerləri kimi istifadə edirdilər. Balıq dərisindən paltar kimi istifadə edir, qədim inam və inanclara sitayiş edirdilər. Şimalda yaşayan xanti və mansilər maralçılıqla da məşğul olurdular. Onlar maral dərisi ilə örtülən çumlardan (yurd) və qulaqlı xəz papaqlardan istifadə edirdilər. Tayfa-qəbilə münasibətlərinin sonuncu dövründə yaşayırdılar. Nəsli-tayfa cəmiyyətinin yuxarı hissəsinə «knyazlar» deyilirdi. 1692-ci ildə Isbrand Ides yazırdı: «Ostyakların öz knyazları vardı.» Çar hökuməti onlara inzibati-idarə etmə, hüququ vermişdir. Həmçinin yasağı toplamağı da onlara etibar etmişdi.

XVIII əsrin birinci yarısında çar hökumətinin fərmanı ilə *xanti və mansiləri* kütləvi surətdə xristianlaşdırıldılar. Birinci növbədə yerli knyazlar xristianlaşdırılır, sonra isə onların xristianlaşdırmasından sonra,

qədim dini adət ənənələr tamamilə məhv edilirdi.

Samodey tayfalarına aid olan nenlər, enlər, nqanasa və başqaları böyük əraziləri əhatə edən tundra və meşə tundrada yaşayırdılar. Nenlər XVII əsrdən Şimal Buzlu okean sahillərində həmçinin Peçora çayından Yenisey çayınadək olan ərazilərdə yayılmışdılar. Enlər və nqanasanlar Yeniseyin aşağı hissəsində və Taymır yarımadasında köçəri halda yaşayırdılar. Onlardan cənubda isə selkuplar və ketilər yaşayırdı. Vəhşi heyvanların ovlanması onların əsas peşəsi olsa da, maralçılıq təsərrüfatı öz əhəmiyyətini saxlayırdı. Alətləri ibtidai formada olan samodiylər maral dərisi, mamont sümüyü verərək, ruslardan odlu silah, un, taxıl və dəmir alətləri alırdılar.

XVIII əsrin ortalarında Altayın dağlıq ölkəsinin əhalisi birdəfəlik şimal hissəsinin əhalisi həm Cunqarlara, həm də Rusiyaya xərac verirdilər və onlara «iki-qat vergi verənlər» deyirdilər. «Cənubi və Şimali Altay həm təbiətinə görə, həm də iqtisadi və siyasi vəziyyətinə görə bir-birindən fərqlənirdi.» Şimalın dağlıq zolağında-Kuznetski Alatau və Böyük Alatau yaylasında ovçuluqla məşğul olan əhali tezliklə maldarlıq və əkinçilik təsərrüfatı ilə məşğul olmağa başlamışdı. Şimali Altayın «Volostlarına» daxil olan-Kuznetski, Kerqeş, Komlyay, Cənub Kumandin və s. ərazilərin adlarını çəkmək olar. Əhali daimi yaşayış yerləri hesab olunan kəndlərdə və uluslarda qış vaxtı isə ova gedən ovçular sadə yüngül salaşlarda yaşayırdılar.

Sibirin dərinliklərində yaşayan xalqların mədəniyyəti Altayın şimal hissə-sinin xalqlarının mədəni xüsusiyyətləri ilə bir çox cəhətdən oxşarlıq təşkil edirdi.

Cənubi Altayın dağlıq ərazisində yaşayan köçəri-maldarlar yüngül

alacıqlarda yaşayırdılar. Il ərzində yerlərini dəyişirdilər. Ovçuluq dağ-meşə zonalarında yayılmışdı. Əkinçiliklə qismən məşğul olurdular və əmək alətləri ibtidai formada idi. Əkinçilikdə və bir at çəkə biləcək xış-andazından istifadə edilirdi. Altayın cənub əhalisi kimi, şimalında da qəbilə-tayfa münasibətləri qalmaqda idi. Nəsillər artıq inzibati idarə qurumlarına çevrilirdi. Hakimiyyət varlıların əlinə keçməklə, feodal-patriarxal münasibətləri daha da genişlənirdi. Cənubi Altayda sosial bərabər-sizliyin güclənməsi özünü daha qabarıq göstərirdi. Burada tayfa başçıları çoxlu silahlı dəstələr saxlayırdılar.

Cunqarlardan asılı vəziyyətdə olan Altay əyanları onlara həm əhalidən yığdıqları alzman (xərac), həm də silahlı dəstələrlə kömək edirdilər. Bu cür vəziyyət Cunqariya süqut edənə qədər davam etmişdir. 1757-ci ildə Rusiya Altayın bütün əra-zilərini işğal edib özünə birləşdirdi. Katun, Çui, Çariş və Teles gölü Çulişmanla birlikdə Rusiyanın tərkibinə qatıldı. 1758-ci ildə Rusiya ilə Çin arasında olmuş razılaşmaya görə Çui istisna olmaqla, adları çəkilən ərazilər Rusiyanın ixtiyarında saxlanıldı. Çui ərazisində yaşayan əhali həm Rusiyaya, həm də Çinə yasaq verirdi. Altay vilayətləri 1747-ci ildən təşkil olunmuş «Altay dağlıq dairəsinə» daxil edildi. «Altay dağlıq dairəsi» çar familiyasına məxsus, Kabinetin sərəncamı ilə 1747-ci ildə yaradılmışdı. Ona görə Altaydan alınan xərac dövlətin xəzinəsinə yox, birbaşa çar sarayına verilirdi.

XVII əsr və XVIII əsrin başlanğıcına qədər Yeniseyin yuxarılarında hələ də qırğızlar yaşayırdılar.

1703-cü ildə Cunqar feodalları yenisey qırğızlarının Minusin vadisindən vurub çıxartdılarsa da, Krosnayarski qəzasının vadisindən

yasaq verən ərazinin əsas hissəsi rusların ixtiyarına keçdi. Qırğız feodalları-beltirlər və saqaylar da rus himayəsini qəbul etdilər.

Xakas xalqının formalaşmasında əsas etnik qruplar hesab olunan arinlər və yarinlər də yeni ərazilərdə kaçinlərlə qaynayıb qarışırdılar. Eyni vaxtda həmin ərazilərdə rus kəndliləri də yerləşdirilirdi. Hətta sənədlərdə göstərilirdi ki, «gəlmələrin yerləşməsinə etiraz etmir, sakitliklə baxırdılar.» Cənubi Sibir ərazilərinin Rusiyaya birləşməsi nəticəsində həmin torpaqlara Cunqar və qırğız feodallarının qarətçi yürüşlərinin qarşısı alındı. Yuxarı Yeniseydə maldarlıq və ovçuluq əsas yer tutsa da, çöllük ərazilərdə əsasən köçəri maldarlıq təsərrüfatı inkişaf edirdi. Kaçinlər əsasən at alveri edirdilər. Xüsusilə də onu ruslara satırdılar.

Kaçinlərin bəzi hissələri oturaq həyata keçir, hətta ruslardan qısa quru ot tədarükü də görürdülər. Feodal-patriarxal sitemin davam etdiyi bir dövrdə tayfa rəhbərlərinin böyük heyvan sürüləri və at ilxıları var idi. Onlar inzibati-ərazi birliklərinin – aymakların (volost) starşinaları yəni başçıları olurdu. Yuxarı Yenisey tayfaları rus dilini, onların adət-ənənələrini və xristianlığı daha tez qəbul etdi.

İkiqat vergi verənlər hesab olunan tuvalılar təsərrüfat məşğuliyyətlərinə görə Şərq və qərb hissələrinə bölünürlər. Şərq hissədə tuvalılar maralçılıq, atçılıq və az miqdarda ovçuluqla məşğul olurdular. Tuvanın  qərb və mərkəz bölgələrinin əhalisi maldarlıq və ovçuluqla məşğul olurlar. Ümumiyyətlə, rus işğalına qarşı əhali ara müharibələri və xaricilərin qarətçi hücumlarına görə məşğul ola bilmirdilər. XVIII əsrdə tədricən tuvalılarda feodal münasibətləri bərqərar olmağa başlayırdı. Monqol əsilli knyazlar, yuxarı lamaist dini rəhbərləri, nəsli və tayfa

nayonları yaxşı oturacaq və ov etmə yerlərini ələ keçirib, xalqa zülm edirdilər.

XVIII əsrdə buryat xalqının həyatında güclü dəyişmələr baş verdi. Qərbi buryatlar Anqara boyunda, Lenanın yuxarılarında və Olxon adasında yaşayırdılar. Lakin sonralar onların əraziləri kiçildi. Belə ki, Bratski bölgəsindən-1730-cu ildə onlar köç edib Zabaykalyedə Selenqa çayı boyunda həmişəlik məskunlaşdılar. Zabaykalye buryatlarının heyvandarlıq təsərrüfatı qərb buryatlarını köçəri maldar təsərrüfatına nisbətən daha zəngin idi. Bunu 1736-cı ildə I.Q.Dimelin də: «Zabalkalye buryatları Balaqanski (Anqara) buryatlarına nisbətən çox irəlidədir» deyərək qeyd etmişdir.

XVIII əsrin sonlarında Zabaykalye buryatlarında əkinçilik təsərrüfatı da irəli çıxdı. Qərb buryatları lap əvvəllər dəmirçiliklə məşğul olmuşdular.

Buryat dəmirçiləri hətta gümüşdən, qalaydan, dəmirdən və poladdan müxtəlif bədii incəsənət nümunələri yaradırdılar. Dəri emalı, keçəçilik, ağac işlətmə və s. sənət sahələri isə evdarlıq sənət sahələrinə daxil idi.

Buryatlarda feodal münasibətləri getdikcə qüvvətlənirdi. Rus hakim dairələri buryat əyanlarını öz tərəflərinə çəkmək üçün onlara müxtəlif səlahiyyətlər verirdilər. Çünki ayrı-ayrı buryat nəsilləri, qəbilələri gah Rusiya, gah da Çin sərhədlərini keçib ikili siyasət yeridirdilər. Əlbəttə, çar hökuməti çalışırdı ki, buryatları öz sərhədləri daxilində saxlasın. 1727-ci ildə Burində Rus-Çin müqaviləsinin bağlanması rusların bir daha Zabaykalye üzərində siyasi təsirini artırdı.

Rusiya-Çin danışıqlarında əsas rol oynamış qraf Savva Raquzinski

Zabaykalyedəki buryat əyanlarını öz tərəfinə çəkmək üçün böyük işlər gördü. O, 1728-ci il 27 iyulda sərhəd nəzarətçisi Qriqori Firsovax yazdığı təlimatı göndərdi ki, həmin təlimatda yerli məhkəmələrin işlərinə rus hakimiyyət orqanları qarışa bilməzdilər. Ən mühüm işləri həll etmək üçün üç əsas nəsildən (hərəsindən 2 nümayəndə olmaqla) 6 nəfər seçilirdi. Bir növ məhkəmə kollegiyasına bənzəyirdi. O, bu təlimatını uzaq Yakutiyaya da yaydı. XVIII əsr inzibati idarə sisteminə uyğun olaraq ulus və ya xotunlara yasavul, bir qədər iri birliklərə-xolbonlara (tabinlər) (bir neçə ulusu birləşdirir), şülenqalar, bir neçə xolbonların birliyinə zaysanlar rəhbərlik edirdilər. 1740-cı ildən buryatlar arasında 6 deputatdan ibarət olan tayşey idarəsi fəaliyyət göstərirdi. Bu orqan məhkəmə işləri və cəzavermə işləri ilə məşğul olurdu.  Çarizm burada möhkəmləndikdən sonra sərhədlərin qorunması işinə buryatlar da cəlb olundu. Buryatlar öz sərhədlərini monqol və tayşeylərin hücumlarından qoruyurdular.

Buryatlarda Asiya buddizm dininin lamaist qolu geniş yayılmışdı. Əhali arasında lamaizm dininin yayılmasında yerli tayşeylərin maraqları var idi, çünki bu din onların hakimiyyətlərinin əsaslarını qorumaq üçün əsas vasitə idi. XVIII əsrdə bu din geniş yayılmışdı. Çar hökuməti də lamaizm dininin rəhbərlərini öz tərəflərinə çəkərək onlardan öz hakimiyyətini bu ərazilərdən ideoloji cəhətdən möhkəmlən-dirmək üçün istifadə etməyə başladı. Qərbi buryatlarda isə keçmiş şamanizm dini qalmaqda idi.

### *§3 Şərqi Sibir xalqları (yakutlar, evenklər)*

XVIII əsrin I yarısıda yakut xalqının sosial-iqtisadi və mədəni həyatında bir inkişaf hiss olunurdu. Yakut tayfalarının şimal və şimal-şərq istiqamətində hərəkətləri onların Lena, Oleneka, Yanı, Indiqirki və başqa çayların ərazilərində həmişəlik məskunlaşmasına səbəb oldu. 1762-1763-cü il yoxlamalarında (təftiş) Yakutiyada 40 min vergi verən kişi qeydə alınmışdı. 1725-1743-cü illərdə Kamçatkaya və Çuxotkaya təşkil olunmuş ekspedisiyaların nəticəsində Amerikaya ticarət yolu açılmışdı ki, bu da öz növbəsində Yakutiyanın ictimai-iqtisadi inkişafına müsbət təsir göstərirdi. Yakutiyaya qədər Lena çayı ilə sonra isə quru yolu ilə Oxot dənizinə çıxılırdı.

Sənədlərdə qeyd olunurdu: «XVII əsrin ikinci yarısından başlayaraq yakutlarda feodalizm inkişaf etməyə başladı. Belə ki, yakut əyanları (toyonlar) öz əllərinə ayrı-ayrı müstəqil formada yaşayan senekos təsərrüfatını ələ keçirirdilər».

Toyonların tabeliyində olan icma üzvlərinin vəziyyəti getdikcə daha da pisləşirdi. Hətta elə kəndlilər var idi ki, ehtiyaclarını qismən təmin edə biləcək bir dənə də heyvan qalmamışdı. 1744-cü ildə tədqiqatçı Q.Fikanın məlumatına görə «yakutların yarısından çoxu atı olmadığına görə istehsalatda işləmirdilər».

Yakutlar hətta yasaq vergisini də verə bilmirdilər. Sonrakı dövrlərdə çar hökuməti yakutların torpaq üzərində sahiblik səlahiyyətlərini də məhdudlaşdırmağa başladı. Məhkəmə işləri bütünlüklə rus məmurlarının ixtiyarında idi. XVIII əsrdə yakutların kütləvi surətdə xristianlaşdırılmasına başlanıldı. 1731-ci ildə Yakutiya-Irkutski eparxının idarəsinə daxil oldu. Buradan Yakutiyaya xristianlığı

yaymaq üçün missionerlər göndərdilər. Yeni dini qəbul edənlər 5 il, 1763-cü ildə isə 3 il müddətinə yasaqdan azad olundular. Ilk dəfə yakut dilini və tarixini bura gəlmiş missionerlər öyrənməyə başladılar.

Yeniseydən Oxot dənizinə və Baykaldan Şimali Tundra çöllərinə qədər olan geniş ərazidə evenklər (tunqus) köçəri halda yaşayırdılar. Evenklərin əsas yaşayış vəziyyəti ovçuuqdan asılı olsa da, lakin onlar maldarlıq və balıqçılıqla da məşğul olurdular. Onon və Arqun çayları boyunda yaşayan evenklər «maldar» və «atlı» tunquslara bölünürdülər. Oxot dənizi sahilində yaşayan «piyada» tunquslar isə dəniz heyvanlarının ovu ilə məşğul olurdular. Dəmirlə tanış olsalar da, onun emal üsulunu bilmirdilər. Ona görə onların silahları əsasən sümük və daşdan idi. XVIII əsr ərzində evenklərin ictimai quruluşunda yenə də nəsil-tayfa münasibətləri güclü surətdə qalmaqda davam edirdi. Evenk əyanları əllərinə çoxlu heyvan sürüləri keçirərək öz həmkəndlilərini qonşu tayfalar üzərinə hərbi yürüşlərə sövq edirdilər. Burada qurulmuş Nerçinski zavodunda çoxlu sayda kasıb evenklər işləyirdilər. Evenklər yasaq üçün çoxlu xəz dəri verirdilər. Evenklər buryatla sərhəddə hərbi xidmət vəzifəsini də aparırdılar. Evenklər əla sürücülər və oxatanlar hesab olunurdular. Onlar kütləvi surətdə xristianlaşdırılmağa məruz qaldılar.

### *§4 Şimal-Şərqi Sibir xalqları (itelmenlər, koryaklar və çukçalar)*

Itelmenlər, yaxud kamçadillər Kamçatka yarımadasıda məskunlaşmışdılar. Ruslar Kamçatkalılar haqqında ilk məlumatı Vladimir Atlasovun ekspedisiyasının 1697-1699-cu illərdə Kamçatkadan qayıdışından sonra aldılar. Ondan 40 il sonra Rusiya akademiyasının

xətti ilə S.P.Kraşennikov itelmenlərin tarixini öyrəndi. Itelmenlər məişətlərində ibtidai formalı əmək alətlərindən istifadə edirdilər.

Dəri və xəz paltarlar geyinirdilər. Yeganə ev heyvanı kimi it saxlayırdılar. Itelmenlərin adətlərində çoxlu inanclar var idi. Onlar dağların, meşələrin və dəniz ruhlarına inanırdılar. Şamanizm burada başqa Sibir xalqlarında olduğu kimi inkişaf etməmişdi. Şaman vəzifəsini əsasən qadınlar icra edirdilər.

İtelmenlərdən şimalda *koryaklar və çukçalar* məskunlaşmışdılar. Onlar Kamçatkanın şimalında və Çuxot yarımadasınnı cənub hissəsində yaşayırdılar. Koryaklar və çukçalar «maralçılar» və yaxud köçərilər, dəniz sahili və yaxud «oturanlar» hissələrinə bölünürdülər. «Oturanların» əsas məşğuliyyəti dəniz sahilin-də dəniz heyvanlarını ovlamaq idi. Əsas ov aləti *sümük qarpun* idi. Onlar öz yerdəyişmələri vaxtı it qoşulmuş xizəklərdən istifadə edirdilər.

Köçəri çukçaların isə əsas məşğuliyyəti maralçılıq idi. Ən kasıb çukçanın 100 maralı var idi. Onlarda ailə dini inamları əsas yer tuturdu və hər bir ailənin «müdafiəçisi» olunduğu hesab edilir. Şamanizm burada güclü inkişaf etmişdi.

### *§5 Amurətrafı, Saxalin və Kuril adaları xalqları (nivxilər, nanaylar, aynılar)*

XVIII əsrin I yarısında Amur ətrafında aşağıda adları çəkilən tayfalar yerləşməyə başladılar. Amurun hər iki sahilində və Saxalinin şimal hissəsində nivxilər (qilyakilər) Amurun cənubunda və tatar körfəzinin sahilində nanaylar; Amurun yuxarılarında uroçilər və birari və neqidalçılar məskunlaşmışdılar. Nivxilər və nanaylar oturaq formada

balıqçılıqla məşğul olurdular. Yeganə ev heyvanı it idi. Geiymləri it dərisi və balıq dərisindən hazırlanırdı. Onlarda ana xətti nəsli quruluş üçün xarakterik cəhət idi. Dinləri *animizm* hesab olunurdu.

Aynılar Kuril adalarında yaşayırdılar. Kamçatkanın cənub qurtaracağında və Cənubi Saxalində də aynılar yaşayırdılar. Aynılar onların torpaqlarını ələ keçirmək istəyən yapon feodalları ilə aramsız müharibələr aparırdılar. Lakin ruslar Kuril adalarını işğal edib onları yasaq verməyə məcbur etdilər. Onların əsas məşğuliyyəti dəniz heyvanlarını ovlamaq idi. Ovçuluqla əsasən kişilər məşğul olurdular. Onlar həmçinin dəniz bitkiləri ilə də qidalanırdılar. Onların əmək alətləri sümükdən, ağacdan və daşdan hazırlanırdı. Aynılar və itelmenlər ruslar və yaponlarla mübadilə üsulu ilə ticarət edirdilər. Aynılar təbiət qüvvələrinə inanırdılar. Onlar «Ənau» kultuna inansalar da, ancaq onlarda ən böyük yaradıcı qüvvə Günəş allahı hesab olunurdu.

### *§6 Rusiyanın Sibirdə işğalçılıq siyasəti (XV-XVII əsrlərdə)*

XV əsrin ortalarından başlayaraq Rus dövləti Qərbi Sibiri işğal etmək siyasətinə keçdi. Tobol çayının aşağı hövzələrində yaşayan türkdilli tayfaların bəziləri özlərini Sipir adlandırırdı. Rus mənbələrində isə onlar Sipirlər adlanırdı. Hələ XIV əsrin sonlarında Stefan adlı bir monax Moskva knyazının təhriki ilə indiki Perm əyalətində missionerlik fəaliyyətini genişləndirmişdi. 1383-cü ildə Rus kilsəsinin Perm monax kilsəssi yaradılmışdı. Moskva knyazı III Ivan Sibirə hərbi dəstələr göndərilməsi haqqında əmr vermişdi. 1465-ci ildə rus işğalçı ordusu Qərbi Sibirə daxil olmuş və Uqor tayfalarını tabe etmişdi. 1483-cü ildə Fyodor Kurbskinin başçılığı altında Urala göndərilmiş qoşun Uqor

tayfalarının ərazilərini işğal edərək Rus dövləiinə birləşdirmişdi. Bu dəstələr Pelma çayı kənarında mansilərin başçısı Asıki dəstəsi ilə birgə məhv etmişdilər. Sonra onlar Uqor xalqlarının knyazı Moldanı tutub öldürdülər. Tayfaların üzərinə illik xərac qoydular. 1499-cu ildə III Ivanın əmri ilə Semyon Kurbski 4 minlik ordu ilə Sibirə yola düşdü. Ural dağlarını keçdikdən sonra ruslar Samodiylərin hərbi dəstələrini məhv etdilər. Ruslar samadiy və uqorların 40 hərbi məntəqəsini tutdular, 58 yerli hakimi öldürdülər, əhalini qarət edib 1500-cü ildə Rusiyaya qayıtdılar. Ruslar onlardan illik gəlir şəklində xəz-dəri alırdılar.

Rusiyanın Sibiri işğal etmək siyasəti XVII əsrdə başa çatdı.

## *§7 Sibir XIX əsr və XX əsrin əvvəllərində*

Çarizmin Sibir planı: Separanskinin 1822-ci il islahatından sonra dövlət dairələrinin Sibirə maraqları bir qədər arxa plana keçdi. Bu arxayınçılıq XIX əsrin 30-cu illərinin iş sahələrinin geriliyi imperiya dairələrini bu sahəyə diqqəti artırmağa məcbur etdi. Xüsusilə Krım müharibəsinə qədər bu maraq hakim dairələr içərisində özünə möhkəm yer tutdu. Bu maraqlar içərisində ən birinci yeri-Sibirin iqtisadi cəhətdən yenidən qurulması və səmərəli istifadəsi məsələsi yer tuturdu. Belə ki, çar xəzinəsini doldurmaq üçün Sibirin təbii sərvətlərindən tam istifadə etmək, Uralarxası torpaqlarda əkinçiliyi inkişaf etdirmək lazım idi.

XIX əsrin 30-cu illərində Sibir qızılının ilkin gəlirləri Sibirin təbii sərvətlərinə diqqəti artırdı. Əkinçilikdən gələn gəlir onsuz da çar xəzinəsinə heç bir şey vermirdi. Şəxsi qızıl istehsal müəssiələri imperiyanın maliyyə vəziyyətinə müsbət təsir göstərdi. Yalnız 1848-ci ildə Sibirdə qazılıb çıxarılmış 1289 pud qızıl, dövlət xəzinəsinə 217 pud

natura və 4 mln manata yaxın nəqd pul ilə gəlir gətirmişdir. Lakin bütün bunlara baxmayaraq fərdi qızıl müəssiələrinin sahibləri içərisində yuxarı aristokratik təbəqələrinin nümayəndələrinin adları var idi. Məsələn, Vyazeniski, Qaqarin, Qorçakov, Dondukov-Korsakov, Mədətovlar, qraf Benkendorflar, Lamzdorflar, Orlovlar və s. familiyalar bu qəbildəndir. Bundan əlavə 1860-cı ilə qədər qızıl çıxarmağa icazəsi olan 893 nəfərdən 435 nəfəri nəsli zadəganlar idilər. Qızıl istehsal sahələrinin böyük əksəriyyətinin nəsli zadəganlara məxsus olmasına baxmayaraq, XIX əsrin 40-cı illərindən etibarən bu sahəyə maraq artmışdır. Qızıl istehsalı çar hökuməti və saray dairələri içərisində Sibir səhmlərinin qiymətini olduqca yüksəltdi. "Çarizmi Sibirdə əhalinin sayını rus əhalisinin hesabına artırmaq üçün sürgün olunma məsələsini ön plana çəkdi və bu işdə 2 məqsəd güdürdü: 1) Mərkəz bölgələri arzu olunmayan sosial elementlərdən təmizləmək; 2) Əhalinin sayını çoxaltmaqla xəzinəyə gələn gəliri gücləndirmək". Buna görə 1832-ildə 83 min, 1822-1852-ci illər arası dövrdə isə cəmi 200 min adam Sibirə sürgün olunmuşdu. Sürgün olunanlar içərisində çoxlu miqdarda oğrular, canilər də var idi. Əlbəttə, bu nəhəng əraziyə sürgün olunmuş bu narazı əhali təbəqəsi çar hökumətini həm də narahat edirdi.

Tezliklə, çar hökumətinin bu narahatlığının ifadəsi Şərqi Sibirin general-qubernatoru A.S.Lavinskinin (1833) Daxili işlər naziri Benkendorfa məlumatlarında öz əksini tapdı. O məlumatlarında göstərirdi ki, bura sürgün olunanların sayını ildən-ilə azaltmaq lazımdır. Çünki bu geniş ərazidə onlara nəzarət etmək çətindir. Az sayda olan kiçik keşikçi dəstələri onları nəzarətdə saxlaya bilmir.

Məhz buna görə çarın 15 fevral və 6 mart 1834-cü il qərarları ilə

Şərqi Sibirdə yerləşən ordunun komandanlığı general-qubernatora həvalə olundu. Sibirin daxili üçün narahat olan Çarizm, onun həm də Abş və İngiltərə nüfuz dairəsinə düşməsindən ehtiyat edirdi. Sibir xətti yaradan Amur çayı vasitəsilə ta qədimdəm ticarət edirdilər. Amurun çıxışı isə İngiltərənin ixtiyarında idi. 1847-ci ildə Şərqi Sibirin general-qubernatoru olmuş N.N.Muravyov Amur çayını Sibirin açarı adlandırdı. Onun sözlərinə görə kim Amura rəhbərlik etsə, o da Sibirin sahibi olacaq.

Bu cür narahatlığı Qərbi Sibirin general-qubernatoru knyaz Qorçakov da hərbi nazir Çernişevə məlumatlarında qeyd edirdi. O göstərirdi ki, Sibirin əhalisi rus himayəsini onsuz da qəbul etmək istəmirlər. İrkutskdan Kamçatkaya və Oxot dənizi sahillərinə qədər sərhəd olmasına baxmayaraq Amur bu xalqları İngiltərə və ABŞ-la yaxınlaşdırır.

1822-ci ildə qəbul edilmiş Separanski layihəsi üzrə yaradılmış yerli inzibati orqanlar idarəetmə işlərinin öhdəsindən gələ bilmirdi və eyni zamanda çoxlu iqtisadi və ictimai-siyasi problemlər yığılıb qalmışdı. Yeni münasibətlər yeni idarəetmə formaları tələb edirdi. Bütün bu məsələləri həll etmək üçün Çar 17 aprel 1852-ci ildə qərar verdi. Sibir komitəsinin rəhbəri hərbi nazir A.İ.Çernişev oldu. Həmin komitənin üzvlüyünə jandarmların şefi, Daxili İşlər Naziri və Dövlət Əmlak Naziri də daxil edilmişdir. Əldə olunan materiallara əsasən 1852-ci ilin sentyabrında "Sibirin yenidən qurulması üzrə Komitənin bütün işlər üzrə ümumi və konkret layihəsi" hazırlandı. Layihə aşağıdakı hissələrdən ibarətdir. Sibirin bölgüləri, onun idarələri, quruluş vəziyyəti, xalq təhsili, məhkəmə, təsərrüfat, ticarət və sənaye.

“Sibirin bölgüləri haqqında” bölmədə yenə Sibir ərazisi 2 yerə ayrılır: Qərbi və Şərqi Sibir. Layihədə Qərbi Sibir quberniyalarının səviyyəsi Şərqi Sibirlə Rusiyanın daxili quberniyalarının səviyyəsi ilə bərabərləşdirmək nəzərdə tutulurdu. Qərbi Sibirin bu inkişafını təmin edəcək imkan onun əhalisi az olan geniş, təbii sərvətlərlə geniş olan ərazisi idi. XIX əsrin ortalarına qədər Şərqi Sibir ərazisində əhali çox seyrək idi. Həmin vaxt Sibirin ərazisi 950 mln desyatin, əhalisi isə 2712 min nəfərə çatırdı. Halbu ki, 1851-ci ildə Londonda 2680 min nəfər əhali yaşayırdı. Ancaq əhalisinin az olmasına baxmayaraq Sibir dövlət xəzinəsinə gəlir gətirən ən mühüm sahə idi. Sibir komitəsinin məlumatında göstərilirdi ki, hökumət Sibirdən hər il 15860000 manat gümüş pul gəlir götürürdü.

Çar hökuməti Sibirin hələ tam istifadə olunmayan dağlıq ərazilərinin təbii sərvətlərinin istifadəsi üçün lazımi şəraitin yaradılması üçün göstəriş verdi. Çünki bu sahə dövlət xəzinəsinin ən gəlirli sahələrindən hesab olunurdu. Çar layihəsində ən əsas yer tutan sahələrdən biri də sənaye və ticarət əlaqələri idi. Bu dövrdə Sibirin ticarət əlaqələri əsasən Çinlə və Qırğız çölləri vasitəsilə Orta Asiya dövlətləri ilə aparılırdı. Sibir sərhədlərindəki gömrük toplama məntəqələrindən gələn illik gəlir 5 mln manat gümüş pula çatmışdı. Dövlət xəzinəsinə gələn bu gəlirdən 300 minini Sibir gömrük dairəsi, yerdə qalan hissəni isə Kyaxta gömrük sahəsi verirdi. Kyaxta Rusiyanın, Çinlə çay ticarətini əlaqələndirən bir ərazi idi. Lakin 1852-ci ildən ingilis mallarının Çin bazarında güclənməsi ilə çayın qiymətləri aşağı düşdü və rus tacirlərinin mövqeyi Kyaxtada zəiflədi. Ancaq Sibir tacirləri xəz dəri ticarəti ilə Çinlə əvvəlki səviyyədə ticarət əlaqələrini saxladılar. Sibir Komitəsi Rusiyanın xarici və daxili

ticarətində Sibir tacirlərinin rolunun artmasına ehtiyatla yanaşmağı məsləhət görərək qeyd edirdi: “Sibirin sənaye gücünü qaldırmaqla biz Rusiyanın mərkəzindəki sənaye sahələrinin iflasına və Sibirin Rusiyadan asılılığının zəifləməsinə gətirib çıxararıq”.

Həmin dövrdə bütün Sibir ərazisində 250 şəxsi fabrik 53 sabunbişirmə və 50 şam hazırlayan istehsal müəssisələri var idi. Ümumi istehsal etdikləri malların qiyməti 900 min manat idi. Rusiya hökuməti Sibirdə istehsal sahələrini qurmağı mümkün olmayan iş sayırdı.

Məhz buna görə də Sibiri manufaktura və əkinçilik ölkəsinə çevirmək planı qarşıda dururdu. Çar hökuməti şəxsi kənd təsərrüfat sahələrini və xüsusilə də əkinçiliyi inkişaf etdirməyi bir vəzifə kimi qarşıya qoydu.

Sibirdə irsi torpaq mülkiyyəti yox idi. Zadəgan və qulluqçuların da sayı az idi. Buna həm də səbəb 6 dekabr 1831-ci ildə Sibirdə 1296 nəfər irsi mülkiyyətə malik olan zadəgan qeydə alındı. Layihənin müəllifi qeyd edirdi ki, “Sibir zadəganları, hansı ki, heç bir torpaq mülkləri yox idi, onlar vaxtilə burada qulluq etmiş və təqaüdə çıxmış keçmiş çar çinovnikləri idi. Bu vəziyyət, yəni çarizmin dayağı hesab olunan zadəgan təbəqəsinin Sibirdə olmaması çar hökumətini çox narahat edirdi. Halbuki XIX əsrin ortalarında Rusiyanın mərkəz quberniyalarında zadəganların çoxusu torpaqsız və az torpaqlı idi.”

Sibirdə kəndli məsələsi əvvəllərdə olduğu kimi qalırdı. Belə ki, həmin dövrdə 2103 mülkədar kəndlisi var idi ki, onlar da yalnız müəyyən saray xidmətlərini yerinə yetirirdilər. Yerdə qalan kəndlilər isə dövlət kəndliləri idi. Dövlət kəndliləri isə 2 hissədən ibarət idilər: 1) xüsusi dövlət kəndliləri-1852-ci ildə onların sayı 1057363 nəfər idi; 2)

dağ-mədən zavodlarına təhkim olunmuş kəndlilər-onların sayı 241798 nəfər olmuşdur. Sibirin əsas kütləvi əhalisini təşkil edən dövlət kəndlilərinə öz şəxsi təsərrüfatlarını qırmağa tədricən imkan verilməli idi ki, dövlətin onlara çəkdiyi xərc, onların öz təsərrüfatından gələn gəlirlərlə əvəz olunsun.

Bundan əlavə rusiyanın mərkəzi rayonlarında başlanmış aqrar çıxışları yatırtmaq üçün kəndlilərin Sibirə kütləvi surətdə köçürülməsi planlaşdırıldı.

Təhkimçiliyin ləğv olunmadığı bir şəraitdə torpaqlarını sərbəst surətdə kəndlilərə verilməsi həyəcan doğurmasın deyə, onları kəndlilərə, məişətlərini yaxşılaşdırmaq adı altında verirdilər.

1852-ci ildə Sibirdə 208460 nəfər sürgün olunmuş adam yaşayırdı. Sibir komitəsinin təklifi ilə Sibir cəzaçəkmə yeri kimi yox, Sibir ölkəsinin xeyrinə işləmək yeri kimi qeyd olundu. Bundan əlavə, Sibirin kütləvi cəza çəkmə yeri kimi müəyyən olunması, beynəlxalq aləmdə çarizmin siyasi mövqeyinə ağır zərbə idi. Onu xalqların kütləvi surətdə repressiya etməsində günahlandırırdılar. 1852-ci il layihəsində yerli idarəetmə orqanları tərkibini yenidən yaxşılaşdırmaq baxımından, əvvəlki layihədə (1822) olduğu kimi saxlanıldı.

Layihədə xalq təhsili məsələsi də qoyulurdu. Sibir Komitəsinin verdiyi məlumata görə Sibirdə layihə qəbul olunana qədər 8 orta, 169 aşağı səviyyəli müxtəlif dərəcəli məktəblər fəaliyyət göstərirdi ki, onlarda da 10147 şagird təhsil alırdı. Kəndli uşaqları üçün müxtəlif sənət və məkrtəblərin sayının artırılması nəzərdə tutuldu. Bundan əlavə qəza məktəblərinin, quberniya gimnaziyalarının və bir neçə yerdə qadın gimnaziyalarının açılması qərarlaşdırıldı. Sibirdə ali məktəb yox idi.

Ancaq Sibir tələbələri üçün Kazan universitetində 24 yer saxlanılmışdır ki, həmin yeri qurtaran tələbələr yalnız Sibir quberniyalarında məmur işləyə bilərdi. Sibirdə onların qulluq etmə müddəti 8 il idi.

Çarizm Sibirdə zadəgan təbəqəsinin kifayət qədər olmamasına görə ali məktəblərin açılmasına qəti etiraz etdi.

Bu layihəni hazırlatmaqda çarizmin məqsədi Sibirdə onun hakimiyyəti üçün yaranmış təhlükəni aradan qaldırmaq və iqtisadi-siyasi cəhətdən qəti surətdə möhkəmlənmək idi.

Rusiyada kapilatizmin inkişafı Sibirin ümumrusiya bazarına cəlb edirdi. Məsələn, gəlirli sahələrdən biri hesab edilən şəkər qamışının əkilməsi və onun istehsalı üçün ilk zavod tikilməsinə 1856-cı ildə cəhd olunmuşdur. Bu zavod Tomski quberniyasının Barnaul qəzasında tacir Şeqolov tərfindən açılmışdır. Zavodun ətrafındakı 6 desyatin torpaq sahəsində şəkər çuğunduru əkilmiş və yaxşı məhsul götürülmüşdür. O maya dəyərindən 5% artıq gəlir götürmüşdür. Bu birinci cəhd Şeqolevi həvəsləndirdi, o, əsl zavod tikdirmək üçün Almaniyadan mütəxəssis kimi Brokmilleri dəvət etdi. Şeqolev həmin vaxt ölsə də zavodu Brokmiller tikdi. Zavod 300 desyatin torpaq sahəsinə, şəkər qaynatmaq üçün meşə sahəsinə malik idi.

1888-ci ildə 30 desyatin sahədən 3 min pud məhsul götürüldü və 75 pud şəkər tozu və 20 pud rafinad alındı. 1839-cu ildə 7 min pud məhsul götürüldü və 200 pud şəkər alındı. Zavod 1861-ci ildə Aleksandrov adlandırıldı və məhsul alınması 720 puda çatdı. Zavod öz istehsalını dəyişib, spirt istehsal etməyə başladı. Zavod tullantılarından başqa, icazəsiz çörək-taxıl məhsullarından da spirt çəkdiklərinə görə onun rəhbərləri həbs olundular və zavod borc içərisində qalıb, satıldı.

XIX əsrin 60-70-ci illərində Rusiyanın xarici ticarətində şəkər ticarəti mühüm əhəmiyyət kəsb etdiyinə görə, onun istehsalına diqqət artırıldı. Buna görə 1 may 1884-cü ildə Türküstanda, Sibirdə və Qafqazda şəkər zavodlarının açılması haqqında qərar verildi.

1884-cü il qərarına əsasən Sibirdə-Yenisey quberniyasının Münüsun qəzasında Quşevin İvanov adında şəkər zavodu açıldı. Həmin zavodda şəkər 28 min puda qədər idi. Zavod 1905-ci ilə qədər işlədi və onu almış tacir Paşennixin vaxtında bağlandı.

Ümumiyyətlə, şəkər çuğundurunun əkilməsində ən böyük fəallıq göstərənlər Sibirə gəlmiş köçkün-kəndlilər idi. Birinci dünya müharibəsi dövründə Ukranyada şəkər istehsalının azalması, Sibirdə şəkər istehsalına diqqəti daha da genişləndirdi.

Sibirdə, ümumiyyətlə, burjuyaziyanın formalaşması 1861-ci il islahatına qədər baş vermişdi. 1861-ci il islahatında sonra və xüsusilə, burada dəmir yolunun çəkilməsi bu prosesi daha da gücləndirdi.

Sibir burjuaziyasının əsasını tacirlər və fəxri vətəndaşların bir hissəsi təşkil edirdi. XIX əsrin ikinci yarısından etibarən isə İrkutski, Verxneudinski, Kyaxtin tacirləri qızıl mədənlərinin, çaxır zavodlarının (Bazanov, Sibiryakov, Basnin, Trapeznikov, Qromov, Butin və s) sahibkarlarına çevrildilər. Keçmiş tacirlərin çoxusu isə yeni kapitalist metodlarına keçə bilmədiklərinə görə iflasa uğrayıb yoxsullaşdılar.

Bəziləri isə öz ticarətini dayandırıb, pulları faizlə banklara qoydular. A.İ.Qronov, M.A.Kokovin kimi tacirlər isə öz əvvəlki vəziyyətlərini saxlamaqla bərabər, yeni təsərrüfat sahələrini də genişləndirdilər. Sənaye-ticarət kapitalının ən nəhəng nümayəndəsi L.Q.Qromov idi. XIX əsrin ikinci yarısnda Şərqi Sibirə gələn L.Q.Qromov burada çay, taxıl, un

ticarət manufakturaları yaratdı. Qromov çay firmasını İrkutskiyə gətirir, habelə Ayan limanı vasitəsilə Oxotsk və Yakutsk vilayətlərinə çatdırır və böyük gəlir götürürdü.

XIX əsrin 70-ci illərində İ.Q.Qromov Yakutski vilayətinin Olekmin dairəsinin və Zabaykalve vilayətinin Akşin dairəsinin qızıl mədənlərini əlinə keçirdi. Qızıl mədənlərinə sahibliyi həm təkbaşına, həm də digər tacirlərlə birlikdə yerinə yetirirdi. 1897-ci ildə A.Qromovun firmalarında ilk çay nəqliyyat gəmiçiliyi "Lena" paraxodu işləməyə başladı. 1911-ci ildə artıq onun 4 paraxodu, 5 yük barjı var idi. Nəqliyyat vasitəsilə ticarət dövriyyəsi 1910-cu ildə 359831 manat təşkil etmiş təmiz gəlir isə 71027manat olmuşdu. Sibirdə yaranmış kapitalistlərdən Şərqi Sibirdə ticarət sahələri, Rusiyanın Avropa hissəsində isə sənaye mütəxəssisləri olan A.V.Vtorovs, Zabalkalyedə böyük ticarət və sənaye sahələrinə malik olan A.K.Kobılkini, çoxlu qızıl mədənlərinin və un-taxıl mağazalarının sahibi İ.V.Kulayevi, Zabalkalyedə qızıl ticarətinin rəhbərləri olan Şumovlar qardaşlarının və s. göstərə bilərik.

Tacir təbəqələri içərisində yəhudi tacirləri üstünlük təşkil edirdilər. Şərqi Sibirdə bu tacirlərin çoxu vaxtilə bura sürgün olunmuşların nəsilləri idi. Məsələn, İrkutskidə yəhudilər tərpənməz  daşınmaz əmlakın 15%-ni 20% isə sənaye-ticarət dövriyyəsinə nəzarət edirdilər.

1 mart 1859-cu il qanunun əsaslarına görə yəhudi tacirləri birinci gildiyaya daxil idilər. Bu gildiyanın nümayəndələri isə Leyboviç, Yermanoviç, Dambrovski və başqaları idilər. Çoxlu meşşan-yəhudilər öz kapitallarını qızıl istehsal müəssiələrinə qoymaqla milyonçulara çevrildilər. Bir çox yəudilər Sibir kömür mədənlərinin də sahiblərinə çevrilimşdilər. Kənd təsərrüfatında da kapitalist müasibətlərinin

yaranması kəndlilər arasında təbəqələşməyə səbəb olur və təsərrüfatını burjua üslubunda quran qolçomaqlar yaranırdı. Onlar əkinçilik və heyvandarlıq məhsulları və ticarət edir, sənaye-ticarət sahələrinə daxil olurdular. Məsələn, biznesmen M.E.Qlotov təhkimli kəndlilər içərisdindən çıxmışdı. O, Lena çayı üzrə nəqliyyat daşınmaların və İlim duz emalı müəssisələrinin sahibkarı idi. Digər təhkimli kəndli İ.D.Perevalov Xaytın və Elov çini qablar fabrikinin sahibkarl idi. D.R Şelkunov, F.F.Kuznetsov da kəndlilər içərisindən çıxmış kapitalistlər idilər. 1873-cü ildə O.İ.Metelov ilə birlikdə "Şelkunov və Metelevin ticarət evi firmasını, 1899-cu ildə isə "R.K.Selkinov və K"nı yaratdı".

T.K.Şelkunov 1900-cu ildə Nazarov, Vadimov və Nikolski kömür çıxartma mədənlərini ələ keçirdi. 1916-cı ildə 8 mln pud kömür hasil edilmişdir. İllik kapital dövriyyəsi isə 1 351309 manat olmuşdur. 1905-ci ildə həmin mədənlərdə elektrik stansiyası qurularaq, textiki dəyişikliklər edildi. Çilingər-tokar, dəmirçi, yayma, qazanxana və dülgər-model sexləri yaratmışdı. Zavodda 22 müxtəlif dəzgah, buxar çəkici, presləmə dəzgahı, 2 mişar və diyircəkli dəyirman var idi. P.K.Selkunov taxıl və un məhsulları ilə böyük ticarət edir və bu məqsədlə 1910-cu ildə Çeremxovada 7 dayaqlı dəyirman qurdurdu. Dəyirmanda 7 ay ərzində 120 min pud un alınırdı.

Sibirdə burjuaziyanın sonrakı hissəsi az miqdarda olan zadəganların hesabına yaranırdı. Onların əksəriyyəti burada çoxdan məskunlaşan şəxsi və nəsli zadəganların nümayəndələri idilər. Onlar öz kapitallarını inanılmış tacir-milyonçuları səhmlərinə qoyur və yaxud müəyyən istehsal sahələrinin alış-satışı ilə məşğul olaraq ticarət-sənaye işləri ilə məşğul olurdular. D.Yasinski (ticarətlə, sement sənayesi ilə),

V.Komarovski, V.Sentneroviç, Tomaşevski polyak idilər.

Kapitalizmin geniş surətdə inkişafı Sibirin əzəli əhalisi olan-buryatların, evenklərin, yakutların sosial iqtisadi həyatına güclü təsir göstərərək onun feodal-patriarxal qabiliyyətini aradan qaldırdı, noyonların və toyonların timsalında uluslararası yerli burjuaziyasını yaratdı. Xüsusilə, bu proses buryat noyonlarına təsir göstərdi və onların bir çox nümayəndələri ticarət və ticarət-sənaye işləri ilə məşgul olmağa başladılar. Bundan əlavə noyonlar əkinçi-maldar təsərrüfatlarından yığılan kapitalı da sənaye sahələrinə qoyurdular. Məsələn, 2-ci Aşexabat nəslinin ağsaqqalının oğlu A.Mixaylov öz kapitalını su dəyirmanlarının tikintisinə qoymuşdu. 1883-cü ilə çaxır zavodunun qurulmasında payçı kimi iştirak etdi. 10 paydan 3-ü ona məxsus idi.

Zavodun inşasına 1884-cü ildə 50 min manat gümüş pul xərclənmişdi. XIX əsrin 90-cı illərində zavod tamamilə A.Mixaylonun ixtiyarına keçdi. 1895-ci ildən zavod tam qüvvəsi ilə məhsul istehsal etməyə başladı. Tezliklə İvano-Andreyev çaxır çəkmə zavodunu öz əlinə aldı və Mixaylov yoldaşlığı fəaliyyət göstərdi. Çaxır çənlərini tutumu 9 min vedrə idi. 1897-1898-ci illərdə zavod 120844 vedrə çaxır istehsal etmişdi. 1908-ci ildə o yeni çaxır zavodunu qurdurdu, Abakan çay hövzəsindəki mis zavodlarını müddətsiz icarəyə götürdü. Çaxır çəkmə zavodlarında payçı kimi iştirak edən buryat kapitalistləri tacir V.Xadeyev, noyon qolçomaq V.İvanov və İ.Pirojkov idilər. Pirojkov iri kənd təsərürrüfat sahələrinin, çoxlu dəyirmanların və s. sahələrin sahibkarı idi. O, həmçinin Aleksandr-Nevski adına çaxır zavodunun payçısı idi. Bu zavod isə Şərqi Sibirdə ən iri zavod idi. O, 1886-cı ildə 1899-cu ilə qədər öz payı müqabilində 89987 manat təmiz divident

götürmüşdür. İ.Pirojkov "Qolovun dağ-sənaye auksioner cəmiyyətinin" idarəedicilərindən biri idi. Bu cəmiyyətin əsas kapitalı isə Pirojkov tərəfindən qoyulan 1 mln manat idi.

1902-ci ildə Xorin qolçomağı D.Dobdanov tacir İ.A.Zaquzin ilə birlikdə Xoxotuy stansiyasında ağac doğrama zavodu qurdular. Bu zavod hər il 80 min manat məhsul buraxırdı. Buryat tarixçisi İ.A.Alsaxanovun fikrinə görə isə buryat noyonlarıl yalnız kənd burjuaziyasının rəhbəri ola bilərdi. Bununla o, kapitalizmin Buryatının hər yerində inkişaf etdiyini göstərmək istəyirdi. Rus tədqiqatçısı Y.P.Kolmanov isə buryat kəndlərində kapitalizmin inkişafını, rusların Sibirə gəlişi ilə əlaqələndirirdi. 1907-ci ildə Şərqi Sibirdə ticarət-sənaye burjuaziyasının 160, 1917-ci ildə isə 190 nəfər nümayəndəsi var idi. Onları həyat yoldaşları və orta hesabla 2 uşaq hesabı ilə götürsək, 640-760 nəfər ola bilərdi.

Sibirdə kapitalist münasibətləri ləng inkişaf edirdi. Belə ki, 10 il ərzində sənaye-ticarət burjuaziyası 12% artmışdı.

# IV FƏSIL
# VOLQABOYU, KRIM VƏ SIBIR XALQLARININ MƏDƏNIYYƏTI

## *§1 Başqırd mədəniyyəti XVII-XVIII əsrlərdə*

XVII-XVIII əsrlərdə başqırdlarda məktəblər, mədrəsələr və ibtidai xalq məktəbləri fəaliyyət göstərirdi. Dərslər ərəb dilində keçilir və əsasən də ərəb dilini və Quranı öyrədirdilər. XVIII əsrin birinci yarısında Başqırdıstanda yüzlərlə məktəb və mədrəsələr fəaliyyət göstərirdilər.

Səyyar müəllimlər bir kənddən başqa bir kəndə gedərək uşaqlara dərs keçirdilər. Təhsil sahəsində çoxlu savadlı din xadimləri-mollalar, üləmalar çalışırdılar. XVIII əsrin birici yarısında Başqırdstanda rus dilini tədris etmək məqsədilə rus məktəbləri açılmağa başladı. XVIII əsrin 20-ci illərində Orenburq vilayətinin rəisi V.N.Tatışevin təşəbbüsü ilə dağ-mədən zavodlarının nəzidində ilk rus məktəbi açıldı. Burada rus uşaqları ilə bir birgə başqırd uşaqları da oxuya bilərdilər. 1734-1739-cu illərdə Orenburqda Başqırdstanın təbiətini və iqtisadiyyatını öyrənmək məqsədilə yaradılmış ekspedisiyasının rəhbəri I.K.Kirilovun təşəbbüsü ilə daha 2 məktəb açıldı. 1738-ci ildə V.N.Tatışev və Başqırd işləri üzrə Komissiyanın sədri L.I.Soymonov «Ufada yerli gənclərə rus dilinin öyrədilməsi»haqqında birgə qərar çıxartdılar. P.I.Riçkovun «Orenburqun tarixi» (1758) və «Orenburqun topoqrafiyası» (1762) əsərləri Orenburq diyarının tarixi, coğrafiyası və iqtisadiyyatının öyrənilməsində mühüm əhəmiyyət kəsb etmişdi. XVIII əsrin 60-70-ci illərində Başqırdstanda olan bir sıra rus alimləri bölgənin təbiəti, şəhərləri, etnoqrafiyası, tarixi və məişəti haqqında xeyli məlumat toplamışdılar.

Ufada ilk teatr 1772-ci ildə yaradılmışdı.

XVIII əsrdə başqırdların təcricən oturaq həyata keçməsi və əkinçiliklə məşğul olması maddi-mədəniyyətdə öz əksini tapırdı. Ufa ətrafında və digər əkinçilik rayonlarında əhali ağacdan düzəldilmiş daxmalardan ibarət kəndlərdə yaşayırdılar. Başqırd kişi və qadınlarının üst geyimi mahud kaftan və xəz şubadan ibarət idi. Geniş yayılmış paltar növü xalat idi. Kişilər başlarına ucu sivri olan xəz papaq qoyurdular. Qadın baş geyimi muncuq və metal pulla bəzənirdi. Məişətdə bəzi patriarxal qaydalar qalmaqda idi. Gəlin üçün kalım (başlıq) ödənilirdi.

Başqırdların «Ural-barı» mifoloji poemasında həyatın ölüm üzərində qələbəsi tərənnüm edilirdi. «Irkbay» poemasında ilə başqırdların monqollara qarşı apardığı mübarizə təsvir olunurdu.

Başqırdlarda Islam dini X-XI əsrlərdə yayılsa da, lakin onlar islama tamamilə XIV əsrdə keçmişlər.

Başqırlarda şifahi xalq ədəbiyyatının müxtəlif janrları: nağıllar, əfsanələr, mahnılar və epik poemalar olduqca geniş yayılmışdı. Şifahi xalq ədəbiyyatında isə xalqın azadlıq uğrunda apardıqları mübarizədən danışılırdı.

Başqırdlarda milli musiqi alətləri-kuray və kubızdan geniş istifadə edirdilər.

Başqırdıstanın yarımköçəri maldarlıq təsərrüfatı ilə məşğul olan əhalisi köç vaxtlarında *kubitkalar və şalaşlar* adlanan yurdlarda yaşayırdılar. Çöl zonalarında yaşayan ərazilərdə əhali daim yaşayış evləri olan yer qazma evlərində yaşayırdılar. Feodallar isə rus evlərinin tipində ağacdan evlər tikirdilər. Ağacdan evlər əsasən meşə və meşə-çöl zonalarında tikilirdi. Geyimləri əsasən pambıq və dəridən olurdu. XVIII əsrin ortalarında başqırdlarda dini-mədəni dil kimi ərəb, mülki-yazı dili kimi türk dilindən istifadə olunurdu. Ərəb dilində dini kitablar, yazılar yazılır-məktəb və mədrəsələrdə tədris bu dildə aparılırdı. Ərəb dilində xronika, hüquqi aktlar, şeirlər yazılırdı. XVII-XVIII əsrlərdə başqırdlarda xalq yaradıcılığı güclü surətdə inkişaf etməyə başladı. Bunlara misal çoxlu nağılları, əfsanələri, mahnıları və epik poemaları göstərmək olar. Geniş yayılmış tarixi qəhrəmanlıq mahnılarında başqırd xalqının azadlıq mübarizəsi tərənnüm olunurdu. Ən geniş yayılmış musiqi aləti *kuray* hesab olunrudu. Başqırdlar dodaqda çalınan *kubız*

(ağac və mentaldan hazırlanırdı) musiqi alətindən də istifadə edirlər. Dini məktəblərdə əyan və feodalların uşaqları təhsil alırdı. Məktəblərdə ilk başlanğıcda uşaqlara ərəb əlifbası keçilirdi. Bundan sonra şəriətin qanunları və quranın yeddinci hissəsi öyrədilirdi. Məktəbdən mədrəsəyə keçən şagirdlərə müsəlman qanunları, ərəb dilinin qrammatikası, ərəb fəlsəfəsi və s. elmlər öyrədilirdi.

Məktəb və mədrəsələrdə şagirdlər 10 il təhsil alırdılar. Təhsili başa vurduqdan sonra onlar molla olur və ya məktəbdə qalıb dərs deyirdilər. Mədrəsələrdən molladan başqa cəmiyyətdə savadlı adamlar hesab olunan abızlar da çıxırdı. Abızlar mirzəlik edir və istehsalatda işgüzar işlərlə məşğul olurdular. Başqırd feodalları da müsəlman məktəblərində, savadlı adamların hazırlanmasına maraq göstərirdilər. XVIII əsrin birinci yarısında onlarla məktəb və mədrəsələrin olması qeydə alınmışdı. Bəzi molla və abızlar kəndləri gəzərək uşaqlara savad öyrədirdilər. Qızlar isə savadlı deyildilər.

Müsəlman məktəbləri ilə yanaşı rus məktəbləri də açılırdı. V.M.Tatışevin məsləhəti ilə ilk rus məktəbi XVIII əsrin 20-ci illərində Ural zavodlarında açıldı. Bu məktəblərə yerli əhalinin də uşaqları qəbul olunurdu. Orenburq ekspedisiyasının rəisi I.K.Kirillovun layihəsinə görə 2 məktəb-riyaziyyat və humanitar məktəbləri açıldı. 1739-cu ildə bu məktəblərdən birində 15 şagird, bir müəllim, ikinci ildə isə 22 şagird, 2 müəllim qeydə alınmışdı. 1738-ci ildə Orenburq ölkəsinin baş rəisi V.I.Tatışev və başqırd işləri üzrə komissiyanın sədri L.Y.Soymonovun qərarlarına əsasən «başqa xalqların rus dilini öyrədililməsi» istiqamətində Ufada xüsusi məktəb açıldı və onun təşkili üçün 300 manat vəsait qoyuldu. Beləliklə, bütün məhdudiyyətlərə baxmayaraq çar

hökuməti yerli kadrların hesabına öz mövqelərini möhkəmləndirmək üçün maarifi də az da olsa inkişaf etdirirdi.

### *§2 XIX əsrin birinci yarısında Başqırdıstanın mədəniyyəti*

Feodalizm quruluşunun dağılması və kapitalizmin inkişafı Rusiyada milli mədəniyyətin inkişafına səbəb oldu. çar rejiminin ağır şərtlərinə baxmayaraq, XIX əsrin birinci yarısında rus mədəniyyətinin təsiri ilə başqırd mədəniyyəti-Rusiyanın koloniya əraziləri də inkişaf etdi.

Maarif. XIX əsrin əvvəllərində Başqırdıstanda Orenburq xalq məktəbləri və 2 illik *Ufim, Menzelinək, Buquruslan, Birsk, Çelyabinsk, Triaçk və Buzuluk* xalq məktəb-ləri var idi. Əsas xalq məktəblərində-oxu, yazı, həndəsə, cəbr, coğrafiya və başqa elmlər tədris edilirdi. Belə ki, tatar dilinin öyrədilməsi aşağı səviyyədə idi.

20-40-cı illərdə xalq məktəbləri uyezdlərdədə inşa edilmişdi. 1839-cu ildə Ufada, Orenburqda, Birskdə, Çeyabinskdə və başqa yerlərdə 2 illik məhəlli məktəblər fəaliyyət göstərməyə başladılar. Uyezd və məhəlli məktəblərdə 1850-ci ildə 400 adam təhsil alırdı. Bunlardan 33%-ni zadəgan uşaqları, 37, 6%-ni tacir uşaqları təşkil edirdi.

1828-ci ilin noyabr ayında Ufada 7 illik təhsilli gimnaziya açıldı. Əvvəlcə gimnaziyada yalnız 1 sinif fəaliyyət göstərirdi və 20 şagirdi var idi. 1846-1847-ci illərdə artıq Ufim gimnaziyasında 225 tələbə təhsil alırdı. Gimnaziyalarda latın dili, alman və fransız dilləri, logika, riyaziyyat, tarix, fizika və s. fənlər öyrədilirdi.

1832-ci ildə Orenburqda zadəgan qızları üçün xüsusi məktəblər açıldı. 1800-cü ildə Ufada artıq dini seminariyalar fəaliyyət göstərirdi.

XIX əsrin ikinci rübündə ərazidə ilk rus kəndliləri üçün məktəb

açıldı. 50-ci illərdə Başqırdıstanda 56 belə məktəblər fəaliyyət göstərirdi. Burda 2062 şagird və 58 müəllim var idi. Udel məktəbləri, bir sıra qeyri rus kəndlərində də açılırdı. Xüsusilə, mordva və çuvaşlar yaşayan yerlərdə.

XIX əsrin başlanğıcında Başqırdıstanda gecə qarnizon məktəbləri və hərbi məktəblər açılmışdı. Bu məktəblərdə müəllimlər *ofiserlər zabitlər* idi. 1849-cu ildə bu məktəblərin başqırd filialları açıldı ki, burada hərbi xidmət üçün kadrlar hazırlanırdı.

Qarnizon və hərbi məktəblərin müsbət əhəmiyyəti vardı. Burda kəndli, əsgər və kazak uşaqları təhsil alırdılar. 1824-cü ildə Orenburqda kadet korpusu açıldı. 40-cı illərin ortalarında kadet korpusunda 200-dən çox şagird təhsil alırdı, bunlardan 30-u başqırdlar idi.

Orenburq kadet korpusu 2 şöbədən ibarət idi. Birinci şöbə (Avropa), ikinci şöbə (Asiya). Burada təhsil 8 illikdir. I şöbədə rus dili ilə yanaşı, qərbi Avropa dillərindən, ikinci şöbədə isə şərq-ərəb, fars, eyni zamanda başqırd, tatar, qazax dillərindən istifadə olunurdu. Şərq dillərini tədris edənlər başqırd Səlimcan Kuklyaqev və Mirsalik Bikçurin idilər.

Ümumi və hərbi məktəblərlə yanaşı, dagzavod məktəbləri-dövlət və xüsusi məktəbləri də var idi. Dövlət dağzavod məktəbləri Zlatonstovsk, Satkins, Miassk zavodlarında, xüsusi məktəblər isə Katavsk, Arxanqelsk, Simsk və b. zavodlarda açılır. Zavod məktəblərində aşağı təbəqənin uşaqları oxuyurdular.

Başqırd uşaqları Rusiyanın bir neçə mərkəzlərində təhsil alırdılar. Məsələn, 1835-40-da Peterburq, Moskva və Kazanda 500 başqırd şagirdləri təhsil alırdılar ki, onlar müxtəlif sahələrdə

oxuyurdular.

XIX əsrin birinci yarısında artıq müsəlman dini məktəblər-mekteb (aşağı səviyyəlt mək.), mədrəsə (orta səviyyəli mək) fəaliyyət göstərirdilər. 60-cı illərdə Ufimdə 354 məktəb və mədrəsə fəaliyyət göstərirdi ki, burada 15 693 nəfər təhsil alırdı. Burada əsas yeri tatar və başqırdlar tuturdular. Məktəb və mədrəsələr kənd cəmiyyəti hesabına fəaliyyət göstərirdilər. Artıq XIX əsrin birinci yarısında yerlərdə məktəblər artıq müvəffəqiyyətlər qazanırdı.

Səhiyyə. Başqırdıstanda ilk tibbi müəssisələr XVIII əsrdə meydana gəlmişdi. Bunlar hərbi qospitallar idi. Ufada aptek açılır. 4 ildən sonra 1791-ci ildə Ufada xəstəxana fəaliyyət göstərməyə başladı.

1829-cu ilin payızında ölkədə xoleriya xəstəliyi yayıldı. Tez bir zaman ərzində Orenburqda xəstələrin sayı 250-ə çatdı. Xəstəlik 1831-ci ilin sonuna qədər davam etdi və 671 kəndi əhatə etdi, 1848, 1849 və 1853-cü illərdə bu xəstəlik ölkədə yenidən yayıldı.

XIX əsrin ortalarında Ufada türmə xəstəxanaları da fəaliyyət göstərirdi. Müdafiə nazirliyi başqırd hərbçiləri üçün xəstəxanalar açırdı. Burada başqırd həkimlərindən Arslan Subkanqulov və Xamit Şaripov çalışırdılar. Onlar Kazan universitetinin bitirmişdilər. 1836-cı ildə Kazana oxumağa 20 başqırd və tatar uşaqları göndərilmişdi.

Ölkənin öyrənilməsi, mətbuat. Başqırdıstanın təbiətinin və iqtisadiyyatının öyrənilməsi XVIII əsrin 30-cu illərindən başlamışdır. Bu işin təşkilatçıları 1734-1737-ci illərdə Orenburq ekspedisiyasının rəhbəri I.K.Kirillov və 1737-ci ildən bu ekspedisiyaya rəhbərlik edən V.N.Tatışev idilər. Bunların işlərinin Orenburq ərazisini öyrənən Riçkovun tədqiqatına böyük təsiri olmuşdur və onun ən mühüm

əsərlərindən «Orenburqun tarixi» və «Orenburqun topoqrafiyası» əsərlərini göstərmək olar. Bu əsərlərdə Orenburqun tarixi, coğrafi və iqtisadi əlaqələri öyrənilməsi Rusiya Elmlər Akademiyasının adı ilə bağlıdır. Bu işdə Pallas, Lepexin, Georgi, Riçkov və başqalarının adını çəkmək olar.

XIX əsrin birinci yarısında kapitalist əlaqələrinin inkişafı ilə əlaqədar Başqırdıstanın öyrənilməsinə maraq daha da artdı. Alimləri daha çox təbii ehtiyatlar və iqtisadi inkişaf maraqlandırırdı.20-30-cu illər Q.Karelin, Z.Qoşman, Q.Qelmersen, A.Qumboldt və Q.Roze Başqırdıstanda geoloji və oroqrafik tədqiqatlar apardılar. 1841-ci ildə Q.I.Şurovskiy «*Uralın sıra dağları haqqında»* əsərini çap etdirmişdir. Bu Uralın tam təsvirini vermişdir.

Bir qrup alimlər ölkənin bitki aləminin öyrənilməsi ilə məşğul olmuşlar. 30-cu illərdə X.F.Lessinq Cənubi Uralın bitki aləminin təsvirini vermişlər.

Başqırdıstan təbiətinin ətraflı öyrənilməsində E.A.Eversmanın böyük xidmətləri olmuşdur. O, *«Orenburqun təbii tarixi»* adlı əsərini yazmışdır. 1840-cı ildə o əsərin birinci hissəsini çap etdirmiş, 1850-ci ildə ikinci hissəni, 1866-cı ildə isə üçüncü hissəni çap etdirmişdir. Başqırdıstanın tədqiqi ilə yerli alimlər də məşğul olmuşlar. Məsələn, Jukovskiy 1832-ci ildə «Orenburqun qısa coğrafi və statistik təsviri» adlı əsərini çap etdirmişdir. Ölkədə böyük tədqiqat işlərindən birini də V.S.Yumatov aparmışdır. V.S.Yumatov XVII-XVIII əsrdə başqırd üsyanları haqqında geniş məlumat vermişdir.

Ölkəşünaslığın inkişafında yerli mətbuatın böyük xidmətləri olmuşdur. 1801-ci ildə Ufada ilk mətbəə açıldı. 1838-ci il yanvarın 1-də

Ufada *«Orenburq xəbərləri»* adlı qəzetinin ilk nömrəsi çıxdı. Bu qəzet həftədə bir dəfə çıxırdı. Əvvəlcə o, rəsmi hissədən ibarət idi ki, burda hökumət fərmanları və s. haqqında məlumat verilirdi. 1843-cü ildən 13 nömrədən başlayaraq ədəbiyyat hissəsi də çıxmağa başladı. 40-cı illərin sonu 50-ci illərin ortalarında artıq bu qəzetlə rus alimləri Xanikov, Zavyalov və Yumatov əməkdaşlıq etdilər.

Şifahi bədii yaradıcılığı. XIX əsrin birinci yarısında şifahi xalq yaradıcılığı geniş yayılmağa başladı ki, bunlar içərisində mahnı janrı xüsusilə fərqlənirdi. Bir çox xalq mahnıları yarandı ki, bu mahnılarda xalqın həyatı haqqındakı məlumatlar üstünlük təşkil edirdi.

Başqırd xalqının bütün həyat və mübarizəsi uzun-kyuda (asta templi musiqi) öz əksini tapmışdır. Bu başqırd musiqi mədəniyyətinin xəzinəsi sayılır. Uzun-kyu poeziyasında dramatik səhnələr üstünlük təşkil edir. Burada çox vaxt çar hökumətinin siyasəti və s. haqqında məlumt verilirdi. Belə mahnılara məsələn, «Buranbay», «Büş» və s. aiddir. Bu mahnılarda başqırd xalqının qanunsuzluğa qarşı mübarizə səsi üstünlük təşkil edir.

Xüsusi mahnılar içərisindən kanton rəhbərlərinə qarşı çıxışlar da üstünlük təşkil edir. «Kolay-kanton»da xalqın kanton rəhbərinə və onun tərəfdarı Yermola qarşı mübarizəsindən danışılır. Mahnıda göstərilir ki, Başqırdıstanda feodal-despotizminin və istismarının olmasının başlıca səbəbi çarizmdədir, «etbdulla-axın» mahnısında Orenburq axunu Etbdulla Davletşin ifşa edilir.

Digər mahnılardan biri isə «Kaqarman-kanton» adlanır ki, burada göstərilir ki, Kaqarman Burantulov özü şəxsən Peterburqa getmiş və Başqırdıstanda kanton inzibati sisteminin yaranmasını istəmişdi. Bu

mahnıların mənası ondan ibarətdir ki, burada təkcə konkret tarixi sifətlər göstərilmişdir. Burada xalqın istismarçılara qarşı nifrət hissi yüksəkdir.

XIX əsrin birinci yarısında başqırd hərbisinə aid çoxlu müsiqilər meydana gəldi. Xüsusilə, burada onların Orenburq hərbi xəttindəki xidmətləri göstərilmişdir. Bu tip musiqilər çox vaxt qəmli idi. Burda əsgərlərin vətən üçün darıxmaları bildirilir. Bu mahnılara «Ordu», «Uil» və «Vəhşi qazlar» misal göstərmək olar. Başqırd qəmli mahnılarının çoxunda başqırd ordularının ekspedisiyadakı iştirakları öz əksini tapmışdır. Belə yürüşlərdən biri 1839-cu ildə Orenburq general-qubernatoru Perovski tərəfindən Sır-Dəryaya olmuşdur və bu haqda *«Sır Dərya»* mahnısı yazılmışdır.

Başqırd xalq eposlarında Ural-başqırdların müqəddəs vətəni kimi göstərilir. Dastan batırları, Antey kimi çətin mübarizələrə gedərkən, Uralın sıra dağlarından ayrılmış qola gedir, ordan mavi daş götürür və qılınclarını itiləyirlər. Bundan sonra onlar məğlubedilməzdirlər. Onlara mifik Ural batırının pəhləvan gücü verilir. Xalq musiqisi olan «Eskadron»da göstərilir ki, onlar Napaleona qarşı mübarizəyə gedərkən öz qılınclarını Ural mavi daşına sürtməklə itiləyirlər.

XIX əsrin birinci yarısında başqırdlara onların hərbi xidməti müqabilində Orenburqda karavan-saraylar tikilməyə başlandı. Karavan-saraylar tikilməklə xalq Orenburqun mərkəzində mədəniyyət mərkəzi yaratmağa ümid bəsləyirdilər. Buna görə də başqırd xalqının çoxu sarayın tikilməsində iştirak etmişlər.

Karvansarayın tikilməsi ilə əlaqədar olan qəmli musiqilər öz əksini «Karavan-Saray» musiqisində tapmışdır. Burada başqırdların rus

çarizmi tərəfindən aldadılması göstərilmişdir.

Bəzi mahnılar isə şən xarakter daşıyır. Bu təbiətin canlanmasına, məhəbbət hisslərinə həsr edilmiş mahnılardır. Bunlar öz əksini *«Bülbül», «Salimakay»* və s. mahnılarda tapmışdır.

XIX əsrin birinci yarısında başqırd xalq musiqiləri özlərinin yüksək musiqi və poetik mədəniyyətləri ilə seçilirdilər. Musiqi bədii folklorunun inkişafında ümumbaşqırd yıyınlarının (xalq yığıncağı) böyük rolu var ki, burada da müğənnilər və s. iştirak edirdilər. Bir sıra nəsil və tayfa mahnıları burada məşhurlaşırdı.

*Başqırdıstan haqqında rus yazıçıları.* XIX əsrin I yarısında rus yazıçıları Başqırdıstan haqqında çoxlu əsərlər yazmışlar. Burada Başqırdıstandakı vəziyyət, xalqın rus çarizminə və xarici müdaxiləçilərə qarşı mübarizəsindən bəhs edilir. A.S.Puşkin, V.I.Dalya, S.T.Aksakova və başqalarının yaradıcılığında öz əksini tapmışdır. Puşkin birinci olaraq başqırdların rus və dünya ədəbiyyatındakı mövqeyindən bəhs etmişdir. Puşkin başqırdların 1773-1775-ci illərdəki kəndli müharibəsindəki iştiraklardan qeyd etmişdir.

*«Kapitan qızı»* əsərində o qulağı, burnu və dilləri kəsilmiş başqırdlar haqqında yazmışdır. Burada eyni zamanda başqırdların komendant Mironov tərəfindən istismarı göstərilmişdir. Dal da Puşkinin yaradıcılığını davam etdirərək Puqaçov üsyanları ilə maraqlanmışdır.

Dal daha çox başqırd folklorunu öyrənməyə cəhd göstərmişdir. O, əfsanələr, hekayələr, mifoloji əfsanələr yazır və musiqi alətini və onun istifadəsini təsvir etmişdir. Dalyanı daha çox başqırd xalq epik-lirik poeması olan «Başqırd su pərisi» maraqlandırırdı və bu xalq arasında «Zaya-Tulyak və Xıu-xlu» kimi tanınmışdır. Burada Başqırdıstanın

Rusiyaya tabe edildiyi dövr, cingizlərin yürüşləri, noqay xanları arasındakı mübahisə və onların azad olunması təsvir olunur.

Başqırdıstan haqqında daha çox S.T.Aksakov (1791-1859) yazmışdır. O, Ufada vəkil ailəsində anadan olmuşdur. Onun uşaqlığı Başqırdıstanda keçmişdir. Onun «*Ovçu hekayəsi», «Ailə xronikası», «Baqrov nəvəsinin uşaqlıq illəri»* kimi əsərləri vardır. Bu əsərlərdə o, Orenburqun zəngin təbiəti haqqında yazmışdır. «Ailə xronikası» əsərində isə o başqırd qımızını (at südündən hazırlanmış içki) göstərmişdir.

Aksakovun əsərlərinin çoxunda sosial əlaqələr haqqında danışılır. Yazıçı Ufa sakinlərinin yaşayış tərzini və mülkədar təhkimçilərinin vəziyyətini təsvir etmişdir.

«Baqrov nəvəsinin uşaqlıq illəri» isə o, Kurulesov haqqında yazmışdır ki, onun təhkimçiləri döyməsi, onları günahsız yerə öldürülməsi və s. təsvir olunur.

Başqırdıstan haqqında yazanlardan biri də M.Z.Mixaylov olmuşdur (1829-1865). O, 1857-ci ildə «*Başqırdıstanın oçerkləri»* adlı məqaləsini yazmışdır. Onun əsərləri içərisində «Ural oçerk»ləri də özünəməxsus yer tutur. O, burada ümumi qazaxların həyatının təsvirini verir.

Xüsusi seçilənlərdən biri də P.M.Kudryaşevdir. o, ilk dəfə olaraq rus dilinə Salavat Uulayevin mahnılarını tərcümə etmişdir. O göstərmişdir ki, Salavatın sözlərinə musiqini rus bəstəkarı A.A.Alyabev bəstələmişdir. *«Abdryaş»* və *«Abdraxman»* povestlərində isə o, Başqırdıstanın təbiəti haqqında yazmışdır. O hətta Puqaçov üsyanı haqqında məlumat vermişdir.

Teatr. Başqırdıstanda ilk teatrın açılması XVIII əsrin 70-ci illərinə

təsadüf edir. 1772-ci ildə Ufada Puşkin küçəsində Nikita Majorovanın binasında ilk səhnə açıldı və 2 dəfə Polşa dilində «Pan Bronislav» operettası göstərildi. Sonra onlara teatr göstərmək qadağan edildi və Ufa uzunmüddət teatrsız qaldı. Yalnız 30-cu illərdə zadəganlar və məmurlar məhəbbət tamaşalarının verilməsinə yardımçı oldular.

1841-ci illərdə Ufada Sokolovun başçılığı ilə ilk professional teatr truppası yaradıldı. Truppa Kazandan gəlmişdi və 14 nəfərdən ibarət idi. Aktyorların içərisində Sokolov istedadlı aktrisa E.A.Ivanova və müğənni Qolovin var idi. Operalar da təşkil olunurdu. Dramatik pyeslər içərisindən “Revizor”u, “Müfəttiş”i  misal gətirmək olar.

### *§3 XIX əsrin ikinci yarısında Başqırdıstanın mədəniyyəti*

Ölkədə təhkimiçlik hüququnun ləğvi, sosial-iqtisadi dəyişikliklər Rusiya və başqırdların mənəvi və dini mədəniyyətinə öz təsirini göstərdi. Kapitalizm dövründə bütün xalqların mədəniyyəti 2 qrupa bölünür:

*1) Hakim qüvvələrin mədəniyyəti*

*2) Demokratik elementli mədəniyyət*

Hakim mədəniyyət istismarçı sinifin mənafeyini əks etdirirdi. Çarizm  xristian dinini və rus dilini xalq arasında yayırdı.

Bu dövrdə Çernişevski, Dobrolyubov öz yaradıcılıqlarında demokratik fikirləri təmsil edirdilər. Rus mədəniyyətinin demokratik inkişafı başqırd mədəniyyətində də öz izini göstərdi.

Başqırd xalqlarının maddi və məişət mədəniyyəti. Kalonizasiya dövründə başqırdların yerli əhalisi gəlmə xalqlar arasında bir-birindən ayrı salındı. Başqırdlar qruplara bölündülər. Uralarxası, Samara və Perm quberniyalarının sərhədlərində yaşayanlar və menzelin başqırdları-hansı

ki, tatarların mədəniyyətinin təsirinə məruz qalmışlar və çox hissəsi assimlyasiyaya uğramışlar. Başqırdların yığcam qruppasını dağlıq cənub-şərqdə yaşayanlar təşkil edirdilər. Ölkənin digər ərazilərində, xüsusilə qərb və şimalında başqırdların çoxu ruslar, tatarlar, çuvaşlar, marilər, mordvalarla qaynayıb-qarışmışlar. Etnik dəyişiklik və mədəniyyətə təsir göstərməyə bilməzdi. Ölkənin iqtisadi inkişafında ruslar böyük rol oynayırdılar. Rus kəndliləri başqırdlara 3 tarlalı əkin sistemini göstərdilər. Rus kəndlilərinin göstərişi ilə onlar bağçılıqla və kustar sənayenin digər növləri ilə tanış oldular.

XIX əsrin sonunda rusların axını daha da güclənmişdi. Gəlmə rusların başlıca məşğuliyyəti əkinçilik idi. Ilk olaraq, rus kəndliləri böyük olmayan kəndlərdə məskən salırdılar.

Rus kəndlilərinin geyimləri köynəklərdən, göy evdə tikilmiş şalvarlardan ibarət idi. Kişilərin qış geyimi şubalardan, qalın papaqlardan, yay geyimləri isə boz evdə tikilmiş şalvardan, baş geyimi isə kartuz və ya şlyapalardan ibarət idi. Bayram geyimləri adətən çit qırmızı köynəklərdən və plis şalvarlardan ibarət idi. Qadınlar isə evdə tikilmiş və kətan göy sarafanlar, kətan köynəklər və dolaqlar geyinirdilər. Bayramlarda qadınlar bəzənirdilər və dəri başmaq geyinirdilər.

Ruslar onların mədəniyyətinə, məişətinə və dillərinə təsir edirdilər. Onların da rus mədəniyyətinə təsirləri olmuşdur. Cənubi Ural rus kəndlilərinin dillərində tatar və ya başqırd dilli sözlərə rast gəlinir. Rus kəndliləri başqırdlardan bir çox şey öyrəndilər. Bu onların maddi mədəniyyətində daha çox özünü büruzə verir. Steplərdə çöllərdə yaşayan ruslar onlardan saman ev tikmə qaydalarını öyrəndilər.

Başqırdların da maddi və məişət mədəniyyətində bir sıra

dəyişmələr baş verdi.

XIX əsrin sonunda başqırdların bostançılıq və əkinçiliyə keçmə prosesi başa çatdı. Düzdür, şərqi və cənub-şərqi Başqırdıstanda mal-qara sürüsü saxlanılırıdı, amma oturaq təsərrüfatla qarışmırdı. Əkinçilik 3 tarlalı idi. Kənd təsərrüfatı alətləri ruslardan və tatarlardan borc alınırdı. XIX əsrin sonnuda qolçomaq təsərrüfatlarında təkmilləşdirilmiş əkinçilik alətlərindən istifadə edilirdi. Bəzi rayonlarda ovçuluq saxlanılırdı. Baxmayaraq ki, onun sənayesi aşağı düşmüşdü. Kustar sənaye sahələri inkişaf etməyə başladı.

Qərb hissədə başqırd kəndləri öz quruluşuna və yerləşməsinə görə rus, tatar və çuvaş kəndlərindən seçilmirdi. Uralarxası Başqırdıstanda böyük olmayan kəndlər üstünlük təşkil edirdilər. Başqırdlar müxtəlif tipli yaşayış məskənlərini saxlayırdılar. Yayda Uralarxası başqırdlar alaçıqlarda yaşayırdılar.

Müxtəlif növlü yaşayış məskənləri ilə Qərbi Başqırdıstan fərqlənirdi.

Şimal-qərbi başqırd rayonlarının yaşayış məskənləri *Volqa-Kama* xalqları üçün əsas idi.

Evlərin daxili quruluşuna gəlincə burada peçlərlə yanaşı, başqırd evlərində taxtalar var idi. XIX əsrdə qərbi başqırdların evlərində rusların təsiri ilə stollar, stullardan və kəndli çarpayılarından istifadə olunmağa başlandı.

XIX əsrin sonu XX əsrin əvvəllərində qərbi başqırdlarda tatar geyimləri görünməyə başlayır. Milli başqırd geyimi hələ öz ənənəsini Şimali Başqırdıstanda qadın geyimlərində saxlamaqda idi. Kişilər burjua əlaqələrinin inkişafı ilə bağlı olaraq, ruslarla və ölkənin digər əhalisi ilə

əlaqə yaratmaları onların milli geyimlərinin itirilməsi ilə başa çatmışdı. Bunu da qeyd etmək lazımdır ki, Başqırdıstanda kişilər kimi, qadınların da geyimi daha çox fabrikdə tikilirdi. Başqırdların qərbi və şimal-qərbi rayonlardakı tatarlarla əlaqəsi onların dillərinə təsir etməyə bilməzdi. Bu ərazilərin başqırdları tədricən tatar dilində danışmağa başlayırdılar.

Tatarlar təsərrüfat və mədəniyyətə də təsir göstərirdilər. Başqırdıstanda onlar xüsusi qruplara bölünürdülər ki, bunlardan Ural tatarları məişət və dillərinə görə kəskin fərqlənirdilər. Tatarların birinci hissəsi başqırdlarla assimlyasiyaya məruz qalmışlar.

Əkinçiliklə yanaşı, tatarlar sənətkarlıq və kustar sənaye ilə məşğul olurdular. Onlar çay və göllər ətrafında məskən salırdılar. Tatarlar iki kameralı daxma tikirdilər. Çuvaşlar Belebevsk və Birsk qəzalarda Başqırdıstanda yaşayırdılar. Onların məşğuliyyəti hələ qədimlərdən əkinçilik idi. Belə ki, əkinçilik təsərrüfatı və kənd təsərrüfatı alətləri arxaik formada olaraq qalırdı. Çuvaş kəndləri çay və göl ətrafında yerləşdiyinə görə yaşıllıqla örtülü idilər. Çuvaş evləri iki kameralı idi. Onların geyimləri tatarların geyimlərinə yaxındır. Çuvaşlar rəsmi olaraq xristianlar hesab olunurdular.

Marilər Birskdə, mordvalılarla birlikdə Belebeevsk, Ufim və Menzelin uyezdlərində yaşayırdılar. Udmurtlar Ufimin şimal sərhədlərində yaşayırdılar. Mordva, mari və udmurtların başlıca məşğuliyyəti üç tarlalı əkin siteminə malik əkinçilik idi. Mordva və marilərin ən qədim məşğuliyyətlərindən biri meşə arıçılığı idi. XIX əsrin sonlarından kustar sənayesi inkişaf edir. Mari, mordva və udmurtların yaşayış məskənləri ruslarınkından az fərqlənirdi. Onların başlıca yaşayış yeri tirdən düzəldilmiş daxma idi. Mordva və marilər step rayonlarında

saman komaları tikirdilər. Daxili ev quruluşları ruslarınkından fərqlənmirdi.

Mordva mari və udmurtların kişi kostyumları rus kostyumlarından az fərq-lənirdi. XIX əsrdə mordva mari və udmurtlar xristianlar hesab olunurdular.

Maarif. XIX əsrin ikinci yarısında ölkənin xalq təhsilində irəliləyişlər baş verdi. Ufimdə 746 məktəb, 8 rus sinifli 254 məktəb və mədrəsə açıldı. Bu dövrdə Orenburqda 925 məktəb açıldı.

Xalq kütlələrinin təhsilə marağı o qədər güclü idi ki, artıq sərbəst kəndli məktəbləri yaranırdı. Məsələn, 1869-cu ildə Orenburq qəzasının Sutkulov kəndində qızları rus təhsili ilə bağçılıq və evçiliyə öyrədirdilər.

Məktəblər çox ciddi nəzarət altında yerləşirdi. Təlim-tərbiyə işlərinə rəhbərliyi qəza və quberniya şuraları edirdi. 1874-cü ildə müstəqil Orenburq təhsil dairəsi yarandı. Bura Ufim, Vyat, Ural, Turqay tədris şöbələri daxil edildi.

Məktəblərdə təhsil quruluşu eyni deyildi. Zemstvo mktəbləri daha savadlı müəllim kadrlarına, daha yaxşı təhsil ehtiyatlarına malik idi. Ən pis məktəblər kilsə məktəbləri idi. Burada ən çox diqqət dinə verilirdi. Burada müəllimlər bir qayda olaraq-ruhanilər, dyakonlar (aşağı rütbəli keşiş) və dyakon arvadları idi. Məktəbin fəaliyyətinin bütün ağırlığı valideynlərin üzərinə düşürdü, ona görə də kəndlilər zemstvo məktəblərini üstün tuturdular.

Xaricilər üçün məktəblər ayrı idi. Mari, çuvaş, mordva və udmurt məktəblərində təhsil ruslaşdırma sistemi əsasında aparılırdı. Rus-başqırd və rus-tatar məktəb-lərində rus dili əsas götürülürdü. Rus-başqırd və rus-tatar məktəbləri 2 illik və 4 illik qruplara bölünürdü. Bğu məktəblərdə

rus dili, cəbr, səlist yazı və s. öyrədilirdi. Varlı uşaqları təhsil alan 4 illik məktəblərdə internatlar da var idi.

Rus-başqırd və rus-tatar məktəbləri xalqın maariflənməsində böyük rol oynayırdılar. Belə ki, çarizmin ruslaşdırma siyasəti qeyri-rus xalqları arasında narazılığa səbəb oldu.

Bəzi rus-başqırd və rus-tatar məktəbləri yerləşən uyezdlərdə məktəblərin müqaviməti o qədər güclü idi ki, 1873-cü ilin fevralında Ufim qubernatoru Tevkeleyev axund və mollalara müraciət etməyə məcbur oldu. Amma onun müraciəti heç bir nəticə vermədi. Tədricən məktəblərdə oxuyanların sayı azalmağa başladı və XIX əsrin sonunda rus-başqırd məktəb və sinifləri bağlanmağa başlandı.

Ufim və Orenburqda orta təhsilli gimnaziyalar fəaliyyət göstərirdi. Bütün bu təhsil müəssisələrində oxuyanların sayı XIX əsrin sonunda 1767 nəfər idi. 1864-cü ildə gimnaziyalarda bütün təbəqələrin təhsil almasına icazə verildi. Amma yüksək təhsil haqqı buna imkan vermirdi. 1869-cu ildə Ufim gimnaziyasında müsəlmanlara islam dininin keçilməsinə icazə verildi.

Ümumtəhsil və dini məktəblərindən əlavə hərbi məktəblər də var idi. 2 kadet korpusu və 1 yunker peşə məktəbi. Bunların hamısı Orenburqda yerləşirdi. Yunker peşə məktəblərində zadəgan uşaqları – 45%, kazaklar – 54%, ruhani uşaqları isə – 1% təşkil edirdi. 1894-cü ildə isə 2 kadet korpuslarında oxuyanların sayı 625 nəfər idi. 604 rus, 21 başqırd, tatar və qazaxlar idi. Yunker peşə məktəblərində təhsil alanların hamısı ruslar idi. Kadet korpuslarında qədim dillərlə yanaşı, fransız və alman dilləri də tədris edilirdi. Bundan əlavə, qeyri ruslara öz dillərini öyrənmək də icazə verilirdi.

1872-ci ildə Ufada ilk tatar-başqırd müəllimlər seminariyası açıldı. Təhsil müddəti 4 il idi. Bu dərslərlə yanaşı, bir sıra sənət sahələri də öyrədilirdi. Orenburqda bu məktəb gözlənilən nəticələri vermədiyinə görə 1889-cu ildə bağlanıldı. Tatar-başqırd müəllim seminariyalarında qarşıya qoyulmuş məqsədlərdən əlavə burada başqırd və tatar mədəniyyətinin inkişafına səy göstərilirdi.

1882-ci ildə Birskdə müəllimlər seminariyası açıldı. Məktəbin əsas məqsədi mari, çuvaş və b. xristian dinini mənimsətməkdən ibarət idi.

1876-cı ildə Blaqoveşendə rus müəllimlər seminariyası açıldı. 1893-cü ildən seminariyaya hər ilə 3 başqırd qəbul olunmağa başlandı. Dörd il ərzində cəmi 10 başqırd qəbul edilmişdi. 1897-ci ildə başqırd qəbulu şöbəsi bağlandı.

Artıq müsəlman dini məktəbləri çoxalmağa başladı. Əvvəldə olduğu kimi, burada təhsil sxolostika xarakteri daşıyırdı.

Xalq təhsilinin genişlənməsi oxucu dairəsini də genişləndirdi. Qəzet və jurnalların miqdarı artdı. Kitabxanalar və kitab mağazaları yaranmağa başlandı.

1835-ci ildə Ufada zadəgan binasının qarşısında kitabxana açıldı.

Səhiyyə. Təhkimçilik qanununun ləğvi dövründə Başqırdıstanda müalicə binaları azlıq təşkil edirdi. Ufimdə 1865-ci ildə cəmi 22 xəstəxana fəaliyyət göstərirdi.

1876-cı ildə Ufimdəki dəlixana əqli cəhətdən zəif olan xəstəxana adı altında fəaliyyət göstərməyə başladı. 1890-cı ildə buranın müdiri həkim Suxov oldu. 1895-ci ildə psixoxəstəxana açılmağa başladı. XX əsrdə Ufim psixoxəstəxanası digər xəstəxanalar içərisində ən yaxşılardan birinə çevrildi.

Qəza şəhərlərində xəstəxanalar çoxalmağa başladı. 90-cı illərin ortalarında Ufimdə 48 xəstəxana, 22 zemstvo, 13 zavod, 12 türmə və məktəb xəstəxanaları var idi.

Orenburqda isə 32 xəstəxana, 6 şəhər, 5 türmə, 10 kənd xəstəxanaları var idi.

1882-ci il  Ufa bütün zemstvo həkimlərinin tibbi cəmiyyəti sayılır.

Mətbuat. Ölkənin mədəniyyətinin inkişafında mətbuatın böyük xidmətləri olmuşdur. 1865-ci ildə Orenburq quberniyası – Ufim və Orenburqa bölündükdən sonra Ufada çıxarılan «Orenburq quberniya xəbər»ləri adlı qəzeti, Ufim quberniya xəbərləri qəzetilə əvəz olundu. 1866-cı ildə Orenburqda quberniya mətbəəsi yaradıldı ki, 1867-ci ildən Orenburq quberniya xəbərləri çıxmağa başladı. «Ufim quberniya xəbər»ləri kimi bu da çar inzibatinin yerli rəsmi orqanı idi. Bu qəzetin səhifələrində çar orqanlarının aktları, yerli xəbərlər və s. haqqında danışılırdı. 1897-ci ilə qədər «Ufim quberniya xəbərləri» qəzetinin qeyri-rəsmi hissəsini başqırd tədqiqatçısı N.A.Qurviç çap etdirirdi. 1897-ci ildən «Orenburq quberniya xəbər»lərinin qeyri rəsmi hisssəi başqırd adı ilə əvəz olundu və gündəlik cəmiyyət-ədəbiyyat siyasət qəzetləri şəklində çıxmağa başladı.

Daimi qəzetlər meydana gəldi. 1871-ci ildə «Ufim vərəqi», 1876-cı ildə isə «Orenburq vərəqi» qəzeti çıxmağa başladı. Bu siyasi qəzet idi. 1892-1896-cı illərdə Orenburqda ədəbiyyat-siyasi və iqtisadi qəzet olan, «Orenburq əyaləti» çıxmağa başladı. «Orenburq vərəqi» kimi bu qəzet də burjua qəzeti idi.

XIX əsrin ikinci yarısında mətbuat elmi orqanı yaranmağa başladı. 1875-ci ildən Orenburqda «Orenburq təhsili»nə aid qəzet çıxmağa

başladı. burada II Yekatirina və I Pavelin əmrləri öz əksini tapmışdı. Ufada «Ufa təqvimi», «Ufimin təqviminin ünvanı», «Ufimin abidələr kitabı», «Ufimin məlumat kitabçası» və s. qəzetlər çap olunurdu. Qəzetldər və kitablar rus dilində çıxırdı.

Muxamet-Salem Umetbayev. Ölkənin tədqiq edilməsində Muhamed-salim Umetbayev fərqlənir. O, Başqırdıstanın öyrənilməsinə böyük səy göstərmişdir. Onun arxivində «Tarixi zaviskalar» qalmışdır ki, bu da onun «Yadkar» adlı kitabında öz əksini tapmışdır. Burada başqırdların keçmişinə aid çoxlu məlumatlar var. O, həmçinin tatarlar haqqında məlumat vermişdir. Onun «Tatar qrammatikası» adlı əsəri vardır. Burada tatar dilinin xırdalıqları haqqında yazmışdır. O, ilk dəfə olaraq ana dilində qrammatik terminlər yaratmışdır. O, folklorla maraqlanmış şeirlər yazmışdır. Ömrünün son günlərini pis keçirmiş və 1907-ci ildə ölmüşdür.

Mahnı və musiqi. Ədəbiyyat. Xalq mahnıları başqırd folklorunda özünəməxsus yer tutur. Burada xalqın milli xarakteri göstərilmiş, musiqinin yüksək sirləri açılmışdır. Rus etnoqrafları başqırdların məişət və mədəniyyəti ilə maraqlanarkən, onların poetik-musiqi yaradıcılığını yüksək qiymətləndirmişlər. Rıvakov onların musiqilərinə böyük qiymət vermişdir.

XIX əsrin ikinci yarısında başqırd xalq musiqiləri olan-uzun-kyuy və kıska kunu inkişaf etmişdir. Kıska-kunu daha çox inkişaf etmişdir. Kıska-kunu (cəld musiqi) özü qruplara bölünür: Həqiqi kıska-kulu, takmaki, biyu-kulu və cəld instumsental pyeslər. Bu janrda ən böyük rol ondan ibarətdir ki, burada canlı və azad ritmik hərəkətlər üstünlük təşkil edir. Kıska-kuluya ən gözəl nümunələrdən biri «Salavat» ola bilər. Bu

hələ XVIII əsrin son rübündə yaradılmışdır. Kıska-kyuyunun ən gözəl nümunələrpindən biri ovçuluq mahnısı olan «Iryandik»dır. XIX əsrin ikinci yarısında kıska-kyuda sosial-məişət problemləri üstünlük təşkil etməyə başladı.

XIX əsrin ikinci yarısından başlayaraq uzun-kunu ilə kıska-kunu birləş-dirilməyə başladı. Oyun havaları da böyük dəyişikliyə məruz qaldı. Biyu-kulu ilə birlikdə yeni janr – takmak meydana gəlir. Öz yarandığı dövrdə takmaklar daha çox məişət problemlərini əhatə edirdi. Takmakların ən bariz nümu-nəsi «Salxım meşə gilası»dır.

Tədricən takmakların əhatə dairəsi genişlənməyə başlayır. Burada artıq məhəbbət, gülüş, yumor və s. əsas yer tutmağa başlayır. Takmakların inkişafında rus musiqisinin və qarmonun böyük rolu olmuşdur.

XIX əsrin sonunda sənayenin inkişafı ilə əlaqədar olaraq sənaye mahnıları üstünlük təşkil etməyə başlayır.

Başqırd ədəbiyyatının ən görkəmli nümayəndələrindən-Tajetdinas Yalsu-qulovun (1767-1837), Qaliyem Sokrıy (1826-1889), Şamsetdin Zakiy (1825-1865), Miftaxetdin Akmulla (1831-1895) göstərmək olar.

Başqırd ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri M.M.Akmul-ladır. O, şeirlərinin çoxunu «türki» dilində, hekayələrini isə qazax dilində yazmışdır. Akmulla realist olmuşdur. Onun şeirləri ölümündən sonra toplu şəklində çıxmışdır. 1912-1916-cı illərdə Traçda çıxan satirik jurnalı «Akmulla» adlanırdı.

Rus yazıçıları Başqırdıstan haqqında. Başqırdıstan haqqında məlumat verən rus yazıçılarından biri L.N.Tolstoy olmuşdur. O, «Ilyas» adlı əsərində başqırd xalqının yaşayışı və məişəti haqqında məlumat

vermişdir.

Başqırdıstan haqqında məlumat verənlərdən biri də F.D.Nefedov olmuşdur. o, Puqaçov üsyanı ərəfəsində «Başqırdlar arasında hərəkat» adlı əsərində başqırdların keçmiş tarixi, məişəti və adət-ənənəsi, Başqırdıstanın Rusiyaya birləşdiril-məsindən danışılır. Eyni zamanda əsərin çox hissəsində Salavat Yulayev haqqında danışılır. A.Möqorki özünün «Lal» adlı əsərində başqırd xalqının sevimlisi Yuzqlyarın obrazını yaratmışdır.

Teatr. Başqırd mədəniyyətinin inkişaf etmiş sahələrindən biri də teatrdır.

Teatr səhnələrində «Canavarlar və ovçular», «Beluqinin evlənməsi» və s. əsərlər oynanılırdı.

1892-ci ildə qış teatrı, 1893-cü ildə isə Orenburq teatrı ölkənin əsas teatrlarından biri idi.

### *§4 Çuvaşiya mədəniyyəti*

Tədqiqatçı I.Q.Georgi yazırdı: «Volqaboyu xalqları olan mari, mordva və ravaşların mədəniyyətində ümumi cəhətlər çoxdur. Hətta burada məskunlaşan Çeremisov rus kəndlilərini məişətlərinə, əkinçilik mədəniyyətinə, maldarlıq təsərrüfatına, yemək və içməklərinə görə çuvaş kəndlilərindən fərqləndirmək qeyri-mümkündür». Çox da böyük olmayan kəndlər meşədə yerləşirdi və kənd ancaq yaxın qohumlardan ibarət olurdu. Kvadrat formalı evlərdən istifadə olunurdu. Evin içərisində rus peçi, yataq yeri və ocaq yeri olurdu. Geyimləri bir-birinə nə dərəcədə oxşasa da hər bir xalqın özünəməxsus xüsusiyyəti seçilirdi. Xüsusilə,kişi geyimləri özlərinə məxsus bəzəklər ilə seçilirdi. Qadın geyimləri

pulcuqlarla bəzədilirdi. Qış baş geyimi olurdu.

Ağac üzərində işləmə sənəti çuvaşlarda yüksək inkişaf etmişdi. Milli musiqi alətləri-özünəməxsus valinki və quslilərdən ibarətdir və müxtəlif rəqsləri var. Hər bir xalqın özünəməxsus mahnı, nağılı, atalar sözləri var.

Kapitalizm dövründə Çuvaşiyanın maddi mədəniyyətində bir çox dəyişikliklər baş verdi. Kəndlərin xarici görkəmi dəyişdi. XIX əsrin 70-ci illərindən etibarən hökumətin qərarı ilə evlər planlı surətdə tikilməyə başlandı. Əvvəlki patriarxal ailələrin toplaşdığı, əyri küçələri, dalanları olan məhəllələr əvəzinə, indi evləri planlı surətdə tikilən və kəndə iki tərəfdən girən iki tərəfli küçələri olan kəndlər salınırdı. Əvvəlki komaya (daxmaya) bənzəyən alçaq evlər indi bir qədər hündür kvadrat formalı evlərlə əvəz olunurdu. Qolçomaq və mülkədarların evləri görkəminə görə indi daha aydın seçilirdi. Evlər daşdan tikilir, üst damı isə kərpic və ya dəmir örtüklə qapanırdı. Evlərin içərisi rus üslubunda qurulurdu. Şam əvəzinə neftlə yanan lampadan istifadə olunurdu. Milli geyimlərində dəyişikliklər baş verirdi. Kişilər rus tipli pencəklər, kurtkalar, dik yaxalıqlı köynəklər, çəkmələr və s. geyim vasitələrindən istifadə etməyə başlamışdılar. Qadınların da geyimləri dəyişirdi. Onların uzun ağ paltarlarını fabrik paltarları əvəz etmişdi.

Maarif. 1864-cü ildə qeyri-rus xalqlarına aid olan «Ibtidai Xalq məktəblə-rinin vəziyyəti haqqında» əsasnamə verildi. Bu andan etibarən Çuvaşiyada məktəblərin sayı artmağa başladı. Hətta kilsə-missioner məktəblərinin də nəzdində dünyəvi məktəblər açılmağa başlamışdı. Məktəblərin tikilməsinə zemstvo idarələri kömək edirdilər. Çar hökuməti təhsili yenə də kilsənin tabeçiliyində saxlayırdı. Məktəblərdə

əsas məqsəd «dini mütilik və çara inam» hissini aşılamaq idi. Əsas elmlərin tədrisi isə 2-ci dərəcəli iş hesab olunurdu. Qeyri-rus məktəblərində N.I.Jeminski metodu ilə, qeyri-rus uşaqları ibtidai təhsillərini öz doğma dillərində almalı idilər. Bu məktəblərlə yanaşı, 1867-ci ildə Kazanda «Quriya müqəddəs qardaşlığı» missioner idarəsi yaradıldı, hansı ki, bütün bu sistemə o rəhbərlik etməyə başladı. Bütün bunların nəticəsi olaraq Çuvaşiyada bir neçə tipdə məktəblər yarandı: nazirliyin tabeliyində olan bir sinifli və iki sinifli ibtidai məktəblər zemstvo ibtidai və ali ibtidai məktəblər, dini məktəblər, missioner (qardaşlıq), ibtidai və iki sinifli məktəblər. Qeyri-rus məktəblərində tədris edən müəllim kadrını hazırlayan müəllimlər seminariyası təşkil olundu. Ilk belə məktəb müəllim missionerlər hazırlayan və 1863-cü ildə Kazanda açılan mərkəzi xristian tatarları məktəbi idi. Bu məktəbdə tatarlardan başqa çuvaşların da ayrıca nümayəndəsi təhsil alırdı.

1872-ci ildə Kazanda «xarici» müəllimlər seminariyası açıldı. Hansı ki, bu məktəbdə ruslar, xristian tatarları, udmurtlar, marilər, çuvaşlar, mordvalar, başqırdlar, komilər və başqa xalqların nümayəndələri oxuya bilərdilər. Onun arxasınca Birski «xarici» müllimlər məktəbi, sonra Işakov «Quriya müqəddəs qardaşlığı»nın Mərkəzi çuvaş məktəbi Şixazan ikinci sinifli müəllimləri hazırlayan məktəb açıldı. 1868-ci ildə Simbirskidə mərkəzi çuvaş məktəbi açıldı. Hansı ki, 1890-cı ildə o müəllimləri hazırlayan məktəbə çevrildi. Ancaq onu da demək lazımdır ki, burada müəllimlər 1876-cı ildən hazırlanırdı. 1878-ci ildə bu məktəbin nəzdində iki sinfili qadın şöbəsi də açıldı. Elə bu məktəbdə 1903-cü ildən qadın müəllimləri hazırlayan kurs fəaliyyətə başladı. Inqilaba qədər 1000 nəfərdən çox çuvaş məktəbləri üçün

müəllim hazırlanmışdır. Məktəblərin açılmasına baxmayaraq, çuvaş uşaqları məktəblərə zəif cəlb olunurdular. 1876-cı ildən 1914-cü ilə qədər Volqaboyu çuvaş rayonlarının nazirlik və zemstvo məktəblərində 249 şagird dini və «qardaşlıq» məktəblərində isə 272 nəfər şagird təhsil almışdı. Ümumilikdə, 27 000 uşaq təhsil almışdı. Təhsildən kənarda qalmış uşaqların sayı isə 75-80 000 nəfərə çatırdı. Savadlılıq səviyyəsi aşağı idi. 1897-ci ildə Kazan quberniyasında kişilərin 13,2 %i, qadınların isə 1%-i savadlı idi.

Çuvaşiyada çox da böyük olmayan, 5-10 min cild kitab fondu olan 5 kitabxana fəaliyyət göstərirdi. Kitabxanalardan istifadə pullu idi. I Dünya müharibəsi ərəfəsində 1000 nəfər mədəniyyət işçisi qeydə alınmışdı.

Tibb. Çar hökuməti 1864-cü il islahatından sonra bütün tibb xidmət sahələrini zemstvoların üzərinə qoydu. 1866-cı ildə Yadrində, Sivildə, Çeboksarda xəstəxanalar və apteklər açıldı. Bununla yanaşı, böyük Sundurda tibbi qəbul məntəqəsi, Batırevdə isə feldşer məntəqəsi açıldı. Təsdiq olunmuş əsasnaməyə əsasən qəzaların əraziləri sahələrə bölündü. Belə ki, Çeboksar ərazisi 4 sahəyə bölünmüşdü: Çeboksarın 50 min əhalisinə bir həkim, iki feldşer, Mariın-Pasada (30 min adama)-1 həkim, iki feldşer, Akulevə (35 min adama)-2 həkim, dörd feldşer, Kozlovda (40 min adama) 3 həkim, iki feldşer təyin olunmuşdu. Beləliklə, Alatır qəzası-4 sahə, Sivil və Yadrin qəzaları üç sahəyə bölündü. Sahələrin çoxusu 1880-cı ilə qədər fəaliyyət göstərməmişdir. Əhali daima xolera, ospa, tif, dizenteriya, trakoma, malyariya xəstəliklərindən əziyyət çəkirdilər. Bu ağır şəraitdə xalqın tibbi xidmətində duran Zemstvo idarələrinin rus həkimləri idi. Bu məşhur

həkimlərdən S.P.Petrov, M.S.Vişnevski, N.S.Petrov, Q.A.Nikolski, V.A.Arxanqelski, V.Q.Pok-rovski, M.I.Stepanov və başqaları çuvaş xalqının yaddaşında uzun müddət qalmışdılar. Çuvaşların xtirələrində üzün müddət yaşayan həkim Çeboksar qəzasının Ismelev xəstəxanasında 21 il işləmiş D.A.Kuşnikeov olmuşdur. Yerli çuvaş həkimi demək olar ki, yox idi. Yalnız Sivil qəzasının sakini A.E.Efremov 1911-ci ildə Yuriyev universitetini bitirmiş və həkim diplomu almışdır. Hansı ki, onu da xəstəxanada işlməyə göndərmişdilər. O, yalnız oktyabr inqilabından sonra Çuvaşiyaya doğma yerlərinə qayıtmışdı. Ikinci çuvaş həkimi isə Alatır qəzasının sakini A.V.Teneev olmuşdur.

Çuvaşiyada xalq maarifinin yayılmasında rus maarifçilərindən I.N.Ulyanovun, N.I.Zolotskinin və V.K.Maqnitskinin xidmətləri böyük olmuşdur. Hər üç şəxs Simbirski quberniyasının xalq məktəbləri üzrə müfəttişi olmuşdular. Zolotniski çuvaş dilinin ilk tədqiqatçısı idi. Onun tərtib etdiyi «Köklü çuvaş-rus lüğəti» kitabı xüsusilə diqqətə layiqdir. N.I.Zolotniskinin rəhbərliyi altında çuvaş alimi M.E.Efimov «Çuvaş dilinin qrammatik materialları» adlı ilk elmi əsərini yazdı.

V.K.Maqnitski məşhur tarixçi etnoqraf və maarifçi idi. Onun tarixi etnoqrafik əsərləri çuvaş xalqının tarixinin tədqiqi üçün çox vacibdir. «Köhnə çuvaş dilinin maddi sübutları əsasında izahı» (1881), «Çeboksar qəzasının adət və ənənəsi» (1888), «Çuvaş dilinin adı» (1905) və əsərləri Maqnitskinin həqiqi elm adamı olduğunu göstərir.

Çuvaş mədəniyyətinin görkəmli nümayəndələrindən biri olan Ivan Yanovleviç Yakovlev idi. O, ictimai və ədəbi pedaqoji sahədə böyük fəaliyyət göstərmişdir. Yakovlev Simbirski çuvaş məktəbində dərs demiş, sonra isə Kazan təhsil dairəsinin müfəttişi (1903-cü ilə qədər)

işləmişdir. Onun əlifba və dərsliklərin hazırlanmasında xidmətləri böyükdür. Çuvaş əlifbasının yaradılmasında Iqnati Ivanoviç Ivanovun da xidmətləri çox olmuşdur. Tərbiyəçi və Simbirski müəllimlər məktəbinin müəllimi N.M.Oxotnikovun (1866-1892) etnoqrafik əsərləri («Çuvaşlar içərisində savad», «Volqaətrafı çuvaşlar», «Çuvaşın öz tərbiyəsi haqqında qeydləri») təqdirə layiqdir.

XIX əsrin 80-90-cı illərində I.N.Yurkin çoxlu çuvaş lətifələri, tapmacaları, atalar sözləri, xalq mahnıları toplamışdır və etnoqrafik səpkili oçerklərini yazmışdır.

1900-cü ildə Q.P.Timofeyev «Doqquz kənd» adlı etnoqrafik əsərini yazmışdır. Bu əsərdə çuvaşların adət-ənənəsi geniş planda verilmişdir.

Bu illərdə doktor, türkoloq professor N.I.Aşmarin «Çuvaş xalqının poeziyası haqqında oçerklər», «Çuvaş dilinin tədqiqi üçün materiallar», «Çuvaş sintaksininin tədqiqat təcrübəsindən», «Çuvaş dilinin lüğəti» və s. əsərləri onu dünya şöhrətli etmişdir.

Tarix elmləri doktoru Nikolay Vasilyeviç Nikolski (1878-1961) çuvaş xalqının tarixini, folklorunu və dilini tədqiq etmişdir. Onun böyük əməyi nəticəsində «Çuvaşlarda xalq təhsili» (1906), «Çuvaş etnoqrafiyası üzrə qısa icmal», «Rus çuvaş lüğəti», «Orta Volqaboyu çuvaşların içərisində xristianlıq (XVI-XVIII əsr)», «Tarixi oçerklər» (1912) və s. tarixi əsərləri yazılmışdır. Yeni çuvaş ədəbiyyatının yaranması onun daxilində yeni çuvaş dilinin formalaşmasından sonra başladı. ilkin çuvaş yazıçıları ictimai proseslərin düzgün təhlilini verə bilmirdi. Xalqa nisbətən yaxın olan yazıçılardan biri Mixail Fyodoroviç Fyodorov idi. O, 1879-cu ildə yazdığı «Leşiy» balladasında özünün

demokratik görüşlərini ifadə etmişdir. Çuvaş ədəbiy-yatı birinci mərhələdə yalnız keçmiş patriarxal ailə-məişət və adət-ənənələrini, ailə despotizmini, qadınların qul vəziyyətini, dinin müəyyən qaydalarını tənqid edirdi. Ədəbiyyat ikinci mərhələdə birinci rus inqilabı nəticəsində baş verən xalq hərəkatının milli oyanışı doğma dilin müdafiəsini təbliğ edirdi. Çuvaş bədii ədəbiyyatının yaranmasında 1906-1907-ci illərdə fəaliyyətdə olmuş «Xıpar» qəzeti əsas rol oynamışdı. Qəzetdə yazıçıların hekayələri, novellaları, pyesləri çap olunurdu. Qəzet vasitəsilə yeni çuvaş yazıçıları meydana çıxmışdı. T.S.Semenov (Taur), M.F.Akinov, Q.A.Korenkov, F.N.Nikolayev (Serqeyev), S.S.Sorokin (Tvanyalsen), T.A.Abramov, D.A.Denidov (Yoldaş), A.V.Vasilyeva, Y.V.Turxan, Q.I.Komissarov, F.P.Pavlov və başqaları da gələrək üzə çıxdılar.

T.Semyonoviç Semyonov-Taur (1886-1916) «Duma» şeirində I.N.Polorusov Şelebi (1881-1945) Rusiya satirik mahnısında «Ilan» şeirində M.Tyodoroviç Akimovun «Zarafat» novellasında, «Heyrətamiz» pamfletində (1906) «Kənd həyatı» dram parçasında çarizmin milli müstəmləkəçilik xüsusiyyətləri tənqid olunmuş, xalqın milli mənəviyyatı ön plana çəkilmişdir.

Çuvaş şairlərindən Nikolay Vasilyeviç Şubossinnin (1889-1942) 1908-ci ildə yazdığı «Yantrak yantrave» poemasında XX əsrin əvvəllərinin böyük çuvaş şairi sayılan Konstantin Vasilyeviç Ivanov (1890-1915) «Narspi» lirik-epik poemasında dövrün ictimai ziddiyyətləri, çar məmurlarının özbaşınalığı açıq surətdə verilmişdir. «Narspi» poemasının qəhrəmanları qız-Narspi və kasıb gənc oğlan – Setner kasıb insanların hüquqlarının bərpası uğrunda mübarizə aparırlar.

XX əsrin əvvəllərində çuvaş xalqının mənəvi mədəniyyətində

yenə də əvvəlki dövrlərdə olduğu kimi, şifahi poeziya əsəs yer tuturdu. Hekayə və mahnıların poetik obrazları xalqı azad, işıqlı gələcəyə çağırırdı. Atalar sözləri, lətifələr hakim sinfin müftəxorluğunun tənqidinə yönəldilmişdi. Xalq yaradıcılığının zəngin mahnı ehtiyatı öz növbəsində musiqi sənətini də inkişaf etdirmişdir. Bu dövrün məşhur musiqiçi və bəstəkarları olan S.M.Dimitriyev, V.N.Kolpakov, R.N.Idobayev, S.M.Maksimov, F.P.Pavlov, P.V.Pazuxin, Q.Q.Lisskov şifahi xalq poeziyasının təkmilləşməsində böyük rol oynamışdılar. 1908 və 1914-cü illərdə «Çuvaş xalq mahnılarının surət və motivləri» adlı iki məcmuə çap olunmuşdur. Şifahi ədəbiyyat özündən sonra böyük iz qoymuşdur.

## *§5 Tatarıstan mədəniyyəti*

XVIII əsrin başlanğıcına qədər Volqaboyunda tatarlar istisna olmaqla yazı yox dərəcəsində idi. Savadlı qalmış müsəlman ruhaniləri hesab olunurdu.

Tatar ədəbi dili danışıq dilindən fərqlənirdi və ədəbi dil müəyyən mədəni dini sahələrdə işlənirdi. Tatar danışıq dili ümumi Volqaboyu xalqları içərisində əsas dil kimi işlənirdi, bu da tatarların həmin xalqlar üzərində uzun müddət hakim xalq kimi olması ilə izah olunur. Tatar varlıları qadınlara təhsil vermələrinə baxmayaraq, onların qadınları digər xalqların qadınlarına nisbətən daha huquqsuz idilər. Mari və çuvaşlar qadına işçi qüvvəsi kimi baxır və ona böyük hörmət göstərirdilər. Tədqiqatçı P.S.Pallasın məlumatıan görə «Kiçik yaşlı oğlanların kifayət qədər yaşlı qadınlarla evlənməsində məqsəd həmin evin əlavə işçi qüvvəsi alması idi. Xristianlığın qəbuluna qədər gəlin üçün kifayət qədər kalım (cehiz) verilirdi ki, bu da yeni evlənənləri maddi cəhətdən təmin

edirdi. Ailənin başçısının qeyri-məhdud səlahiyyəti var idi. Qan qohumluğu ilə əlaqədar atalar sözləri işlənirdi: «Qohuma hamısı, yada heç nə», «Qohum üçün işləmək-özün üçün işləməkdir». Çoxlu kiçik dialektlər bəzən onların bir-birini başa düşmələrinə mane olar. Məsələn:-mordva, erzya və moksaların ləhcələrini ponza və çeboksar çuvaşları çətin başa düşürlər.

Tatarlardan (müsəlman) başqa çuvaşlarda və digər xalqlarda xristianlığa qədər çoxlu köhnə dini inamlar (təbiət qüvvələrinə, əcdadlara sitayiş, xeyirxah və qəzəbli ruhlara (dualizm) inam və s.) qalmaqda idi.

Volqaboyu xalqlarında ilk məktəblər çar hökuməti tərəfindən özü üçün yerli məmurlar hazırlamaq məqsədi ilə açılmışdı (XVIII-I yarısında). Böyük məktəblər Kazanda (Zilantovsi) Nijni Novqoroda, Sviyajkidə açılmışdı. Məktəblərdə dərslər rus dilində keçirilirdi, lakin elə şərait yaradırdılar ki, onlar öz doğma dillərini yaddan çıxarmasınlar. Məktəblərə göndərilən uşaqların çoxusu soyuqdan, aclıqdan ölür və yaxud qaçırdılar. Təhsili yalnız kənd mirzələri verirdi.

Ümumrusiya Icraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin 1920-ci il 27 may qəzalarına əsasən Tatarıstan Muxtar Sosialist Sovet Respublikası (Federatif Sovet Respublikasının tərkibində) aşağıdakı tərkibdə təşkil olundu.

1) Kazan quberniyası; qəzaları- Kazan, Çistopol, Mamadış, Sviyaj, Tetyuş, Laisev və Spasski
2) Ufa quberniyası; qəzası- Menzelin
3) Samara quberniyası; Buqulman qəzası və bu qəzanın volostları

Aznakaev, Aleksandrov, Alkeev, Almetev, Bavlin, Boqayavlen,

Varvarin, Verxne-Karmal, Karataev, Ruzaykin, Ivanov, Myasoqutov, Mikulin, Mordov-Afonin, Mordov-Ivanov, Mordov-Karmal, Nijne-Çerşelin, Novo-Pismyan, Salixov, Spasska, Spiridonov, Sterlitamak, Sumarokov, Tumutukov, Uraslin və Çekan;

4) Vyatka quberniyası və onun Malmij qəzasının volostları- Koşkin, Noslin, Arbolov, Yanqolan, Sardibaşev, Nijni-Çitayev və Sudrin
5) Simbirski quberniyası və onun Simbirski qəzasının volostları- Sundikov, B-Tarxanov və B-Silnin, Buin qəzasının volostları- Staro-Studenes, Entuqanov, Sıxırdan, Novo-Karkin, Drojjanov, Moçaleev, Burundukov, Runqin, Timbayev, Uveyev və Qorodişşen

1884-cü ildə Kazanda 140 mindən çox, 1897-ci il siyahıya alınmasına görə isə 131508 nəfər qeydə alınmışdı ki, onun da 115 mini pravoslav, 24 mini müsəlman tatarı, 1800 nəfəri köhnə təriqətçilər, 1000 nəfərə qədəri Roma katolikləri, 400 nəfəri lüteran, 700 nəfər yəhudi və siyahıya alınmayan çuvaşlar, çeremislər, mordvalar idi.

Burada 67 pravoslav kilsəsi, 2 qeyri-pravoslav, 14 məscid və bir sinaqoq fəaliyyət göstərirdi.

Çarizmin müstəmləkə rejimi və onun ideologiyasının dayaqları hesab olunan bu qədər dini mərkəzlərin olmasına baxmayaraq xalq öz müstəqilliyini təmin etmək üçün mübarizə aparırdı. Artıq 1891-ci il may ayının 1 və 2-də ilk dəfə olaraq Kazanda Alafuzov istehsal müəssisələrinin fəhlələri ümumi tətil etdilər.

Şəhərin mərkəzində 8 bürclü qala divarları ilə əhatə olunmuş Kreml (1580-1620) var. Burada Uspeniye (1700-1710) və Troitsa (1700) baş

kilsələri qalmışdır. Tatar maarifçiləri doğma ədəbiyyatın inkişafında əsas rol oynayan XVIII əs-rin sonu-XIX əsrin əvvəllərində yetişmiş mütərəqqi yazıçıların irsinə arxalanmışlar. Həmin yazıçılardan Qabderəhim Utız Iməni (1756-1836) və Qabdecablar Kəndalının (1797-1860) yaradıcılığında isə artıq realizmin rüşeymləri görünməkdədir. Bunlar ilk milli maarifpərvərlərin yetişməsinə təkan vermişlər. Tatar ruhaniləri təbəqəsindən çıxan, lakin dinin elmə heç də zidd olmadığını irəli sürən Şəhabəddin Mərcani (1818-1889) dünyəvi biliklərin təbliğ və tədris edilməsinin tərəfdarı olmuşdur. O, qədim bolqar tarixinə dair əsər yazmış («Bolqar və Qazan haqqında faydalı məlumatlar», - «Müstəfidül-əxbari fi-əhvali Qazan və Bolqar»), Şərq və antik fəlsəfə ilə maraqlanmışdır.

Maarif və mədəniyyət sahələri istənilən səviyyədə inkişaf etmirdi. 1913-1914-cü illərdə Kazan quberniyasında ümumi məktəblərin sayı 1826 idi. Bura ibtidai, natamam-orta, orta məktəblər daxil idi. Bu məktəblərdə 3565 nəfər müəllim işləyirdi. 2527 nəfər müəllim 1640 kənd məktəbində işləyirdi. 1914-1915-ci illərdə isə məktəblərin sayı 1835 orada oxuyan şagirdlərin sayı isə 117,2 min nəfərə çatmışdı. 10 illik orta məktəb yox idi. Fəhlə və kəndlilərin yoxsul həyat şəraiti onların uşaqlarının gimnaziyalarda, realnı və maliyyə-ticarət məktəblərində təhsil almasına imkan vermirdi. Yalnız burjua təbəqəsinin uşaqları həmin məktəblərə gedə bilərdilər. Məktəblərdə tədris rus dilində aparılırdı. Rus dilini bilməyən digər millətlərin uşaqlarının bu məktəblərdə oxuması mümkün deyildi. Kazan quberniyasında fəaliyyət göstərən müsəlman-tatar məktəbləri 1,9% idi. Belə demək mümkündür ki, tatar uşaqları rus uşaqlarından fərqli olaraq orta, orta-texniki və ali təhsil almaq

hüququndan məhrum olmuşdular.

1913-1914-cü təhsil ili üzrə Kazan quberniyasında 3 ali məktəb, 9 texnikum, 16 sənət məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə cəmi 6870 nəfər tələbə təhsil alırdı ki, onun da 32 nəfəri yalnız ali məktəblərin payına düşürdü.

Tatarıstanda XX əsrin əvvəllərində milli teatr yox idi. Yalnız müəyyən vaxtlarda həvəskar truppalar teatrın əsasını qoydu. Bu dövrdə Tatarıstanda 5 kinomatoqraf var idi ki, onun da 3-ü Kazanda, 1-i Çistopolda və 1-i Elebuqada idi.

Tatarıstanda 2 jurnal 4 qəzet (onlardan 2-si tatar dilində idi) çıxırdı ki, bunların da tirajı çox az idi.

XX əsrin əvvəllərində Rusiya hakim dairələriin manelərinə və səylərinə baxmayaraq Volqaboyunda ləng də olsa, maarif və elmi biliklər inkişaf edir, mədəniyyətin və incəsənətin inkişafında yeni motivlər, milli xüsusiyyətlər meydana çıxırdı. Çarizm Volqaboyu xalqlarına öz milli mentalitetini unutdurmaq və onları xristianlaşdırmaq məqsədilə missionerlər məktəbinin yaradılması barədə 1906-cı ilin 31 martında fərman vermişdi. Tatar milli burjuaziyası həmin mürtəce fərmanın ləğv edilməsi, milli, dünyəvi məktəblərin yaradılması uğrunda mübarizə aparırdı.

Çarizm tatar xalqının nəinki maariflənməsinə, təhsilinə mane olurdu, eyni zamanda onu fiziki cəhətdən əzmək və məhv etməyi də qarşısına məqsəd qoymuşdu. Bu, xüsusilə, özünü tibbi xidmət sahələrində daha açıq formada göstərirdi.

Belə ki, Kazan quberniyasında 1913-cü ildə 3345 çarpayılıq 88 xəstəxana fəaliyyət göstərirdi ki, bunlardan da 24-ü şəhərlərdə, 64-ü isə

kəndlərdə yerləşirdi. Bu xəstəxanalar da yalnız gəlmə rus əhalisinə xidmət göstərirdi. Yalnız 5 xəstəxana tatar əhalisinin xidmətində idi.

Kazan quberniyasının xüsusi tibbi yardım müalicəsini yalnız Kazan Tibb Institutunun nəzdində olan xəstəxanada aparılırdı. Ətraf qəsəbələrdə və kəndlərdə isə tibbi məntəqələr fəaliyyət göstərirdi. 1913-cü ildə Tatarıstanda 75 tibb məntəqəsi var idi ki, onlardan da 67-si rayonlarda, 5-i isə kəndlərdə idi.

İstehsalat müəssisələrində tibbi məntəqələri yox idi. Malyariyaya qarşı demək olar ki, heç bir tibbi tədbir görülmürdü.

Uşaq doğumu ilə əlaqədar xəstəxanalar yox dərəcəsində idi. Yalnız Kazan qubeyrniyası üzrə 87 çarpayılıq doğum evləri qeydə alınmışdı ki, bunlar da yalnız şəhərlərdə yerləşirdi. Kəndlərdə bu cür doğum xəstəxanalarının olması qeyri – mümkün idi.

Çar Rusiyası dövründə ospa, difteriya skarloatin kimi xəstəliklər çoxlu sayda uşaqların həyatına son qoyurdu. Bunların qarşısı yalnız Sovet hakimiyyəti dövründə alındı.

Kazan quberniyasında 1913-cü il məlumatına əsasən 379 həkim olmuşdu ki, onlardan da yalnız 38 nəfəri kəndlərdə işləyirdi.

Həkimlərin hazırlanması və yenidən təkmilləşdirilməsi işini Kazan Tibb Institutu yerinə yetirirdi. Burada 2 feldşer-doğum məktəbi, bir feldşer, bir doğum, bir diş həkimliyi, 2 uşaq tibb bacısı hazırlayan məktəblər fəaliyyət göstərirdi.

### *§6 Krım mədəniyyəti*

Krımda e.ə. III-II minilliklərə aid qaya rəsmləri (Baxçasaray yaxınlığında) ornament kompozisiyalı daş qəbirlər, stelalar və s.

qalmışdır. E.ə. VII əsrdən eramızın IV əsrinədək Krımda antik bədii mədəniyyətin yerli variantı inkişaf etmişdi. IV əsrdə hunların basqını ilə tənəzülə uğrayan Krımın mədəni həyatı Bizans müstəmləkəçiliyi dövründə dirçəlməyə başlamışdı. VI əsrdən etibarən kimmerilər, tavrlar və skiflərin, eləcə də alanların nəsilləri dağlarda mağara şəhərlər salmış qalalar (Baxçasaray yaxınlığındakı Çufutqala, Eski Tepe Kermen) tikilmişlər.

Köhnə Krımdakı məscid (XIII əsr) və mədrəsə (XIV əsr), Baxçasaraydakı Xan saray kompleksi, Yebratoriyadakı Cümə məscidi (1552, Memar Sinan) və Feodosiyadakı Müfti camesi (XVII əsr) Qızıl Orda və Krım xanlığı dövrlərinin əsas tikililərindəndir. XVIII əsrin 80-cı illərindən Sevastopol və Simferapolda müntəzəm planlı tikinti işləri aparılmışdır. Krımın cənub sahilindəki yaylaq evlərində və saraylarında saxta qotika ilə Mavritaniya motivləri üstünlük təşkil edir. Alupkadakı saray, Liviyadakı keçmiş çar sarayı və Krımın cənub sahilində yerləşən «Qaranquş yuvası» qəsri kimi tarixi abidələr və «Ayıdağı», «Uçun su şəlaləsi» kimi mənzərəli təbii yerlər də Krım ərazisindədir.

XIX əsrdə Rusiyada savadlı və təhsilli adamlar yalnız əyanlar və varlı təbəqələrin içərisində idi. Krım da Rusiyanın bir hissəsi olduğu üçün həmin münasibətlər Krıma da aid idi. 1866-cı il məlumatına görə Krımın şəhərlərində savadlı adamlar müəyyənləşdirilmişdir. Simferepolda-22%, Karasubazarda-16%, Baxçasayda isə 2,3% savadlı adamlar qeydə alınmışdır. Az-çox savadı olan adamlardan başqa Krımın şəhərlərində ali savadlı məmurlar, zabitlər, zadəganlar da var idi. Əsas təhsil müəssisələri şəhərlərdə yerşləşirdi. Quberniyanın mərkəz şəhəri olan Simferepolda 1866-cı ildə (məktəblərdə) 773 şagird təhsil alırdı ki,

onun da 146 nəfəri qızlar idi. Şəhərdə 48 müəllim dərs deyirdi ki, bu da ruhani müəllimlərdən iki dəfə az idi. Yevpatoriya da iki məktəb fəaliyyət göstərirdi. Burada isə 16 müəllim işləyirdi. Yevpatoriyada 17 kilsə və məscid qeydə alınmışdı. Feodosiyanın məktəblərində 145 şagird təhsil alırdı. Qarasubazarda 218, Perekopda 63 şagird məktəb-lərdə oxuyurdu. Sevastopolda, Balakvarda və köhnə Krım şəhərində xalq məktəbləri yox idi. Kənd yerlərində demək olar ki, məktəblər yox idi. 1866-cı ildə Yevpatoriya qəzasında 25 şagirdi olan bir məktəb Simferepol qəzasında 95 şagirdi olan 3 məktəb, Feodosiya qəzasında 28 şagirdi olan bir məktəb qeydə alınmışdı. Perekop qəzasında məktəb yox idi. Yalta qəzasında isə şəxsi vəsait hesabına işləyən iki məktəb olmuşdu. Kənd məktəblərində uşaqlara dərsləri ancaq din xadimləri deyirdi. Bu məktəblərdə təhsil çox aşağı səviyyədə olduğuna görə əhali öz uşaqlarını ora göndərmirdi.

1865-ci ildə Krımda ümumi məktəblərin sayı 262 olmuşdur ki, onun da yarısından çoxu dini məktəblər idi. Dini məktəblər isə əsasən məscidlərdə, sinaqoqlarda və kilsələrdə yerləşirdi. Tatar məktəblərində təhsil xüsusilə aşağı idi. Çünki orada 3-5 il təhsil alan şagirdlər son nəticədə yazıb-oxumağı bacarmırdılar.

XIX əsrin 60-cı illərindən etibarən məktəb işlərinin zemstvoların ixtiyarına keçməsi ilə təhsildə yavaş-yavaş da olsa canlanma yarandı. 1865-ci ildən 1877-ci ilə qədər Krımın qəzalarında əlavə 77 kənd məktəbi açıldı. Bundan sonrakı onillikdə (1884-cü ilə qədər) 68 məktəb, 1878-ci ildə isə 14 yeni məktəb açıldı. 1887-ci ildə ümumi Krım ərazisində artıq 569 ümumtəhsil məktəbləri fəaliyyət göstərirdi. Bu məktəblərdən 148-i şəhərlərdə, 421-i kənd yerlərind yerləşirdi. Ümumi

saydan 275-i tatar məktəbləri idi. Məktəblərin artması nəticəsində əhali içərisində savadlılıq dərəcəsi xeyli yüksəldi. XX əsrin əvvəllərindən Krımda artıq minimum 900 nəfər əhaliyə bir məktəb düşürdü. Məsələn, Don əyalətindən 2000 yaşayışçı üçün bir məktəb fəaliyyət göstərirdi.

Kapitalizmin inkişafı ilə əlaqədar olaraq müəssisələrdə müasir texniki avadanlıqlar, maşınlar tətbiq olunurdu. Həmin müəssisələrdə işləyəcək az-çox savadlı adamlar tələb olunurdu. Məhz bu məqsədlə məktəb şəbəkəsində üç illik təhsil verən aşağı dərəcəli məktəblər fəaliyyət göstərirdi. Bundan əlavə, Krımda orta təhsil müəssisələri-gimnaziyalar, realnı məktəblər, dini seminariyalar və «Nəcib qızlar universiteti» açıldı. 1904-cü ildə ümumilikdə Krımda 21 orta təhsil müəssisəsi var idi. Bu məktəblərdə yalnız zadəgan, burjuaziya və din xadimlərinin uşaqları təhsil alırdılar. Xalq təhsilində baş verən bu canlanmaya baxmayaraq, ümumi təhsil səviyyəsi geridə qalırdı. Təhsildə bu vəziyyət çarizmin siyasətinə cavab verirdi.

Krımda tibbi sahədə də gerilik var idi. XIX əsrin 70-ci illərində Krımda cəmi 7 zemstvo həkimi var idi ki, onlar da bütövlükdə kənd əhalisinin tibbi xidmətində dururdular. 1886-cı ildə həkimlərin sayı 22-yə çatmışdı. Krımda tibbi xidmətin hansı səviyyədə olduğunu faktlar göstərir. Belə ki, 1886-cı ildə 1473 kvadrat verst ərazidə məskunlaşmış 15 336 sakinə bir həkim xidmət edirdi. Bu qədər əhaliyə bir nəfər həkimin xidmət etməsi fiziki qüvvə xaricidə idi. Yalta qəzasında bir xəstəxana çarpayısına 613 nəfər xəstə qeydə alınmışdı. Məlum məsələdir ki, belə olduğu halda xəstələr qeyri qanuni həkimlərə müraciət edirdilər. Əhalinin əksər hissəsi kasıb vəziyyətdə yaşadıqlarına görə tibbi xidmət haqqını ödəyə bilmirdilər və müalicə oluna bilmirdi.

Əhalinin aşağı təbəqəsinin tibbi xidmətdən kənar qalmasına baxmayaraq, Krımda əyanlar üçün birinci dərəcəli sanatoriya mərkəzləri yaradılmışdı. Krım müharibəsindən sonra yarımadanın cənub sahillərində güclü canlanma başlandı. Bura cənuba ali çar məmurları, mülkədarlar və kapitalistlər istirahət etmək üçün axışıb gəlməyə başladılar. 2-3 onilliklər ərzində cənubsahili Baydar qapısından Aluşda qədər başdan-başa saraylar, villalar və bağlarla örtüldü. Cənub sahilin torpaqları əsl alver obyektinə çevrildi. XIX əsrin 70-ci illərində Yaltada bir desyatin torpağın qiyməti 24 mindən 36 min manata qədər qalxdı.

1860-cı ildə çar ailəsinin üzvləri Livadiyaya istirahətə gəlməyə başladılar. Bunların arxasınca isə iri çar əyanları – knyazlar, qraflar, baronlar və s. gəlməyə başladılar. Onlar da öz növbəsində iri kapitalist və tacirlərdən geri qalmamağa çalışaraq təmtəraqlı villalar tikdirməyə başladılar. Cənub sahilin mərkəzində aristokratik dairələrin birinci dərəcəli sanatoriya şəhəri olan Yalta yarandı. XIX əsrin 80-cı illərindəki məlumata görə bura hər il 15 min adam dincəlməyə gəlirdi. Yalta əlverişli yaşayış yerinə çevrilmişdi. Burada əhalinin sayı 1864-1904-cü illər ərzində (40 il) 20 dəfə artmışdı. Şəhərdə yaradılmış liman vasitəsilə Qara dənizin digər sahilboyu şəhərləri ilə gəmilər vasitəsilə əlaqə yaradılırdı. Yalta sanatoriyasında yalnız varlılar istirahət edirdilər. Çünki burada evlərin, ərzaqın və xidmətin qiymətləri çox baha idi. Yaltadan başqa cənub sahilində – Alupka, Qarrufa, Aluştı, Simeizada, Yefpatoriyanın sahilində, Sakaxda, Sudakidə, Feodosiyada, hətta Kerçdə də sanatoriyalar yaradılmışdı.cənub sahillərində bağ evlərinin, villaların tikilməsi ilə əlaqədar çoxlu arxitektorlar, mühəndis və s. adamlar gəlirdi. Məsələn, Livadiya sarayının yenidən qurulması və tərtibatı üçün bura

məşhur prof. I.A.Moqnetti, rəssam Ayvazov və akademik Beydeman gəlmişdilər. Əyanlar Krımdakı saraylarını bəzəmək üçün Moskvadan, Peterburqdan, Parisdən, Italiyadan çoxlu şəkil və heykəllər gətiriridilər.

Krıma müalicə olunmaq üçün elmi işçilər, yazıçılar və ictimai xadimlər də gəlirdilər. Böyük rus yazıçıları L.N.Tolstoyun, A.D.Çexovun və A.M.Qorkinin Krımla əlaqələri çox olmuşdur.

Şəhərlər: 1783-cü ildə Krım Rusiya tərəfindən işğal olunduqdan sonra onun ən çox əhalisi olan şəhərləri Baxçasarayda, Yefpatoriyada, Qarasubazarda, Pere-kopda olmuşdur. 1904-cü ildən keçən 120 il müddətində Krım şəhərlərinin görkəmi tamamilə dəyişmişdir. Belə köhnə dar, qaranlıq küçələr alçaq damlı evlər ləğv edilərək, geniş yaraşıqlı küçələr və hündür işıqlı evlər tikilmişdir. Krımın əsas mərkəz şəhəri olan Sevastopol 1856-cı ildə Krım müharibəsi qurtartıqdan sonra bərpa olunmağa başladı. Şəhərdə yeni quruculuq işləri 1871-ci ildə Qara dəniz sahillərinin birtərəfliliyi ləğv olunduqdan sonra başladı. şəhərin yenidən qurulması rus Qara dəniz donanmasının yaradılması ilə paralel aparılırdı. Sevastopola yeni dəmir yolları çəkilir, iri ticarət mərkəzləri yaradılırdı. XIX əsrin 80-cı illərində Sevastopol limanı vasitəsilə xaricə 15 milyon pud taxıl ixrac olunmuşdu.

1890-cı ildə Sevastopola qala-şəhər dərəcəsinə görə 1-ci klass şəhər adı verildi. Bura əvvəllər Nikolayev şəhərində yerləşən Qara dəniz hərbi donanmasının idarəsi köçürüldü. Sevastopol yenidən Qara dəniz hərbi donanmasının bazasına çevrildi. Ticarət limanı isə 1894-cü ildən Feodosiyaya köçürüldü. 1904-cü ildə Sevastopolda (3250 yaşayış evi), 67 752 nəfər əhali yaşayırdı. 1894-cü ildə şəhərdə telefon və kanalizasiya şəbəkələri işləməyə başlladı. 1829-cu ildə Feodosiya şəhər-lərində 3700

nəfər olduğu halda, 1904-cü ildə isə bu şəhərdə əhalinin saya 30 573 nəfərə çatmışdı. Şəhərin dəmir yolu vasitəsilə ölkənin mərkəzi ilə (ticarət, inzibati idarələri) əlaqələndirilməsi tezliklə onu iri ticarət liman şəhərinə çevirdi.

Kerç 1783-1904-cü illər ərzində sənaye şəhərinə çevrildi. 1904-cü ildə şəhərdə 58 sənaye müəssisələri işləyirdi. Bu sənaye müəssisələri içərisində filiz-metallurgiya sənayesi əsas yer tuturdu. 1500 nəfərdən çox adam Kerç körfəzində balıqtutma müəssisələrində çalışırdı. 1900-cü ildə Kerçdən 287 min pud müxtəlif növlü balıq və kürü ixrac olunmuşdu. Kerç limanı Azov-Qara dəniz gəmiçiliyində əsas rol oynayırdı. 1905-ci ildə burada 2249 gəmi işləyirdi. 1854-cü ildə ingilis-fransız qoşunlarının hücumları nəticəsində dağılmış Yalta 70-ci illərdən başlayaraq yenidən qurulmağa başladı. 1904-cü ildə artıq Yaltada 22 630 nəfər adam yaşayırdı. Şəhər yüksək şəraiti olan qəza mərkəzinə çevrildi. Yay aylarında xüsusilə də sanatoriya vaxtlarında bura istirahət etmək üçün çoxlu sayda kapitalistlər, tacirlər və çar məmurları gəlirdilər.

XIX əsrin sonlarında Simferopol Tavritski quberniyasının inzibati və iqtisadi mədəni mərkəzinə çevrildi. Şəhərdə quberniyanın bütün idarələri və təşkilatları yerləşirdi. Krım şəhərləri içərisində ilk dəfə olaraq Moskva və Peterburqla Simferopolun telefon əlaqəsi yaradıldı. 1878-ci ildə şəhərin özünün qəzeti çıxmağa başladı. 1874-cü ildə ixtisaslı kadrları olan teatr yaradıldı. 1893-cü ildə şəhər daxilində telefon əlaqələri yaradıldı. XIX əsrin 80-cı illərində Tavriya Elmi Arxiv komissiyası və muzeyi yaradıldı.

Yefpatoriya qərb sahili ərazidə sanatoriya mərkəzinə çevrildi. 1886-cı ildən Moynak palçığından müalicə məqsədi üçün istifadə

olunmağa başladı.

Tatarların yaşadıqları Baxçasaray və Qarasubazar isə yenə də feodal şəhəri olaraq qalırdı. Yerli tatar əhalisi öz keçmiş adətləri ilə yaşayırdılar. Beləliklə, demək olar ki, XIX əsrin ikinci yarısında Krım kapitalizmin tam mərhələsini keçmişdir.

XX əsrin əvvəllərində Krımda tədqiqat və araşdırmalar nəticəsində müəyyən elmi nailiyyətlər qazanılmışdı. 1908-ci ildə Krım astrofizika laboratoriyası, dəniz bioloji stansiyası və rəsədxana yaradılmışdı. 1911-1913-cü illərdə Krımda çar üçün Livadiya sarayı tikilmişdi.

## *§7 Sibir türklərinin mədəniyyəti*

XVII-XVIII əsrlərdə Rusiyanın ictimai-iqtisadi və siyasi həyatında baş vermiş dəyişiklik maarifin inkişafına da təsir göstərirdi. Belə bir şəraitdə xüsusi dünyəvi məktəblərin-tibb, mədən, dənizçilik, texniki peşə və s. meydana gəlməsi təbii görünürdü. Sibir əhalisinin çoxu savadsız idi. Yalnız kazakların az bir hissəsi oxuyub-yazmağı bacarırdı. XVIII əsrin əvvəllərindən başlayaraq Sibirdə açılan məktəblərə Moskvadan, Kiyevdən dərslik, dərs vəsaiti, müəyyən kitablar göndərilirdi. Sibirin şəhər və iri yaşayış məskənlərində savad kursları və məktəblərin sayı getdikcə artırdı. Kilsə və monastırlar nəzdində dini məktəblər açılır və kitabxanalar təşkil edilirdi. XVIII əsrin 60-cı illərində Sibirdə mədən və zavodların nəzdində də məktəbələr açılırdı. 1780-cı ilin ortalarından texniki peşə məktəbləri fəaliyyətə başlamışdı. Sibirdə ilk tibb məktəblərindən biri Altayda açılmışdı. XVIII əsrdə məktəb 60 nəfər həkim hazırlamışdı. XVIII əsrin 30-cu illərinin əvvəlində Yakutiyada

məktəblər təşkil olundu. Yakutsk və Oxotskda qarnizon və naviqasiya məktəbləri açılmışdı. Sibirin ilk xəritəsi 1667-ci və 1673-cü illərdə tərtib olunmuşdu. I.Q.Qmelin «Sibirə səyahət» adlı əsərində Altayla əlaqədar XVIII əsrin ikinci yarısına aid maraqlı materiallar toplamışdı. Sibirdə ilk texniki kitabxana 1764-cü ildə Barnaulda açılmışdı. Sibirin, o cümlədən Yakutiyanın coğrafiyası haqqında bütün dəyərli məlumatlar S.Remezovun «Sibirin cizgiləri kitabı» adlı əsərində verilmişdi. Yakutiya tarixinə dair materialın toplanmasına akademik Q.Miller rəhbərlik etmişdi. O, Yakutiyanın tarixinə aid arxivdə saxlanılan sənədlərin surətini çıxararaq sonralar çap etdirmişdir. Q.Miller «Sibirin tarixi» kitabının müəllifidir.

Tibb elmi zəif inkişaf etmişdi. Xəstəxana və müalicə ocaqları olduqca az idi. Bu da müxtəlif yoluxucu xəstəliklərin əmələ gəlməsinə səbəb olmuşdu.

Sibir türklərinin mədəniyyətində şifahi xalq yaradıcılığı mühüm yer tuturdu. Yakutların yazısı olmadığına görə xalqın mənəvi həyatında şifahi xalq ədəbiyyatı əsas yer tuturdu. Yakutların bahar bapyramı «isiax» (ihiax) təbiətin oyanmasına aid idi. Bu bayramda xalq nəğməkarları və nağıl söyləyənlər yaraşırdı. Yakut bahadırlarından bəhs edən «olonxo»larda-epik əsərlərdə günəşli ölkəni müdafiə etmək, qız və qadınları oğurlayan, malları məhv edən kinli qüvvələrə qarşı mübarizə öz əksini tapmışdı.

Sibir türkləri, ilk növbədə yakutlar zorla xristanlığı qəbul etsələr də, qədim dini inanclarını saxlamışdılar. Onlar xeyirxah və zalım ruhlara inanır, təbiət qüvvələrini ilahiləşdirir, onların şərəfinə qurban kəsirdilər. Altay türkləri dağlara sitayiş edirdilər. Yakutlarda samanizm geniş

yayılmışdı. Onlar oda sitayiş etməklə torpağın, ağacın, suyun, odun havanın və s. ruhu olduğunu güman edirdilər. Yuxarıda göstərildiyi kimi, Tuvada buddizmin bir növü olan lamaizm mövcud idi. Lamalar dünya işlərinə aludə olmamağı, itaətkarlığı təbliğ edirdilər. XIX əsrin birinci yarısında Sibirdə dini, hərbi, texniki-peşə, imtiyazlı silklər üçün məktəblər fəaliyyət göstərirdi. Sibir xalqları piktoqrafiyadan geniş istifadə edirdilər. Bunun vasitəsilə savadsız yakut tacirləri borc dəftərləri düzəldirdi. Missioner Makari Qluxaryov Altay türkləri üçün rus əlifbası əsasında əlifba yaratmışdı. Təhsil sisteminə dövlət qayğısının zəif olması, təhsil haqqının çoxluğu, ruslaşdırma siyasəti və s. milli maarifin inkişafına manne olurdu. Məktəblərin müəllim  kadrları ilə təmin edilməsində və elmin inkişafında 1804-cü ildə təsis olunmuş Kazan universitetinin əvəzsiz rolu olmuşdu. A.Ü.Uvarovski «Xatirə» əsərində Yakutiyanın təbii sərvətlərini, xalqın məişət və mənəviyyatını ətraflı təsvir etmişdi. O, yerli əhalinin dil, etnoqrafiya və folklorunun kamil bilicisi idi.

XIX əsrin ikinci yarısında Sibirdə mətbuat inkişaf etdirilirdi. Barnaulda «Xəbərlər» qəzeti, «Yakutiyada quberniya xəbərləri» və b. göstərmək olar. XIX əsrin 90-cı ilində Yakutsk şəhərində mətbəə fəaliyyətə başlamışdı. Mətbəələrdə rəsmi xəbərlər, sənədlər, elmin müxtəlif sahələrinə aid əsərlər çap edilirdi.

# III HISSƏ
# Kiçik Asiya türkləri XIII-XX əsrin əvvəllərində
## I FƏSIL
## Osmanlı dövlətinin siyasi, ictimai-iqtisadi və mədəni həyatı

### *§1 Siyasi həyat*

XIII yüzillikdə Monqolların yaratdığı siyasi vəziyyət Yaxın Şərqdə öz təsirini göstərirdi. Köşedağ savaşı nəticəsində (1243-cü il) Anadolu Səlcuq dövləti parçalanmış, Anadoluda Bəyliklər dönəmi başlamış, Misir və Suriyada Məmluklər, Iran, Iraq, Qafqazda, Anadoluda (şərqdə) Elxanlılar hökm sürürdü.

Osmanlı dövləti (1299-1922) tarixdə 3 qitədə qurulmuş ən güclü türk dövləti idi. Osmanlı dövlətini quran ailə Oğuzların Boz ok qolunun Kayı boyuna mənsubdur. «Kayı» sözünün anlamı güc və qüdrət sahibi deməkdir. XII yüzilliyin əvvəllərində Əhlət Monqollar tərəfindən istila edilincə Gündüz Alp idarəçiliyndəki Kayılar Mardin və Kütahya torpaqlarında, Ertoğrul bəyin tabeçiliyindəki kayılar «Karacadağ» tərəflərində yerləşdilər. Anadolu Selcüq sultanı I Səlahəddin Qubad səlcuq-rum savaşlarında fərqləndiyinə görə Ertoğrul bəyə Söyüt bölgəsini timar olaraq verdi. Ertoğrul bəyin ölümündən sonra idarəçiliyi ələ alan Osman bəy 1299-cu ildə Monqolların basqını, səlcüqların zəifləməsi, Türkmən bəylərinin və səlcuq əmirlərinin birləşməsi nəticəsində hüquqi və rəsmi cəhətdən dövlət qurdu. 1307-ci il Koyluhisar döyüşü nəticəsində Altranos, Kete, Kestel və Bursa dövlətə birləşdi. 1320-ci ildə hakimiyyətə oğlu Orxan bəy gəldi. 1326-cı ildə ölüm yatağında Bursanı fəthi xəbərini aldı. Osman bəydən sonra

hakimiyyətə rəsmi olaraq başçılıq edən Orxan bəy 1329-cu ildə Izmir, 1337-ci ildə Izmiti aldı. 1358-ci ildə bütün Rumeliyə hakim olan Orxan Qazi 1362-ci ildə öldü. Sonra taxta I Murad keçdi. 1363-cü ildə Ədirnəni fəth etdi. 1374-cü ildə Çirmən savaşında serb kralı Lazarı məğlub etdi, 1382-ci ildə Bolqarıstanda hakimiyyət qurmaq üçün Sofiyanı ələ keçirdi. 1389-cu il 10 iyulda I Kosova savaşı türklərə Balkanlara tam hakim olmaq şəraiti verdi və bu döyüşdə özü də şəhid edildi. Daha sonra hakimiyyətə oğlu İldırım Bəyazit keçdi. 1397-ci ildə ilk dəfə olaraq Kanstontinopola hücum etdi və Çar Manuel vergi-xərac təkliflərini qəbul etdi.

1396-cı ildə Niqbolu zəfərində I.Bəyazid Macar kralı və papanın birləşmiş qoşunlarını məğlub etdi. Daha sonra Karaman səfərinə çıxaraq, Kadı Burhanəddin dövlətinə son qoydu və bütün Orta Anadoluya sahib oldu. Ildırım Bəyazid Anadoluda Türk birliyi və bəylikləri ilə məşğul olduğu dönəmdə Əmir Teymur Iran, Iraq, Azərbaycanı alaraq Osmanlılarla qonşu olmuşdu. Həmçinin Əhməd Cəlayir, Qaraqoyunlu Qara Yusif I.Bəyazidə qoşuldular. Əmir Teymur I.Bəyaziddən onları geri qaytarılmasını tələb etdi və sultan bunu qəbul etmədi. 1402-ci il Ankara savaşı Əmir Teymurun qalibiyyəti ilə başa çatsa da, türk dünyası üçün böyük bir məğlubiyyət və səhv idi. 1402-ci ildən sonra Əmir Teymur Osmanlı torpaqlarını Bəyazidin oğlanları arasında böldü. «Fetret dövrü» - (1402-1412) başladı və Mehmet Çelebi ilə sona yetdi. Ondan sonra hakimiyyətə 1423-cü ildə II Murad gəldi. Siyasi vəziyyətin çox qarışıq olduğu dövrdə Macar və Serb kralları ilə «Segeddin antlaşması» imzaladı. 1444-cü ildə onun yerinə oğlu II Mehmet 12 yaşında gəldi. 1444-cü ildə Varna savaşında Serb və Macarlar böyük məğlubiyyətə

uğradı və Bizansa yol açıldı. 1446-cı ildə əmirlərin təkidi ilə yenidən taxta dönən II Murat 1447-ci ildə II Kosova döyüşündə «Xaçlı» ordusunu məğlub elədi. 1451-cı ildə taxta çıxan II Mehmet Istanbulun fəthinə qərar verdi. Istanbulun fəthi bütün Qara dənizə, eləcə də Avropadan Asiyaya gedən ticarət yollarına sahib olmaq, Xristian dünyasının güc mərkəzini sarsırtmaq demək idi. 1453-cü il 29 mayda II Mehmetin ağlı və iradəsi nəticəsində Istanbul fəth edildi. Ipək və baharat – ədviyyat yolları türklərin əlinə keçdiyindən avropalılar yeni yollar tapmağa başladılar. Daha sonra coğrafi kəşflər başladı. 1459-cu ildə Serbiya, 1462-ci ildə Eflak knyazlığı, 1479-cu ildə Arnavutluq türklərə təslim oldu. 1465-ci il Yassıçəmən sülhü nəticəsində Trabzon imperatorluğu türk tarixinə qayıtmış oldu. 1479-cu il Malatya və 1473-cü il Otluqbeli savaşlarında Uzun Həsən məğlub edildi. 1480-ci ildə sultanın ölümündən sonra taxta sultan II Bəyazid çıxdı. Ancaq şahzadə Səlim babası II Bəyazitə qarşı səltənət mücadiləsinə girişərək qapıqulu əsgərlərinin dəstəyini qazandıqdan sonra padşah oldu. 1512-ci ildən etibarən Sultan Səlim Avropa dövlətləri ilə dostyanə siyasət yürütməyə başladı. Ancaq Azərbaycan, Iran və Iraqda güclənən Səfəvilər dövləti ilə münasibətlər kəskin halda idi. 1514-cü ildə Çaldıran döyüşündə qalib gələn Sultan Səlim Şərqi Anadolunu, Təbriz-Hələb, Təbriz-Bursa ipək yolunu ələ keçirdi. 1516-cı ildə Mərcidabek Sarayında Məmlüklər məğlub edilib, Misir ələ keçirildi. «Xəlifə» rütbəsi aldı. 1520-ci ildə onun ölümündən sonra taxta Süleyman çıxdı. 1521-ci ildə Belqrad türklərə təslim oldu. 1526-cı ildə böyük «Mohaç» savaşı oldu. Bütün Macarıstanda türk hakimiyyəti quruldu. Janos Zapolya hakim təyin olundu. 1533-cü il I Avstriya – Osmanlı müqaviləsi, 1562-ci ildə II

Avstuye – Osmanlı anlaşması imzalandı. 1536-cı ildə Osmanlı-Fransız ticarət anlaşması imzalandı. Bununla da, Osmanlı dövləti Avropa birliyini parçalayaraq Almaniya təhlükəsinə qarşı Fransanı öz tərəfinə çəkdi. 1534-cü ildə İran səfəri başladı – İbrahim paşanın başçılığı altında Təbriz ələ keçirildi. 1548-ci ildə Əlqas Mirzənin vasitəçiliyi ilə II Iran səfəri başladı. 1553-cü ildə başlanan III Iran səfəri 1555-ci il Amasya sülhi ilə sona çatdı. Təbriz, Şərqi Anadolu, İraq Osmanlılara keçdi. Qanuninin ilk dəniz səfəri Rodosdan başladı. Tarixdə məşhur olan «Preveze» dəniz döyüşü – (Barbaross, Hayrattin Paşa başçılıq edirdi). 1538-ci ildə türklərin dənizlərdə qazandığı ilk və son dəniz zəfəridir. Ağ dənizdə hakimiyyət türklərə keçdi. 1566-cı ildə atasının ölümündən sonra taxta II Səlim (1524-1574) çıxdı. Uğursuz və iradəsiz bir dövlət adamıydı. Don-Volqa kanalı açmaq təşəbbüsü ilə tarixdə yadda qaldı. 1571-ci ildə Kıbrız fəth edildi. II Səlim Tunisin fəthindən sonra 1574-cü ildə öldü. Yerinə oğlu III Murat gəldi. Onun dövründə başlanan Iran savaşları 1577-ci ildən 1589-cu ilə qədər sürdü. 1578-ci ildə Şimali Afrika ələ keçirildi və Tas hakimliyi quruldu. Daha sonra taxta oğlu III Mehmet çıxdı. Tarixdə «Haçova» savaşı adlanan döyüşdə Avstriyalılar və papanın birləşmiş qüvvələri türklər tərəfindən məğlub edildi. 1603-cü ildə Iran savaşları başladı. Şah Abbas anlaşmanı pozmuşdu. Daha sonra padşah öldu. Yerinə oğlu I Ahmed keçdi və bu dönəmdə osmanlılar Iran və Avstriya ilə savaş vəziyyətində idilər. Iranda I Şah Abbasın qoşunları əvvəlcə Qarsı, sonra Gəncə və Şirvanı ələ keçirdilər. Sinan Paşanı məğlub etdilər. Avstriya cəbhəsində zəfər qazana bilməyən türklər «Zilvatoron» anlaşması imzaladılar. (1606-cı ilə). Müqaviləyə görə Avstriya kralına da imperator deyiləcək və Osmanlı padışahı ilə eyni

səviyyədə olacaq, xərac azalacaqdır.

Ahmed Sultanın dövrü həm də güclü Cəlalilər üsyanı ilə də yadda qalmışdır. Tarixdə buna Koroğlu hərəkatı da deyilir. Kuyumcu Murat Paşanın şiddətli hərəkətləri nəticəsində qismən yatırıldı. Səfəvi-Iran müharibələri yenə də davam edirdi. Nəhayət, tarixə «Nasuh Paşa Antlaşması» olaraq keçən Osmanlı-Səfəvi Antlaşması 1611-ci ildə Istanbulda imzalandı. Lakin bu müvəqqəti bir addım idi. 1618-ci ildə I Mustafa xəstələndi. Onun yerinə taxta II Osman çıxdı. Bu dövrdə Osmanlı-İran münasibətləri 1619-cu il sülhü ilə (Səfəvilərin xeyrinə) yekunlaşdı. Polşa sərhədlərində kazakların Osmanlı ölkəsinə hücumları, xüsusilə də Qaradəniz bölgələrinə olan basqınları, düşmən voyevodaların Lehistandan himayə görmələri nəticəsində Osmanlı-Lehistan əlaqələri pozulmuşdu. Padşahın Lehistana səfəri uğursuzluqla başa çatdı. II Osman bu uğursuzluğun səbəbini yeniçəri ordusunun nizamsızlığında görürdü. Bu səbəbdən yeniçəri ocağını dağıtmaq istədi. Nəticədə üsyan qalxdı və öldürüldü. Hakimiyyətə ağıldan kasad olan I Mustafanı padşah seçdilər. O taxtdan endirildi və hakimiyyətə IV Murat gəldi. IV Murat ilk səfərini İran üzərinə hücumdan başladı. (1635). Buna tarixdə «Irəvan» səfəri deyilir. Bu səfər 1639-cu ildə «Qəsri-Şirin» sülhü ilə yekunlaşdı. Buna görə: Azərbaycan və Irəvan Iranda, Bağdad Osmanlılarda qaldı. Bu anlaşma Iran ilə 50 illik savaşa son verdi və bugünkü Türkiyə-İran sərhəddinin müəyyənləşməsində də həlledici olmuşdur. IV Murat dövrünün bir başqa önəmli hadisəsi Krım xanlığının qarışıq durumu və kazakların hücumları ilə xarakterizə olunur. IV Mehmet (1642-1693) (atası I Ibrahim çılğın davranışları üzündən taxtdan endirildi) hökmdar oldu. (1648). Bu dövrə «Köprülülər» dönəmi də

deyilir. Körpülü Mehmet Paşa Istanbuldakı asayişsizliyi ortadan qaldırdı, donanmanı gücləndirdi, Venedik donanmasını məğlub edərək Çanakkala və Limiuyi geri aldı. 1664-cü ildə Vasvarda (Bosforda) almanlarla «Barış anlaşması» imzalandı. 1669-cu ildə Kirit torpaqlarının fəthi reallaşdı. 1672-ci ildə Lehistanla «Busaş» anlaşması imzalandı. «Bucaş» anlaşmasyıla Lehlilərlə II Viyana hücumuna qədər sürəcək bir barış dövrü başladı. 1688-ci ildə II Viyana səfəri başladı. Avstriyanın otuz illik savaşlarına baş qoşması və Fransanın müttəfiqlik gücü türklərdə böyük ümidlər doğurmuşdu. Ancaq səfər uğursuzluqla nəticələndi. Osmanlılar əleyhinə Avropada bir «xaçlı» ittifaqının qurulmasına yol açıldı ki, buna tarixdə «Müqəddəs Ittifaq» adı verilmişdir. Müqəddəs İttifaqa Avstriya, Lehistan, Polşa, Rusiya, Venesiya və Malta dövlətləri qatıldı. (1684). 1687-ci ildə II Süleyman padşah oldu. Bu dövr davamlı sürətdə venediklilərin, avstriyalıların osmanlı torpaqlarına hücumları ilə xarakterizə olunur. Sədr-əzəm vəzifəsinə Köprülü Fazil Mustafa Paşa gətirildi. 1643-cü ilə qədər müharibə davam edirdi. Türklər Salankamen döyüşündə böyük zəfər qazandılar. Ancaq paşanın vaxtsız ölümü vəziyyəti xaçlıların xeyrinə dəyişdi. II Ahmetdən fərqli olaraq, II Mustafa (1664-1703) Qanuni kimi ordunun başında durmaq və zəfər qazanmaq niyyətinin əsas məqsədi olduğunu deyirdi. Avstriya üzərinə 3 səfər etdi. Digər tərəfdən Osmanlıların Avstriya və Venesiya ilə savaşmasını fürsət sayan Rusiya 1696-cı ildə Müqəddəs İttifaqa girdi. On altı il sürən Avstriya savaşları Osmanlı dövlətində iç üsyanlara və narazılıqlara səbəb olmuşdu. «Karlofça» anlaşması imzalandı. Qısa bir vaxtda Erdel, Podolya, Ukrayna, Mora, Ayamanza itirildi və Avropada türk hakimiyyətinə son qoyuldu. Bütün bunlara rəğmən Osmanlılar

ruslarla savaşmaq məcburiyyətində qaldılar. Rusiya həm də özünü Osmanlı ölkəsindəki bütün Ortodoksların qoruyucusu elan etmiş və ruslarla eyni məzhəbdən olan Boğdan, Eglan, Serbiya və Qaradağ xalqını Osmanlılara qarşı üsyana qaldırmışdı. Eləcə də rus əsgərləri, Isveç kralının Osmanlılara sığınması bəhanəsini gətirərək sərhədləri keçmişdilər. Sədr-əzəm Baltacı Mehmet Paşa oldu. Prut çay sahilində 2 ordu üz-üzə gəldi. Osmanlı ordusu qalib gəldi. 1711-ci ildə Prut sülh müqaviləsi imzalandı. Bu müqəddəs Ittifaqa dəyən ilk zərbə oldu. Beləliklə, Osmanlı-Venesiya savaşları başladı. Ancaq bu türklər üçün heç də uğurlu olmadı. Yeni sədr əzəm İbrahim paşa Venesiya və Avstriya dövlətləri ilə «Pasarofça» müqaviləsi – (1718-ci il) imzalandı. Müqaviləyə görə Mora yarımadası Osmanlılarda qaldı, Arnavutluk və Dalmasiya ərazisindəki bəzi qalalar Venesiyaya verildi, Tamyvar, Belqrad Avstriyaya qaytarıldı. Nevşehirli Damat Ibrahim paşanın Sədr əzəmliyə gətirilməsiylə II Əhmədin səltənətinin ikinci dönəmi başladı. Çünki Paşarofça anlaşmasından öncəki dövr savaşlarla keçmiş, Ibrahim paşa sadrəzəm olduqdan sonra mümkün olduqca müharibələrdən çəkinmiş, on iki il sürən dövr (1718-1730) zövq, əyləncə və hüzur içində keçmişdi. Tarixdə bu dövr «Lalə» dörü adlandırılır. Bu dönəmdə Sait Mehmet Əfəndi və Ibrahim Mütəggərrinə tərəfindən Istanbulda ilk Türk Mətbəəsi (1727) açıldı. III Əhmət Avstriya savaşından sonra bir daha torpaq itirmək istəmirdi. Odur ki, İranla Dağıstanda və Azərbaycanda 1723-cü ildə müharibəyə başladı. Bu arada rus işğalının da başlaması 1724-cü ildə Osmanlı-Rus müqaviləsinin imzalanmasına gətirib çıxardı. Müqaviləyə görə Dərbənd, Bakı və Dağıstan Rusiyaya, Kirmanşah, Həmədan, Rəvan və Şiraz osmanlılarda qaldı. Bütün bu

uğursuzluqlardan bezən xalq, yeniçərilər Tellak Patron Halilin başçılığı altında üsyana qalxdılar. (1730). Taxta I Mahmud çıxdı. Yenidən Osmanlı-İran savaşları başladı. 1737-ci ildə Kirmanşah sülh müqaviləsinə görə Təbriz, Ərdəlan, Kirmanşah, Həmədan, Hüveyzə və Luirətan Irana qaldı. 1732-ci ildə «Arpaçayı» müharibəsində məğlub olan osmanlılar bir daha müqavilə (Qəsri-Şirin) imzaladılar və osmanlılar Nadir şahın şahlığını qəbul etdilər.

Rusiya Lehistan Veraset savaşlarının müttəfiqi Avstriya ilə birlikdə öz xeyrinə həll etdi. Yenidən Osmanlı-rus və osmanlı-avstriya müharibələri başladı. 1739-cu ildə Belqrad müqaviləsinə görə Dunay və Sava hövzəsi ilk dövlət arasında sərhəd kimi qəbul edildi. Digər tərəfdən Rusiya ilə də müqavilə imzalandı, ruslar işğal etdikləri əraziləri geri qaytardılar. Beləliklə, Osmanlılar Belqrad müqavilələrinə görə öncəki savaşlarda əldən çıxardığı torpaqların bir qisminigeri aldı. 1740-cı ildə Fransa ilə yeni bir kapitulyasiya müqavilələri imzalandı. III Mustafa III Osmanın ölümündən sonra taxta çıxdı (1757). III Mustafa əsasən barışsız xarici siyasəti, idarəçilikdə, maliyyə və hərbi sahədə etdiyi bir çox islahatlarla yadda qalmışdır. Ancaq Osmanlı dövləti Rusiyaya qarşı nə qədər barış siyasəti yeritmək istəsə də, ruslar öz niyyətlərindən əl çəkmək fikrində deyildilər. Sultan Fransanın təhriki ilə 1768-ci ildə müharibəyə başladı. Ancaq türklər çox böyük məğlubiyyətə uğradılar. 1774-cü ildə I Əbdülhəmit hökmdar oldu. 1774-cü ildə Kiçik Qaynarca deyilən yerdə sülh müqaviləsi imzalandı. Buna görə Krım, Kuban, Bucan, Yenikale, Kerb, Azak, Kilburun və Kiçik Kabartay ruslara qaldı. Ruslar Istanbulda daimi elçi saxlayacaqdılar. Rus ticarət gəmilərinə sərbəst üzmək hüquqları verildi. Rus çarlığı Osmanlı himayəsindəki

ortodoksların qoruyucusu olacaqdı. Osmanlı dövləti Rusiyaya savaş təzminatı ödəyəcəkdi. 1779-cu ildə «Aynalıkavak Tenkihnaməsi» adıyla imzalandı. Müqaviləyə görə Krım tamamilə rus hakimiyyəti altına keçdi. 1784-cü ildə Krımda üsyanı yatıran general Potyomkin Krımı Rusiyaya qatıldığını rəsmən elan etdi. Rusiya Osmanlı dövlətini tamamilə parçalamaq üçün Avstriya ilə müttəfiq oldu, yeni müharibələrə başladı. 1787-1792-ci illərdə Osmanlı-Rus və Avstriya savaşları başladı. III Səlimin hakimiyyəti illərində Osmanlılar «yalnızçılıq» siyasətini buraxaraq müttəfiqlik dönəminə girdilər. Əvvəl Isveç (1789), sonra Rusiyaya qarşı ittifaq yaratdılar. Beləliklə, Osmanlılar artıq Avropa diplomatiyasına girdilər və özlərinin nə qədər zəiflədiklərini qəbul etdilər. Bunun diplomatiyanın, yəni Rusiyanın təhriki ilə Osmanlı-Avstriya müqaviləsi imzalandı – (Ziştovi-1793). Avtriya Orsovanın xaricindəki ələ keçirdiyi bütün torpaqları Osmanlı dövlətinə geri verdi. 1792-ci ildə Rusiya-Osmanlılar arasında Yassı sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Krım və onun xaricindəki bəzi ərazilər ruslara verildi. Iki dövlət arasında sərhədlər Balkanlarda Dnestr, Qafqazda isə Kuban çayı oldu. III Səlim 1792-ci ildən Napaleonun Misir səfərinə qədər "Nizami-Cədid" adı verilən islahatlarını hazırlamağa və genişləndirməyə başladı. Bu dövrdə həmçinin Böyük Fransa inqilabı da başlamış və qurulan yeni hökuməti Prussiyanın «Bazel» anlaşmasıyla (1795) tanıdı və qəbul etdi. Fransa «Campo Formio» müqaviləsi ilə Dalmasiyaya sahib olunca Osmanlılara qarşı siyasətini dəyişdirdi. Fransızlar Osmanlı dövlətini parçalamağa, müsəlman olmayan xalqı üsyana təhrik etməyə, hətta yuhidilərə Fələstində dövlət qurmağı belə təklif etməyə çağırırdı. 1798-ci ildə

Napaleon «Piramidalar» savaşında qələbə qazanıb, Qahirəyə girdi və Misirdə hakim oldu. Bu cəhətdən Osmanlılar ingilislərdən kömək istədi. Nəticədə, Abukir limanı yaxınlığındakı döyüşdə admiral Nelson fransızları məğlub etdi. Ağ dənizdə üstünlük ingilislərə keçdi. 1806-cı ildə osmanlı-rus savaşı yenidən başladı. Fransanın vasitəçiliyi ilə Slobozi atəşkəs müqaviləsi imzalandı. Bu dövrdə Aləmdar Mustafa Paşanın başçılığı ilə yeni bir üsyan başladı. III Selim öldürüldü. II Mahmet Alemdar Mustafa Paşanın padşah IV Mustafanı taxtdan endirməsi nəticəsində hökmdar oldu. O, Selimin islahatlarını davam etdirdi. Avropada siyasi vəziyyət gərgin idi. Fransa imperatoru N.Bonapart Rusiyaya qarşı hərbi əməliyyatlara başlamışdı. Bu səbəbdən Rus çarı Osmanlı dövləti ilə 1812-ci ildə Buxarest müqaviləsini imzaladı. Buna görə: Dunay çayı sərhəd olmalı idi. Bu müqavilədə serblərə daxili müstəqillik verildiyindən sonralar yeni problemlər yarandı. Daxili siyasətdə II Mahmud 1826-cı ildə Yeniçəri Ocağını ləğv etdi və «asakiri Mansurə-i Muhammadiyə» adı verilən yeni üsulda ordu yaratdı. 1827-ci ildə birləşmiş ingilis, fransız və rus qüvvələri Navarinə gəlmiş osmanlıları məğlubiyyətə uğratdılar. Navarin Olayı, türk tarixi üçün rüsvayçı bir məğlubiyyət idi. 1815-ci ildə Vyana konqresində Müqəddəs Ittifaq dağıldı. 1826-cı ildən başlayan osmanlı-rus savaşı 1829-cu il Ədirnə müqaviləsi ilə başa çatdı. 1830-cu ildə Mehmet Əli Paşanın başçılığı ilə yeni bir qiyam qalxdı. Bu səbəbdən Rusiyadan kömək istəyən Sultan 1833-cü ildə «Hünkar İskələsi» müqaviləsini imzaladı. Rusiyanın yardımı qarşılığında rusların düşməni olduğu dövlətlərə qarşı boğazı bağladı. 1839-cu ildə hakimiyyətə Əbdülməcid gəldi. Mustafa Rəşid paşanın təhrikiylə «Tanzimat» fərmanını elan etdi (3 noyabr 1839)

1849-cu ildə Londonda toplanan Avropa dövlətləri və Osmanlı dövləti də daxil olmaqla Boğazlar müqaviləsini imzaladılar. Osmanlı dövlətinin boğazlar üzərində hakimiyyəti və heç bir hərbi gəminin ordan keçməyəcəyi şərtini qəbul etdi. Fransa imperatoru elan edilən Lenis Napaleon (Lui Napaleon) iqtidarını gücləndirmək üçün katoliklərə kömək etmək yolunu seçdi. Bu məqsədlə Osmanlı dövlətindən katoliklər lehinə bəzi güzəştlər tələb etdi. Bunun üzündən Rus-Osmanlı müharibəsi yenidən qızışdı. Osmanlı ordusu Balkanlarda böyük müvəffəqiyyətlər qazandı. 1856-cı ildə Paris sülh müqaviləsi imzalandı. Buna görə: Osmanlı dövlətinin müstəqilliyi və ərazi bütövlüyü qəbul edilərək daxili işlərinə qarışması qadağan olundu. Serbiya, Eglak, Boğdan türk hakimiyyəti altında qaldı, hərbi gəmilərin boğazdan keçməsi qadağan olundu. Osmanlı Avropasından rus nüfuzu aşağı düşdü. Osmanlı dövləti ilk dəfə olaraq Avropa dövlətlərindən borc pul aldı. Sultan Əbdulməciddən sonra taxta Əbdüləziz çıxdı. (1869) Bolqarlar və balkanlarda yaşayan digər xalqlar «panislamizm» propaqandasından istifadə edirdilər. Bu səbəbi bəhanə gətirərək Avstriyanın baş vəkili Kont Andresy nota hazırladı; bütün xristianlara din və məzhəb azadlığı, vergilərin azaldılması və s. Əbdüləziz dövlət idarəçiliyndə uğurlu bir şəxs olmamışdır, hökmdarlığı dövründə Əli və Fuad paşalar, Midhət və Mahmud Nedim Paşa əsas rol oynamışlar. Daha sonra taxta V Murad çıxdı. Ancaq o, ruhi xəstə olduğundan Midhət paşa məşruhiyyəti elan edəcəyini söz verən II Əbdülhəmidi taxta çıxartdı. Balkan prooblemi Istanbulda toplanan konfransda görüşülüb müzakirə edildi. Avropalı dövlətlər Istanbul konfransında Osmanlı hökümətindən Serbiya və Qaradağa müxtariyyət verilməsini tələb etdilər. Sultan bunu qəbul

etmədi. Bu arada Sultan Kanuni fərman verıb Məşrutiyyəti elan etdi. (1876). Ilk Osmanlı Ayan Məclisi və Məbuslar Məclisi açıldı. Yenidən rus-osmanlı savaşı başladı. Nəhayət, Osmanlı ilə Rusiya arasında Ayastafanos müqaviəlsi imzalandı. (1878). Berlin konqresi Ayastafon anlaşmasının şərtlərini həll etmək üçün toplandı. (1878). Buna görə Bolqarıstan 3 yerə ayrıldı: Serbiyaya, Qaradağa müstəqillik verildi, ermənilərin yaşadığı yerlərdə islahatlar keçiriləcək və s. Həmçinin Kıbrız müvəqqəti olaraq Ingiltərəyə keçdi (Rusiya, Batum, Qars və Ərdahanın boşalması şərti ilə). 1881-ci ildə Bordo müqaviləsi ilə Tunis fransız işğalı altına keçdi. 1869-cu ildə Suveyş kanalının açılması Misirin önəmini daha da artırmışdı. 1885-ci ildə İngiltərə və Osmanlı dövləti arasında İstanbul müqaviləsi imzalandı. Buna görə hər iki dövlətin Misirdə yüksək səviyyədə komissarları olmalı idi. Berlin konqresinin əsas məsələlərindən biri də erməni məsələsi idi. Rusiya ermənilər vasitəsilə şərqə doğru irəliləmək istəyirdi. İngiltərə isə Şərqi Anadoluda himayəsində qurulacaq erməni dövlətilə rusların şərqə doğru irəliləməsinin qarşısını almaq istəyirdi. Bu dövrdə xarici borclar yüksək səviyyəyə çatmışdı. Bunları nizamlamaq məqsədilə, 1882-ci ildə Duyuni-Umumiyə idarəsi quruldu. Bütün bu problem ,təbii ki, ölkədə narazılıqlar yaratmaya bilməzdi. Gənc türklər hərəkatı başladı. Niyazi bəy və Ənvər paşa məşrutiyyəni elan etdilər. Ancaq 1909-cu ildə «31 Mart» olayı (hadisəsi) meydana gəldi. Üsyançı qüvvələr ölkədaxili qarşılıqdan istifadə edərək paytaxtı ələ keçirdilər. Ancaq Mustafa Kamal və Mahmud Şövkət paşa bunun qarşısını aldılar. Taxta V Mehmet Reşat gəldi. Bu güzəştlərdən istifadə edən Italiya (Trablusgarb) –Tripolini ələ keçirmək istədi. Şimali Afrikaya əsgər və donanma göndərdi. Ancaq

Ənvər paşa və Mustafa Kamal paşa xalqı təşkilatlandırdılar və könüllülər ordusu yaratdılar. Nəhayət ki, Osmanlı dövləti Italiya ilə Usi anlaşmasını imzaladılar – 1912. Buna görə Osmanlılar Tripoli və demək olar ki, Şimali Afrikadakı son torpaqlarını da itirdilər. Yunanıstan, Bolqarıstan və Serbiya II Meşruyətdən sonra Makedoniyanın öz aralarında bölmək istədilər. Bu cəhətdən Makedoniyada islahatlar aparılması bəhanəsilə müharibəyə başladılar. Təbii ki, Osmanlı dövləti uduzdu və Londonda Avropa dövlətlərinin vasitəçiliyi ilə konfrans toplandı. Konfrans Osmanlı dövlətinin bütün Rumelidən çəkilməsini istədi. Buna görə, Osmanlı Midye – Enes xəttinin qərbindəki torpaqları Balkan müttəfiqləri tərk edəcək, Arnavutun və Egey adalarının gələcəyini böyük dövlətlər müəyyənləşdirəcək, Səlanik, Güney Makedoniya, Kirit Yunanıstana veriləcək, Kavale, Dedeağac daxil olmaqla bütün Traniya Bolqarıstana veriləcək, Serbiya Orta və Şimali Makedoniyaya sahib olacaqdı. Bu imzalaşmadan sonra Balkan dövlətləri, Serbiya və Yunanıstan, Bolqarıstanın onlardan daha çox torpaq almasını iddia etdilər və Bolqarıstana savaş açdılar. Bundan istifadə edən Osmanlı dövləti müharibəyə girdi, Ədirnəni geri aldı. Yeni bir müqavilə imzalandı. Ədirnə, Kırklar eli və Dimetoka Osmanlılara, Kavale və Dededağac Bolqarıstana verildi. Iki dövlət arasında Meriç bölgəsi sərhəd oldu.

Balkan müharibələrindən Tələt, Camal və Ənvər paşanın dövlət idarəçiliyində nüfuzu artdı. Islamçılıq və Turançılıq ideyalarına sarılaraq ölkənin düşdüyü durumdan qurtarmaq istəyirdilər. Bunun üçün güclü bir dosta, müttəfiqə ehtiyac vardı. Bu dövlət də təbii ki, Almaniya idi. Çünki Fransa və Ingiltərə Rusiya ilə müttəfiq olduğundan Osmanlı dövlətinin də parçalanması da əsas hədəf idi. I Dünya müharibəsi başladığı zaman

1914-cü ildə Osmanlı dövləti uğursuz halda Balkan müharibələrindən çıxdığından bitərəf qalmaq istəyirdi. Ancaq Rusiyanın cənuba tərəf irəliləməsinə qarşı Almaniya ilə Rusiyaya qarşı müttəfiq oldu. Əgər Rusiya Almaniya və Avstriyaya qarşı müharibəyə girərsə, Osmanlı dövləti də Rusiyaya qarşı müharibəyə girəcəkdi. Əgər osmanlı dövləti Süveyş kanalına girərsə, onda Ingiltərənin müstəmləkələriylə əlaqəsi kəsiləcəkdi. O zamankı Iltihad və Tərəqqi partiyasının liderləri Ənvər paşa və Tələt paşa müharibədə qalib gələcəklərinə və ölkənin keçmiş beynəlxalq siyasi nüfuzunun geri qaytaracaqlarına əmin idilər. V Mehmet cihad elan edərək bütün müsəlmanları Ingiltərə, Fransa və Rusiyaya qarşı savaşa çağırdı. Ənvər paşa ruslara qarşı Sarıqamış əməliyyatına başladı. Bundan istifadə edən müttəfiqlər – (Rusiya, Ingiltərə, Fransa) bölgədəki erməniləri silahlandıraraq türk xalqının üzərinə qaldırdılar. Ermənilər böyük qətliam törətdilər. 1916-cı ildə məşhur Çanakkala savaşı – Mustafa Kamal paşanın rəhbərliyi oldu. Türklər burada böyük zəfər qazandılar. Nəticədə Rusiya ittifaqdan çıxdı. 1917-ci ildə Brest-litovsk müqaviləsi bağlandı: Qars, Ərdahan və Batum Osmanlılarda qaldı. Bununla belə, türklər həm Balkan, həm də ərəb cəbhəsində, həm də daxilində baş verən üsyanlarla çarpışmaq iqtidarında deyildi. Bu səbəbdən artıq müharibə müttəfiqlərin – Antantanın xeyrinə dəyişirdi. Buna görə də Osmanlı dövləti və Antanta qüvvələri arasında «Mondras» sülh müqaviləsi imzalandı. (1918 30 oktyabr). Müqaviləyə görə boğazlar açılacaq, türk ordusu tərxis ediləcək, müttəfiq dövlətləri təhlükəsizliklərinin şübhə altında olduğu istənilən yeri zəbt etmək hüququna sahib olacaqdılar. Bundan sonra fransızlar cənubi Anadolunu, yunanlılar Izmirdən başlayaraq bütün Anadolunun işğalına başladılar. Bu

zaman əsl azadlıq hərəkatına başçılıq edən Mustafa Kamal paşa 1920-cı ildə Böyük  Millət Məclisinin yığıncağını keçirtdi. Daha sonra Istiqlal müharibəsi başladı. Nəticədə Türkiyə Cumhuriyyətini qurdu. Lozanna sülh müqaviləsilə isə 1923-cü ildə yaratdığı yeni türk respublikasının sərhədləri və siyasi-hüquqi varlığı dünya dövlətləri tərəfindən tanındı. Beləliklə, Osmanlı dövləti siyasi və hüquqi cəhətdən öz dövrünü bitirmiş oldu.

## *§2 Ictimai-iqtisadi həyat*

Orta əsrlər dövrünün iqtisadiyyatı feodalizm münasibətləri üzərində qurulmuşdur. Aralıq dənizi hövzəsində olan ölkələr, xüsusilə də Venesiyalılar və Genuyalılar dəniz ticarətində irəliləmişdilər. Avropalı tacirlər o dövrün qiymətli malları hesab olunan ipək, xəz , bibər, ceviz, fil dişi kimi məhsulları çox baha qiymətə alırdılar. Şərqə tərəf istiqamətlənən Xaç yürüşləri də böyük məsrəfə başa gəlirdi. Osmanlı dövləti öncə Qara dənizi, sonra da Aralıq dənizinin bir türk gölü halına gətirmişdi. Elə bu səbəbdən də avropalı dövlətlər dünya tarixinin seyrini dəyişdirən böyük coğrafi kəşflərə başladı. Avropalıların dünya ilə bağlı bilgiləri elə də yüksək səviyyədə deyildi. Xristian inanclarına görə dünya düzdü. Ancaq həmin dövrdə müsəlman mədəniyyəti çox yüksək səviyyədə idi. Avropalılar dünyanın kürə-yuvarlaq halda olduğunu müsəlmanlardan öyrənirdilər. Ipək Yolu və Baharat Hindistan yolu osmanlıların əlində idi. Avropalılar Şərq ölkələrini bolluq  və zənginlik içində təsvir edirdilər. Bu cəhətdən Marko Polonun «Dünyanın harikaları» kitabı xüsusi diqqətəlayiq olmuşdur.

1498-ci ildə Vasqo do Qama Hindistana gedən dəniz yolunu kəşf

etdi. Portuqaliyalılar bu səbəbdən 1515-ci ildə Hörmüz adasını tutdular. Bu da Hindistan – Orta Şərq baharat ticarətinə böyük zərbə idi. Bir müddət sonra Osmanlı-Portuqaliya savaşları başladı.

Osmanlı dövləti əyalətlik, bəylərbəyliklər, sancaqlılar şəklində idarə olunurdu. XVI əsrin sonlarından etibarən başlayan durğunluq hər sahədə özünü göstərirdi. XVII əsrin əvvəllərində taxta çıxan sultanlar dövlət işlərini «sadr-azam»lara buraxaraq əyləncə içində keçirirdilər. III Mehmetdən sonra «sancağa çıxma» üsulu aradan qaldırıldı. Nəticədə şahzadələr isə dövlət idarəçiliyi sahəsindən uzaq düşdülər. Timar vergi sistemi pozuldu. Timarlı siyahı sayı azaldı. Maaşlı əsgər sayı artdı. Əsgərlər isə maaşlarını ala bilmədikdə üsyan edirdilər. Osmanlı dövlətini Qanuni dövründə olduğu kimi güclü bir vəziyyətə gətirmək üçün bir sıra islahatlar aparılmışdı. XVII yüzillikdə buna təşəbbüs edən ilk şəxs I Ahmet dövründə sadrazamlığa gətirilən Kuyuçu Murat Paşadır. Daha sonra II Osman Sultan olunca dövlətin pozulan əsgəri iadrəsizlik sahəsində islahatlar apardı. Yeniçəri ocağını qaldırmağa cəhd etdi və nəticədə qiyam qalxdı. IV Mehmet dönəmində sədrazamlığa gətirilən Tarhun Ahmet paşa maliyyə durumunu düzəltmək istədi. Saray xərclərini və dövlət məmurlarının maaşlarını azaltdı. Təbii ki, bu da bir sıra dövlət adamlarının xoşuna gəlmədi və öldürüldü.

Sultan III Səlim bir sıra yenilikçi islahatları ilə yadda qalmışdır. III Səlimin reform islahatlarının hamısına bütövlükdə "Nizami-Cədid" adı verilmişdir. O, güvəndiyi dövlət adamlarının bir qismini Avropaya göndərərək kadrlar hazırlatdırdı. Sultan Nizami-Cədid adıyla Avropa üsulunda yeni bir ordu və məsrəflərini ödəyə bilmək üçün «Iradi-Cədit» adlı bir xəzinə qurdu. Yeni donanma qurdu. Mühəndiəhani – Bəhri –

Humayin mənsəbləri genişləndirildi. Avropadan müəllimlər dəvət edildi. Üzərlik və kadılık sahəsində sərt tədbirlər görüldü. Pulun dəyəri qorundu və nəzarət edildi. Ilk dəfə olaraq Avropa ölkələrində daimi osmanlı elçilikləri fəaliyyət göstərməyə başladılar. Ancaq bütün bu islahatlar heç də hərkəs tərəfindən xoş qarşılanmadı. Kabakçı Mustafanın üsyanı qalxdı, sultan II Səlim taxtdan endirildi və öldürüldü. (1808-ci il). Ümumiyyətlə, siyasi sahədə görülən və ya baş verən hər hansı bir tədbir mütləq iqtisadi-sosial həyata da təsirsiz ötmürdü.

1789-cu il Fransa inqilabı Osmanlı fikir-düşüncəsində nə qədər sərt qarşılansa da, XIX yüzillikdə Tənzimat və Məşrutiyyənin elan edilməsində böyük rol oynamışdı. 1856-cı ildə Paris konqresi toplanmadan öncə Sultan Tənzimat fərmanını tamamlayan islahat fərmanını yayımladı. Buna görə: xristian vətəndaşlarının can və mal təhlükəsizliyi təmin ediləcək, xristianların din və təhsil azadlığı tanınacaq, bütün vətəndaşlar (vəzifəsindən, dinindən, milliyyətindən asılı olmayaraq) qanun qarşısınıda bərabər olacaqdır, müsəlman olmayanlar da məmurluq və əsgərlik xidmətinə alınacaq, vergilər bərabər və ədalətli surətdə alınacaq və iltizam üsulu aradan qaldırılacaqdır.

II Əbdülhəmid ondan əvvəlki sultanların yaratdığı maliyyə məsrəflərinin qarşısını almaq və xarici borcların düzənli bir şəkildə alınması, borc qarşılığı göstərilən gəlirləri nizamlamaq məqsədilə «Düyuni-Ümumiyə Idarəsi» yaradılmışdır. Ancaq bu belə Osmanlı dövlətini maliyyə sıxıntısından qurtara bilmədi. Əbdülhəmid dövründə yeniliklər Tənzimat Fərmanıyla başladı. (1839). Fərmana görə hərkəsin can, mal və namusunun qorunması, vergilərin düzənli və ədalətli toplanması, əsgəri-hərbi xidmət məsələlərinə yenidən baxıldı. Sultan

Əbdüləzizin dövründə tənzimat tərəfdarları tezliklə konstitutsiyanın (məşrufiyyət) elan edilməsini tələb edirdilər. Bu səbəbdən Midhət Paşa və onun tərəfdarları tərəfindən Əbdülaziz taxtdan endirildi. Yerinə II Əbdülhəmid sultan oldu. Taxta çıxan kimi ilk işi 1876-cı ildə konstitutsiyanı elan etmək oldu. Beləliklə, I Məşrutiyyət dövrü başladı. «Kanuni-Esasi» adı verilən ilk qanun layihəsi, heç də bütün problemləri həll edə bilmədi. Çünki bütün səlahiyyətlər tək sultanın əlində cəmləşdi. Iki məclis açıldı: Məclisi Məbusan və Məclisi Ayan. Məclisi Ayan padşah tərərəfindən seçildi. Hökumət məclis qarşısında sultanın qarşısında hesabat verməliydi. Məclisi açma və bağlama hüququ sultanın ixtiyarında idi. Sultan həmçinin hökuməti qura və ya buraxa bilərdi. Osmanlı-Rus müharibəsi dövründə siyasi məsələlərin kəskinləşməsi bəhanəsilə sultan məclisi bağladı. (1878-ci il). Bundan sonra ölkədə sözün əsl mənasında mütləqiyyətçi bir rejim quruldu. Almanların maliyyə köməyilə Bağdad və Hicaz dəmiryolları çəkildi. Qərbçiliklə yanaşı islamçılıq və türkçülük ideyaları genişləndi. (Xüsusilə də islamçılıq düşüncəsi). II Əbdülhəmid dövründə müasirliyi və dəyişikliklər etməyi dəstəkləyən «Ittihad və Tərəqqi» cəmiyyəti idi. Cəmiyyətin qurucuları Ibrahim Temo, Ishaq Sukuti və Abdullah Cevdet idi. Dövlət daxili münaqişələrin daha da getdikcə qarışdığını görən sultan II Əbdülhəmid «Kanuni-Esasi»yi yenidən qüvvədə elan etdi. Beləliklə, II Məşrutiyyət dövrü başladı. II Məşrutiyyət dövründə bəzi islahatlar keçirildi. Ordu yenidən quruldu. Təhsil sistemi dəyişdirildi. Avropa standartları gətirildi. Qadınların təhsil alması üçün «Tarixi-Osmani» əncüməni quruldu. Amma keçirilən bu islahatlar, yeniliklər belə Osmanlı dövlətini yuvarlandığı uçurumdan qurtara bilmədi. 1918-ci ildə Osmanlı

dövləti parçalandı. Beləliklə, II Məşrutiyyət dövrü sona çatdı.

### *§3 Elmi-mədəni həyat*

Osmanlı dövləti qurulandan bu günə kimi çox zəngin bir mədəni irs yolu keçmişdi. Bunun nümunələri müasir günümüzə qədər qorunub saxlanılmışdı. Xüsusilə də memarlıq sahəsi geniş inkişaf etmişdir. Ildırım Bəyazitin dövründə tikilən Bursada Ulu Cami, Yıldırım Cami, Dariçşəfa, Istanbulda Qanuninin tikdirdiyi «Süleyman Cami»sini misal göstərmək olar. XV-XVI əsrlərdə Osmanlı dövləti odlu silahlar, dənizçilik, elm sahəsində Avropadan xeyli öndə idilər. Bu dövrdə coğrafiya sahəsində böyük irəliləyişlər olmuşdu. Piri Rəis adlı dənizçi alim dövrünə görə çox mükəmməl bir xəritə hazırlamışdı. Onun «Kitabi-Bahriyə» əsəri çox məşhur bir nümunə idi. Osmanlılar bu dövrdə sənət və düşüncə sahəsində də irəliləyirdilər. Sənətdə Memar Sinan, düşüncə və elm sahəsində Füzuli və Bakı kimi şəxsiyyətlər var idi. 1616-cı ildə Sultan I Ahmet Ayasofiyanın qarşısında altı minarəli Sultan Ahmet camesini ucaltdırdı. Bu sənət əsərinin müəllifi memar Mehmet ağa dövrünün böyük dahilərindən idi. Nevşehirli Damat İbrahim paşanın şadrəzəmliyə gətirilməsilə (1718-1730) məşhur «Lale dövrü» başladı. Sait Mehmet ıə Ibrahim Mütəfəkkiri ilə 1727-ci ildə mətbəə açdılar. Bu mətbəədə ilk baxılan əsər «Vankuli» lüğətidir. Ibrahim paşa kitabların xarici dillərə çevrilməsi və oxunması üçün «Tərcümə heyəti» yaratdı. Yanğınları söndürmək üçün «Tulumbaşı ocağı» quruldu. Üsküdarda yeni hərbi – təhsil ocağı «Hendesehane» açıldı. Fransadan Baron dö Tot başda olmaqla bir qrup mühəndislər dəvət olundu. Istikham məktəbi Bahri-Humayun adlı dəniz məktəbi açıldı. XIX əsrdə islahatlar II Mahmudun

adıyla bağlıdır. Nazirlik üsulu ilk dəfə olaraq yaradıldı. "Takvimi Vekayi" adlı ilk türk rəsmi qəzeti dərc olundu. Hərb məktəbi və Tibb fakültəsi açıldı. Əbdülhəmidin dövründə isə ilk dəfə olaraq «Baksu Dərsədat» adıyla açıldı (1847-ci il). Ilköğretim- ilkin ibtidai təhsilin qurulması və bu təhsilin həm də müsəlman olmayanlara da aid edilməsi məsələləri həll edildi. Yeni modern ordu quruculuğu başladı. Amma bütün bu məsələlər Osmanlı dövlətinin problemlərini həll edə bilmədi.

"Gənc türklər" inqilabından sonra Türkiyədə maarif sahəsində xeyli irəliləyiş olmuşdu. Əsrin ilk ilində ölkədə 28615 ibtidai məktəb vardısa, 1910-cu ildə onların sayı 36230-a çatmışdı. 1900-cu ildə İstanbul universitetində yeni fakültələr təşkil edilmişdi. 1913-cü ildə ibtidai məktəblərdə tədrisin keyfiyyətini yüksəltmək üçün yeni qanun həyata keçirildi. Dünyəvi ibtidai və orta məktəblərdə dinin tədrisi hələ çox yer tuturdu.

1901-ci ildə Balıkəsir şəhərində kütləvi kitabxana açılmışdı. 1904-cü ildə Bursada yaradılan arxeoloji muzeyin şəkil qalereyası və kitabxanası mövcud idi.

Bu dövrdə Türkiyənin ədəbi mühitində xeyli dəyişikliklər olmuşdu. Demokratik maarifçiliyə əsaslanan görkəmli şair Tofiq Fikrət "Qədim tarix" poemasında cəmiyyətin inkişafında elmi bilik və idrakın mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmişdir. Aka Gündüz (1885-1958) ədəbi yaradıcılığında kəndli mövzusuna böyük əhəmiyyət verirdi. Türk satirasının görkəmli nümayəndəsi Ömər Seyfəddin (1884-1920) əsəsrlərində intriqaçılar, bədxah insanları tənqid edir. 1914-cü ildə İstanbulda yaradılan "Osmanlı incəsənət məbədi" teatr sənətinin inkişafına kömək etmişdi. 1914-cü ildə kino sənəti zabit Fuat Uzkinayın

çəkdiyi qısametrajlı sənədli filmin çəkilməsilə başlanır. Milli bədii kinomotoqrafiyanın əsasını jurnalist Sedat Simavi qoymuşdu. 1908-ci ildə Türkiyə rəssamlıq cəmiyyəti təşkil edilmişdi. XX əsrin əvvəllərində Türkiyədə ictimai və siyasi həyatda baş verən geriliklərə baxmayaraq, mədəni sahədə inkişaf öz axarı ilə gedirdi.

## NƏTICƏ

XIX əsrdə əsasən Rusiya imperiyasının tərkibində yaşayan türk xalqlarının ictimai-iqtisadi, siyasi-mədəni həyatında baş verən dəyişikliklər kapitalizmin inkişaf qaydalarına uyğun baş verirdi. Belə ki, Rusiyada kapitalizm çoxlu feodal qalıqları ilə çulğalamışdı və bu feodal qalıqları isə Rusiyada kapitalizmin geniş inkişafına mane olurdu.

Kapitalistlər istehsal sahələrindəki geriliyi aradan qaldırmaq, kəsrlərinin yerini doldurmaq üçün metropoliya daxilindəki qeyri-rus və türk xalqlarının istismarını gücləndirirdi. Bu işdə rus hakim dairələri də onlara köməkçi olurdular. Müstəmləkə əsarəti altında qalan türk xalqları üsyana qalxsalar da, lakin bu çıxışlar amansızlıqla yatırılırdı. Rusiyada təhkimçilik hüququ 1861-ci ildən ləğv olunsa da, lakin həmin islahat türklər yaşayan ərazilərə 10-20 ildən sonra gəlib çatdı. Türk xalqları yaşayan ərazilər – Krım, Volqaboyu, Sibir, Mərkəzi Asiya, Qafqaz- Rusiya istehsal sahələri üçün əsas xammal mənbəyi olaraq qalırdı. Bu regionlarda emal sənaye sahələrinin açılmasına, milli kapitalın yaranmasına mane olurdu. Rus çarizmi həmin ərazilərdə rus inzibati-idarə sistemini yaradır, ruslaşdırma siyasəti yeridərək xalqları öz milli köklərindən, maddi-mənəvi mədəniyyətlərindən ayırmağa çalışırdı. Rus

müstəmləkə siyasətində başlıca yeri-türk xalqlarının rus işğalına qədər mövcud olmuş dövlətçilik ənənələrindən aralamağa, hərbi qulluğa çağırmamaq (hakim təbəqə istisna olmaqla), zorla xristianlaşdırmaq, ağır-üzücü iqtisadi siyasət yeritməklə mütiləşdirmək siyasəti tuturdu. Əlbəttə, çarizmin bu siyasəti türk xalqları yaşayan regionlarda sosial-iqtisadi münasibətlərin kapitalistcəsinə inkişafını ləngitsədə, ümumi inkişafın qarşısını ala bilmədi.

Kapitalizmin inkişafı, həmin dövrün sənədlərindən məlum olur ki, türk xalqları yaşayan ərazilərdə daha intensiv getmişdi. Bu özünü Krımda, Uralda, Altayda, Mərkəzi Asiyada, Qafqazda daha aydın göstərirdi. Həmin regionlar zəngin təbii ehtiyatlara və çoxlu ucuz işçi qüvvəsinə malik idi. Xarici kapitalın daha çox maraq dairəsində idi. Bütün bunlar həmin ərazilərdə kapitalizmin inkişafı üçün əsas verirdi. Rusiya «xalqlar həbsxanası» adlanırdı. Fabrik-zavodlarda ağır iş rejimi, cərimələr, siyasi hüquqsuzluq fəhlələrin tez-tez iqtisadi və siyasi tətillərə çıxmasına səbəb olurdu. Rusiyada baş vermiş 1905-1907-ci illər burjua inqilabında türk fəhlələrinin çıxışları öz ardıcıllığı ilə seçilirdi. XX əsrin əvvəllərində milli burjuaziya və milli ziyalıların təşəbbüsü ilə siyasi partiya təşkilatlar yaradılır, ümumrusiya müsəlmanlarının qurultayları çağrılır, dumalarda, seçkilərdə fəallıq göstərilir, ümumilikdə demokratik hərəkat genişlənirdi.

Kiçik Asiya türklərinin də XIII-XX əsrin əvvəllərinə aid siyasi, sosial-iqtisadi və mədəni həyatı araşdırılaraq şərh edilmişdir. Şərh olunan uzun bir tarixi dövrdə Osmanlı dövlətinin türk xalqlarının tarixində oynadığı böyük roldan danışılmışdı. Dərs vəsaitində Osmanlı dövlətinin Avropa dövlətləri və xüsusilə də Rusiya ilə apardığı müharibələrin şərhi

verilmişdi. Əsasən XVIII-XIX və XX əsrin birinci rübündə aparılan müharibələrin Türkiyə üçün uğursuz olmasının səbəbi onun Avropa dövlətlərindən iqtisadi, siyasi və mədəni cəhətdən geriliyi ilə izah olunmuşdu. Lakin Türkiyə özündə bir qüvvə taparaq bütün bu gerilikləri aradan qaldırmaq üçün cəhdlər etmiş və öz milli varlığını qoruyub saxlaya bilmişdi.

## ƏDƏBIYYAT


1. История Узбекской ССР. Т.1. Ташкент, 1967
2. И.В.Погорельский. Очерки экономической и политической истории. Хвинского ханство конца ХЫХ-начала XX вв. (1873-1917 г.г). Ленинград. 1968.
3. История Хорезма. Ташкент, 1976
4. В.Д.Димитриев. Чувашия в эпохи феодализма. ХВЫ-ХЫХ вв. Чебоксари, 1986
5. В.Д.Димитриев.Чувашские исторические предания. Ч.2. Чебоксари. 1986
6. Очерки истории культуры до революционной Чувашии. Чебоксари, 1985
7. История Чувашской АССР. Чебоксари, 1966-1967
8. История Башкирской АССР. 3 изд. Уфа, 1968
9. Н.В.Устюгов. Башкирское Восстание 1737-1739 гг. М, 1950
10. А.П.Чулашиков. Восстание 1775 г. В. Башкирии. М. 1940
11. Г.И.Ричков. Топография Оренбургская. Ч. 2. С.П.Б. 1762
12. А.И.Добромыслов. Материалы по истории России. Оренбург, 1900

13. В.Н.Витевский. И.И.Неплюев. Оренбургский край в прејнем его составе до 1758 г. Т.2. Казан, 1897
14. О.И.Лебедов. Башкирское восстание 1705-1711 г.г. Исторические записки. 1937
15. История Сибири. Т.1.Л. 1968. стр. 350
16. Очерки истории Сибири. Выпуск. Иркутеки, 1971. стр. 273.
17. И.С.Кунялина. Внурренная политика царизма в первой половине ХЫХ (обзор) Вопросы истории 1968. №9. стр. 150.
18. Гагамейстер. Статистическое обозрение Сибири. 1969. стр. 370.
19. А.Н.Пыпин. История русской этнографии Т.ЫВ. Спб. 1892. стр. 170.
20. С.Г. Сватиков. Россия и Сибирь. Прага. 1929. стр. 279.
21. Берг Л.С. Байкал его при рода и значение в народном хозяйстве. М., 1948. стр. 234.
22. Народы и языке Сибири. Сб. статей. Новосибирск, 1980. стр. 290.
23. Народы Сибири. М-Л., 1965. стр. 375.
24. Потопов Л.П. Краткие очерки истории и этнографии Хакасов (ХВЫЫ-ХЫХ в.в.). Абакан, 1952, стр. 377.
25. История Туркменской ССР. т.I. Ашхабад, 1957, стр.495.
26. Веселовский Н.И. Очерк историко-географических сведений о Хивинском ханстве. СПБ. 1887, стр.426
27. История народов Узбекистана т.II, Ташкент, 1947, стр.114
28. Гиршфельд (и Галкин) Военно-статистическое описание Хивинского оазиса. Составлено Ген.штаба кап.

Гиршфельдом, переработано нач.Аму-Дарвинского отд. ген. майором Галкиным. Ташкент, ч.I, 1902; ч.II,1903, стр.202

29. Григорьев В.В. Заметки майора Бланкеннагеля о поездке из Оренбирга в Хиву. СПБ. 1858, стр. 104
30. Абаза К.К. Завоевание Туркменистана. СПБ.1902, стр.311
31. Положение об управление Туркменское края. Ташкент, 1903, стр.113
32. Тарентьев М.А. Статистические очерки среднеазиатской России (с приложениями), Зап. Рус. георг. о-ва по отделу статистики, т.4.,1874, стр.129
33. Материалы для истории Хивинского похода 1873 года, Ташкент, 1879, стр. 109.
34. Курапаткин А.Н. Завоевание Туркмении (Поход в Ахал-Теке в 1880-1881 г. ) С очерком военных действий в Средней Азии с 1830 по 1876 г., СПБ, 1899, стр.224
35. Д.J. Давестов, А. Илясов. Присоединение Туркмении к России. Ашхабад, 1972, стр.76
36. Абдураимов М.А. Очерки аграрных отнощений в Бухарском ханстве. Т.И.Ташкент, 1966; Т.Н.Ташкент, 1970
37. Адйе J.M. Руссиа ин Сентрал Асиа. Эилралтар, 1885
38. Азербайджанско-казахские литературные связи. Баку, 1990
39. Айтмамбетов Д.О. Культура киргизского народа во второй половине ХЫХ и начале ХХ века. Фрунзе, 1967
40. Актуальные проблемы теории и истории культуры.

Ташкент, 1980

41. Алтай в эпоху капитализма. Учебное пособие. Барнаул, 1986

42. Аминов А.М., Бабаходжаев А.Х. Экономические последствия присоединения Средней Азии к России. Ташкент, 1966

43. Аннанепесов М. Участие солдатских масс в революции 1905-1907 годов в Туркменистане. Ашхабад, 1966

44. Аполлова Н.Г. Присоединение Казахстана в России в 30-годах ХВЫЫ века. Алма-Ата, 1948

45. Ахмеджанов З.Г. К истории строительства железных дорог в Средней Азии (1880-1917 гг). Ташкент, 1965

46. Ahmet Caferoğlu. Türk Kavimleri. Ankara, 1983

47. Байсембиев К. Из истории общественной мысли Казахстана второй половине ХЫХ века. Алма-Ата, 1957

48. Бекмаханов Е.Б. Очерки истории Казахыстана ХЫХ в. Алма-Ата, 1966

49. Бекмаханов Е.Б. Присоединение Казахыстана к России. М., 1957

50. Бекмаханова Н.Е. Многонациональное население Казахыстана и Киргизии в эпоху капитализма (60-е годы XIX века – 1917 г). М., 1986.

51. Boulger D. Central Asian Questions. London, 1885

52. Валиханов Ч.Ч. Собрание сочинений в 5-ти томах. Алма-Ата, 1961-1968

53. Vamberi A. Central Asia and Anglo-Russian Question. London,

1874

54. Взаимодействие кочевых культур и древних цивилизаций. Алма-Ата, 1989
55. Возникновение и деятельность социал-демократических организаций в Туркестане. Летопись событий. Ч.И. (1903-февраль 1917 г) Ташкент, 1971
56. Вопросы истории Казахыстана ХЫХ – начала ХХ вв. Алма-Ата, 1961
57. Вопросы истории Чувашии ХЫХ – начала ХХ вв. Чебоксары, 1966
58. Восстание 1916 года в Киргизстане. Документы и материалы. М., 1937
59. Губенко Г.И. Революционное движение в Таврической губернии в 1905-1907 гг. Симферeполь, 1955
60. Давлетов Дж. Туркменский аул в конце XIX – начале XX века. Ашхабад, 1977
61. Джамгерчинов Б.Д. Очерк политической истории Киргизии ХЫХ в. (первая половина). Фрунзе, 1966
62. Едип Йавуз. Тащир бойунъа Тцрк Кавимлери. Анкара, 1968
63. Зиманов С.З. Общественный строй казахов первой половине ХЫХ в.в. Алма-Ата, 1969
64. Зиманов С.З. Политический строй Казахыстана в конце ХВЫЫ и первой половины ХЫХ вв. Алма-Ата, 1960
65. Зияев Х.З. Урта Осиева Сибир (ХВЫ-ХЫХ ясрляр). Ташкент, 1962 (юзбяк дилиндя)

66. Искандаров Б.И. Восточная Бухара и Памир в период присоединения Средней Азии к России. М., 1960
67. Искандаров Б.И. Из истории Бухарского эмирата. М., 1958
68. Ismet Parmaksızoğlu. Tarih Boyunca Kürt türkleri ve Türkmenler. Ankara, 1983
69. История Алтая. Учебное пособие. Ч.И.Барнаул, 1983
70. Из истории феодализма и капитализма в Башкирии. Сбор.стат.Уфа, 1971
71. История Казахской ССР. Т.И.Алма-Ата, 1952
72. История Казахской ССР с древнейших времен до наших дней. Т.2. Алма-Ата, 1979
73. История Киргизии. Т.И.Фрунзе, 1963
74. История Киргизской ССР с древнейших времен до наших дней. Т.2. Фрунзе, 1986
75. Исторические места и памятники Крыма. Симферeполь, 1960
76. История Татарской АССР сдревнейших времен до наших дней.казань, 1968
77. История Татарской АССР с древнейших времен до наших дней. Казань, 1986
78. История Туркменской ССР. Т.1., кН.2. Ашхабад, 1957
79. История Узбекистан в источниках. Узбекистан в сообщениях путешественников и ученых (20-80-х годов ХЫХ в.). Ташкент, 1990
80. История Узбекской ССР. Т.,Ы. кн.2. Ташкент, 1956
81. История Чувашской АССР с древнейших времен до

ВОСР.Т.1. Чебоксары, 1966
82. История Якутской АССР. Т.2.М., 1957
83. Кары-Ниязов Т.Н. Избранные труды в 8-ми томах, Т.5-6.ташкент, 1967
84. Кары-Ниязов Т.Н. О культурном наследие узбекского народа.Ташкент, 1960
85. Кары-Ниязов Т.Н. Очерки истории культуры советского Узбекистана. М., 1955
86. Касымбаев J.Г. Города восточного Казахстана в 1861-1917гг. Алма-Ата, 1990
87. Крым многонациональный. Симференполь, 1988
88. Крым  прошлом и настоящем. М., 1988
89. Крым револиционный. Симференполь. 1968
90. Кузембаев Щ.К. О культуре в быту населения аула и села. Алма-Ата, 1957
91. Максименко М.М. Крестьянское движение в Таврической губернии накануне и после отмены крепостного права. Симферeполь, 1957
92. Маликов Ф. Февральская бурjуазно-демократическая революция в Казахстане. Алма-Ата, 1972
93. Mehdiyeva N.C. Türk xalqlarının tarixinə dair materiallar. B., 1994
94. Mehdiyeva N.C. Türküstanda maarif (XIX-XX əsrin əvvəllərində). Türk və Qafqaz xalqlarının bəzi məsələləri (məqalələr toplusu). B., 1997
95. Mehdiyeva N.C. Çar Rusiyasının Türküstanda maarif

siyasətində ruslaşdırma xətti (XIX-XX əsrin əvvəllərində).- Azərbaycan Elmlər Akademiyası, «Təfəkkür» Universiteti, Azərbaycan Iqtisadçılar Ittifaqı. –«Azərbaycan XXI əsrin astanasında» ikinci respublika elmi praktiki konfransının materialları. B.,1988
96. Mehdiyeva N.C. XIX əsrin birinci yarısında Orta Asiya Qazaxıstanın fəthi uğrunda Ingiltərə ilə Rusiya arasında mübarizə. – Elm və Təhsil Mərkəzi «Təfəkkür» Universitetinin Elmi əsərləri. IV buraxılış. B., 1998
97. Mehdiyeva N.C. XX əsrin əvvəllərində Türküstanda elmin inkişafı. – Elm və Təhsil Mərkəzi «Təfəkkür» Universitetinin Elmi əsərləri. V buraxılış. Bakı, 1999
98. Mehdiyeva N.C. Stolipinin aqrar islahatı Türküstanda. –Elm və Təhsil mərkəzi «Təfəkkür» Universitetinin Elmi əsərləri. V buraxılış. B., 1999.
99. Mehdiyeva N.C. XIX əsrin birinci yarısında Volqaboyu bölgəsində elmin nailiyyətləri. – Bakı Dövlət Universiteti – 80 illiyi. Elmi konfransın materialları. B., BDU,1999
100. Mehdiyeva N.C. Mərkəzi Asiya və Qazaxıstan xalqları XVII-XVIII əsrlərdə. Volqaboyu, Ural və Sibir xalqları XVII-XVIII əsrlərdə. – Abituriyent. Tarix №2, B., 2000 (şərikli)
101. Mehdiyeva N.C. Rusiya tərkibindəki türk xalqları fevral inqilabından sonra-Azərbaycan tarixinin çağdaş problemləri. Prof. S.Əliyarlının 70 illik yubileyinə həsr olunmuş məcmuə. B., Xəzər Universiteti, 2000
102. Mehdiyeva N.C. Türküstan fevral inqilabından sonra – Birinci

beynəlxalq Türkoloji qurultayın 75-ci ildönümünə həsr olunmuş elmi konfransın materialları (6-7 mart 2001-ci il). Azərbaycan Dövlət Pedaqoji Universitetinin 80 illiyinə həsr olunur. B.,2001
103. Мошкова И.М. Ковры народов Средней Азии конца XЫX-начала XX в. Ташкент, 1970
104. Муминов И.М. Из истории общественно-философской мысли в Узбекистане в конце XЫX-аначале XX вв. Ташкент, 1955
105. Падинский П.Н. Очерки по истории Крыма. Симференполь. 1951
106. Нусулбеков А.Н. Вопросы истории Казахстана. Алма-Ата, 1989
107. Очерки истории Башкирской АССР. Т.1. Ч.2. Уфа, 1959
108. Потанов Л.П. Очерки по истории алтайцев. М.-Л., 1953
109. Рабочее и аграрное двиэение в Казахстане в 1905-1907 гг. Сб.док.Алма-Ата, 1972
110. Развитие культуры Татарии в дооктябртский период. Кзань, 1988.
111. Раимов Р.М. 1905 г. В Башкирии. М.-Л.,1941
112. Революционные события на Алтае в 1905-1907 гг. Сб.док.Барнаул, 1967
113. Революция 1905-1907 гг в Средней Азии и Казахстане. Ташкент, 1985.
114. Савийкий А.П. Поземельный вопрос в Туркестане. Ташкент, 1963
115. Садыхов Х.Д. Политико-административное устройство

Туркестанского генерал-губернаторства (1867-1917 гг.) Ташкент, 1973

116. Сапаргалиев Г.С. Карательная политика царизма в Казахстане (1905-1907 гг.) Алма-Ата, 1966

117. Скрине Ф.Н. Росс. Е.Д. Тще щеарт оф Асиа: А.Щисторй оф Руссиан Туркестан анд тще Ъентрал Асиан Кщанатес фром тще Еарлиест Тимес. Лондон: Метщуен, 1899

118. Сулейманов Б.С. Аграрный вопрос в Казахстане последней трети XЫX – начала XX вв. (1867-1907 гг.) Алма-Ата, 1963

119. Сулейманов Б.С. Восстание 1916 года в Казахстане. Алма-Ата. 1977

120. Сулейманов Б.С. Казахстан в составе России в XВЫЫ-начале XX вв. Алма-Ата, 1981

121. Сыдыков О. Мухтаси тарихи Кыргызия. Уфа, 1913 (гырьыз дилиндя)

122. Токарев С.А. Очерк истории Якутского народа. М., 1940

123. Толыбеков С.Е. Общественно-экономический строй казахов в XВЫЫ-XЫX веках. Алма-Ата, 1959

124. Турсунбаев А.Б. Из истории крестьянского переселения в Казахстане. Алма-Ата, 1950

125. Türk Devletleri. Tarihi (Etnolojik bir deneme). Azerbaycan kültür derneği yayınları. № 21.

126. Türkmen ədəbiyyatının tarixi. II tom. Aşqabat, 1975 (türkmən dilində).

127. Türkmən ədəbiyyatının tarixi. III tom. Aşqabat, 1977 (türkmən dilində)
128. Усунбайев А.Н. Присоединение Башкирии к русскому народу. Уфа, 1968
129. Фасеев К.Ф. Из истории Татарской передовой общественной мысли. Казань, 1955
130. Хакимов З.А. Культура Узбекистана. Традиции и современность. Ташкент, 1986
131. Халфин Н.А. Политика России в Средней Азии (1857-1868). М., 1960
132. Халфин Н.А. Присоединение Средней Азии к России (60-90-е годы ХЫХ в.) М., 1974
133. Халфин Н.А. Россия и ханства Средней Азии (первая половина ХЫХ в.) М., 1974
134. Хасанов Х.Х. Революции 1905-1907 гг. в Татарии. М., 1965
135. Xəlilov P. SSRI xalqları ədəbiyyatı. 2-ci kitab. B.,1966
136. Xəlilov P. SSRI xalqları ədəbiyyatı. I hissə. B., 1975
137. Xəlilov P.SSRI xalqları ədəbiyyatı. II hissə. B., 1977
138. Хозяйство и культура башкир в ХЫХ-начале ХХ вв. М.,1979
139. Шаниязов К.Ш. К этнической истории узбекского народа ХЫХ-начала ХХ вв. Ташкент, 1974
140. Якунин А.Ф. Народы Средней Азии и Казахстана во второй половине ХЫХ века. Присоединение Средней Азии к России. М., 1957